HACI NƏRİMANOĞLU

# QAÇAQ NƏBİ

## TARİXDƏ, ELMİ, YAZILI VƏ ŞİFAHİ ƏDƏBİYYATDA, İNCƏSƏNƏTDƏ

*Kitab AMEA Folklor İnstitutu Elmi Şurasının 31 may 2021-ci il tarixli qərarı ilə (pr. №4) nəşr olunur.*

**Bakı**
**MÜTƏRCİM**
**2021**

**Elmi redaktor:**

**Muxtar İmanov**
*akademik, AMEA Folklor İnstitutunun direktoru*

**Rəyçi:**

**Cəbi Bəhramov**
*professor, AMEA Tarix İnstitutunun icraçı direktoru*

**Məsləhətçilər:**

**Əliağa Cəfərov**
*professor, "Akademkitab"ın direktoru*

**Dostəli Abdullayev**
*yazıçı-jurnalist*

**Hacı Nərimanoğlu. Qaçaq Nəbi tarixdə, elmi, yazılı və şifahi ədəbiyyatda, incəsənətdə.**
– Bakı: Mütərcim, 2021. – 208 səh.

ISBN: 978-9952-28-561-1

© H.Nərimanoğlu, 2021

 

*Dünyada mənə elə bir igid göstərin ki, iyirmi bir il el-obasından didərgin düşüb, öz ömür-gün yoldaşı ilə qaranlıq mağaralarda, qalın meşələrdə, qarlı dağlarda məskən salmış olsun.*

*Dünyada mənə elə bir cəngavər göstərin ki, at belində yaşa dolub, at belində vuruşsun; at belində qocalıb, at belində həlak olsun.*

*Belə bir xalq qəhrəmanına və onun özündən qoçaq can yoldaşına bəstələnən el nəğmələri bir vaxt anamın laylasına qarışıb mənim də beşiyimə axmışdır. İndi bu nəğmələri mən öz səsimlə oxumaq istəyirəm. Bilmirəm məni axıracan dinləməyə səbriniz çatacaqmı?*

***Cəlal Bərgüşad, "Bozatın belində"***
***romanında epiqraf***

# KİTABIN BAŞLIQ DÜZÜMÜ


MÜƏLLİFDƏN ........................................................................ 6

Qaçaq kimlərə deyilir? ........................................................ 8

Qaçaq Nəbinin həyatı, mübarizəsi tarixi mənbələrdə ..................... 11

Nəbinin fiziki görkəmi, əxlaqı ............................................. 16

Qaçağı el saxlar ................................................................. 20

Nəbinin həbsdən iki qaçışı ................................................... 26

Qaçaq Nəbi mübarizəsinin əsas hədəfi işğalçı rus çarizmi idi ....... 28

3 rus və 1 fars generalı Nəbiyə qarşı birləşir .............................. 33

Peterburqdan xəfiyyə generalı gəlir ........................................ 39

Qaçaq Nəbi xəyanətkar ermənilərin qənimi idi .......................... 40

Mehdini ermənilərin öldürməsi, Nəbinin intiqamı ........................ 44

Novruz bayramında sui-qəsd .................................................. 48

Nəbinin İranda xəyanətlə gətli ............................................. 53

Qaçaq dostluğu: Nəbi ilə Həcərin igid silahdaşı Telli Qara ........... 58

Qaçaq Həcərdən xeyir-dua alan Qaçaq Tavat .............................. 64

Həcəri özündən ay qoçaq Nəbi ................................................ 66

Qaçaq Nəbi elmi tədqiqatlarda ................................................ 73

Qaçaq Nəbi kinoda, musiqidə, heykəltaraşlıq və rəssamlıqda ......... 91

Qaçaq Nəbi və qoçaq Həcər Türkiyə mənbələrində ....................... 107

"Qaçaq Nəbinin Türkiyə variantı ............................................. 114

Qaçaq Nəbi Güney Azərbaycanda ............................................ 116

Bəhlul Behcət və onun "Qaşaq Nəbi" əsəri ................................ 120

Yaddaş. Həcər xanımla bağlı bir yazımın tarixçəsi ....................... 130

Nəbi-Həcərin kəndi, ailəsi, soykökü, törəmələri ......................... 135

Həcər xanım kötücəsi Həcər ................................................... 147

Qaçaq Nəbi, Qaçaq Həcər obrazı nəsrimizdə:
Süleyman Rəhimov. "Pəri çınqılı" hekayəsi .................................. 156
Əli Vəliyev, "Atlı qadın" hekayəsi..................................................166
Cəlal Bərgüşad. "Bozatın belində" romanı .....................................170
Əşir Bəşiroğlu. "Qoşa qartal" romanı.............................................173
Çingiz Salmanov. "Qaçaq Nəbi Xələcdə" .......................................178
Əhliman Axundov. "Qaçaq Nəbi" dastanı .....................................179
Qaçaq Nəbi – Həcər obrazı şeirimizdə.
Məhəmmədhüseyn Şəhriyar. "Qaçaq Nəbi" ..................................180
Qasım Qasımzadə şeirlərində Qaçaq Nəbi-Həcər obrazı .............182
Süleyman Rustəm. "Qaçaq Nəbi" mənzum dramı.........................185
Məmməd Rahim. "Qaçaq Nəbi" poemasından "Epiloq" .............187
Bəxtiyar Vahabzadə. "Sən kimsən?! "..............................................188
Eldar Baxış. "Nəbinin nağılı" poemasından parça .........................189
Asif Talıboğlu. "O hansı igiddir, ləqəbi Qaçaq" ........................... 190
Əli-Ağa Aslan. "Götürməz"...............................................................191
Şirin Məmmədli. "Qaçaq Nəbi" (poemadan parça)........................192
Hacı Nərimanoğlu. "Qubadlıda qalıbdı"..........................................193
Qaçaq Nəbi və Qoçaq Həcərə həsr edilmiş qoşmalardan ............197
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT.............................................203

# MÜƏLLİFDƏN

Kitab Azərbaycan xalqının milli azadlıq hərəkatı və qəhrəmanlıq tarixində xüsusi yeri olan, 25 ildən çox rus çarizminin işğalçılıq siyasətinə, bu imperiyanın əlaltısı olan nankor, xəyanətkar erməni hampalarına, sapı özümüzdən olan zalım xan, zülmkar bəylərə qarşı silahlı partizan mübarizəsinin başında duran Qaçaq Nəbiyə və ən yaxın silahdaşı, ömür-gün, əqidə yoldaşı qaçaq, qoçaq Həcər xanıma həsr olunub. Onlar həyatlarını xalqının azad yaşamasına həsr ediblər, zülmə boyun əyməyiblər. Xalq da Qaçaq Nəbiyə, Qaçaq Həcərə Quzey və Güney Azərbaycanda, Anadolu ellərində illərlə arxa, dayaq olub, bütün təhlükə, təzyiqlərə baxmayaraq, özlərini, ailəsini, qaçaq dəstəsinə qoşulanları düşmən əlinə keçməkdən qoruyub saxlayıb, şəninə dastanlar, nəğmələr, mahnılar qoşub, sənətkarlarımız onların igidliyinə bədii film, roman, povest, hekayə, şeirlər həsr edib, abidə ucaldıb, tariximizin bu şanlı qəhrəmanlarının adını sevə-sevə yaşadıb.

Sənədlərə, arxiv materiallarına, tədqiqatçı alimlərin əsərlərinə də istinadla elmi-publisistik üslubda yazılmış kitabı ərsəyə gətirməkdə əsas məqsədimiz Qaçaq Nəbi mübarizəsinin həqiqi mahiyyətini, əsas qayəsini, gerçək tarixi xronikasını oxuculara çatdırmaqdır. Kitabda bu mübarizənin xalq yaddaşında, incəsənətimizin müxtəlif növlərində, folklorumuzda, ədəbiyyatımızda bədii inikasını əks etdirən nümunələrə də yer ayrılıb, bu parlaq qəhrəmanlıq tarixinin gerçək mənzərəsi təqdim edilib.

2020-ci il sentyabrın 27-də başlanıb 44 gün davam edən Vətən müharibəsində Qaçaq Nəbinin və Qaçaq Həcərin dünyaya göz açdığı Zəngəzur elimizin bir parçası olan Qubadlı torpağı 25 oktyabr 2020-ci ildə işğal, girovluqdan qurtulub. Müzəffər Azərbaycan ordusu bu savaşda ölkəmizin 20 faiz torpaqlarını 28 illik əsirlikdən azad etməklə bərabər, qanlı döyüşlərdə qazandığı qələbə ilə xalqımızın mənliyinin, heysiyyətinin tapdanmasına da son qoyub, milli şərəf və qürurunu da özünə qaytarıb, ucaldıb, sübut edib ki,

Nəbilər, Həcərlər yetirən torpaq yağı tapdağında əbədi qala bilməz. Qaçaq Nəbinin, qoçaq Həcərin düşmənə boyun əyməyən misilsiz qəhrəmanlıqlarla dolu fədakar mübarizəsi də bu müqəddəs savaşda əsgər və zabitlərimizə mənəvi dayaq, örnək, nümunə olub. Onların çox sayda həmyerlisi, qan qohumları da dədə-baba torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərin önündə mərdlik, cəsarət, şücaət nümunəsi göstərib, bir çoxu şəhid və qazi olub, dövlətimizin ən yüksək təltiflərinə layiq görülüb.

2021-ci ildə sevilən xalq qəhrəmanlarımız Qaçaq Nəbinin anadan olmasının 170 ili, xəyanətlə qətlə yetirilməsinin 125 ili, Həcər xanımın anadan olmasının 167, vəfatının 102-ci ili tamam olur. Həm də Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 30-cu ili, 2-ci Qarabağ – Vətən müharibəsində Zəfərin 1-ci ilidir.

Bu kitabı Qaçaq Nəbi, Qaçaq Həcərin timsalında xalqımızın azadlığı, müstəqilliyi, torpaqlarımızın bütövlüyü uğrunda yadellilərə qarşı savaşlarda canlarını fəda etmiş igid vətən övladlarının müqəddəs ruhuna, əbədiyaşar xatirəsinə həsr edirəm.

# QAÇAQ KİMLƏRƏ DEYİLİR?

Tarixdən məlumdur ki, qaçaqçılıq xalqın istismarçı zümrəyə, işğalçılara, yadellilərin müstəmləkə siyasətinə qarşı mübarizə forması olub. Hökumətin təqiblərindən qaçıb dağlarda, meşələrdə, kaha, mağaralarda gizlənən və yerlərdə hökumət məmurlarına, istismarçı zümrələrə qarşı mübarizə apardığına görə ev-eşiyindən, yurd-yuvasından ayrı düşməyə məcbur olmuş adamları xalq "qaçaq" adlandırırdı. Təbii ki, sözün-ismin kökü "qaçmaq" feilindəndir. Ancaq, təbii ki, "qaçaq"a igid, cəsur, rəşid, mübariz, qoçaq kimi sözlərin mənası, mahiyyəti də hopub.

Qaçaqlıq həm də fərdi, yaxud ictimai qisasçılıq, intiqamçılıqdır.

Əzilən çoxluğun haqqını müdafiə edən qaçaqları xalq sevib qorumuş, onların haqqında nəğmələr qoşub mərasimlərdə oxumuş, rəvayətlər söyləmiş, əhvalatlar demiş, dastanlar qoşmuş, vəsf etmiş, folklor, ədəbi qəhrəman səviyyəsinə qaldırıb adlarını nəsildən nəslə ötürüb yaşatmış, görmək istədikləri keyfiyyətləri onların üzərinə, adına köçürmüşlər.

Qaçaqçılıq həm də tarixən milli-azadlıq hərəkatının, partizanlığın özünəməxsus forması olub. Hər ölkədə, hər dövrdə qaçaqçılığın forma və məzmununda da fərqlilik, özünəməxsus xüsusiyyətləri olub, müxtəlif cür adlanıb; Türkiyədə əşkiya, Rusiyada pazboynik, beqleç, İngiltərədə və Fransada bandit deyilsə də, onların həyat, fəaliyyətləri mübarizələrində ümumi cəhətlər daha çox olmuşdur.



Ancaq müxtəlif quldur, qatı cinayətkarlar da layiq olduqları cəzadan qaçıb gizlənmək üçün özlərini bəzən "qaçaq" adlandırır, xalqı incidir, soyub talayır, sərgərdan həyat keçirib ağır cinayətlər törədirdilər. Belələri bəzən də məkirli hiylə ilə, istismarçı zümrənin təhriki ilə el-obanın sevgisini

qazanmış qaçaqların adından istifadə edir, onları gözdən salmağa çalışırdılar. Anadolu, Azərbaycan və ərəb ölkələrində qaçaqçılıq edən yol kəsən, karvanlardan bac alan həramilər də vardı. Həramilər haqqında “Min bir gecə” nağılları içində “Əli Baba və qırx harami” nağılı vardır ki, burada hərami sözü “Dastani-Əhməd hərami”-də olduğu kimi mənfi mənada işlənmişdir. Qaçaqçılıq Avropa, Asiyada daha geniş yayılmışdı. Dünya ədəbiyyatının şah əsərlərindən olan alman şair, dramaturq və nəzəriyyəçisi Fridrix Şillerin (1759-1805) “Qaçaqlar” (1781) pyesində, Türkiyənin məşhur yazıçısı Yaşar Kamalın (1923-2005) “İncə Məmməd” romanında (1953) M.Y.Lermontovun “Qaçaq Hacı”, “Qanlı”, “İzmail bəy”, “Ayrılıq”, “Cavan ləzgi”, “Xəncər”və d.poema və şeirlərində, Puşkin, V.İ.Dal, Qoqol, Tolstoy, Qlinkanın əsərlərində qaçaqçılığın mahiyyəti, igidlik, cəsarət, çətinliklər, təhlükələrlə dolu həyatı bədii əks olunub. Bəzən rus tarixşünaslığında, ədəbiyyat və folklorunda bizim qaçaq dediklərimiz “ataman” (fikrimizcə, “ata – başçı mənəm sözündən yaranıb – H.N) adlanır. Bunların məşhurları əsasən türksoylu Volqaboyu kazaklarıdır. Məşhur kazak üsyançılarından Balovnevi, Balaşı, Bolotnikovu, Razini, Bulavini və Puqaçovu göstərmək olar. Ancaq qanundan, cəzadan qaçanların hamısını bir qayda olaraq qaçaq adlandırmaq olmaz. Belə ki, oğurluq, soyğunçuluq, quldurluq etməyə görə, hətta, həbs edildikdən sonra həbsxanadan qaçıb təkbaşına və ya iki-üç nəfərlə fərq qoymadan hər kəsi soyan, hər kəsdən oğurlayan, məzlumlara zülm edən, bir çox halda elementar insani dəyərlərə (namus, kişilk, yoxsulluq, haqq və s.) hörmətsizlik edənlərə qaçaq demək mümkün deyildir. Bu tip “qaçaqlar” ya unudulmuş, ya da haqlarında mənfi anlamlı folklor materialları yaranmışdır. Yəni onlar heç bir zaman xalqın müsbət qəhrəmanı olmamış, quldur, soyğunçu adları ilə damğalanmışdır.

Sovet vaxtında orta məktəb dərsliklərində müsbət qəhrəmanlar kimi təqdim olunan Stepan Razin, Puqaçov kimi bədnam quldurlar fərq qoymadan öz həmkəndlilərini də soymuşlar. Belə quldurluq təhdidlə, təzyiq göstərməklə, zor tətbiq etməklə, bəzən də öldürməklə soymaq, talan etmək məqsədi güdən qaniçən, acgöz fərdlərin, yaxud bir qrup insanların zərərli fəaliyyətidir.



Ancaq mənsub olduğu xalqların azadlığı, haqq-ədalətin bərpası, zülmkarlara qarşı mübarizənin önündə gedən, savaşan mərd savaşçı qaçaqların haqqında dastanlar, balladalar, mahnılar, şeirlər, hekayətlər söylənmişdir. Dünyada ən tanınmış qaçaqlar Robin Hood, Panço Villa, Salvatore Giuliano, Jesse James, Billy the Kid, İnce Memed, Giuseppe Musolino, Brezilyalı Lampiao, Wu Sung, Panayot Hitov, Salvator Rosa Sandor Rosza, Francisco Sabaté, Yuray Yanoşik, Velko Petroviç, Bayo Pivlyanin, Hacı Dimitr, Pyotr Petsiya, Şandor Roja və başqalarıdır ki, bunların haqqında balladalar, odalar, mahnılar, şeirlər, hekayətlər söylənmişdir.

Rus proletar yazıçısı Maksim Qorki həm Rusiya mətbuatında yazılanlardan, həm də Bakıda bir müddət yaşayarkən eşidib öyrəndikləri əsasında qələmə aldığı "Qafqazda qaçaqlar" oçerkində yazırdı: "Rusiyanın əyalətlərində həm xalqın müdafiə etdiyi mərd qaçaqlar və həm də xalqın nifrət etdikləri quldurlar da olmuşdur"[1]. Çar hökumətinin rəsmi dairələri ələ keçməz mübariz qaçaqları "quldur", onların çıxışlarını "quldurluq" adlandırır, əməllərini isə cinayətkarların, qatillərin və soyğunçuların əməlləri ilə eyniləşdirirdi. Lakin çarizmin rəsmi dairələri "quldurluğun", əsasən, müstəmləkə zülmünə qarşı etiraz forması olduğunu bilsələr də, qaçaqları həyasızlıqla soyğunçular (razboyniki) adlandırır, özləri ilə yanaşı, tərəfdarlarına qarşı da amansızlıqla mübarizə aparır, terror, həbs, sürgün yolu ilə onların kökünü kəsmək istəyirdilər. Maksim Qorki Qafqaz xalqlarının tarixinə, ictimai-siyasi həyatına, mentalitetinə də yaxşı bələd idi, mövzu ilə bağlı araşdırmasında Qara Nəbi və Qaçaq Nəbidən bəhs edir, onların kimliyinə, bu iki nəfərin məram, məqsədinə, bəlli dairələr tərəfindən bilərəkdən qəsdən qarışdırılmağına aydınlıq gətirib: "Adi bir soyğunçu quldur olan Qara Nəbinin fəaliyyəti ilə XIX əsrin sonlarında Azərbaycanda kəndli hə-

---

[1] Nijneqorodskoy listok, 1896, 8 noyabr

rəkatına rəhbərlik etmiş xalq arasında populyar olan Qaçaq Nəbinin azadlıq mübarizəsi arasında bir ayrım xətti çəkin."[2]

Məşhur rus tarixçisi Vasili Lvoviç Veliçkonun Qafqaz qaçaqları haqqında bu məşhur sözləri həm də Qaçaq Nəbiyə və dəstəsinə də aiddir: "Onlarda həqiqətən də alicənablıq, mərdlik, sözübütövlük, əhdə sadiqlik, nadir düzlük və açıqürəklilik vardır... Onlar ləyaqətli insanlardır... Onlar pusquda durub adam öldürməyi şərəfsizlik sayırlar. Onlarda belə bir məsəl var: "Düşmənin gözünə baxmaq lazımdır".[3]

## QAÇAQ NƏBİNİN HƏYATI, MÜBARİZƏSİ TARİXİ MƏNBƏLƏRDƏ




Azərbaycan tarixində ən məşhur qaçaq, həm də xalq arasında ən populyar olan Qaçaq Nəbidir. Çar Rusiyasının müstəmləkəçi üsuli-idarəsinə, tarixi torpaqlarımıza indiki İran və Türkiyədən çarizmin imperiya siyasətinə uyğun şəkildə köçürülüb gətirilmiş erməni haramzadələrinə, xalqın qanını soyan istismarçı bəy, xanlara, tacirlərə, yerli mülkədarların zülmünə qarşı 25 ildən çox mübarizə aparıb. Nəbinin xanımı Həcər ən yaxın silahdaşı olub, birgə qəhrəmanlıqlarla, çətinliklərlə dolu ömür yaşayıblar.

Qaçaq Nəbinin həyatı, mübarizəsi haqqında 1-ci ən etibarlı, dolğun mənbə Zəngəzur qəzasının sonuncu qazısı, tarixçi, tərcüməçi, folklorşünas, bolşeviklərə qarşı "Cihad Bəyannaməsi" nin və silahlı üsyanın rəhbəri olmuş Bəhlul Behcətin (1869-15.03.1938) qə-

---

[2] https://www.baku.ru/enc-show.php?id=109150&cmm_id=276
[3] В.Л.Величко. Кавказ. Русское дело и междуплеменные вопросы. СПб., 1904, с.179-180.

ləmə aldığı “Qaçaq Nəbinin tarixi” (vəsiqə və sənədlər üzrə)” kitabıdır.[4] Bu əsər Qaçaq Nəbinin uşaqlığından başlamış ölümü daxil həyatı, mübarizəsinə həsr olunmuş ən sistemli, zəngin, etibarlı, əhatəli mənbədır. B.Bəhcətin bu kitabda gətirdiyi çoxsaylı sənədlərin, faktların dəqiqliyi, düzgünlüyü XIX əsrin son iyirmi illiyində Rusiya, Bakı, Tiflisdə çıxan qəzetlərdə, arxivlərdə, Azərbaycan, İran, Türkiyə mənbələrində, ayrı-ayrı tədqiqatçıların elmi araşdırmalarında, müxtəlif kitablarda yer almış digər mənbələrlə də üst-üstə düşür. Mükəmməl tədqiqat əsərində Bəhlul Behcət xalq qəhrəmanı Nəbinin dövrü, valideynləri, qohumları, uşaqlıq, gəncliyi, həm də yaşadığı yer-yurd, Qarabağ, Zəngəzurun tarixi, torpaq sahibləri barədə ayrı-ayrı başlıqlarda məlumat verib. Azərbaycanda qaçaqçılıq tarixinə, onların mübarizəsinə də ayrıca başlıqlada xüsusi yer verib. Həm də yeri gəldikcə xeyli arxiv materiallarına istinad edib. Yəni onun tədqiqatın predmetinə yanaşma metodu obyektivdir, hərtərəflidir, istinadlıdır, tarixidir. B.Behcət sözügedən kitabında yazır: “bu kimi üsyançı qaçaqlardan biri və bəlkə də ən məşhuru, bütün hadisə və təfərrüatı ilə tarixini yazdığımız Qaçaq Nəbidir...çar və çarlıq zülmünə qarşı çıxan və xalqın arasında bu qədər şöhrət tapmış bu böyük şəxsiyyət haqqında indiyə qədər yazan olmamışdır.” O, bunun bir səbəbini də belə izah edir ki, “kübar zümrələr” yoxsul bir kəndli olan Nəbinin və onun yoldaşlarının göstərdikləri qəhrəmanlıqların miqyasını hər vasitə ilə kiçiltməyə, yanlış və qeyri-təbii bir halda təsvir etməyə çalışmışlar. “Biz Qaçaq Nəbi tarixini nə əfsanələrlə dolu qeyri-təbii hadisələrin bir-birinə quraşdırılmış macəralar yığını hesab edirik, nə də Qaçaq Nəbini “olmayan sərgüzəştlər” qəhrəmanı kimi tanıyırıq.[5]

Onu da deyək ki, təsvirlərdəki yerli-yataqlı dəqiqlik, şahidlərin adbaad yazılması, qaçaqların sonrakı taleyinin də birbəbir yazılması, deyilənlərin bəzilərini təkzib edib düzəliş verməsi şübhə yeri qoymur ki, qazı B.Behcət Nəbini və dəstəsindəkilərin çoxunu yaxından görüb, tanıyıb, bəlkə onlarla gizli əlaqəsi də olub.

---

[4] Çıraq nəşriyyatı-2011, 296 səh. mətndə bundan sonra: B.B.

[5] B.B, s.137-138



1920-ci illərdə qələmə alınmış 55 başlıqdan ibarət bu əsər hələ sovet ideologiyasının tam və qəti qələbə çalmadığı, təkcə ayrı-ayrı işıqlı şəxsiyyətlərə qarşı yox, bütövlükdə xalqımızn adına, dilinə, tarixinə, üzdə olan qəhrəmanlarına qarşı da repressiyaların tüğyan etmədiyi illərdə yazılıb. Əlyazması sovetlərin 70 illik hakimiyyəti dövründə arxivlərdə gizli saxlanıb, nəşrinə izin verilməyib. B.Behcətin kitabı AMEA Folklor İnstitutunun (professor İsrafil Abbaslının 15 səhifəlik ön sözü, "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri Hacı Nərimanoğlunun 12 səhifəlik son sözü ilə) və filologiya elmləri doktoru, professor Əliağa Cəfərovun naşirliyi, elmi redaktorluğu ilə nəşr edilib. B.Behcət Qaçaq Nəbinin müasiri, həmyerlisi idi, Zəngəzurun ən hörmətli ixtiyar sahiblərindən biri kimi bu qaçaq hərəkatının məramını, hədəflərini yaxşı bilirdi, dəstənin hərəkətlərini də izləyib yaddaşına həkk edib, yazıya, qeydə alıb, arxivlərdə çalışıb dəyərli bir kitab yaradıb.




Qaçaq Nəbinin həyatı, mübarizəsi haqqında 2-ci əhatəli mənbə Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunan "Qubadlı: qədim Azərbaycan torpağı Zəngəzurun qapısı" monoqrafiyasıdır.[6] Biz bu kitabdakı sənəd, istinadlardan da kitabımızda yararlanmışıq (istinadlarda bundan sonra-Qubadlı). Və bir daha dəyərli nəşrə görə AMEA Tarix İnstitutuna, Qubadlı Rayon İcra Hakimiyyətinə, müəlliflərə, əməyi keçən hər kəsə minnətdarlığımızı bildiririk.

[6] "Turxan" Nəşriyyat-poliqrafiya birliyi, Bakı-2013, s.109.

Nəbinin anadan olduğu il haqqında bir sıra ziddiyyətli məlumatlar vardır. Tədqiqatçılardan Ə.Axundov və Ə.Əliyev onun 1864, R.Rüstəmzadə 1860, Ə.Tahirov 1856, İ.Həsənov 1854 və nəhayət, B.Bəhcət 1851-ci ildə anadan olduğunu göstərirlər. Biz 1885-ci ildə Zəngəzur qəzasının Qubadlı kəndində dünyaya göz açmış Bəhlul Əfəndinin (Bəhcət) gəldiyi qənaəti düzgün hesab edərək, Nəbinin anadan olduğu ili 1851-ci il götürmüşük.

Qaçaq Nəbinin doğulduğu tarix haqqında indiyədək müxtəlif tədqiqatlarda bir neçə fərqli rəqəmlər göstərilsə də, artıq bu yanlışlıqlara son verilib.[7] Sözügedən hər iki kitabda – B.Behcət və "Qubadlı: qədim Azərbaycan torpağı Zəngəzurun qapısı" monoqrafiyasında Nəbinin doğum tarixi digər mənbələrlə də üzləşdirilərək[8] dəqiqləşdirilib, 1851-ci olaraq[9] qəbul olunub.

Fikrimizcə, Qaçaq Nəbinin həyatı, mübarizəsi haqqında 3-cü dəyərli mənbə Azərbaycanın XIX əsrin II yarısı, XX əsrin 20-ci illər tarixinin tanınmış araşdırmaçı-tədqiqatçısı, Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin yaxın silahdaşı Hüseyn Baykaranın[10] "Azərbaycan Milli İstiqlal Mücadiləsi" kitabının "Azərbaycan tarixində qaçaq hərəkatı" bölümüdür. H.Baykara Qarabağlı 3 qaçağın – Qaçaq Nəbinin, Kərbəlayi Məmməd Kavaler və Dəli Alının həyat və mübarizəsindən bəhs edərək, Qaçaq Nəbiyə daha geniş yer ayırıb.

Hüseyn Baykaranın tədqiqatında Qaçaq Nəbinin "İstismarçı imperializmə və rus çar rejiminə qarşı mübarizə aparması", xalqa yaxınlığı, uzun müddət rus kazak dəstələri ilə vuruşması, sıxışdırıldığı zaman İrana və Türkiyəyə keçib orada mübarizəsini davam etdirməsi, çar idarəsinin bu hərəkatı yatırtmaq üçün bütün vasitələrə əl atması, adının xalqın qoşduğu nəğmələrdə, bu el qəhrəmanının

---

[7] Qubadlı, s.109

[8] Ленинградский ЦГИА, дело 14, фонд 147, дело 4, стр.2

[9] Qubadlı..."Turxan" Nəşriyyat-poliqrafiya birliyi, Bakı-2013, s.109.

[10] Qara Hüseynbəylidoğulduğu il 1904, Yelizavetpol quberniyası, Şuşa ş ;əhəri, vəfatı 1 iyul 1984, Türkiyə, Kayseri

həyat, mübarizəsinə həsr olunmuş “Qaçaq Nəbi” dastanında, bədii əsərlərdə detallı şəkildə əks edilməsi ətraflı təsvir olunub.

Qaçaq Nəbi tarixini öyrənmək üçün ən dəyərli mənbə həm də onun elə öz dövründə Tiflis, Peterburq, Bakıda çıxan qəzetlərdə gedən materiallardır, çar üsuli-idarəsinn yerli idarələrindən, məmur, çinovniklərin göndərdikləri, arxivlərdə saxlanan raport, məruzə, teleqram, məktublardır.

Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk illərdə folklor materiallarının toplanmasına hökumət səviyyəsində xüsusi əhəmiyyət yetirilib. Bu işə peşəkar, təcrübəli mütəxəssislər cəlb olunub. Məs, folklorşünas Ə.N.Tahirovn Qubadlı və Qafan rayonlarına ekspedisiyasında yerli əhalidən topladığı materiallar 1930-cu illərdə “Ədəbiyyat qəzeti”, “Azərbaycan kolxozçusu”, “Azərbaycanı öyrənmə yolu məcmuəsi”ndə dərc olunmaqla yanaşı, 1938-ci ildə kitab şəklində nəşr edilib. Bəhlul Behcətdə olduğu kimi, Ə.Tahirovun topladığı faktik materiallar həm də tarixi mənbələrdir, çünki əksəriyyəti Qaçaq Nəbini görüb tanıyanların, sağ qalan qaçaqların öz dilindən söylənmiş, istinadlarla yazıya alınmışdır, Qaçaq Nəbi dövrünə yaxın, isti-isti yaddaşlarda qalıb yaşayan zamanın məhsullarıdır. Dastanın yenidən işlənən, yeni materiallarla genişləndirilmiş 1941, 1961-cil nəşrləri, ayrı-ayrı alimlərimizin məqalələri, araşdırmaları da əhəmiyyətli tarixi mənbələrdir.

Tarixşünaslığımızda Qaçaq Nəbinin mübarizəsinin əsl mahiyyəti 70 illik sovet-KQB rejimi dövründə qəsdən, düşünülmüş şəkildə, rus imperiya siyasətinə uyğun olaraq təhrif edilmiş, o, daha çox yerli mülkədarlara qarşı savaşçı kimi göstərməyə çalışılmış, çarizmin müstəmləkəçi siyasətinə, ermənilərə, bu məkrli qonşuların azərbaycanlılara qarşı düşmənliyinə, torpaq iddialarına qarşı mübarizəsini gizlətməyə çalışmışlar.

Biz kitabımızda Qaçaq Nəbinin gerçək tarixini axiv sənədlər, dəlil-sübutlarla, istinadlarla təqdim edəcəyik.

# NƏBİNİN FİZİKİ GÖRKƏMİ, ƏXLAQI

“Nəbi” kəlməsi ərəbcədir, Quranda bu söz dəfələrcə keçir. Leksik mənası “xəbərçi”, “xəbər gətirən”, “xəbər alan” deməktir. İslamda Allah tərəfindən vəhy edilmiş olan insanlar nəbilərdir.[11]

Nəbinin xarakterinin əsas məziyyətlərini, görkəmini, xarakterini B.Behcət belə təsvir edir: “Nəbi gödək boylu, yığcam cüssəli, zirək, yüngül hərəkətli bir oğlan idi. Qorxu nə olduğunu bilməzdi, onun bütün hərəkətləri mətin və qüvvətli bir iradənin səmərəsi idi. Öz hərəkətlərində namus və iffətli olub ondan xalqın əxlaqına və qeyrətinə toxunan bir əməl çıxmazdı. Nəbi öz zəmində etibarlı və iffətli idi. Onun bütün hərəkətləri mətin və qüvvətli iradənin səmərəsi idi. O, qadına hörmət barəsində çoxdan çox ehtyatlı idi, qadına toxunmazdı. Yoldaşlarına qarşı çox hörmətcil və qayğı göstərən idi, gizli oğurluğu qadağan etmişdi. O yolları kəsərək hər gələn-gedəni soymaq işindən uzaq idi, təsadüfi yol kəsmək onların işi deyildi. “Aynalı” tüfəngi bir az əvvəl qurtarmış rus-Osmanlı müharibəsində iştirak edən dostu tərəfindən gətirilmiş “osmanlı” tüfəngi idi. Boz rəngli bir qulan olan Bozatı çox zirək, çox yüngül, görünüşcə də gözəl bir at idi.”[12]

Folklorumuzda xalq Nəbiyə sevgisini təkcə qoşma, gəraylı, bayatılarda deyil, dastanlarda da aydın, həm də epik təsvirlərlə ifadə edir. Nəbinin dünyaya gəlişini də xalq özünəməxsus sevgi ilə “bəzəyir”, maraqlı mübaliğə, təşbehlərlə ifadə edir. Dastanlarda söylənir ki, Nəbi doğulanda göy guruldadı, ildırımlar oynadı, elə çığırqan idi ki, gəl görəsən, baş-qulağı aparırdı. Onu heç nə ilə ovundurmaq olmurdu. Bircə şeydən savayı...Nəbinin İldırım adında bir babası olub ki, bütün mahalda ötkəmliyi ilə ad qoymuşdu. Heç kəsə əyilməzdi və Nəbini də ancaq babasınn evin divarından asılmış yaraq-yasağı ovundurardı. Elə yüyrükdəcə özünü partladardı. Əlini divardakı silahlara uzadıb aləmi başına götürərdi. Və evdəkilərin

[11] https://www.milliyet.com.tr/gundem/nebi-nedir-tdk-ya-gore-nebi-kelimesi-ne-anlama-gelir-6196939
[12] B.B, s.142-143

zəhlələrini aparmasın deyə, ya tüfəngi, ya da ləzgi xəncərinin bəzəkli, üstü zərli qınını, ya da patrondaşı verərdilər körpə Nəbiyə, o da orasını-burasını sığallayar, bərk-bərk sinəsinə sıxar, üzünə yapışdırıb, gözlərini süzdürərdi. Nəbinin elə uşaqlıqdan baxışları yaman iti idi. Gözləri oyur-oyur oynayırdı. Nə sehir vardısa kimə baxsaydı, o adamın əlləri yanına düşər.



Dastanlarda Nəbinin qaçaq düşməsi ilə bağlı belə də variant söylənib, yazıya alınıb. Qubadlı bəyləri Mollu kəndinin yataqlarını öz aralarında bölmək istədikdə Nəbi kəndlilərlə birlikdə bəylərə qarşı çıxır. Kəndlilər bəyləri qovurlar. Mollu kəndinin yaxınlığında digər kənddən olan bir nəfəri Qubadlı bəylərindən birinin qardaşı öldürür. Bunu Nəbinin üzərinə atırlar və tutuqlanan, daha sonra da qaçan Nəbi ətrafına adamlar toplayaraq qaçaqçılığa başlayır. Dastanın başqa bir variantına görə Qubadlı rayonunun Aşağı Mollu kəndindən olan Nəbi Molluların kovxası Mahmud bəyin atasını vurmasını görüb özünü yetirir və kovxanı döyməklə yerli idarəçiyə qarşı itaətsizlik göstərir. Bundan sonra kənddə qala bilməyən Nəbi dağlara çəkilərək qaçaq düşür.

Bəhlul Bəhcət həm də Nəbinin şəninə xalqın qoşduğu çox sayda şeirlərin də ilk toplayıcılarından olub, bu qəhrəmanların xalq tərəfindən bu qədər çox sevilməsini, adına çox miqdarda şeir, mahnıların qoşulmasını da həm igidliyi, həm də kəndlilərə qəlbən yaxınlığı, xeyirxahlığı ilə bağlayır; ...kasıb bir ailə var-yoxunu satıb nişanlı tək oğluna verir ki, gedib Şuşadan sevgilisinə toy hədiyyələri alıb gətirsin, toy günü də təyin olunub, qayıdanbaş yolda oğrular oğlanı yağmalayır, ailənin başçısının ümidi tək Nəbiyədir, dağlara çıxır, Nəbini tapır, əhvalatı danışır, Nəbi, Həcər sonuncu pul, qızıllarını kişiyə verir, toya qalan 3 günü də oğrunun tapılmasına sərf edir, oğruları tapıb şey-şüylərlə birlikdə haqlı cəzalarını almaları üçün toy gedə-gedə əlləri bağlı pristavın yanına göndərir....onun

üstünə göndərilənlərin bir çoxu aldanmış, şirnikləndirilmiş kəndli cavanlar olardı, Nəbi həmişə tapşırarmış ki, onların atların vurun, özlərin yox ...qəndi, çayı, duzu müsəlman kəndlərinə ermənilərdən 5-6 qat baha satan erməni tacirlərinin İrandan gətirdikləri qaçaq malının bir hissəsini alıb Padar düzündə aclıq çəkən kasıb camaata payladır...Yüzbaşının öz nəfinə yığdığı vergini camaata paylayıb yüzbaşının möhürü ilə borclarını tamam ödədiklərinə dair sənədlərin yazıb verir...Atları tara düşüb qalanda bir neçə gün pay-piyada yol gedirlər, kasıb insanlar öz atların onlara vermək istəyəndə deyir: "Əgər mən camaat atı aparsaydım, bu qədər yolu burayacan piyada gəlməzdim, sizin atınız mənə lazım deyil. Siz mənə mülkədar atlarının yerin göstərin".

Dastanda Nəbinin özündən yaşlı insanlara "əmi", "dayı", "nənə" deyə mehribanlıqla müraciət etməsi, dostlarının çoxunun sadə, kasıb insanlar olması, dara düşəndə ona çıxış yolu göstərənlər, düşmənin üstünə gəldiyi xəbərini təhlükəyə baxmadan əziyyətə qatlaşıb ona çatdıranlar, hətta yerdəki rus dəstələri içərisində də ona dəfələrlə gizli planlar barədə xəbər, ya patron silah verən uryadnik, yasavullar...hamısı Nəbinin şəxsi insani, əxlaqi keyfiyyətlərinin sayəsində qazandıqlarıdır, saf mənəviyyatının göstəricisidir. Nəbi hər kəsi dəstəsinə götürməzdi. Burada ancaq inanılmış qaçaqlar toplaşmışdılar.

...Qaçaq Süleyman o dövrün varlılarından biri olan Kərbəlayi Ağahüseynin oğludur. Füzuli rayonunun Əhmədallar kəndindən olan Süleymanın Qafqaz canişininin hiyləsi nəticəsində ata mülki müsadirə edilir. Bu haqsızlığa dözməyən Süleyman qardaşı Qara Dadaşla çar üsul-idarəsinə qarşı qaçaq mübarizəsinə başlayır. Öncə Qaçaq Nəbinin dəstəsinə qatılır, sonra Nəbinin ölümündən sonra müstəqil qaçaqbaşı olur.

Bu da məlumdur ki, XIX əsrdə, XX əsrin əvvəllərində çar hökumətinə qarşı mübarizə aparan bəzi digər qaçaqlar da olmuş, lakin onlar sona qədər qaçaqçılıq həyatının ağır məşəqqətlərinə, hər an gözlənilər, ölüm, xəyanət, həbs, sürgün təhlükəsinə qarşı davam gətirə bilməmişdir. Bunlardan biri haqqında Hüseyn Baykara da sözügedən kitabında məlumat verib; Gəncəbasarda Dəli Alı qaçaqçılığa

başladığı illərdə rus strajnikləri və kazakları ilə dəfələrlə qanlı döyüşlərə girsə də, sonda Peterburqdan gələn knyaz Qalitsinlə Gəncəyə yaxın bir yerdə aparılan danışıqlardan sonra "amnistiyaya" düşərək bağışlanmış, hətta, Peterburqa, Romanovlar ailəsinin üç yüz illiyi münasibətilə keçirilən saray ziyafətinə də dəvət edilmişdi[13].

Qaçaq Nəbiyə belə təklif çar Rusiyasından, İran şahlığından, Osmanlı dövlətindən gəlsə də, o, heç birini qəbul etməmişdi. Nəbinin dəstəsi ilə birlikdə dəfələrlə ona edilən üzə çıxıb hökumətin himayəsində yaşamaq, mal-mülk, torpaq sahibi olmaq barədə vədlərindən imtina etməsi barədə çox sayda arxiv materialları vardır. Nəbini xalq arasında məşhur edən çox sayda əhvalatlar var.[14] Bir dəfə eşidir ki, hansısa bəyin oğlu kənddə kasıb ailədən olan qızın namusuna sataşıb. Nəbi dərhal kəndə gedərək həmin şəxsi öldürür. Bundan sonra hamı ona xalqın namusunun təəssübkeşi kimi baxır. Kim hansı haqsızlıqla üzləşsəydi, Nəbiyə müraciət edərdi.

O, hətta, bir dəfə kasıb ailədən olan oğlana toy etmək üçün pul vermişdi. Nəbi heç kimi naümid qoymazdı: Nəbi, xüsusilə qardaşı Mehdinin, digər silahdaşlarının xaincəsinə öldürülməsindən, ailələrinin incidilməsindən sonra ən çox da ixtiyar sahibi çar məmurlarına qarşı barışmaz olmuşdu. Son illər qaçaq ailələrini insafsızca incidən, sürgünə göndərtdirən çox sayda çar məmuru öldürmüşdü. Qaçaq Nəbinin özünəməxsus savaş adəti vardı. O, günahsız kazak, yasavul, saldat öldürməzdi. Bilirdi ki, onlar əmrə tabe əsgərlərdir, çörəklərinin xatirinə arxasınca düşüblər, ailəsi, uşaqlarını yetim qoymazdı. İlk atəşi atın ayağı altına atırdı ki, hürküb yıxılsınlar, yüngül yara alsınlar. Bununla da əsgərə "səni öldürmək istəmirəm" – deyə xəbərdarlığını edirdi. Onlar da bunu bilir və Nəbiyə, dəstəsinə sərrast atəş açmırdılar, bəzən guya ehtiyatsızlıq edib güllə ataraq gəldiklərini nişan verirdilər.

Nəbi heç zaman günahsız adamı öldürməzdi. O da olurdu kiminsə namusuna sataşan, kasıbın haqqını yeyən qudurğan məmur-

---

[13] "Azərbaycan yurd bilgisi", № 23, İstanbul, 1933-cü il; "Azərbaycan" jurnalı, № 7, 8, 9, 1961-ci il

[14] https://www.youtube.com/watch?v=gfAhTBpxdrk

lar, bəylər. O, bəyin, mülkədarın, yaxud onların övladlarının hansı-sa kənddə kasıbların namusuna sataşması barədə xəbər eşitdikdə həmin şəxsləri dərhal güllələdərdi, onlara aman verməzdi.

## QAÇAĞI EL SAXLAR

Qubadlının Aşağı Mollu kəndində doğulub yaşayan Nəbi 30 yaşında ikən kəndlərindəki torpaqların sahibi Məmməd bəyi atası Alı kişini təhqir etdiyinə görə ağır yaralayıb həbsdən yayınmaq üçün qaçaq düşmüşdü.[15] Və bu hadisə tariximizdə yerli zülmkarlara və yadelli işğalçılara qarşı 26 il davam edən kəndli üsyanının, hərəkatının, partizan müharibəsininn ilk qığılcımı olmuşdu.

General-leytenant D.Skalon Peterburqa raportunda Qaçaq Nəbi ilə bağlı vəziyyəti izah edərək yazırdı: "Əhali hakimiyyət orqanlarına quldurların yerini nəinki nişan verir, hətta, quldurlara böyük bir qonaqpərvərlik göstərir, inzibati orqanlar cinayətkarları tutmağa cəhd etdikdə, əhali açıqcasına onlara mane olur."

Qaçaq Nəbiyə mübarizəsində müstəmləkəçilərə "üzdə" xidmət edən yerli bəylər də arxa durur, varlı bəylər, torpaq sahibləri də gizlin kömək göstərir, lazım olanda onun dəstəsinə ərzaq, geyim, silah-sursat çatdırır, təqiblərdən uzaqlaşdırır, kazakların hərəkətləri, planları barədə ona vaxtında xəbər çatdırırdılar. Çünki bu yerli müsəlman varlıları da çarizmin boyunduruğu altında əzilirdilər, var-yoxları alınır, torpaqları zorla qoparılıb erməni hampalarına, kilsə xadimlərinin torpaqlarına qatılırdı.

Tiflis Məhkəmə palatasının prokuroru Y.Vasilkov da bunu təsdiqləyərək əlavə edir ki, "hətta, bəylər də qaçaqları öz evlərində gizlədirlər".[16]

Belə hadisələr barədə həm arxiv materiallarında, həm də digər yazılı mənbələrdə, el arasında canlı şahidlərin yaddaşında xeyli əhvalatlar qalıb. Qubadlının Saray kəndində yaşayan, ətraf kəndlərin

---

[15] Qubadlı. səh.109
[16] EA Elmi Arxivi, iş 3982(1)

torpaq sahibi olan Balabəy Qaçaq Nəbi ilə Həcərin Araz çayı ətrafında dara düşdüyünü gizlincə öyrənir, adam göndərib evinə gətirdir, hörmətlə qarşılayır, gecəni qonaq saxlayır, etibarlı nökərlərdən gecə qarovulçu qoyur, özü də səhərədək bir neçə dəfə ətrafı gözdən keçirir, sübh tezdən rus sərhədçilərinin onların izinə düşüb yaxınlaşdığını eşidib, durğuzur, bir neçə günlük azuqə hazırladıb öz ərazisindən təhlükəsiz uzaqlaşdırır, Həkəri çayından keçirib Əliyanlı dağlarına tərəf ötürüb arxayın geri qayıdır.[17]

"Qaçağı el saxlar" atalar sözü boş yerə yaranmamışdır. Xalq onun haqqını müdafiə edənləri hər zaman qoruyurdu.

Cəlal Bərgüşadın "Bozatın belində" romanında belə bir səhnə var ki, Nəbinin şəninə mahnı oxuyan bir nəfəri tutub gətirirlər divana:

"– Sənin Nəbi oxuyan dilini boynunun kökündən çıxaracağam!

– Naçalnik, mənim dilimi boynumun kökündən çıxarsan da, amma elin dilini kəsə bilməzsən! Bu mahnını qaçaqlara el qoşub, el də oxuyacaq!"

Yeri gəlmişkən, sevimli Xalq şairimiz Səməd Vurğunun xalq nəğmələrinin yaranması, mahiyyəti haqqında çox dəyərli sözləri var: "Azərbaycan xalqı hələ ən qədim zamanlardan bəri öz azadlığı və istiqlaliyyəti uğrunda yalnız qılınc, ox, tüfənglə deyil, həm də nəğmələrlə də silahlanmışdır. Nəğmə xalqımızın düşüncəsində həmişə xalqın müqəddəs silahı olmuşdur."

Məmməd Rahimin "Qaçaq Nəbi" poemasında xeyli belə epizodlar var: "Bir həftə keçməmiş yoxsul kəndlilər, Nəbiyə göndərir belə bir xəbər: "Dəstəni cənuba tərəf yönəlt, çək, Üstünə hesabsız qoşun gələcək. Əlindən od yeyir o əfi ilan, Dəstəni tez elə, keçir Arazdan."[18] Nəbinin ədaləti, xalqa yaxınlığı, kasıb-kusublara arxa, dayaq olması barədə çoxlu hekayətlər məlumdur. Haqqında yazılmış bütün əsərlərdə bu qırmızı xətt kimi keçir. Nəbinin adı ilə bağlı Zəngəzurda çoxlu qala, dəyirman, qüllə, səfalı guşələr vardır. Kəl-

---

[17] Qaçaq Nəbinin Bala bəylə görüşü, B. Bərxudarov, İki sahil, 09.12.93.
[18] http://anl.az/el/m/mr_se2.pdf, s.12

bəcərin Qaraçanlı dağlarındakı bir qaya el arasında bu gün də “Nəbinin ərizə qayası”, yaxud “Nəbinin kahası” adlanır.[19]

Qaçaq Nəbi öz Həcəri və başının dəstəsi ilə bu qayanın qənşərində kəndlilərin şikayətlərinə baxırmış. Bir gün şikayətçilər yenə bura yığışıb dərdlərini deyir, Nəbi də dinləyib ixtiyar sahibi günahkarlara sözünü, sifarişlərini göndərirmiş. Görür ki, bir kişi aralıda dayanıb başını yerə dikib durub. Nəbi deyir: – A kişi yaxın gəl, sənin dərdin nədir? Kişi deyir: – Başına dönüm, ay Nəbi, utanıram sözü deməyə....Mənim evim kəndxudanın qonşuluğundadır. Hər gün arvadım kəndxudanın çəpərinin yanından keçib su gətirməyə gedir. Hər dəfə kəndxuda arvadımı görüb deyir: “Sən gərək bu gözəlliklə kəndxuda arvadı olaydın”. Çarə ona qalıb ki, kəndxudanı öldürəm, gedib girəm türməyə, onda da bir cüt balam başsız qalır. Nəbi deyir: – Kişi, get, gələn cümə məni sizin Zar kəndinin üstündəki Keyti dağında, “Yazılı qaya”nın yanındakı açıqlıqda gözlə. Kişi cümə günü qayanın yanına gələndə gözlərinə inanmır. Nəbidən başqa, kəndin mötəbər adamları, ağsaqqal, ağbirçəkləri də buradadır. Nəbi kəndxudaya əmr etdi ki, ortaya çıxsın. Nəbi qəzəblə dedi: – Sən bu kişinin arvadına deyirmişsən ki, gərək sən kəndxuda arvadı olaydın. Bu gündən o sənin yerinə kəndxudadır. Nəbi bu namussuza cəza olaraq kəndxudanın bığlarını da kəsir. Təzə kəndxudaya deyir: -Sən bundan ibrət al, ədalətli ol, camaatla yaxşı dolan, yoxsa ki, o bığını bada verdi, sən isə başını itirərsən.

Naxçıvan qəzasında bir sıra kəndin, xüsusən Nəsirvaz və Urmus (Rumus) kəndlərinin əhalisi Nəbinin köməyi ilə ağır vergi yükündən xilas ola bilmişdi. Adları çəkilən kəndlərin sakinləri həyətbaşı vergisini ödəyə bilməmişdilər, hakimiyyət orqanları bu kəndlərə atlı polis dəstələri göndərmişdilər, həmin dəstələr əhalinin bütün əmlakını əllərindən almışdı. Nəsirvazlılar və urmuslular öz dəstəsi ilə birlikdə yaxınlıqda olan Nəbidən kömək istəmişdilər. Qaçaq Nəbi Nəsirvaza və Urmusa gəlib, kəndlilərin əmlakını özlərinə qaytarmış və onlardan həyətbaşı vergisinin alındığını bildirən

---

[19] https://azertag.az/xeber/Gulgez_nenenin_sali_balaca_Sehriyarin_chekmeleri_kahalara_dagilmis_qab_qacaq-1765017

qəbzlər paylatmışdı. Nəbi Sisian mahalının məhsulu batdığından ağır vəziyyətdə qalan Comartlı və Hortuyüz kəndlilərinin də vergilərini ödədikləri barədə möhürlü qəbzlər verdirmişdi.

Vedili qaçaq Xanbala Sultanoğlu və Sibir sürgünündən qaçıb özünə dəstə toplamış qaçaq Heydərin də Nəbinin dəstəsinə qoşulması ilə dəstədəkilərin sayı ilk dəfə 80 nəfərə qalxmışdı.

Qaçaq Nəbi hökumətdən və varlı kəndlilərdən alınmış qənimətin hamısını yoxsul kəndlilərə paylayırdı. Onlar da öz növbəsində Qaçaq Nəbidən heç nəyi əsirgəmirdilər. Kəndlilər lazım gələndə qaçaqları patronla, ərzaqla təmin edir və başqa vasitələrlə kömək edirdilər. Hətta qaçaqları gizlədərək öz evlərində saxlayırdılar. Məsələn, Naxçıvan qəzasının Bilyayev kənd sakini Səfər İsmayıl oğlu Nəsirvaz kəndliləri Məmməd Cəfər Hacı Vəli bəy oğlu və onun qardaşları İbrahim bəy və Mehdiqulu, Hacı Vəlibəyin uşaqları, Babaxan Kərbəlayı Şahəli oğlu, Baxşəli Kərbəlayı Şıxəli oğlu və Pevəkazım Vəli Məmməd oğlu evlərində "quldur" dəstələrini gizlətdiklərinə görə Naxçıvan polisləri tərəfindən həbs olunmuşdular.

Xalq Qaçaq Nəbini hökumətdən gələn istənilən zərbədən qoruyurdu. İrəvan qubernatorunun məlumatında göstərildiyi kimi: "Nəbinin dəstəsinin fəaliyyət göstərdiyi bölgənin, demək olar ki, bütün müsəlman əhalisinin hamısı onu müdafiə edir və qoruyur".[20]

Bununla da Nəbinin qaçaqlıq etdiyi bölgənin əhalisi Qaçaq Nəbinin timsalında imperiyanın müstəmləkə siyasətinə qarşı öz etirazını, kəskin nifrətini bildirirdi.

Çar hökuməti "xırda dəstələrin daha böyük dəstələrin özəyinə çevriləcyindən, vəziyyətin fövqəladə dərəcədə gərginləşəcəyindən qorxurdu."[21] Ona görə də çarəni xalqın vəziyyətinin yaxşılaşdırılmasında, vergilərin azaldılmasında, qanun-qaydaların icrasında yox, inzibati cəza tədbirlərinin artırılmasında görürdü. Təbii ki, bu da narazılığı daha da artırır, xalqı hökumətə qarşı qalxmağa sövq edirdi. Hakimiyyət orqanları qaçaqlara yardım göstərənlərə qarşı da qəddar tədbirlər görürdülər. Həm ayrı-ayrı şəxslər, həm də bütöv

---

[20] AMEA Tarix İnstitutunun Elmi Arxivi, iş 1479 (1), v.8
[21] Yenə orada

kənd cəmiyyətləri cəzalandırılırdı. Kənd cəmiyyətləri barəsində ən müxtəlif cəza tədbirləri görülürdü, kəndlilərə güclü iqtisadi təzyiq göstərilirdi ki, qaçaqlara kömək etməsinlər. Bölgədə fəaliyyət göstərən Qaçaq Nəbinin dəstəsini təqib və məhv etmək üçün hər ev üç rubl verməli idi. Üç kənd əhalisinə (Tivi, Nasirvaz və Azıxlar) qaçaqlara daha artıq kömək etdiyinə və onları gizlətdiklərinə görə üç rubldan başqa, 300 rubl əlavə vergi qoyulurdu. Bununla belə, xəbərdarlıq edilirdi ki, hərgah kəndlilərdən biri qaçaqlara pul köməkliyi edərsə, alınan məbləğ on dəfə artırılacaqdır. Qaçaqlarla əlaqəsi olan kənddə qoşun dəstəsi, adətən, kazaklardan ibarət olan hərbi dəstə yerləşdirilir, onun xərcinin ödənilməsi isə kəndin sakinləri üzərinə qoyulurdu. Bu qoşun dəstələri kobud davranaraq özbaşınalıq edir, kəndliləri incidir, hər cür zorakılıqlar edirdilər. Lakin hökumət tərəfindən görülən tədbirlər qaçaq hərəkatını nəinki yatırır, heç qarşısını belə ala bilmirdi. Hökumət Qaçaq Nəbinin dəstəsinin qarşısında aciz qalmışdı. Qaçaq hərəkatının ictimai səciyyə daşımasına, zülmə və istismara qarşı kəndlilərin fəal etirazlarının ifadəsi olmasına ən inandırıcı sübutlardan biri də bütün xalqın qaçaqlara tərəfdar çıxması idi. Xalq gözü tərəzidir, yolkəsən quldurları camaat qaçaqlardan dərhal ayırırdı. Bu haqda yuxarıda maksim Qorkinin “Qafqazda qaçaqlar” yazısından Qaçaq Nəbi ilə quldur Qara Nəbinin xarakterizə edən fkirlərini vermişik. Bu cür quldur dəstələrinin hərəkətlərinə hökumət göz yumsa da, xalqın müdafiə etdiyi haqq-ədalət mücahidi qaçaqlar onları izləyir, tapır, qətlə yetirirdilər. Xalq güvəndiyi qaçaqlara bu işlərdə əlindən gələn köməyi əsirgəmirdi. Qaçaq Nəbi yalnız yerli bəyləri, çar mənurlarını deyil, Qafqaz inzibati idarəsini də narahat edirdi. Çar hökuməti Nəbini öldürənlərə çoxlu pul, qiymətli şeylər vəd etmişdi. Yuxarıda adını çəkdiyimiz Qara Nəbi də belə bir sevdaya düşmüşdü, o çox zaman Qaçaq Nəbinin adından da istifadə edirdi. Xalq Qaçaq Nəbini sevir, Qara Nəbiyə nifrət edirdi.

Qaçaq Nəbini şərləmək, nüfuzdan salmaq, xalqdan aralamaq, ölü, ya dirisini hökumətə (İran və Rusiya tərəfinə) təhvil vermək üçün şirnikləndirib görevləndirdiyi, yolkəsən, kasıb-kusubun son

loxmasını əlindən alan quldur Qara Nəbini də Qaçaq Nəbi tutub layiq olduğu şəkildə cəzalandırıb qətlə yetirmişdi”.[22]

Peterburqdan Qafqaza ezam olunmuş xəfiyyə generalı Skalonun raportunda göstərilir ki, “Əhali, hakimiyyət orqanlarına qaçaqların yerini nəinki nişan vermir, hətta qaçaqlara böyük bir qonaqpərvərlik göstərir, inzibati orqanlar cinayətkarları tutmağa cəhd edəndə açıqcasına onlara mane olur”.

“Kafkaz” qəzeti yazırdı: “...qaçaq dəstəsini təqib və məhv etmək üçün hər ev üç manat verməlidir. Üç kənd əhlinə (Tivi, Nəsirvaz və Anazırlar) qaçaqlara daha artıq kömək edib, onları gizlətdikləri üçün üç manat vergi qoyulsun. Bununla bərabər, onlara elan edilsin ki, hərgah kəndlilərdən biri qaçaqlara pul köməyi edərsə, alınan xərcdən on dəfə artıq cəriməlvalənəcəkdir”. Qaçaq Nəbi tərəfindən Ordubad pristavı Əlağa Əliyevin öldürülməsi də kəndlilərdən vergi yığılmasının nəticəsi idi. “Tiflisskiy listok”da şeyxülislamın müraciəti dərc olunmuşdu. Şeyxül-islam Qaçaq Nəbini kafir, dinsiz adlandırır və onun tezliklə tutulub asılmasını tələb edirdi. Yeri gəlmişkən qeyd edim ki, Şeyxül-islamı Qafqaz canişinin təqdimi ilə imperator özü təyin edirdi.

İrəvan məhkəmə palatasının mütərcimi Məmməd Mirzəyev yazırdı: “Nəbi hərəkatı çar hökuməti və mülkədarlar üçün çox qorxulu idi. Çar hökuməti İran və Türkiyə hökumətləri ilə danışığa girib İran və Türkiyəyə çoxlu casus göndərmişdi. Hökumət Nəbini öldürən və ya onun öldürülməsində fəallıq göstərən casuslara çoxlu pul, qiymətli şeylər verməyi, onları vəzifəyə irəli çəkməyi, medalla təltif etməyi vəd etmişdi”.[23]

---

[22]Azərbaycanda qaçaq hərəkatının bilinməyən tərəfləri, Elnur Bədəl, femida.az. 03 Avqust 2016

[23] Yenə orada

# NƏBİNİN HƏBSDƏN İKİ QAÇIŞI

B.Bəhcətin kitabında “Nəbinin birinci dəfə tutulması”, “Nəbinin ikinci dəfə tutulması” başlıqlı bölmələr var. Nəbinin ilk qaçışı belə təsvir olunur; Nəbini Naxçıvanda qazamatda bir qədər saxlayıb sonra yatab ilə Şuşa şəhər türməsinə göndərirlər. Zəngəzur qəzasının içindən yolçular Gorus şəhərindən keçirdi (fikrimizcə, Nəbi qısa bir müddət də Gorus türməsində saxlanıb – H.N), oradan da Şuşa şəhərinə aparılırdı. Nəbi piyada qolları bağlı, kazak gözətçiləri, qaravullar atlı idilər. Nəbi qolları bağlı halda dağ sıldırımı cığırdan keçəndə darısqal bir döngədə sıçrayıb yoldan çıxır, sıldırım qayalardan üzüaşağı dərəyə atlanıb sürüşüb aradan çıxır.

Onun Şeyx Şamilin məşhur silahdaşı Hacı Muradın qaçışını xatırladan bu qaçışı o dövrün qəzetlərində də geniş əks-səda doğurmuşdu.



Qaçaq Nəbinin Gorus türməsində saxlandığı otaqda 150 sonra Kəlbəcərdən ermənilərin girov apardıqları Dilqəm Əsgərov yatıb. Müsahibəsində deyir: “Məni Şuşa türməsindən çıxarıb Gorus türməsinə apardılar və gördüm ki, bina tam təmir olunub, ancaq bir kameranın çarpayıları çox nimdaş, içəri pis vəziyyətdə, divarlar uçuq, suyu da yox idi. O kamerada iyirmi gün qaldım və həmin çarpayıda yatdım. Çarpayının üstünə bir köhnə döşək də atmışdılar. Onda türmə rəisi gəldi və soruşdu ki, “Əsgərov, vəziyyət necədir?” Mən də özümü sındırmadım, dedim ki, hər şey yaxşıdır. Türmə rəisi dedi ki, “Əsgərov, bilirsən bu kamerada vaxtilə Qaçaq Nəbi də yatıb”. Dedim ki, ona görə kameranı təmir etmirsiniz? Dedi ki, “bilmirəm, heç kəsin marağı yoxdu kameranı təmir etməyə”. Yəni kamera necə olub bu günkü günə qədər də elə saxlanılıb. Nəbi orda hardasa 3 il yatıb. O kamerada ermənilərlə mübahisəm düşdü, məni təhqir etdilər və dedilər ki, “siz millət deyilsiniz, yeriniz ancaq buradır”. Mən də onlara başa saldım ki, siz

səhvsiniz, bu kamerada Nəbi yatıbsa, bura Azərbaycanın olub...ermənilərdən biri qolumdan tutdu və o birisi təpiklə sinəmə vurdu, daha sonra sifətimi divara vurdular...”[24]

1973-cü ildə Qafanda bir neçə ermənini öldürəndən sonra qaçıb gizləndiyi Bakıda tutulub istintaq üçün Gorus türməsinə göndərilən Arif Həsənova da ermənilər eyni şeyi demişdilər: – bu kamerada sənin yerlin Qaçaq Nəbi yatıb, “ən hörmətli” qonaqlar üçündür bu 1 kv.m-lik kamera.[25] 17 il Sibirdə həbsxanada qalan Qubadlı rayonunun Dəmirçilər kəndində doğulmuş bu qorxubilməz insanın istintaqda ermənilər bütün ayaq dırnaqlarını, dişlərini kəlbətinlə dartıb qoparmışdılar.

Nəbinin ikinci qaçışı isə B.Behcətin doğulub həbsinə qədər yaşadığı qazılığın və nahiyə pristavlığının yerləşdiyi Dondarlı kəndində, Məhəmməd Şərif adlı (bu hörmətli nəslin nümayəndələri qoçaqlığı ilə Qarabağ müharibəsində də fərqləniblər – H.N) varlı kəndlinin evində baş verib. Ev sahibi, kəndin ağsaqqalları belə igid, qeyrətli, el-obada hörmətli bir qoçaq cavanın sabah bu evdən, kənddən yetişməkdə olan güclü mühafizə altında katorqaya, gedərgəlməzə göndəriləcyini, ya qətlə yetiriləcəyini bilib, tədbir görürlər; yasavulları yuxuya verib Nəbinin saxlandığı mal tövləsinin üstdən bacasını genişləndirib ayağına vurulan qıfıllanmış at buxovu, qollarına bağlanmış zınqırovlu qandalların səs salmaması üçün əski parçaları ilə bürüyüb sarıyıb ziyansız, həm də yasavulları güdaza verməmək xatirinə qaçırdıb Dondarlının məşhur qalın bağlarına gətirirlər, qandalların kəsib doğrayıb at, yol yeməyi də verib Bərşad çayından keçirib üzü o çay Həkəriyə tərəf azad buraxırlar. Nəbi bilirdi ki, bundan sonra nəinki təkcə onu, qohum-əqrəbasını da dinc buraxmayacaqlar, ona görə qardaşı Mehdi, Həcər, qaynı Məhəmmədlə birlikdə qaçaqçılığa başlayırlar.[26] Nəbinin dəstəsinə qoşulanların əksəriyyəti el-obada qoçaqlığı, cəsarət, şücaəti ilə tanınıb seçi-

---

[24] http://moderator.az/qarabagh/384413/qacaq-nebinin-saxlanildii-kamerada-yatanda-dehsete-geldim-dilqem-esgerov/

[25] https://www.youtube.com/watch?v=nLR9rfb4K-Q

[26] B.B,150-152

lən, zülmkarlara qarşı barışmazlığı ilə sayılan, bəziləri hökumət adamlarını, bəyləri öldürən, həbsdən, sürgündən qaçıb gizlənən yetkin gənclər idi; Sofulu Balakişi, Dağtumaslı Allahverdi, Xıdır, Mahmud, Lətif, Atakişi, Telli Qara, Tuz Vəli, İsgəndər, Qoca, Mollu Kərim, Başkəndli Ağahüseyn, Şahhüseyn, Məmmədhüseyn qardaşları bu dəstənin qorxubilməz savaşçıları idi.[27]

## QAÇAQ NƏBİ MÜBARİZƏSİNİN ƏSAS HƏDƏFİ İŞĞALÇI RUS ÇARİZMİ İDİ

"Qaçaq Nəbi" dastanında təsvir olunan hadisə, detallar Bəhlul Behcətin sözügedən kitabında, arxiv sənədlərində oxuduğumuz materiallarla çox yerdə üst-üstə düşür. Ən çox da bu başlığa aid olan hissələr: "İrəvan, Gəncə general-qubernatorları bütün işlərini buraxıb Nəbinin dalına düşmüşdülər. Bu zalım uşaqlarını elə bil başqa işləri yox idi. Nəbinin "cinayətlərini" toplamaq üçün Beçerov adında İrəvan silisçisi ayrılmışdı. Beçerov Nəbidən o qədər material toplaışdı ki, yalan olmasın, bir otaq tutmurdu. Nəbinin kəndlilərə verdiyi qızıl pulu vergisi qəbzləri tay-tay bağlanmışdı... İrəvanın lap böyük prokuroru Jukovski Nəbiyə bəylərin, hampaların, mülkədarların əleyhinə qalxan üsyan başçısı maddəsi vermişdi. Əslində, kişi insafla iş görüb, Nəbiyə düzgün ad qoymuşdu. Jukovski padşaha yazmışdı ki, Nəbi bildiyimiz qaçaqlardan deyil, buna yalandan qaçaq deyirlər. Bu, bəyləri, mülkədarları tamam qırmaq, torpağı yoxsul kəndlilərə paylamaq üçün qalxan güclü kəndli hərəkatıdır. Nəbi istəyr ki, dünyada ağa olmasın."[28]

Nəbinin əsas mübarizə hədəfi işğalçı rus çarizmi, onun yerlərdəki çağırılmamış istilaçı məmurları idi. B.Behcətin kitabının mündəricatındakı bəzi başlıqlara diqqət yetirək; "Nəbinin Sarımsaqlı dağında[29] Naxçıvan naçalniki Slovenski ilə davası və qar tığına

[27] B.B, s.171
[28] "Qaçaq Nəbi" dastanı, s. 393
[29] Kəlbəcər rayonunda

düşməsi", "Qaçaq Nəbinin Ərikli dağında[30] üç naçalniklə davası", Kürdlər, Göyçə, Naxçıvan, Zəngəzurdakı Çətəndaş, Qoparandağ, Qısırdağ, Güllüpir, Murov, Dikpiləkən və digər savaşların hamısında Nəbinin dəstəsi ilə döyüşənlər rus naçalnik, pristav, saldat, kazakları idi. Bu savaşların iştirakçıları, şahidləri, söyləyənlər, savaş yerlərinin dəqiq coğrafiyasına qədər hamısı kitabda yerbəyer, adbaad göstərilib və arxiv sənədlərli-yerli hakimiyyət nümayəndələrinin raport, məruzə, teleqramları ilə eyni məzmundadır. Sadə həqiqət budur ki, Nəbinin savaşdığı, öldürdükləri müsəlman camaatın torpağına, mal-mülkünə tamah salan yadellilər, çağırılmamış həyasız gəlmələrdir, yerli xalqa düşmən kəsilən, ona həqarətlə baxan soyğunçu, istismarçı, talançı rus-çar üsuli-idarəsidir. Cəlal Bərgüşadın "Bozatın belində" romanında Qaçaq Nəbinin qanına yerikləyən, qaçaq dəstəsinin "cinayətlərini" istintaq edən müstəntiq Beçerov tutulan hər qaçağa əvvəlcədən "ölüm aktı" tərtib edirdi.

Xalqın qoşduğu dastan, nəğmələrdə də Qaçaq Nəbi mücadiləsinin bu əsas hədəfləri, ən böyük düşmənin kim olduqları adbaad göstərilib; urus, qubernat-qoburnat, naçalnik, pristav, kazak, saldat, komandır, qazamat… erməni hampa və keşişləri, belə yabançı, yadelli ünsürlərə boyun əyib qarşılarında quyruq bulayan "sapı özümüzdən olan baltalar"...

*Qubernat, naçalnik gəlsin, qorxmaram,*
*Düşmənin qanından içsəm, doymaram,*
*Zalımda qisası, yəqin qoymaram,*
*Hər yanda desinlər qaçaqdı Nəbi,*
*Arvadı özündən qoçaqdı Nəbi!*

*Nəbiyəm, atımın ayağı ala,*
*Qubernat başına gətirrəm bəla,*
*Qoymarıq toxumun yer üstə qala,*
*Divanı çaşbaşa salan qoçağam,*
*Zalımlar gözünə iti bıçağam!*

---

[30] Laçın rayonunda

*Nəbinin sədası düşüb hər yana,*
*Naçalnik, pristav qal yana-yana.*

*Qazamatın yanı tökmə qaladı,*
*Saldat da zalımdı, yaman bəladı.*
*Üçtəpə düzündən qopubdur sazaq,*
*Düzülüb qarovul saldatla kazak.*
*Qoburnat, naçalnik hey kağız yazar,*
*Onların yazdığın qoç Nəbi pozar. və s.*[31]

Hüseyn Baykara yazır: "XIX əsrin axırlarındakı Azərbaycan qaçaqlarından üçünü əlimizdə olan məlumatlara və eşitdiklərimizə əsaslanaraq anlatmaq istəyirik. Zəngəzur və Naxçıvanda qorxmadan partizan müharibəsi aparan Qaçaq Nəbi Gəncə vilayəti, Zəngəzur qəzasının Aşağı Mollu kəndində (indiki Qubadlı) anadan olmuşdu. Yeddi nəfərdən ibarət ailəni atası çətinliklə dolandırırdı. Günlərin birində 16 yaşlı Nəbinin atasını bəy döyür. Bunu görən Nəbi bəyin üzərinə atılaraq onunla savaşır. Bəyin şikayətinə əsasən Nəbi həbs olunur. O, həbsdən qaçaraq həmfikirlərini ətrafına toplayır. Rus çar rejiminə və onun Azərbaycandakı əlaltıları olan bəylərə qarşı mübarizəyə başlayır. Nəbinin arvadı Həcər xanımla yanaşı baldızı Mehri xanım da bu mübarizədə yaxından iştirak edir.

Nəbi həbsxanadan qaçdıqdan sonra çar idarəsinin Azərbaycandakı əlaltıları olan mülkiyyət sahibi xan və bəylərin zülmündən cana gələn kəndlilərdən əli silah tutan bir hissəsi onun ətrafına toplanır. Nəbinin əsas düşmənləri çar rejimi, xanlar və bəylər idi. O bu mübarizədə kasıbları və onların hüquqlarını müdafiə edirdi. Nəbinin mübarizə apardığı ərazi Zəngəzur və Naxçıvan vilayətləri idi. Nəbinin müasirləri də Azərbaycanın başqa vilayətlərində qaçaqlıq hərəkatını davam etdirirdilər. İstismarçı imperializmə və rus çar rejiminə qarşı mübarizə aparan qaçaqlara xalq yaxından köməklik edir, onlarla fəxr edirdi. Xalq onları ərzaqla təmin edir, yeri gəldikdə gizlədirdi. Nəbi uzun müddət rus kazakları ilə vuruşur, sıxışdı-

---

[31] B.B, səh.252-267

rıldığı zaman İrana və Türkiyəyə sığınırdı. Çar idarəsi bu hərəkatı yatırtmaq üçün bütün vasitələrə əl atırdı. 1894-cü il iyulun 20-də Nəbinin qardaşı Mehdi Gürcivan kəndində çar casusları tərəfindən öldürülür. Bu hadisədən sonra Nəbi Gürcivan kəndinə gələrək kazaklarla döyüşə girir, rus çar idarəsində xidmət edən ağaları öldürür və Arazı adlayaraq İrana keçir. Arvadı Həcər xanım Çiçəkli kəndində qalır.

Rus idarəsinin casusları Həcərin Çiçəkli kəndində olduğunu xəbər tuturlar və Həcər bacısı Mehri ilə birlikdə həbs olunur. Gorusdakı qalada saxlanılır. Nəbi 1895-ci il oktyabrın 28-də Gorus qəsəbəsini öz dəstəsiylə əhatəyə alır, rus polkovnikindən Həcəri və baldızını tələb edir. Rus polkovniki Nəbinin bu tələbini yerinə yetirməyə məcbur olur (Həcərin dilindən söylənmişdir).

*Qazamat istidi yata bilmirəm*
*Ayaqda qandallar qaça bilmirəm,*
*Açar urusdadır aça bilmirəm*
*Mənim bu günümdə gələsən Nəbi,*
*Qazamat dalını dələsən, Nəbi.*

Beləliklə Nəbi xalq qəhrəmanı oldu və xalq aşıqları onun haqqında dastanlar yaratdılar. Aşağıda bu dastanın bir neçə parçasını misal olaraq veririk:

*Qazamat dalında gizləndim yatdım*
*Qoburnat gələndə sıçradım qalxdım*
*Aynalı tüfəngi doldurdum, atdım*
*Qoy mənə desinlər ay qacaq Nəbi,*
*Arvadı özündən ay Qoçaq Nəbi...*

*Nəbinin atlısı əllidir, beşdi,*
*Qırx gözəl içində Həcəri seçdi,*
*Güllələr urusun böyrünü deşdi,*
*Qoy mənə desinlər ay qacaq Nəbi,*
*Arvadı özündən ay qoçaq Nəbi...*

Nəbi günlərin birində dəstəsilə mühasirəyə düşür. Buna baxmayaraq o, yoldaşlarını döyüşə cəsarətləndirir, mühasirəni yararaq qurtulurlar. Nəbi mindiyi məşhur boz atına belə deyir:

*Bozat səni sər tövlədə bağlaram*
*Əgər məni bu davadan qurtarsan*
*Ayağına qızıl, gümüş nallaram*
*Qoy mənə desinlər ay qacaq Nəbi,*
*Arvadı özündən ay qoçaq Nəbi...*

Dastanın əsas mövzusu rus imperializminə qarşı aparılan azadlıq mübarizəsindən ibarətdir. Dastanda "Nəbi urusları burda qoymadı" misrası elə bu səbəbdən olduqca çox işlədilir.

1896-cı ilin mart ayında Nəbi Kərbəladan dönərkən Türkiyə ilə İran sərhəddi arasında olan Larni kəndində rus casusları tərəfindən əvvəlcədən hazırlanmış pusqunun qurbanı olur. Nəbinin xatirəsi indi də Azərilərin qəlbində yaşayır. Onun qəhrəmanlığını əks etdirən dastanlar söylənilir. Çar idarəsinin qaçaqların ailəsinə etdiyi zülm heç bir insanlığa, heç bir ədalət qanunlarına sığmırdı.

Şair Zakiri təhqir etmək üçün Şuşanın komendantı Tarxanovun onun arvadını bir rus kəndlisinə ərə verməsi Azərbaycan tarixində yaddan çıxmayan hadisələrdəndir. Bəzi qaçaq arvadlarının rus əsgərlərinin təcavüzünə məruz qalması hələ də yaddan çıxmamışdır.

Tarixçilər yazırlar ki, XIX əsrdə partizan müharibəsinin əsasını qoyan Qafqaz müsəlmanları olmuşlar. Buna misal olaraq İmam Şamilin partizan hərəkatını göstərmək olar. Müəyyən bir kənd və qəsəbədə rus əsgərləri ilə döyüşə girən qaçaqlar bir müddət vuruşduqdan sonra yenə həmin ərazidə gizlənirdilər. Bu partizan hərəkatında ən çox işlədilən taktika idi."[32]

Hüseyn Baykaranın dediyi kimi, Qaçaq Nəbinin "İstismarçı imperializmə və rus çar rejiminə qarşı mübarizə aparması", xalqa

---

[32] "Azerbaycan istiklal mücadelesi tarihi". İstanbul, 1975. https://www.edebi.net/index.php/kardes-edebiyatlar/azerbaycan-edebiyat/azerbaycan-cumhuriyeti/4892-huseyn-baykara-az-rbaycan-milli-istiqlal-mucadil-si)

yaxınlığı, uzun müddət rus kazak dəstələri ilə vuruşub sıxışdırıldığı zaman İrana və Türkiyəyə keçib orada mübarizəsini davam etdirməsi, çar idarəsinin bu hərəkatı yatırtmaq üçün bütün vasitələrə əl atması xalqın qoşduğu nəğmələrdə, bu el qəhrəmanının həyat, mübarizəsinə həsr olunmuş "Qaçaq Nəbi" dastanında, bədii əsərlərdə detallı şəkildə əks olunub.

Əhəmiyyətlisi odur ki, müəllif onların çarizmin müstəmləkə siyasətinə qarşı çıxmalarını önə çəkib, xüsusi qabardaraq bəzi tədqiqatçıların "öz məhdud görüşü ilə yanlış qiymətləndirdiyi" məqamları, onların "əsl şəxsiyyətini aydınlaşdırmaq məqsədilə" yazırdı: "Peterburqda nəşr olunan "Narodnaya Volya" qəzeti 1885-ci ildə dövlət məmurlarını, mülk sahibi bəyləri qorxuya salan qaçaqlardan söz açaraq...uzun-uzadı şikayət edirdi."

## 3 RUS VƏ 1 FARS GENERALI NƏBİYƏ QARŞI BİRLƏŞİR

Naxçıvan quberniyasının polis rəisi çar II Nikolaya yazırdı: "Zəngəzur, Naxçıvan, Ordubad, Sisianda çoxlu tərəfdarları olan Nəbinin qaçaq hərəkatı təhlükəli bir şəkil almışdır."[33]

Peterburqdan gələn təlimat, qəti tapşırıq üzrə Qaçaq Nəbinin və dəstəsinin tam məhvi məqsədilə çar generalları – Cənubi Qafqaz diyarının rəisi A.S.Şeremetyev, Yelizavetpol qubernatoru knyaz A.D.Nakaşidze, İrəvan qubernatoru A.A.Freze, İrəvan quberniya dəftərxanasının rəhbəri A.Saroyan, Naxçıvan qəzası rəisi A.S.Slavoçinskinin və digərlərinin teleqramları, bir-biri ilə yazışmalarından aydın görünürdü ki, 40-50 nəfərlik qaçaq dəstəsinə qarşı qurulan planlar hər dəfə Nəbinin və dəstəsindəkilərin cəldliyi, cəsarəti, həm də yerli əhalinin yaxın köməkliyi ilə boşa çıxırdı. Çar üsuli-idarəsi türk, kürd naçalnik, pristavlara inamsızlıqdan onların Nəbi-

[33] AMEA Tarix İnstitutunun nəşri, "Qubadlı qədim Azərbaycan torpağı Zəngəzurun qapısı, Bakı-2013, s.112

yə qarşı savaşlara göndərilməsinə imkan vermir, daha çox rus, gürcü, erməni qüvvələrindən yararlanırdı.

1880-ci ildə Yelizavetpol quberniyasına qubernator təyin olunan knyaz Aleksandır Davidoviç Nakaşidzenin də qarşısında qoyulan əsas vəzifələrdən biri tez bir zamanda Qaçaq Nəbini və dəstəsini məhv etmək idi. Ancaq aciz durumda qalan Nakaşidze heyfini Nəbiyə yardım edən bütöv kəndlərə, bəylər də daxil, əlavə vergilər qoymaqla çıxırdı. Ona Nəbini müdafiə etməyə cəhd edən istənilən məmuru, bəy, xan, kəndlini həbs etmək səlahiyyəti verilmişdi.[34]

Əslən gürcü olan Nakaşidze (1837-1905) Rusiyada hərbi təhsil alan, 1877-ci ildə Türkiyə ilə müharibə başlayanda Dərbənddə Rusiya əleyhinə qalxan üsyanın yatırılmasında xüsusi qəddarlığı ilə seçilən, bütöv kəndləri yandıraraq yer üzündən silib, əhalini kütləvi şəkildə məhv edən biri idi. A.D.Nakaşidzenin Yelizavetpol (Gəncə) quberniyasına qubernator təyin edilməsi də quberniyada getdikcə artan narazılığın qarşısının alınması ilə bağlı idi. Yerli əhaliyə qarşı nifrəti, kobudluğu, əzazilliyi qubernatora qarşı nifrət hissi yaradır və sonda bütün bunlar ona canı bahasına başa gəlir; 1905-ci ilin əvvəllərində erməni-müsəlman qırğınının yaranmasına, yayılmasına, ermənilərin üstünlük qazanmasına hər cür şərait yaradır, amma qazdığı quyuya da ilk olaraq özü düşür, terrorla qətlə yetirilir.[35]

Cəsurluğu, qorxubilməz savaşçılığı, dəstəsindəkilərin etibarı, sədaqəti, xalqın onu qoruması Qaçaq Nəbini ələkeçməz etmişdi. Yelizavetpol qubernatoru Nakaşidze Nəbinin ələ keçirilməsinin qeyri-mümkünlüyünü bilib, Naxçıvan qəza rəisi A.S.Slavoçinskiyə və Zəngəzur qəza rəisi S.Rüstəmbəyova Qaçaq Nəbinin adamlarını bir-bir məhv etməklə, dəstəni dağıtmağı əmr etmişdi. Qubernator yalnız bundan sonra Qaçaq Nəbinin tutulmağının asan olacağı qənaətinə gəlmişdi. Lakin qubernatorun tapşırığı ilə görülən bir sıra məxfi tədbirlər nəticəsində Qaçaq Nəbinin yaxın silahdaşları aradan götürülsə də, yenə Qaçaq Nəbini ələ keçirmək mümkün olma-

---

[34] AMEA Tarix İnstitutunun Elmi Arxivi, v.114

[35] http://kaspi.az/az/azerbaycana-gelmis-yerini-bilmeyen-qonaqlar/?action=disablemobile

dı. Qaçaq Nəbinin dəstəsinə milli zülmə baş əyməyən yeni-yeni cavanlar qoşulurdu.

Xüsusilə 1890-cı illərdə Nəbinin mübarizəsinin daha geniş əraziləri əhatə etməsi, dəstəsinə qoşulanların, tərəfdarlarının sayının get-gedə çoxalması çar hökumətinin narahatlığını artırırdı. Bu, arxivlərdə saxlanan sənədlərdə, o dövrdə Peterburq, Tiflisdə çıxan qəzetlərdəki yazılarda da aydın görünür. “Qafqaz”, “Zaqafqaziya”, “Novaya vremya” qəzetləri Rusiya hökumət qüvvələrinin Qaçaq Nəbiyə qarşı mübarizədə gücsüz olduğunu, onun azsaylı dəstəsinin tez-tez kazaklarla qeyri-bərabər döyüşlərə girib qalib çıxdığını dəfələrlə yazmışdı. Qaçaq Nəbinin fəaliyyət göstərdiyi bölgələrin məmurları öz raportlarında hərəkat qarşısında zəif olduqlarını dəfələrlə etiraf etməyə məcbur olmuşdular. Ələkeçməz Qaçaq Nəbi qısa zamanda tez-tez sürətlə yerini dəyişir, bir qəzadan o birinə keçir, düşmənlərini, çar müstəmləkəçilərini təşvişə salırdı. Dövrün mətbuatında verilmiş məlumata görə, Qaçaq Nəbi kiçik dəstəsi ilə 1894-cü ilin oktyabrında Naxçıvan qəzasında xalqa qənim kəsilmiş erməni, müsəlman varlılarına, yerli hökumət idarələrinə bir sıra təsirli basqınlar etmiş, qarət etdiklərini isə yoxsul əhaliyə paylamışdı. “Qafqaz” qəzetinin müxbiri 1894-cü ilin oktyabr ayında çıxan ilk nömrəsində Culfa qəsəbəsindən qəribə bir hadisənin şahidi olaraq yazırdı ki, oktyabr ayının 12-də, axşam burada məlumat alınmışdır ki, Nəbi öz dəstəsilə bizim tərəfə keçəcəkdir. O halda, burada olan inzibati və sərhəd mühafizə dəstəsinin komandanlığına xəbər verilib və məcbur edilmişdir ki, gözlənilməz, ekstremal halda atışmaların baş verəcəyinə hazır olsunlar. Eyni zamanda mühafizə qərargahlarının müdafiəsinin möhkəmləndirilməsi məqsədilə oraya əlavə qüvvələr göndərilib. Çox cəsur və zirək olan Qaçaq Nəbi, inzibati idarələr xəbər tutana qədər gah Cənubi Azərbaycana keçir, gah da Naxçıvanda və Şərur-Dərələyəz qəzalarında görünürdü. Qaçaq Nəbini ələ keçirməkdə çətinliklərlə üzləşən polis orqanları bəzən Qaçaq Nəbinin Cənubi Azərbaycandan Naxçıvana keçdiyi zaman tutulması barəsində yalan şayiələr yaymaqla həm əhalini çaşdırmağa, həm də Tiflis və Peterburqdan gələn tənə, təzyiqləri azaltmağa

çalışırdı. Lakin belə şayiələr dalbadal boşa çıxır, hökumət nümayəndələri gülünc vəziyyətə düşürdü.

1890-cı illərdə Peterburq, Tiflisdə çıxan "Qafqaz", "Zaqafqaziya", "Novaya vremya" qəzetləri Rusiyanın hökumət qüvvələrinin Qaçaq Nəbiyə qarşı mübarizədə gücsüz olduğunu, onun azsaylı dəstəsinin tez-tez kazaklarla qeyri-bərabər döyüşlərə girib qalib çıxdığını dəfələrlə yazmışdı. Peterburqda çıxan "Novaya vremya" qəzetində dağıstanlı Qaçaq Nəbi tutulanda "Nəbi tutulmuşdur" başlıqlı məqalə dərc olunmuş, dağıstanlı qaçaqla zəngəzurlu qaçaq səhv salınmışdı. "Qafqaz" qəzeti "Novaya vremya" qəzetinə rişxəndlə yazırdı: "Redaksiya sevindiyindən onu dağıstanlı Nəbi ilə qarışdırmışdır.... Məşhur Qaçaq Nəbi öz dəstəsilə heç vaxt Quba qəzasında olmamışdır."[36]

Şeremetyevin göstərişinə əsasən, Qaçaq Nəbinin mübarizəsinin vüsət aldığı Yelizavetpol quberniyası daxilində bu mübarizəyə qarşı 1895-ci ilin baharında bir sıra təcili tədbirlər işlənib hazırlandı. Şeremetyevin qəbul etmiş olduğu həmin mübarizə tədbirlərinə görə, quberniyanın sərhədlərində mühafizə qərargahları qurulmuş, Araz çayı sahili əraziləri nəzarətdə saxlamaq məqsədilə kəşfiyyat süvari dəstəsi yaradılmış, sərhəd xətti boyu kazak piyada batalyonunun iki xüsusi nişançı könüllü komandası ezam edilmişdi. Hətta, Cəbrayıl, Şuşa və Cavanşir qəzalarının əhalisinin hesabına yerlilərdən ibarət 114 atlıdan və 16 uryadnikdən ibarət müvəqqəti səyyar mühafizə dəstəsi yaradılmışdı.

O, daha sonra 1895-ci ilin avqustunda İrəvan quberniyasında Qaçaq Nəbiyə qarşı görülən bütün tədbirlərin nəticəsiz olduğundan bəhs edərək "cəzasını verə bilmədiyiniz Nəbinin dəstəsinin istənilən vaxt İrana keçmək iqtidarında olduğunu" əlavə edirdi. Əməliyyat planına əsasən, İrəvan qubernatoru A.A.Freze yerli polis rəislərinə Naxçıvan qəzasında kazak və yerli bəylərdən ibarət dəstə yaradılaraq Əbrəqunus, Şahbuz və Ordubad dağlarına çıxarmaq, Əlincə çayı boyunca dağ keçidlərində və habelə dağ kəndlərində keşikçi kazak dəstələri təşkil etmək, İrəvan və Şərur-Dərələyəz qəzaların-

---

[36] Kafqaz,11.07.1895, №181

dan keçib Naxçıvanın Şahbuz məntəqəsinə gələn, yerli inzibati idarə məmurlarını təşvişə salan qaçaqları məhv etmək əmri vermişdi.[37]

Hətta, 18 nəfərlik dəstənin İran tərəfə keçmək istəməsi barədə məlumat alan A.A.Frezenin qabaqlayıcı tədbirlərinə baxmayaraq, Nəbigil onların gözləmədikləri yerdən yol tapıb sakitcə o taya keçmişdi.

Sentyabrın 16-da Qaçaq Nəbinin növbəti dəfə Naxçıvana gəlişi İrəvan qubernatoru A.A.Frezenin Cənubi Qafqaz diyarının baş rəisi A.S.Şeremetyevə ünvanladığı təliqəsində belə təsvir olunur: "O, Naxçıvanda peyda olanda,onun tərəfindən varlıların qarət olunacağı, düşmənlərindən qisas alınacağı və qışı İranda keçirəcəyi kimi şayiələr yayılmağa başladı. Buna görə də, kazaklar, könüllü və sahə komandaları xəbərdar edilmiş, həmçinin Qaçaq Nəbinin keçəcəyi ehtimal olunan dağ yerlərində və dərələrin ayrı-ayrı yerlərində gizli mühafizə qərargahları qurulmuşdu. Sentyabrın 16-da səhər mühafizəçilər Qaçaq Nəbinin dəstəsinin Nəsiravaz dağ keçidini keçməsi haqqında məlumat verdikdən sonra Ordubad şəhər pristav köməkçisi Mehdi bəy Hacıyevin, Ostrouxovun və uryadnik Məmməd Rahimin komandaları vaxt itirmədən Nəsiravaz kəndinə doğru getdilər. Qaçaq Nəbinin dəstəsini burada tapa bilməyən hökumət qüvvələri Gel kəndində gecələdikdən sonra səhər axtarışlarını davam etdirdilər. Ordubad şəhər pristav köməkçisi Mehdi bəy Hacıyev könüllü dəstənin izi ilə gedərək Arpadərə adlı yerdə qaçaq dəstəsi ilə üz-üzə gəldi və şiddətli atışma başlandı. Pristav köməkçisi Qaçaq Nəbinin öhdəsindən gələ bilməyəcəyini anlayaraq, Ostrouxovun dalınca adam göndərməklə onu da vuruşma yerinə tələsdirdi. Tezliklə döyüş yerinə poruçik şahzadə Şahruxun başçılığı ilə kazak dəstəsi də gəlib çıxdı. Tərəflər arasında döyüş axşama kimi davam etdi. Sayca üstün olan hökumət qüvvələrinə müqavimət göstərmək əhəmiyyətsiz olduğundan Qaçaq Nəbi qaranlığın düşməsindən istifadə edərək oradan uzaqlaşdı. Atışmalarda qaçaq dəstəsindən iki nəfər öldürüldü".

Həmin gün Nəbinin qələbəsi ilə başa çatmış atışmalarda iştirak etmiş Mehdi bəy Zeynalabdinbəyov yazırdı: "1895-ci il sentyabr

---

[37] Yenə orada, s.173.

ayının 16-da “Donuzqıran” adlanan yerdə 40 nəfərdən ibarət məşhur Qaçaq Nəbinin dəstəsini izləyərək...Çənnab kənd yüzbaşısı Ter-Sarkisovun dəstəsi ilə birlikdə qaçaq dəstəsi ilə atışdım... Buna görə qubernator general-leytenant Frezedən mükafat olaraq qızıl saat aldım”.

İrəvan Məhkəmə Palatasının mütərcimi Məhəmməd Mirzəyev yazır: “çar hökuməti və mülkədarlar üçün Nəbi hərəkatı böyük təhlükə idi. İran və Türkiyə hökuməti öz agentlərini bu ölkələrə göndərmişdi. Onlar Türkiyə və İran xəfiyyəsi ilə birlikdə Nəbini izləyirdilər. Onların sırasında ordubadlı Paşa bəylə Xosrov bəy Fərəcovu, salmaslı Arzumanyanı, naxçıvanlı Allahverdi bəyi, kərbəlayı Məhəmmədi, kərbəlayı Mürsəli, İsgəndər bəyi və b. xüsusu qeyd etmək lazımdır. Nəbini öldürəcək, yaxud bu işdə fərqlənəcək şəxslərə çar hökuməti çoxlu pul, qiymətli hədiyyə, yüksək rütbə, medalla təltif olunma vəd etmişdi”.[38]

Bəhlul Behcət Qacarlar İranı tərəfindən Qaçaq Nəbiyə hazırlanan sui-qəsdin icrası, başçısı general Bahadır xan Paşa bəy haqqında yazır: “Paşa bəy İran şahı Müzəffərəddin şahın lap sahib-nüfuz məmurlarından biri idi. Hətta, Müzəffərəddin şah Avropaya səyahətə gedəndə Paşa bəy də onun yan-yörə adamlarından idi”.[39]

Nəbinin qətlində icraçı olan əsas fiqurlar məşədi Paşa ilə Şahhüseyn həm Rusiya, həm İran generallarından yaxşı vədlər almışdı.[40]

---

[38] B.B.səh.15
[39] Yenə orada, səh.15
[40] Yenə orada, səh.16

# QAÇAQ NƏBİNİN MƏHVİ ÜÇÜN PETERBURQDAN XƏFİYYƏ GENERALI QAFQAZA EZAM EDİLİR

Rus çarizminin Cənubi Qafqazdakı generallarının Qaçaq Nəbinin və dəstəsinin tam məhvinin Qacarlar İranı və Osmanlı dövlətlərinin köməyi olmadan mümkünsüzlüyü barədə raport, məlumatlarını nəzərə alan Peterburq sarayı ən təcrübəli xəfiyyələrindən olan general-leytenant D.Skalonu məxsusi olaraq Qafqaza ezam edir.

General-leytenant D.Skalon Peterburqa raportunda Qaçaq Nəbi ilə bağlı vəziyyəti izah edərək yazırdı: "Əhali hakimiyyət orqanlarına quldurların yerini nəinki nişan verir, hətta, quldurlara böyük bir qonaqpərvərlik göstərir, inzibati orqanlar cinayətkarları tutmağa cəhd etdikdə, əhali açıqcasına onlara mane olur."

Onun planında Osmanlı və Qacarlar İranından həmin dövlətin ərazisində gizlənən Rusiya qaçaqlarının tezliklə Rusiyaya təhvil verilməsi və Rusiya ərazisində gizlənən qaçaqların da həmin dövlətlərə təhvil verilməsi, sərhədboyu ərazilərdə qaçaq dəstələrini müdafiə edənlərin oradan uzaqlaşdırılması və burada qaçaqların ələ keçirilməsi üçün sərtləşdirilmiş qaydaların tətbiq edilməsi və s. daxil edilmişdi.[41]

Culfadakı Rusiya ali konsulluğunun başçısı knyaz Dobidze də bu xəyanətkar plana qoşulur.[42]

General Skalonun bu məqsədlə Qafqaza gəlişi, Qaçaq Nəbi haqqında "18 qovluq möhürlü dəlil-sübut toplaması" Cəlal Bərgüşadın "Bozatın belində" romanında da real arxiv sənədlərinə istinadla bədii əksini tapıb.[43]

---

[41] Qubadlı, səh.123

[42] http://zengezur.com/index.php/mzhallr/220-khalzh-zh-hr-man-zha-azh-n-binin-m-bariz-si-tarikhd-elmi-d-biyyatda-v-folklorda

[43] Cəlal Bərgüşad, "Bozatın belində" səh.347

# QAÇAQ NƏBİ XƏYANƏTKAR ERMƏNİLƏRİN QƏNİMİ İDİ




B.Behcətin kitabında Nəbinin həyat və mübarizəsində ermənilər, ermənilikle mücadilə xüsusi yer tutur. Bunun bir səbəbini də "Qaçaq Nəbinin qaçaqçılıqdan əvvəlki həyat şəraiti. Nökərçilik" bölümündən öyrənirik.

Nəbinin doğulub böyüdüyü Zəngəzur qəzasında az sayda yerli ermənilərlə birlikdə İran, Türkiyədən xeyli gəlmə erməni də var idi, onların da çoxu ticarətlə, sənətkarlıqla məşğul olur, kəndbəkənd gəzir, ucuz alıb baha satırdılar. Nəbinin atası vəfat etdiyindən, uşaq yaşlarından yeddi nəfərlik ailəni dolandırmaq onun boynuna düşmüşdü. Ağır külfətin çörəkpulunu qazanmaq istəyi onu ermənilərə tuş gətirir. Nəbinin uşaqlıqdan camaatla ünsiyyət qurmaq qabiliyyətini, əlinin təmizliyini, düzgünlüyünü, zirəkliyini, cəsarət və ağlını, kənd, obaları, gizli yol-irizlərini, təhlükəsiz yerləri tanımasını görüb qiymətləndirən erməni tacirlər onu nökərçiliyə-bələdçiliyə götürmüşdülər, Şuşaya, yaxın-uzaq kəndlərə göndərdikləri mal yüklərini arxayınlıqla ona etibar edirdilər. Ancaq Nəbi də təmasda olmaq məcburiyyətində qaldığı erməniləri – Şinətağlı Hovanes, Boqdan, Şuşalı Davud, Xudan və s. yaxından tanıdıqca onların xislətinə, məkrli niyyətlərinə daha yaxından bələd olurdu, yoxsul, avam müsəlmanları necə aldatdıqlarını, nifrət, kin-küdurətini də aydın görürdü. Rus naçalnik, pristavları ilə ermənilərin müsəlman türk, kürdlərə qarşı necə əlbir, məkrli oyunlar qurduqlarını da uşaqlıqdan görüb anlayırdı.

B.Behcətin kitabının "Qaçaq Nəbinin Xinzirəyə hücumu və Gorusun pristavı Bedrus bəylə keşişi öz evində öldürməsi", "Qaçaq Nəbinin dağbəyi Ginkor Qrikoru öldürməsi", "Nəbinin Xuçmanski Lütvəli bəyi öldürməsi", "Nəbinin qardaşı Mehdinin Ordubadın Qarçevan kəndində ermənilər tərəfindən öldürülməsi və intiqamı"

və sair başlıqlı yazılarda bədnam ermənilərin mənfur niyyətləri, azərbaycan-türk əhaliyə qarşı kin-küdurəti və Nəbinin onlara cinayətləri müqabilində verdiyi cəzalar yerli-yataqlı əks olunub.

*Bu davada Nəbi tufan eylədi*
*Kazakları qırıb fiğan eylədi.*
*Burda Nəbi yenə bir ad eylədi*
*Erməni Ginkuru murdar eylədi.*

Əhliman Axundovun "Qaçaq Nəbi" kitabında Nəbinin Yazı düzündə insafsız erməni tacir Simonun varidatını alıb yoxsullara paylaması səhnəsi qələmə alınıb. Çünki o tacir həm də kasıblayan yerli türk, kürd bəylərdən müxtəlif hiylə işlətməklə torpaq alıb erməniləri oralara köçürməklə məşğul idi.

1895-ci il sentyabrın 6-da Qaçaq Nəbinin dəstəsi Naxçıvan qəzasında erməni tacirlərin mallarını əllərindən almışdı. İrəvan qəzasının Vedi kəndindən hökumətdən narazı olan Xanbala Sultan oğlu və Sibir sürgünündən qaçmış qaçaq Heydərin vedililərdən ibarət otuz nəfərlik dəstəsi ilə birləşib səksən nəfərlik dəstə ilə sentyabrın 8-də vedililəri incidən, hökumət adamlarına və ermənilərə xidmət edən İsmayıl Yusif oğlunun evinə hücum edib görk üçün dağıtmış, atışmada qohumlarından birini öldürmüşdü.

Ermənilərə nifrət, qəzəbi daha da artan Nəbi Dərələyəz, Uz, Dulus, Ağkənd, Binis kəndlərində də erməni, rus dəstələrinə qarşı savaşlarda yenə xeyli rus, erməni qırıb, çox sayda silah, patron ələ keçirib ehtiyat tədarükünü görmüşdü. 1895-ci il 12 sentyabrında Qaçaq Nəbi silahdaşları ilə Dərələyəz mahalının Uz kəndində rus əlaltısı Moses Markarov adlı varlı bir erməninin həyətinə erməni varlılarını toplayır, Moses Markarovdan üç tüfəng və 337 patron, Osip Sarkisovdan bir tüfəng və 57 patron, 591 rubl pul, qiymətli əşyalar, atlar alaraq çıxıb gedir. Arxalarına düşən kazak dəstəsi ilə Dulus kəndi ətrafında döyüşə girir, Nəbi dəstəsini iki hissəyə bölüb Ağkənd, Binis, Təzəkənd və Hortuyüz kəndləri həndəvərində də pusqu qurub xeyli rus sərhədçi, kazakı öldürür. Bir neçə gün əvvəl Şuşadan Zəngəzur qəza rəisi vəzifəsinə təyinat almış Səlim bəy

Rüstəmbəyov Naxçıvan qəza rəisini də xəbərdarlıq etməklə hər ikisi Qaçaq Nəbinin dalınca düşürlər, hökumət qüvvələrinin hər tərəfdən üzərinə gəldiyini görən Nəbi təqibdən yayınaraq hər keçidinə bələd olduğu ilboyu başı qarlı, dumanlı, çənli Salvartı dağlarında gözdən itirlər. Lakin yolda o, Qafana bitişik Şabadin və Ecanan kəndlərində də varlı ermənilərin bir neçəsinə divan tutub, şikayət sənədlərində göstərilən 1000-1200 rubl dəyərində qənimət də əldə etmişdi. Nəbinin türk-kürd kəndlərinin həyati mənafeyini ermənilərdən və çar hökumətindən necə qorumasına dair bir fakt da arxivlərdə qalır. Zəngəzur qəzasının əsrlər boyu Sultanovların mülkü olmuş Zeyvə kəndinin münbit torpaqlarının (bu günlərdə həmin məsələ yenə gündəmdədir – H.N) hökumət adamlarının üzgörənliyi ilə alınıb ermənilərə verilməsi barədə şikayəti həll etmək üçün Tiflisdən buraya təhqiqat qrupu göndərilir. Nəbinin hər yerdə adamları var idi, bunu ona çatdıran kimi Nəbi yolda onların qabağını kəsir, məsələyə ədalətli baxılmasını tələb edir, əks halda cəzalanacaqlarını deyir. Məmurlar Qaçaq Nəbinin qorxusundan mübahisəni yuxarıdan deyilən kimi yox, şikayətçilərin xeyrinə, həm də ədalətlə həll edir (Kafqaz, 1895, 27 sentyabr nömrəsi).

Bu kimi səbəblərdən də təkcə sadə kəndlilər deyil, bir çox yerli bəylər də bacardıqca Nəbini, dəstəsindəkiləri hökumətdən qorumağa çalışırdı. İrəvan qubernatorunun Tiflisə raportundan: “Nəbinin dəstəsinin fəaliyyət göstərdiyi bölgənin, demək olar ki, bütün müsəlman əhalisinin hamısı onu müdafiə edir və qoruyur.”[44]

Ermənilər bizdən fərqli olaraq heç nəyi unutmur. Qaçaq Nəbi haqqında film çəkiləndə Moskvaya çox sayda teleqram vurmuş, güclü kampaniya təşkil etmiş, Moskvadakı himayədarlarının əlbir səyi ilə filmin adını 2 dəfə dəyişdirərək həm də çox yerinin kəsilib doğranmasına nail olmuşdular.

Çar məmurları bəzi igid, nüfuzlu bəyləri də Qaçaq Nəbiyə qarşı mübarizəyə məcbur, səfərbər edirdi. Bunlardan biri Dərələyəzin Canılı kəndindən olan Cəlal bəydir ki, ona Qaçaq Nəbini tutmaq, ya öldürmək tapşırığı verilir. Qubernator onu Bazarçayla Sarıyer

---

[44] Tİ, EA-3993(1)v.50

arasında göndərir ki, Nəbini bir hiylə qurub tutsun, xeyli də mükafat boyun olur. Cəlal bəyin adamları ilə Nəbinin dəstəsi deyilən yerdə vuruşurlar. Nəbi sərrast atəş açan, igid bir adamın onunla vuruşmasının əsl səbəbini, məcburiyyət qarşısında qalıb onun üstünə gəldiyini öyrəndikdən sonra yüklü atlardan ikisini orada qoyaraq çıxıb gedirlər. Cəlal bəy də oraya gəlib çıxan qubernatorun dəstəsinə deyir ki, nə üçün mənim köməyimə gəlmədiniz. Onlar bizdən çox idilər, göz açmağa imkan vermirdilər. Mən onları xeyli qovdum, yüklü atları çəkib aparmağa imkan vermədim, deyəsən, yaralıları da oldu. Ancaq nə edim, gücüm çatmadı. Ancaq kazaklar Calal bəydən şübhələnirlər. Hətta el içində onlara nəğmə də qoşulub:

*Qayalardan gəlir Nəbinin səsi*
*Calal bəylə gedən cəngi, nərəsi*
*Aşıq qəhrəmanın xoş zənguləsi*
*Söylənir payız, yaz Dərələyəzdə.*[45]

Qaçaq Nəbinin əsas qəddar düşməni də elə çarizmin yerli idarələrində işləyən ermənilər olub. Onların arasında qubernatorun yaxın adamlarından olan pullu, varlı Arzumanyan və Kinkor adlı ermənilərin adı daha çox keçir. “Qaçaq Nəbi” dastanından “Nəbi Zəngəzurda” adlanan hissəni oxumaq kifayətdir. Burada qəhrəmanımızın erməni varlıları ilə düşmənçilik münasibətləri, Kinkor bəyin atlı dəstə ilə onun üstünə gəlməyi, Nəbiyə kömək etdiklərinə görə dinc əhaliyə divan tutması, buna görə əsir tutulub öldürülməsi tarixi gerçəkliklərlə də uzlaşan şəkildə əks olunub.[46]

Qaçaq Nəbinin haqqında arxiv sənədlərinin arasında tez-tez ən çox donosçu ermənilərin adı görünür. Bunlar bir daha təsdiq edir ki, Nəbinin əsas düşməni çar Rusiyasının yerli məmurları, onların yel verib qudurtduğu namərd ermənilər, bu rejimə qulluq edən mal-mülk sahibləri idi.

---

[45] Azərbaycan folkloru antologiyası (2006). XV Kitab. Dərələyəz folkloru. Toplayanlar: H.Mirzəyev, H.İmayılov, Ə.Ələkbərli. Bakı: Səda, s.344-346

[46] “Qaçaq Nəbi” dastanı, “Çıraq” nəşriyyatı-2009, amea Folklor İnstitutunun nəşri, Səh.73-90

Tarixi torpaqlarımızda ağalıq edən mənfur yad dilli, xristian təəssübkeşli silahlı dəstələr 20 ildən artıq mübarizəsində dəfələrlə Qaçaq Nəbiyə qarşı qurduqları mühasirə həlqəsi daralanda Nəbi dəstəsi ilə birlikdə Anadolu-Osmanlı-Türkiyə torpaqlarına üz tutur, oradakı etibarlı dostlarına sığınır, ailəsini onlara etibar edir.

Onu da deyək ki, Türkiyə mənbələrində Nəbinin qaçaq düşməsi Azərbaycandan fərqli olaraq, varlı bir ermənini öldürməsi ilə başlanır, onun rus-erməni birliyinə, hökumətinə qarşı savaşdığı daha qabarıq şəkildə təsvir olunur. Bu barədə kitabımızın ayrıca bölümündə materiallar verilir.

## MEHDİNİ ERMƏNİLƏRİN ÖLDÜRMƏSİ, NƏBİNİN İNTİQAMI SƏNƏDLƏRDƏ VƏ DASTANDA

1894-cü il iyulun 20-də Nəbi dəstəsi ilə yenə Zəngəzur, Naxçıvanda təqiblərdən yayınıb Arazı keçib İran tərəfə adlamaq istəyir. Hər yerdə çuğulçular qaçaq dəstəsinin izində idilər, Nəbinin özünün, adamlarından kimin yerini desə, öldürsə elan edilən mükafatı almaq həvəsində idilər, əsas da ermənilər. Qardaşı Mehdi Ordubadın ermənilər yaşayan Qarçevan kəndində qaçaq dəstəsindən ayrılıb kazakların onların izinə düşüb düşmədiklərini, saylarını, istiqamətlərini öyrənmək üçün kənddə qalır. Nəbinin əlindən yanıqlı olan naçalnik, pristava sədaqətlə xidmət edən erməni hampaları çuğulçuluq edib, xəbəri çatdırırlar, gecə ilə onun düşdüyü evi tapıb mühasirəyə alırlar. Mehdini zülüm, işgəncə ilə öldürürlər. “1832-ci ildə Karçevan kəndində 22 yerli, Təbrizdən köçürülmüş 6, Salmasdan 1-cəmi 29 erməni ailəsi, hər cinsdən 77, cəmi 154 erməni yaşayırdı”.[47] Nəbi əziz qardaşının, silahdaşının ölüm xəbərini, nəşinin düşmən əlində qalmasın eşidən kimi dəstəsiynən geri qayıdır. Gecəynən ətraf dağlarda gizlənib fürsət gözləyirlər.

---

[47] Nazir Əhmədli, “Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsviri”, Elm və təhsil”-2021. S.584

23 iyul 1894-cü ildir. Nəbi kəndə girməzdən əvvəl silahdaşlarından iki nəfəri, o cümlədən Musa Məşədi Həsən oğlunu çapar qiyafəsində göndərir, Ordubad həbsxanasından qaçmış Qəmbər adlı birisini qabaqlarına qataraq Qarçıvan kəndinə göndərir. Guya o, həbsxanadan qaçdığından pristav tərəfindən tutulub qolubağlı Gorusa aparılacaqdı. Çapar kəndə girən kimi kənd hampalarına Ardınca iki nəfərə atlı, silahlı kazak çaparı qiyafəsi geyindirib kəndə xəbərə göndərir ki, həbsdən qaçan məhbusu yaxalamaq üçün naçalnik, pristav öz dəstəsi kəndə gəlir. Çaparlar kəndə çatan kimi dərhal hampa, keşişə, digər varlılara səs-soraq şatır, xəbər verilir ki, indi qəza rəisi və kazaklar gəlib çatır, pişvaza çıxsınlar. "Qəza rəisi" başının dəstəsi ilə 18 nəfər atlı "kazak"la kəndə girir. Kəndin başbilənləri, hampa və keşişləri pişvaza çıxırlar. Məsləhət bəhanəsilə kilsəyə yığışırlar və kilsənin qapısını bağladıqdan sonra "qəza rəisi", "pristav" libaslarını çıxarırlar, kəndin böyüklərini titrətmə tutur, vəziyyətdən hali olurlar. Nəbi sorğu-sual edir, Mehdini öldürənlərin, yerini deyənlərin hamısını öyrənir, çağırdır, meydançaya gətirdir. Öyrənir ki, qatillər pristavdan paylarını alıb gizli şəkildə saldatların mühafizəsində Tiflisə yola salınıblar. Nəbi varlıların daşına bilər bütün əmlaklarını gətizdirir.[48]

Tiflisdə çıxan "Kavkaz" qəzetində bu barədə gedən məlumat eynilə digər sənədlərlə də təsdiqini tapır. Qaçaq Nəbi Mehdinin ölümündə əli olan hər kəsin cəzasını verir, toplanan qəniməti 17 dəvəyə yüklədir, yol boyu kasıb kəndlilərə payladır, qalanını Arazın o tayına keçirdir, burda yoxsullara payladır, çəkidən yüngül qalan hissəsini özü ilə götürür. Qəzetin yaymış olduğu məlumatda hampa və varlı keşişlərdən qarət edilmiş əmlakın dəyəri 29 min rubl göstərilir. Xəyanətkar ermənilərə layiqli dərs olan Qarçıvan hadisəsi uzun müddət xalqın yaddaşından silinmədi, yeni mahnılara, dastanın bir səhifəsinə çevrildi.

*Tez yetir özünü haraya, Nəbi*
*Düşmən salıb məni araya Nəbi!*

---

[48] Qubadlı, s.173

Mehdinin nəşi yaxınlıqdakı müsəlman kəndində etibarlı dostların yardımı ilə dəfn edilir.

*Gör nə vaxtdı mən görmürəm elimi*
*Mehdinin ölməyi əydi belimi,*
*Qanmadım düşmənin fitnə-felini*
*Gərək düşmənlərdən qan alıb gedim*
*Erməni yurduna od qoyub gedim.*[49]

Qeyd edək ki, Nəbinin qardaşı Mehdinin xain qətlinin intiqamını alması "Qaçaq Nəbi" dastanında da təqribən tarixi həqiqətə uyğun şəkildə təsvir olunub. "Mehdinin öldürülməsi" başlıqlı hissə belə başlayır:

"Nə başınızı ağrıdım, Nəbigil üç ölkənin mülkədarları, hampaları, hökumət məmurları ilə vuruşurdular. Naçalniklər, pristavlar öz aralarında Nəbini qaçaq hesab eləmirdilər. Bəyləri, mülkədarları qırmaq istəyən kəndlilərin başçısı hesab eləyirdilər. Əslində də elə idi. Lap düz başa düşmüşdülər. Mülkədarlar, bəylər, hampalar üzbəüz davada Nəbi ilə bacarmırdılar, onu kəndlilərin əli ilə öldürə bilmirdilər. Onlar hampaları kəndlərə dağıtmışdılar. Bu casuslardan biri Qarçıvanlı Cavadın oğlu Sarı Savad idi.

Sarı Savad çox hiyləgər və yaltaq adam idi. Adına da şeytan Savad deyərdilər. Savadı İrəvan yaranal-qubernatoru Freze və Gəncə yaranal-qubernatoru Nakaşidze öz yanına çağırdı. Hər ikisi ona vəd etdi ki, Nəbini öldürsən, sənə medal verib Zəngəzura naçalnik təyin edəcəyik, həm də Nəbinin başı ağırlığında sənə qızıl verəcəyik. Savad onlara söz verib getdi."

Bundan sonra Mehdinin Qarçıvanda öldürülməsi, Nəbinin dəstəsi ilə naçalnik paltarında Qənbər adlı guya ki bir dustağı da qabaqlarına qatıb Qarçıvana gəlməsi, qardaşının intiqamını alması, Sisianda İvan bəyi öldürtməsi, Mehdidən sonra erməni hampalarına, naçalnik, pristavlarına göz verib işıq verməməsi rəsmi arxiv sənədləri, çar məmurlarının raportları, yazışmaları, dövrün qəzetlərin-

---

[49] B.B, s.226

də gedən məlumatlarla üst-üstə düşür. Əfsus ki, cəmiyyətdə, elmi elmi dairələrdə də bəzən belə bir fikir hakim olur ki, dastandır da, xalq qoşub, özündən quraşdırıb, doğruluğuna etibar yoxdur və sair. Ancaq belə yanaşma düzgün deyil. Dastandakı bu parçadan da göründüyü ki, İrəvan, Gəncə general-yaranal qubernatorlarının, naçalnikin, hətta, həqiətən də o dövrdə həbsaxanadan qaıb gizlənən Qənbər adlı dustağın da adları arxiv sənədləri ilə eynidir. Yəni yaxın, çox da uzaq olmayan Qaçaq Nəbinin gerçək tarixi ilə dastan, eləcə də bədii ədəbiyyatda, nəsrimizdə təsvir olunan, nəql edilən hekyətlərin böyük əksəriyyəti realdır, üst-üstə düşür. Bu cür müqayisələri-tarix-dastan paralellərini uzatmaq da olar. Dastanlarda xalq sevgisi, duyğusal səhnələr, lirk ricətlər o qədər təsirlidir ki, istər-istəməz o hissləri oxucu da yaşamalı olur.

"Mehdinin öldürülməsi" hissəsi Nəbi, Həcərin Molluya gəlişi ilə bitir.

"Nəbigil Mahmud bəyin dəstəsində olanları qovub ilim-ilim itirəndən sonra Molluya getdilər. Gözəl Nəbini görəndə hönkürtü il ağlayıb onu qucaqladı, göz yaşını oğlunun göz yaşına qatdı: – Oğul, Nəbi, Mehdinin toyuna gəlmisən? Hanı mənim balam?

*Araz aşanda mələr,*
*Kür qarışanda mələr,*
*Analar balasından*
*Ayrı düşəndə mələr.*

Nəbi anasının gözündən öpdü: – Axı bizi niyə doğurdun? Bizi doğurdun ki ürəyinə çarpaz dağlar çəkilsin? Yazıq nənə, sən gözündən axıtdığın yaş dəryadan axsaydı, indi qurumuşdu.

Arvadlar, kişilər töküldülər. Gözələ təsəlli verdilər. Həcər Gözələ dedi: – Nənə, bəs mənim yerimə olsaydın, neylərdin? Sən üç oğul dağı görmüsən, amma mən yüzdən çox Mehdi, Telli Qara, Qoca, Zeynalabdin, Alı, Zaman, Qasım kimi igid qardaşları itirən bacıyam!..."[50]

---

[50] "Qaçaq Nəbi" dastanı, AMEA Folklor İnstitutunun nəşri, "Çıraq" nəşriyyatı-2009, səh. 301-310



*Ermənilərin İrandan Azərbaycan torpaqlarına (Naxçıvan, İrəvan, Qarabağ) köçürülməsi (Rus rəssamı V. Maşkovun çəkdiyi şəkil).1828-ci il.*

## NOVRUZ BAYRAMINDA SUİ-QƏSD

Qaçaq Nəbi yorulmadan bu tayda rus hökumətinə qarşı necə vuruşurdusa, o tayda da fars sərbazlarına elə qan uddururdu. Təkcə 1895-ci ilin sentyabr-oktyabrında Qaçaq Nəbi Maku, Qaradağ, İrəvan, Şərur-Dərələyəz, Naxçıvan və Zəngəzur qəzalarını gəzib məmurlara və qaçaq ailələrini incidən, sürgünə göndərən düşmənlərinə divan tutmuşdu. Artıq Arazın o tayında da hökumətdən narazılıq artmağa, qaçaqçılıq halları yayılmağa başlamışdı. Ona görə də fars ajanları, mülkədarları rus tərəfinin təklifinə, planlarına tərəfdar çıxıb icrasına hər cür yardım edirlər. İran yetkililəri fars ajanlarını, xəfiyyələrini də şirnikləndirir, təşviq edirdilər.

1895-ci ilin avqustunda Peterburqa yazdığı təliqədə A.S.Şeremetyev Qaçaq Nəbiyə qarşı görülən bütün tədbirlərin nəticəsiz olmasından bəhs edərək "cəzasını verə bilmədiyiniz Nəbinin dəstəsinin istənilən vaxt İrana keçmək iqtidarında olduğu" sözlərini də əlavə etmişdi.

İran Culfasındakı Rusiya ali konsulluğunun başçısı knyaz Dobidze və İranın Hərbi naziri general Əmir Pəhləvan Cəng Paşa xan

və general Rəhmətulla xan da bu xəyanətkar plana qoşulur. Nəbinin Cənubi Azərbaycanda fəaliyyətinin qarşısını almaq üçün Qaradağ və Makudakı İran hökuməti məmurlarına lazımi sərəncamlar verilir. İ.Həsənovun "Qaçaq Nəbinin öldürülməsi haqqındakı məsələyə dair" araşdırması, Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivində Nəbinin öldürülməsi ilə bağlı saxlanılan arxiv sənədləri ilə yanaşı, B.Bəhcət də Qaçaq Nəbinin Rusiya və İranın polis orqanlarının təşkil etdikləri xüsusi əməliyyat nəticəsində öldürüldüyünü ayrıca bölmədə aydın göstərir: "Əmir Bahadır Cəng Paşa xan Nəbini öldürmək işində"[51]

İran şahı Müzəffərəddin sarayının nüfuz sahiblərindən biri olan Cəng Paşa xan əvvəllər də Qaçaq Nəbinin Cənubi Azərbaycanda fəaliyyətinin qarşısını almaq üçün Qaradağ və Maku tərəflərdə olan İran hökuməti məmurlarına lazımi sərəncamlar vermişdi. Bu sərəncamların nəticəsi idi ki, Nəbi son vaxtlar o tərəflərə keçəndə təqib və ədavətlə qarşılanmışdı.

1895-ci ilin noyabr ayında Qaçaq Nəbi İranda olarkən Naxçıvan qəza rəisi A.V.Slavoçinski İrəvan qubernatorunun razılığı ilə oraya gedib, Urmiya şəhərində yaşayan Ordubadlı tacir Paşa Hacı Fərəc oğluna Qaçaq Nəbinin öldürülməsi təklifini etmişdi. Paşa Hacı Fərəc oğlu Nəbinin çoxdankı dostu idi. Nəbinin onun tərəfindən öldürüləcəyi təqdirdə Slavoçinski onun qızıl medalla təltif ediləcəyini və həmçinin əlavə olaraq min rubl məbləğində pulla mükafatlandırılacağını vəd etmişdi. O da Nəbinin yaxın silahdaşları olan Şahhüseyni və Kərbəlayı İmanı da belə şirin vədlərlə şirnikləndirir, Nəbinin öldürülməsinə razı salır. Nəbinin hər addımı izlənilir. Naxçıvan qəza rəisi A.V.Slavoçinski bu məqsədlə İrandan İrəvan general-qubernatoru A.A.Frezeyə ardıcıl məlumatlar çatdırır, o isə öz növbəsində Cənubi Qafqaz diyarının baş rəisi A.S.Şeremetyevə yazır: "Kərbəla ziyarətindən qayıdan Nəbi hal-hazırda dəstəsi ilə Urmiya əyalətinin Larni kəndindədir."[52] Nəbinin ətrafında həlqə tam daralmış durumda. Planlanan sui-qəsd 1896-cı il martın 12-də Ur-

---

[51] B.B. s.222
[52] AMEA Tİ Elmi Arxivi, iş 3982(1), v.116

miya vilayətinin Larni kəndində Novruz çərşənbəsinin gecəsi baş tutur, Şahhüseyn irəlidə gedən Nəbini arxadan güllə ilə vurub qaçır. Nəbinin cəmi 45 yaşı var idi, ömrünün yarıya qədərini qaçaqçılıq etmiş, at belində keçirmişdi. Nəbinin öldürüldüyünə əmin olandan sonra knyaz Dobidze bu qətldə çarizmin əli olmasını yayındırmaq, Nəbinin hələ də azadlıqda qalan tərəfdarlarının hədəfinə gəlməmək üçün birinci olaraq Qaçaq Nəbinin guya ki, İran polisləri ilə atışmada öldürüldüyü barədə iran, rus, türk mətbuatına məlumatlar ötürür. Hətta, öldürülməsindən sonra da düşmənləri onun adından xoflanırdı. İrəvan quberniya dəftərxanasının rəisi A.Saroyan Tiflis canişinliyinə bu məlumatın bir daha yoxlanılmasının vacibliyini vurğulayaraq yazırdı: “Məlumatın həqiqiliyinə inanmaq düzgün olmazdı. Çünki biz Nəbinin öldürülməsi ilə bağlı yalan şayiələrin yayıldığının çox şahidi olmuşuq”. Lakin bu planın təfərrüatları, Nəbini qətlə yetirənlərin kimliyi, bu şərəfsizlik üçün aldıqları məbləğ, mükafatlar barədə arxivlərdə yazışmalar, teleqram, sənədlər mövcuddur, onların etibarlılığı heç bir şübhə doğurmur, tərəddüdə yer qoymur. [53] Gürcüstan Mərkəzi Dövlət Arxivində Qaçaq Nəbini kimlərin öldürməsi, bunun müqabilində nə qədər pul, bəxşiş ödənilməsi barədə bütün sənədlər saxlanılır. İrəvanın növbəti general-qubernatoru Şirinkinin Tiflis canişininə göndərdiyi məxfi raportu bu cəhətdən daha geniş, dəqiq informasiya mənbəyidir. O göstərir ki, yerli qüvvələr və hərbi komanda dəstələri tərəfindən Nəbinin öldürülməsi üçün illərlə aparılan silahlı yol nəticəsiz qaldığından başqa vasitə seçilib, aparılan danışıqlar, razı-




[53] Qubadlı,s.126

laşmaların təfərrüatları açıqlanıb, Nəbi və ondan ayrılmayan qaçaq İsmayılın öldürüldüyü dəqiq təsdiq olunub.[54]

1896 г., МАРТА 13 — КОПИЯ С ПЕРЕВОДА ТЕЛЕГРАММЫ ПАШИ, ПОДДАННОЙ В НАХИЧЕВАНЬ КАДЫМОВУ

Шестьсот рублей отдай Гейдарханову я убил Набия. Паша.

Переводил переводчик Новрузов.

Или можно перевести так: Наби убить через меня.

ЦГИА Груз. ССР. ф. 12, оп. 1, д. 1-173, л. 3-4, 1896 г. марта 15.

1897 г. НОЯБРЯ 3 — ИЗ ПРЕДСТАВЛЕНИЯ ЭРИВАНСКОГО ГУБЕРНАТОРА ДИРЕКТОРУ КАНЦЕЛЯРИИ ГЛАВНОНАЧАЛЬСТВУЮЩЕГО ГРАЖДАНСКОЙ ЧАСТЬЮ НА КАВКАЗЕ

Представляется бесспорным фактом, что еще 1895 г., убедившись в бесплодности обычных приемов, нахичеванский уездный начальник решился уничтожить шайку иным путем, о чем лично доложил губернатору. Имеется целая переписка, которою по этому поводу подполковник Славочинский, вел с Пашой Гаджи Фарадж оглы. Переписка эта доказывает, что Паша Гаджи Фарадж оглы шаг за шагом следил за Наби, сообщая о его действиях подполковнику Славочинскому и между прочим письмом от 10 марта 1896 г. преуведомил через своего дядю, что если удается убить Наби, то он известит телеграммой. 12 марта были убиты Наби и нукер его Исмаил и в еое же день Паша Гаджи Фарадж оглы телеграфировал, что Наби убит через него.

Донесения нахечеванского уездного начальника и представленная им переписки не оставляют сомнений в том, что Паша Гаджи Фарадж оглы по настоянию подполковника Славочинского принял на себя хлопоты по уничтожению шайки и, что Наби был убит его старанием, а не по распоряжению персидских властей. Паше Гаджи Фарадж оглы было обещано возмещение издержек и награда и по моему мнению он вполне этого заслуживает, так как благодаря его деятельности, связанной для него с большим риском, Нахичеванской и Зангезурский уезды были избавлены от разбойника, который несколько лет разорял жителей и уничтожить которого не могли ни местная власть, ни воинские команды.

Губернатор — Ширинкин

Правитель канцелярии — подпись

ЦГИА Груз. ССР. ф. 12, оп. 1, д. 1473, л. 65

[54] ÇQİA Qruz. SSR.f.12, op.1,d.1-1473, v.3-4, 65. 1896, 13-15 mart

## 1897 г., АВГУСТА 28 — ИЗ ПРОШЕНИЯ ЖИТЕЛЯ ГОР. ОРДУБАДА НАХИЧЕВАНСКОГО УЕЗДА ЭРИВАНСКОЙ ГУБЕРНИИ ПАШИ ГАДЖИ ФАРАДЖ ОГЛЫ

С давних времен торгуя в персидском городе Урми я ознакомился с окрестностями и местными обычаями.

Зная мою опытность житель гор. Нахичевани Кербалай Мамед Ага Гусейн оглы, в качестве лазутчика со стороны нахичеванского уездного начальника, по преследованию шайки известного разбойника Набия, осенью 1895 года, письмом пригласил меня, от имени уездного начальника в гор. Нахичевань, для дачи точных сведений о местах пребывания Набия в Урмийской провинции. В сентябре 1895 года, я прибыл в гор. Нахичевань и представился уездному начальнику подполковнику Славочинскому, причем, после долгих переговоров, я принял на себя во 1-х следить за каждым движением шайки Набия в персидских провинциях и каждый раз сообщать о том уездному начальнику и во 2-х, стараться во что бы то ни стало способствовать убийству его, посредством подкупа людей, а уездный начальник, с своей стороны, обещал представить меня к награде золотой медалью и выдать мне тысячу рублей на расходы, которые мною будут произведены на подкуп людей и проч., если только рекомендованные мною меры будут увенчаны успехом; таким образом, незамедля, я вернулся в Урмию и почти каждую неделю доносил секретно уездному начальнику о местах нахождения шайки. Наступили холода и Наби с товарищами по совету бывшего Урмийского таджир башия (торгового агента) Мирза Гасана, ныне уволенного за пристанодержательство, отправился на богомолье в турецкий гор. Кербалай, о чем узнав немедленно я донес начальнику для снесения с консульствами о задержании их на пути следования. Из Кербалая они возвратились в начале марта 1896 года; тогда я подкупил беглецов: Кербалай-Имана и Шах Гусейна, который получив от меня: первый наличными 400 рублей, а последний 200 руб. и на 400 руб. расписку, приняли присягу в ту же неделю убить Набия. Почва уже была подготовлена и о том, что скоро совершится убийство Набия, заранее я сообщил телеграммой уездному начальнику.

Спустя неделю Кербалай-Иман и Шах-Гусейн, согласно своей присяге, под таким то предлогам в сел. Ларни, напали на Набия и убили его. Совершив убийство, сейчас же они дали мне знать и я тотчас же телеграфировал уездному начальнику; после чего означенные лица пристали ко мне с требованием уплатить еще 400 руб., которые, за неимением у меня наличных денег, взял в долг у ордубадца Гаджи Мамеда Гейдарханова и удовлетворял их.

ЦГИА Груз. ССР. ф. 12, оп. 1, д. 1473, л. 65-68

# NƏBİNİN İRANDA XƏYANƏTLƏ ÖLDÜRÜLMƏSİ MƏNBƏLƏRDƏ BELƏ TƏSVİR OLUNUR

Nəbinin öldürülməsi ilə bağlı tarixi ədəbiyyatda iki müxtəlif ehtimal vardır. Əhliman Axundov Nəbi haqqında yerli əhalidən toplamış olduğu xatirələrinə əsaslanaraq göstərir ki, Nəbiyə sui-qəsd Cənubi Azərbaycanda yaşayan Rusiya təbəəsi olan tacir Paşa Hacı Fərəc oğlu tərəfindən hazırlanmışdır. Ə. Əliyev "Azərbaycan" jurnalında dərc etdirdiyi məqaləsində Nəbiyə sui-qəsdin Paşa Hacı Fərəc oğlu tərəfindən hazırlandığını əminliklə göstərsə də, Nəbinin İran polisləri ilə atışmada öldürüldüyünü yazır. Eynilə tədqiqatçı R. Rüstəmzadə özünün "Qaçaq Kərəm" və "Keçmişdə qaçaqlar" adlı əsərində Nəbinin öz yoldaşları tərəfindən deyil, İran polis hissələri ilə atışma zamanı öldürüldüyü qənaətinə gəlmişdir.

Tədqiqatçı İ.Həsənovun "Qaçaq Nəbinin öldürülməsi haqqındakı məsələyə dair" məqaləsində Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivində Nəbinin öldürülməsi ilə bağlı saxlanılan arxiv sənədləri yer almışdır və yuxarıda deyilənlərlə üst-üstə düşür.

Qafqaz canişinin bilavasitə tapşırığına əsasən, Nəbinin öldürülməsi işinə ezam edilmiş Naxçıvan və Zəngəzur qəza rəisləri İrandakı adamları Məşədi Paşa vasitəsilə Nəbinin ən yaxın silahdaşlarından biri Şahhüseyni ələ almaqla, Nəbini aradan götürmək qərarına gəldilər. Şahhüseynin Nəbinin öldürülməsində İran hökumətindən ehtiyat etdiyini görəndə, Rusiya tərəfinin bu işdə maraqlı olan adamları Cəng Paşa xana müraciət etməklə Şahhüseyni razı sala bilmişdilər. "Şahhüseyn tamamilə çaşmışdı. Ona həm İran, həm də Rusiya hökumətləri yaxşı vədlər vermişdi. O, Rusiya imperatorundan nişan alacaq, İran hökumətindən isə mülk alıb xan olacaqdı".

Qaçaq Nəbi öldürüldükdən sonra silahdaşlarının bir neçəsi ələ keçirilməklə məhv edildi. Şahhüseyn, Məmmədhüseyn və digərləri Dırnıs dərəsində öldürüldülər. Nəbinin yaxın dostu Musa Məhəmmədhəsən oğlu həbs edilib hərbi məhkəməyə verildi. İrəvan hərbi məhkəməsinin onun barəsində verdiyi hökm belə idi: "İran təbəəsi məhkumun Musa Məhəmmədhəsən oğlu bütün əmlak hüququndan məhrum olunmaqla ölüm cəzasına məhkum edilsin". Lakin sonralar ölüm hökmü 20 il katorqaya göndərilməsi hökmü ilə əvəz olundu.

Bəhlul Behcət "Həcərin Nəbidən sonra Qarabağa öz evinə qayıtması" başlıqlı bölməsindən Qaçaq Nəbinin qətlini belə təsvir edir: "Şahhüseynin arxadan atdığı güllələr gecənin qaranlığında Nəbinin həyatına son qoyur. Gecə saat 2 radələri idi...Həcər onu nahaq yerə evdə gözləyirdi. Həcər o gecə sabahadək yatmadı, Nəbini gözlədi, amma Nəbi gəlmədi. O artıq yox idi. Həcər Nəbini dəfn etdi. Həcərin Mollu kəndindən olan qohumları Həcəri İrandan öz kəndlərinə gətirdilər. Həcər bütün ömrünü Nəbi ilə keçirdiyi günləri xatırlamaqla başa vurdu."[55]

Hüseyn Baykara "Azərbaycan Milli İstiqlal Mücadiləsi" kitabının "Azərbaycan tarixində qaçaq hərəkatı" bölümündə yazır: "1896-cı ilin mart ayında Nəbi Kərbəladan dönərkən Türkiyə ilə İran sərhəddi arasında olan Larni kəndində rus cəsusları tərəfindən əvvəlcədən hazırlanmış pusqunun qurbanı olur. Nəbinin xatirəsi indi də Azərilərin qəlbində yaşayır. Onun qəhrəmanlığını əks etdirən dastanlar söylənilir.

Çar idarəsinin qaçaqların ailəsinə etdiyi zülm heç bir insanlığa, heç bir ədalət qanunlarına sığmırdı...[56]

"Qaçaq Nəbi" dastanından: "Nəbigil Kərbəladan qayıdıb Larni kəndində əyləndilər. Nəbi gələnə qədər casuslar Şahhüseynlə Kərbəlayı İmanı tamamilə yoldan çıxartmışdılar. İndi onlar Nəbini öldürmək üçün girəvə axtarırdılar. Paşa bəy sərdara da, yaranallara-generallara bunu bildirmişdi.

1896-cı il mart ayının 12-si idi. Gecə gündüz kimi ayaz idi. Nəbi, İsmayıl, Məmmədtağı, bir də Mşədi Həsən Dəhvardəyirman tərəfdən Larni kəndinə gəlirdilər. Nəbi dedi:

– Həcərdən çox niyaranam. Anamı da görmək istəyirəm. Ürəyim lap darıxıb. Xoruzların ilk banında yola düşərik.

Məmmədtağı dedi:-Allah qoysa gedib görüşərik.

Söhbətin bu yerində düzəngahda onların üzərinə güllə yağmağa başladı. Nəbi qışqırdı: – Yaman yerdə yaxaladılar bizi.

---

[55] B.B, s. 227

[56] Nərimanoğlu Hacı. Qaçaq Nəbi: 12 mart sui-qəsdi.https: //525.az/news/ 163959-qacaq-nebi-12-mart-sui-qesdi

Hərəsi bir tərəfə səpələnib gecə yarıya qədər düşmənlərlə atışdılar. Şahhüseynlə Kərbəlayı İman düşmənlərə xəbər veriblərmiş. Rus və İran qoşunları hər yeri tutubmuş. Nəbi uzaqdan Şahhüseynin səsini tanıdı.

– Zalım Şahhüseyn, Kərbəlayı İman bizi satıb, – dedi.

Xoruzun ilk banında İsmayıl, Məşədi Həsən və Məmmədtağı vuruldu. Nəbi tək qaldı. Düşmən qoşunu nə qədər qırılsa da, ardan çıxa bilmədi, onu da vurdular.

Düşmənlər əhdlərinə yetdilər. Səhərə yaxın qaçıb dağıldılar. Adamlar hər tərəfdən axışıb gəldilər. Nəbini və yoldaşlarını al-qan içində gördülər. Şivən, binəfsa qopdu. Meyidləri Larniyə apardılar…Nəbinin meyidi üstündə bütün ellər şivən eləyirdi. Arvadlar saçlarını yolub Nəbinin meyidi üstünə tökürdülər. Ağıçı deyirdi:

*– Dağıtdı Urmuda düşmənlər oba,*
*Qara yurdu görüm qalsın xaraba,*
*Qoç Nəbi gedibdi ayılmaz xaba.*
*Darsınsaçını ellər ağlasın!*
*Yerisin üstünə ellər ağlasın!...*



Nəbinin meyidi üstünə o qədər adam toplaşmışdı ki iynə atsan yerə düşməzdi. Hamı göz yaşı töküb ağlayırdı. Aşığın sazı da qara geyimdə idi. Aşıq Nəbinin yoldaşlarını başsız görəndə ürəyi qana döndü. Aldı görək nə dedi:

*Qoç Nəbinin sinavarı qıjıldar,*
*Güllə gələr, başım üstə vıjıldar,*
*Quru yerdə cəsəd, canım sızıldar,*
*Ay allah, vuruldu aslanım Nəbi!*
*Beldə gümüş kəmər oğlanım Nəbi!*

*Qan-yaş tökür ellər, ağır obalar,*
*Sevinir xan, bəylər, paşa, hampalar,*
*Getməz bu dağ-düün, ürəkdə qalar,*
*Ay allah, vuruldu aslanım Nəbi!*
*Beldə gümüş kəmər oğlanım Nəbi!"*

…Hər mahal yaranalları, naçalnikləri padşaha, sərdara tel vurub "Nəbini biz öldürdük" deyib mükafat almaq istəyirdi… Həcər yoldaşları ilə Nəbinin qəbri üstünə getdi. Nəbinin dəstəsindən sağ qalanlar Həcərin önündə intiqam alacaqlarına and içdilər. ...Həcər Arazdan adlayıb Naxçıvan tərəfə adladılar, iki yerə bölündülər…

*Həcər ağlar, nə qədər ömr edər,*
*Göz yaşım durmayıb sel kimi gedər,*
*Genə boğdu məni göz yaşı, kədər,*
*Yağı düşmənlərdən allam qisası,*
*Bu dünya durduqca sağalmaz yası!"* [57]

Nəbinin xəyanətlə qətlə yetirildiyi tarix bütün mənbə, sənədlərdə eynidir: 12 mart 1896-cı il, Novruz çərşənbələrindən biri, Urmiyadan təqribən 15 kilometr uzaqlıqdakı Larni kəndi, kənd dəyirmanının yanından keçən yol. Yaşlı insanlar böyüklərindən eşitdiklərinə əsasən bu yeri indi də xatırladır, gəlib gedənə göstərirlər, adı da elə "Nəbi yeri" kimi yaddaşlarda qalıb.

Nəbinin məzarının, qəbrinin axtarışına, apardığımız araşdırmalara Cənublu qələm qardaşlarım, savadlı, vətənsevər yazarlarımız Əli Şükri, Araz Əhmədoğlu da qoşuldu, təəssüf ki, dəqiq, əsaslı heç

---

[57] Yenə orada, s.420-432

nə öyrənə bilmədilər. Həmin Larni (Lorni, Lerni də yazılır) kəndinin böyük bir hissəsi ərazidə yeni salınmış şəhərin altına düşüb. Kənd və qəbiristanlığın bir hissəsi bu son 125 ildə yerini dəyişib. Çox güman ki, Nəbinin məzarı, dəfn olunduğu yer də əvvəldən zalım düşmənlərinin pis niyyətindən yayındırmaq üçün qaçaq və şəxsi dostları tərəfindən gizli saxlanılıb. Ola da bilər ki, ya Qacarlar hökumətinin yerli idarələri tərəfindən, ya çar Rusiyasının xəfiyyələri tərəfindən qəsdən izi itirilib, gizlədilib ki adı, mübarizəsi unudulsun, yaddaşlardan silinsin, məzarı ziyarətgaha çevrilməsin. Ancaq faydasızıdır, çünki bu gün də Urmiyanın və bütün yaxın-uzaq ətrafın türk, kürd əhalisi arasında Qaçaq Nəbinin adı dillər əzbəridir, el qoşmaları aşıqların dilindədir, el şənliklərində ən çox oxunub dinlənilən Nəbi-Həcər mahnılarıdır. Xüsusən, onun ölümünə qoşulan, xalq sevgisinin tərənnümünə çevrilən bu qəmli şeir bütün Azərbaycan vilayətlərində çox məşhurdur.

*Dağıtdı Urmuda düşmənlər oba,*
*Qara yurdu görüm qalsın xaraba,*
*Qoç Nəbi gedibdi, qayıtmaz daha,*
*Darasın saçını tellər ağlasın!*
*Yerisin üstünə, ellər ağlasın!*

*Gözüm dəydi taxçadakı yehərə,*
*Dəydi ağır yara igid Həcərə,*
*Qanlı köynəyini verin Gözələ,*
*Darasın saçını tellər ağlasın!*
*Yerisin üstünə ellər ağlasın!*

*Qanlı yaş tökməyən gözlər olmasın,*
*Məclislər qurulub badə dolmasın,*
*Üstünə gəlməyən ellər qalmasın,*
*Darasın saçını tellər ağlasın!*
*Yerisin üstünə ellər ağlasın!*

*Qoç Nəbinin ellər alsın qanını,*
*Öldürsün bəyini, qırsın xanını,*

*Viran qoysun şahın xanimanını,*
*Darasın saçını tellər ağlasın!*
*Yerisin üstünə ellər ağlaşın!*

*Qan ağla, sən əziz ellərim mənim,*
*Gör necə solubdu güllərim mənim,*
*Tutulub, görməyir gözlərim mənim,*
*– Darasın saçmı tellər ağlasın!*
*Yerisin üstünə ellər ağlasın!*

## QAÇAQ DOSTLUĞU: NƏBİ İLƏ HƏCƏRİN İGİD SİLAHDAŞI TELLİ QARA




Xalqın hafizəsində təkcə Qaçaq Nəbi deyil, onun çox sayda silahdaşları, comərd əqidə dostları barədə xeyli hadisələr yaşayır. Bunların böyük əksəriyyətinin real kökü, yəni əsası var, olmuş hadisələrdir. Nəbinin ən etibarlı silahdaşlarından biri Telli Qara olub. Xalq zaman-zaman Qaçaq Nəbinin dəstəsində vuruşan öz həmyerlilərinə də məxsusi diqqət yetirib, onun igidliyini vəsf edib, yaddaşlara köçürüb gələcək nəsillərə ötürüb. Aşağıdakı parça onların dostluğuna, həm də qaçaqların el arasında xətir-hörmətinə, qazandığı sevgiyə, cəsarət, sədaqət, qəhrəmanlıqlarla dolu ömür yoluna, hər zaman çar hökuməti tərəfindən izləndiyinə, yəni əsas düşmənlərinin kimliyinə ayna tutur:

“Culfa rayonunun Saltax kəndində də Telli Qaranın Nəbi və başqa döyüş dostları ilə buraya gəlməsi haqqında maraqlı rəvayətlər danışır, şer parçaları söyləyirlər. Ələkbər müəllimin topladığı bu

rəvayətlərdən biri belədir: "Cavan ikən bir yetimlə dul qalmış Saltaxlı Laçın xanım təsərrüfatı idarə etmək üçün çobanları Hüseynə ərə getmək məcburiyyətində qalır. Hüseyn isə bir neçə ildən sonra keçmişini unudub özünü başqa cür aparır. Bir dəfə də Nəbi və Telli Qara Saltaxa gəlir. Laçın onları çox yaxşı qarşılayır. Onlar da Laçının ağlına və bacarığına heyran qalıb Hüseyni öldürməkdən, var-yoxunu aparmaqdan əl çəkirlər. Hətta Laçına oğlunun toyuna gələcəklərini vəd edirlər. Vədlərinə sadiq qalıb Saltaxa toya da gəlirlər. Bundan xəbər tutan hökumət adamları Nəbini tutmaq istəyir. Atışma olur. Nəbiyə atılan güllənin qarşısını Laçın öz bədəni ilə kəsir. Toy yasa dönür". Xanağa kəndində də yaşlılar, cavanlar Telli Qaradan həvəslə söhbət açdılar. El qəhrəmanının döyüşdə həlak olduğu yeri göstərdilər. Həsən əminin dedikləri: – Haqqında çox eşitmişəm. İgid, namuslu bir insanmış. Haqqında çoxlu mahnı oxuyurdular. Heyf ki, yadımda qalmayıb. Eşitdiyimə görə, ata-baba nəsli Kürmahmudlu tayfasındanmış. Haqsızlığa dözməyən, igid bir tayfa olub Kürmahmudlular. Ona görə tez-tez yer dəyişməli olurmuşlar. Telli Qaranın nə üçün qaçaq düşdüyünü bilmirəm. Amma, ağsaqqallardan eşitdiyimə görə, Nəbi ilə bir yerdə döyüşən Baş Anzırlı Şahhüseyngillə əmiuşağı olub. Şahhüseyngil qlava Kərbəlayı Heydərin qardaşı Kərbəlayı Səftəri öldürəndən sonra qaçıb Telli Qaraya qoşulublar. Bir də onu söyləyirdilər ki, Nəbi dəstə ilə İrana keçəndə bərkə düşəndə Həcəri Telli Qaranın yanında qoyarmış. Telli Qaranın arvadı da qaçaq imiş. Yenə Nəbi çar məmurlarının diqqətini yayındırmaq üçün İrana keçibmiş. Telli Qara, arvadı Xanım, Həcər və bir neçə qaçaq bu tayda daldalanıblarmış. Telli Qaragil dinclərini almaq, bir az da azuqə götürmək üçün Baş Anzır kəndinə gəlirlər. Çuğul bunu hökumətə xəbər verir. Kazaklar, yasovullar kəndi mühasirəyə alanda qaçaqlar Çətəndaşa çəkilirlər. Çətəndaş çox bərk yerdi. Oradan baxanda hər tərəf ovuc içi kimi görünür. Belə gözəl təbii səngərin olmasına baxmayaraq, qüvvə üstünlüyü öz işini görür. Telli Qara bu döyüşdə şir kimi vuruşur. Qadınları mühasirədən çıxarsa da, özü qəhrəmanlıqla həlak olur. Deyirlər, Qaranın ölümündən təsirlənən Həcər Nəbiyə belə bir sifariş göndərir:

*Telli Qara Çətəndaşda vuruldu,*
*Qanı axıb çalalarda duruldu,*
*El-obada yas məclisi quruldu,*
*Özünü tez yetir haraya, Nəbi!*
*Düşmən bizi alıb araya, Nəbi!*

Eşitdiyimə görə, hökumət adamları Telli Qaranın meyidini Naxçıvana aparmaq istəyirmişlər. Yolda camaat qoymayıb ki, hökumət adamları meyidi aparsın. Gətirib kamal-ədəblə Göynük kənd qəbristanlığında dəfn ediblər...”

Şahbuz rayonunda da Telli Qara haqqında rəvayətlər yaşayır. Külüs kəndində bir yay axşamı ağsaqqallardan Telli Qaranı xəbər aldıq. Divarın dibində əyləşib sakit-sakit söhbət edən qocalar, elə bil, birdənbirə canlandılar. Bir-birinin sözünü kəsərək mübahisəyə başladılar. Hər biri öz dediyinin doğru olduğunu sübuta yetirməyə çalışırdı. İllər öz işini görmüş, qocaların yaddaşları zəifləmişdi. Diqqətlə qulaq asanda hiss edirdin ki, ağsaqqalların hər biri el qəhrəmanının həyatından bir parçanı söyləyir, haqqında qoşulmuş şerləri xatırlamağa çalışır. Külüslü qocalar yalnız aşağıdakı şer parçalarını xatı-rlaya bildilər:

*Telli Qara Saqqarsuda durubdu,*
*Bənövşəyi bığlarını burubdu,*
*Əzəl əldə uryadniki vurubdu...*
*Telli Qara tellərini əsdirir,*
*İncə belə gümüş kəmər kəsdirir.*
*Hayıfsan, hayıfsan, a Telli Qara,*
*Qubernat əlindən gəlibdir zara...*

Rüstəm Rüstəmzadə “El qəhrəmanları xalq ədəbiyyatında” kitabında Əli Əliyevin “Azərbaycan” jurnalının 1958-ci il 11-ci nömrəsində yayınlanmış “Qaçaq Nəbi” məqaləsinə istinadən də yuxarıdakı həmin şeri verib.

Dastan, xalq söyləmlərində deyilir ki, Naxçıvandakı dustaq evinin altıncı kamerasından Nəbini qaçıran da Telli Qara olmuşdu. Hətta, Nəbinin Telli Qaraya sifariş də göndərdiyi söylənirdi:




"...Dağın sol tərəfində Hacı İsmayıl bir dəstə ilə köhnə bir barının dalına girmişdi. Onlardan az yuxarıda Telli Qara dayaz bir xarımı özünə səngər eləmişdi. Bu elə bir xarım idi ki, Telli kənardan tamam görünürdü. Düşmən olanda nə olar, gərək hər tərəfi deyəsən. Hacı İsmayıl bəy də çox igid adam idi. Onun gülləsindən toz da yayına bilməzdi. O, Telli Qaranı gördü. O saat tüfəngi üzünə alıb onu nişan aldı. Telli Qaranın ortasından bir güllə keçirdi. Telli Qara yerə yıxıldı, tüfəng əlindən düşdü, nə qədər çalışdı tüfəngi götürə bilmədi, bircə dəfə Nəbinin adını çəkib, canını yoldaşlarına tapşırdı. O biri tərəfdən Hacı İsmayıl özünü bir divarın dalına atdı. Ora-bura göz gəzdirdi ki, Nəbini görsün, onu da vursun. Hacı İsmayıl Nəbinin yerini öyrənmişdi. Divarın üstünə dırmanırdı ki, onu güllə ilə vursun, Mehdi Hacı İsmayılı görüb tüfəngini üzünə aldı, onun incəsindən bir güllə keçirdi. Hacı İsmayıl mayallaq aşıb divarın başından yerə düşdü, canını tapşırdı. Hacı İsmayıl ölən kimi düşmən qoşunu geri qayıdıb qaçmağa başladı. Nəbigil düşmənləri qovub gözdən itirdilər. Çiçəklinin ayağında Nəbi Telli Qaranı görmədi. Yoldaşlarından soruşdu: – Telli Qara harada qaldı? Həcərin ürəyi döyünə-döyünə dedi: – Telli Qara mənim səngərimin yaxınlığında idi. Ay aman, yəqin onu gorbagor Hacı İsmayıl vurdu! Adamlar hərə bir tərəfə dağılıb soraq saldılar, car çəkdilər, Telli Qaranı axtarmağa başladılar. Həcər atını düz Çətəndaşa Telli Qara vurulduğu yerə sürdü. Baxıb nə gördü? Gözlər olsun görməsin. Telli öz qanına boyanıb. Atı da gəlib başının üstündə dayanıb. At Həcəri görən kimi bərkdən kişnədi. Həcər Telli Qaranın qanlı cəsədi yanında diz çökdü, gözlərinin yaşını abi-leysan kimi tökməyə başladı. Ağlaya-ağlaya Nəbini görək nə cür haraya çağırdı:

*Telli Qara Çətəndaşda vurulmuş,*
*Axıb qanı çalalarda durulmuş,*

*El-obada yas məclisi qurulmuş,*
*Özünü tez yetir, ay Qaçaq Nəbi!*
*Dəstəsi yanında, ay qoçaq Nəbi!*

*Telli boyanıbdı qızıl qanına,*
*Ana, bacı yoxdu gəlsin onun yanına,*
*Düşmən qıyıb güllə vurub canına,*
*Özünü tez yetir, ay Qaçaq Nəbi!*
*Dəstəsi yanında, ay qoçaq Nəbi!*

*Həcər deyər, zülüm-zülüm ağlaram,*
*Ciyərimi düyünlərəm, dağlaram,*
*Başıma zil qara yaylıq bağlaram,*
*Özünü tez yetir, ay Qaçaq Nəbi!*
*Dəstəsi yanında, ay qoçaq Nəbi!*

Nəbi Həcərin ağısını eşitdi, atını düz Çətəndaşa sürdü. Nə gördü? Telli Qaranı vurublar. Həcər özünü onun meyidinin üstünə salıb ağlayırdı. Nəbi Boz atın belindən yerə düşdü, Telli Qaranın başının üstündə diz çöküb onun qanlı gözlərindən öpdü, hönkürtü ilə ağlamağa başladı. – Zalım düşmən, ürəyimi parçaladı! Can Qara! And içirəm, ölüncə düşmənlə barışmayacağam! Ax, zalım düşmən! Ax, zalım düşmən! Həcər bir ağı da çəkdi:

*Bu dağlar ulu dağlar,*
*Çeşməli, sulu dağlar,*
*Burda bir qərib ölüb*
*Göy kişnər, bulud ağlar.*

Yoldaşları hamısı gəlib çıxdı. Telli Qaranın meyidi üstündə ağlamayan olmadı. Hər yerə səs düşdü, erməni, müsəlman bütün kəndlilər tökülüb gəldilər. Bir şivən var idi ki, dağa-daşa lərzə düşmüşdü. Telli Qaranın ölməsinə hamı yanırdı. Nəbi lap qovrulurdu. Nə eləsin, nə çarə qılsın, ölənlə ölmək olmaz. Telli Qaranın meyidini Çətəndaşda dəfn elədilər. Yeddi gün, yeddi gecə yas saxladılar.

Buradan atlanıb Qırxlara getdilər. Telli Qaranın ölməsindən xeyli keçmişdisə də, Nəbinin nə qəlbi açılır, nə də üzü gülürdü...[58]




***Onlar Qaçaq Nəbi və Həcəri görmüşdülər***[59]



***Rəssam işi***

---

[58] Əli Şamil "Dastanlaşmış ömürlər" Bakı, —Səda— nəşriyyatı, 2001. Səh. 17-19
[59]https://www.youtube.com/watch?v=gfAhTBpxdrk&t=323s, http://www.unikal. org/ news/147383

# QAÇAQ HƏCƏRDƏN XEYİR-DUA ALAN QAÇAQ TAVAT

Folklorşünas Əhliman Axundovun "Qaçaq Nəbi" dastanının, el nəğmələrinin toplanıb nəşr edilməsində xidmətləri əvəzsizdir, biz Qaçaq Nəbinin yerliləri ona həm də ikiqat borcluyuq, çünki o, həm də bizim tariximizi yazıya alıb, əbədi yaddaşa daxil edib.

Nəbi və Həcərin ardıcıllarından biri də Qaçaq Tavat olub. Qaçaq Tavat Azərbaycanın azsaylı qadın qaçaqlarından biridir. Onun tarixini də bizə Əhliman müəllim yazıb yadigar qoyub. Ə.Axundovun haqqında qısa məlumat verdiyi Xəncərli Tavat, Erkək Tavat, Harallı Qaçaq Tavat, Tavat Hümbətova eyni adamdır. O, məşhur qaçaq Kərbəlayı Məhəmmədin qızıdır. Qaçaq Kərbəlayı Məhəmməd dövrünün bir çox elmlərini mənimsəmiş, ərəb və fars dillərini mükəmməl öyrənmiş ömrünün yarısını qaçqınlıqda keçirib. O, Azərbaycanın el qəhrəmanı Qaçaq Nəbi ilə də yaxın dost olub. O, qaçaq dostlarına və onun tərəfdarlarına gizli dəstək verib. Kərbəlayı Məhəmmədin doğulduğu Haral kəndi erməni sakinlərin çoxluq təşkil etdiyi Xozabirdlə qonşu idi. Ermənilər Xozabirddən sərhəd dirəklərini çıxararaq müsəlmanların yaşadığı Fərəcan kəndinin yaxınlığındakı Topağac deyilən yerdə basdırırlar. Meşəbəyi Həsənalı ermənilərin məkrli niyyətlərindən agah olur, atasından məsləhət alır, vəziyyətlə bağlı müvafiq yerlərə məlumat verir. Bunun heyfini almaq istəyən ermənilər qardaşlara tələ qururlar. Həsən və Həsənalı atalarının Xozabirddən olan erməni tanışı nalbənd Sərkisin evində qonaq olarkən öldürülür. Bu iki qardaşın ermənilər tərəfindən dəhşətli işgəncə ilə öldürülməsi çox sayda mənbələrdə belə qeydə alınıb; öncə kürəklərinə qaynar samavar bağlanıb, bişmiş ətini özlərinə yedirtmək istəyiblər, buna nail olmadıqda tikə-tikə doğramaqla qətlə yetiriblər. Qardaşların meyiti kəndə gətirilərək dəfn edilir. Bacıları Tavat intiqam alacağına and içir, Qubadlının Aşağı Mollu kəndində sakit həyat yaşamağa başlamış Həcər xanımı tapir, öyüd-nəsihət, xeyir-dua alır, qisasçı qız atasından da çox şey öyrənir, at çapıb, tüfəng atmağı öyrənir, aylarla məşq edib, dağlarda, meşələrdə pusqu qurur, sakitcə, hamıdan xəbərsiz imkan axtarıb gözləyir.

Vaxt gəlib yetişir, ermənilər də aranın sakitləşdiyini, Məhəmməd kişinin qocaldığını, tək qızının da bir şey etməyəcəyini düşünüb arxayınlaşır. Tavat qardaşlarını vəhşiliklə öldürən ermənilərin kimliyini əlaltından adbaad öyrənmişdi, günlərlə meşədə, dağda qalıb fürsət gözləyirdi, meşədə odun yığarkən onların başının üstün alır, Tavat əvvəlcə Sərkisin oğlunu, sonra isə özünü öldürür. Onların harayına gələn erməniləri də güllələyir, qardaşlarının intiqamını alıb, sübutlarını da kəndlərinə gətirir. Atası Kərbəlayı Məhəmməd çox yaxşı başa düşürdü ki, ermənilər onlara qarşı yeni qətliamlar törədəcəklər, nəticədə iki kəndin sakinləri arasında növbəti qanlı mübarizə başlayacaq. Ona görə Tavatla birlikdə kəndi tərk edir, yenidən qaçaq düşür. Tavat atası ilə bərabər Zəngəzur, Naxçıvan, Qarabağ, İran tərəflərdə, sərhədyanı bölgələrdə başına yığdığı qaçaqlarla rus-erməni zülmünə qarşı mübarizə aparıb, şöhrəti hər tərəfə yayılıb. Tavat bir müddət gah Arazın o tayında, gah da bu tayında gizlənir. Müasirlərinin sözlərinə görə o, əyninə kişi libası geyir, belinə kəmər yerinə patrondaş bağlayar, çiynində tüfəng gəzirmiş. Köç vaxtı günlərini dağda-daşda keçirən cəsur qız əli qardaşlarının qanına batmış, habelə azərbaycanlılara qarşı cinayətlər törətmiş bir çox ermənini də öldürür. Tavatın ailə qurmadığı bəllidir. Mənbələrdə qeyd edilir ki, ("Laçın yurdu" jurnalı, №3) Tavat Hümbətovanın istədiyi, deyiliklisini də ermənilər öldürür. Tavat həmin ermənilərin yaşadığı Dığ kəndinə hücum edərək nişanlısını öldürən Hamparsumu, dörd oğlunu və bu cinayətdə əli olan digər şəxslərin hamısını güllələyib. Bu qəhrəmanlığından sonra onu "Kişi Tavat" deyə çağırmağa başlayıblar. 1898-cı ildə dünyaya göz açmış Tavat 10 illik qaçaqçılıq həyatından sonra 1930-cu ildə üzə çıxır və hökumətə, daha doğrusu NKVD-yə təslim olur. Ancaq onu həbs etmirlər, əksinə uzun müddət öz kəndlərində sərbəst yaşamağa icazə verirlər. Laçında qəza icraiyyə komitəsinin sədri vəzifəsinə təyin edilən Tavat xanım kəndlərin abadlaşmasında, kolxoz təsərrüfatının təşkilində, anbarların, ictimai tövlələrin, məktəbin tikilməsində, əhali arasında savadsızlığın ləğv edilməsində mühüm xidmətlər göstərib. Xeyli müddət Kəlbəcər, Ağdam, Laçın rayon qəza icraiyyə komitələrinin sədri vəzifələrində çalışıb. Bir neçə dəfə kənd sovetinə, rayon so-

vetlərinə deputat seçilib. El-obada nüfuzu, işgüzar və vətənpərvərliyi də dövlət tərəfindən yüksək qiymətləndirilib. Tavat Hümbətova bir neçə dəfə orden və medallarla, fəxri-fərmanlarla təltif olunub, dövlət qulluqçusu təqaüdünü alıb. Azərbaycanın rəhbəri Mircəfər Bağırovun ona şəxsi hörməti olub. Onunla eyni vaxtlarda bir çox qaçaqlar (Qaçaq Gülsüm, Qaçaq Qara Söyün) də sovetlərin qurulmasından sonra silahı yerə qoyub fəhlə-kəndli hökuməti ilə əməkdaşlıq ediblər. Hətta, “qaçaqlar anası” Qaçaq Həcərdən fərqli olaraq, onların bəziləri kommunist partiyasının üzvü də olublar.[60]

## HƏCƏRİ ÖZÜNDƏN AY QOÇAQ NƏBİ

Qaçaq Nəbi – Qaçaq Həcər tarixinin mahiyyətini dərindən bilən və həm də real tarixə, hadisələrə uyğun əsərlər yaradan iki ünlü sənətkarımız – “Aynalı” povestinin müəllifi Xalq yazıçısı Süleyman Rəhimov, “Bozatın belində” romanını yazan Cəlal Bərgüşad əsərlərində “Qaçaq Həcər” ifadəsini işlədib, belə yazıb, bu ifadəni haqlı olaraq doğru biliblər. S.Rəhimov “Bozatın belndə” romanına “Əbədi heykəl” adlı son sözündə yalnız bu təyini, ləqəbi işlədib. Elmi, bədii ədəbiyyatımızda da “Qaçaq Həcər” birləşməsi gen-bol işlənib. İran və Türkiyədə çox zaman belə yazılıb, deyilir: “Kars’ın uzun kış gecelerinde çocukluğumuzu masallar, efsaneler, halk hikâyeleri beziyordu...“Kaçak Nebi ile Kaçak Hacer” hayranlıkla dinlediğim, ilkokul dördüncü sınıfa geldiğimde yazmak istediğim unutulmaz bir halk hikâyesiydi.”[61] Qubadlı Rayon İcra Hakimiyyətinin saytında “Qaçaq Həcər” başlıqlı bölmə var. [62] Tam haqlıdırlar. Nəbinin dəstəsində 2-ci ən qoçaq, igid qaçaq elə Həcərdir, qisas, intiqam almaq niyyətilə neçə-neçə xanıma qaçaqlığa başlamaq üçün xeyir-dua verən, yol göstərən də xanım qaçaqlar anası, yol göstərə-

---

[60] Axundov Ə. Xatirələrim. Bakı: Azərbaycan milli ensiklopediyası nəşriyyat-poliqrafiya birliyi, 2003, s.34-38

[61] Yücel FEYZİOĞLU Cumhuriyet Hafta, 13 Haziran 2003 http://www.kozmopolit.com/Druck/temmuz03/y.feyzioglu.html

[62] http://www.qubadli-ih.gov.az/page/11.html

ni, ən tanınmış nümayəndəsi Qaçaq Həcərdir. Qaçaq düşüb yadellilərə savaş açdığına, qan uddurduğuna görə tutulub Gorus qazamatına salınmışdı. Ömrü dağda, daş, qayalarda keçmişdi. Elə adının da mənası daş, qaya deməkdir. "Hacer-İ Esved" Kəbədə müqəddəs Qara Daşın adıdır. Hz. İsmayılın anasının adı Həcərdir.[63]

Ona görə də biz də kitabımızın adında bu qoşa qəhrəmanlarımızı eyni "Qaçaq" təyini, adı ilə birləşdirməyi haqlı, düzgün, ədalətli saydıq.

Nəbiyə ən etibarlı arxa, dayaq həyat yoldaşı Həcər idi. Sənədlərdə, dastan və çox sayda el mahnılarında onların biri-birinə sevgisi, əhd-peymanı, həm də əminəvəsi olaraq cani-könüldən bağlılığı barədə çoxlu dəlil-sübutlar vardır.

"Atları yəhərləyin" filmindəki Nəbi, Həcər obrazlarını canlandıran aktyorlarımızın boy-buxunu tarixdən xəbərsiz sadəlövh seyriçiləri çaşdırır; həm B.Behcətin kitabında, həm də Nəbi, Həcəri şəxsən görən çox sayda yaşlı insanların hamısının xatirələrində, yazı, yaddaşlarındakı təsvir üst-üstə düşür; Həcər balacaboy, qarayanız, olduqca cəld, at sürətlə qaçarkən üzəngisinin, qantarğasının altından keçib belinə qalxan, sərrast atəş açan, uşaqlıqdan at minməkdə əminəvəsi Nəbi ilə yarışa girən xanım olub. Qori müəllimlər seminariyasının məzunu, uzun müddət Gorus məktəbinin müdiri olmuş P.Vostrikov yazırdı: "Həcər xanım da Nəbi kimi çox cəld silah işlədirdi. Onun atının sürətli çapacağında belə gülləsi hədəfdən yayınmırdı. Həcər həm də Nəbinin ən birinci köməkçisi idi".[64]

Bu rus qadın bəzi qiymətli tarixi məlumatlarına baxmayaraq, mənsub olduğu xalqın və xidmətində olduğu imperiyanın siyasətinin sadiq xidmətçisi olaraq Nəbinin mübarizəsinin mahiyyətini real həqiqətə zidd şəkildə dəyərləndirmişdir.

1894-cü il iyulun 20-də Nəbinin qardaşı Mehdi Qarçevan kəndində çar casusları tərəfindən öldürülür. Bu hadisədən sonra Nəbi

---

[63] https://www.isimbulutu.com/hecer-isminin-anlami-nedir

[64] Vostrikov P. "Muzıka i pesnya u azerbayjanskix tatar". SMOMPK. XLII vıp., I otdel, Tiflis, 1912, s.37-39. Sbornik materialov dlya opisaniya mestnostey i plemeni Kavkaz. Vıpusk 42.1912, s.88

kəndə gələrək kazaklarla döyüşə girir, rus çar idarəsində xidmət edən ağaları öldürür və Arazı adlayaraq İrana keçir. Arvadı Həcər xanım Çiçəkli kəndində qalır. Rus idarəsinin casusları Həcərin Çiçəkli kəndində olduğunu xəbər tuturlar və Həcər bacısı Mehri ilə birlikdə həbs olunur. Gorusdakı qalada saxlanılır. Nəbi 1895-ci il oktyabrın 28-də Gorus qəsəbəsini öz dəstəsiylə əhatəyə alır, rus polkovnikindən Həcəri və baldızını tələb edir. Rus polkovniki Nəbinin bu tələbini yerinə yetirməyə məcbur olur.[65]

Dəstə üzvləri arasında Həcərin təqiblərdən gizlənən bacısı Mehran da olub, sərrast atəş açarmış. Nəbi qətlə yetirildikdən sonra başqa dəstə üzvləri kimi Mehran xanım da Molluya qayıdıb.

Heç kimə sirr deyil ki, Rusiyanın iki yüz illik imperiya siyasəti, Azərbaycan və Cənubi Qafqazı öz əsarətində saxlamaq siyasəti bu gün də qüvvədədir, bütün formalarda davam edir-hərbi-siyasi, mənəvi-psixoloji, sosial-iqtisadi yönləri ilə. Bunun bir bariz nümunəsi də xalqımızın yetirdiyi tarixi şəxsiyyətlərin adına ləkə yaxmaq, milli heysiyyətimizi aşağılamaqdır. Bu hallar xüsusilə rus imperiya siyasətinə qarşı çıxan məşhurlarımıza qarşı bəzi qüvvələr tərəfindən yürüdülən çirkin kampaniyada özünü göstərir. Biz bu barədə dəfələrlə yazmışıq, bu kitabımızda da həmçinin. Qaçaq Nəbi və onun həyat yoldaşı Həcər xanım da artıq illərdir ki, bu goreşən hərşeyşünasların "tədqiqat" obyektinə çevrilib. İstinadları da rus, erməni, fars mənbələridir, guya ki, Nəbinin ölümündən sonra Həcər erməni ilə ailə qurub[66], Nəbi erməni qızı alıb[67] və s. Təbii ki, əsası olmayan, uydurma, iyrənc yalanlardır. Dəfələrlə mətbuatda, feysbukda bu əsassız uydurmalara cavab verilib. İndicə birini də oxudum: "Asif Talıboğlu (şair, jurnalist): Mən Qaçaq Nəbi ilə Həcər xanımın doğulduğu kənddənəm. Nəbinin ölümündən sonra Həcərin ərə getməsi 1916-cı ilə təsadüf edir. Bu da çox köhnə tarix deyil ki, hesabı itirək. Həcərin öz qohumu Həmzəyə ərə getməsinin canlı şa-

---

[65] Nərimanoğu H, Qaçaq Nəbi: 12 mart sui-qəsdi, 525-ci qəzet, 11.03.21

[66] https://teref.az/arasdirma/10041-hecer-dogrudanmi-nebiden-sonra-ermeniye-ere-gedib-tarxch-faktlar-achqlad.html

[67] https://www.facebook.com/profile.php?id=100033462930001

hidlərindən bir neçəsi 5-6 il bundan qabaq rəhmətə gedib. Həcərin Həmzədən olan qızının oğlu bizim kənddə yaşayıb və 10 il bundan əvvəl ölüb. Yaxın tarixi saxtalaşdırmaq çox çətindir. Sərdar Cəlaloğlu kimilər bütün bunları vaxtaşırı ona görə edir ki, gündəmdə qalsın. Ucuz şöhrət dalınca qaçanlar isə əvvəl, axır qəzəbə gəlir, nifrətlə yad edilir."[68]

Həcərin Nəbinin öldürülməsindən sonra guya erməniyə ərə getməsi haqda xəbəri ilk dəfə rus, ardınca gürcü mətbuatı verib. Məqsəd məlumdur: – Nəbiyə qarşı qaralama onun rus çarizminin işğalçı siyasətinə qarşı yenilməz silahlı mücadiləsinə kölgə salmaq, bu xalqın belə qəhrəmanının yetişməsinə qısqanc münasibətdirsə, eynilə Həcərə qarşı çirkin təbliğat həm də qəhrəman qadınlarımızın şan-şöhrətinə qara yaxmaq, nüfuzdan salmaq, müsbət obrazlarının məhvinə, yaddaşlardakı təmiz imiclərinin kiçildilməsinə hesablanıb.

Yəqin ki, sənədlərə istinadla yazılmış bu kitabı oxuyan hər kəsdə bu iddiaların yalan, saxtalığına heç bir şübhə yeri qalmayacaqdır. Elə bir məqsədimiz də belə murdar iftiraların xalqımıza, keçmişimizə, gələcəyimizə, milli-mənəvi dəyərlərimizə ləkə vurmaq kimi çirkli niyyətlərdən irəli gəldiyini sənəd-sübutlarla puça çıxarmaq, cəmiyyətə anlatmaq istəyidir.

Tarixi qəhrəmanlıq dastanlarının tədqiqatçıları sırasında professor R.Rüstəmzadə ən məhsuldar, obyektiv tədqiqatçılardan sayılır. Onun "Azərbaycan tarixi qəhrəmanlıq dastanları" adlı monoqrafiyasında Həcər xanımın qaçaqçılıq fəaliyyətinə xüsusi yer verilir, müəllif Azərbaycan qadınlarının vətənpərvərliyi, igidliyi, qoçaqlığına Həcəri örnək sayır. Əlinə tüfəng götürüb əri ilə birlikdə qaçaqçılıq etdiyini, xalqın düşmənlərinə qarşı birlikdə mübarizə aparmasını belə dəyərləndirir: "ümumiyyətlə, qəhrəman qadınlarımızın igid ənənələrini davam etdirib ən yüksək zirvəyə qaldıran Həcərin adı Azərbaycan xalqı üçün bir cəngavər qadın simvoluna çevrilmişdir".

Həcərin doğum tarixi bəzi mənbələrdə 1854, 1960, vəfatı tarixi isə 1919-cu il, gah 1916, gah 1914-cü il[69] kimi müxtəlif tarixlərlə

---

[68] https://www.facebook.com/asif.taliboglu.1
[69] https://az.wikipedia.org/wiki/ Həcər_(xalq_qəhrəmanı)

qeyd olunub. Məzarı üzərində isə 1854-1919-cu il yazılıb, fikrimizcə doğru olan tarixlər budur: 1854-1919-cu il.

Həcər xanımın gözəl toxuma qabiliyyəti olub. İmkan olduqca qaçaqlara corab, əlcək toxuyarmış.

Qadın hüquqlarının tapdalandığı bir dövrdə xalq mənafeyi uğrunda düşmənləri ilə “kişi ləyaqəti ilə vuruşmuş”, heç zaman təslim olmamış, “böyük əziyyətlərlə qarşılaşmış” Həcərin, dəfələrlə qazamata salınsa da, öz inadından dönməməsini o vaxtkı qəzetlər də yazıb. 1895-ci il 25 oktyabr tarixli “Qafqaz” qəzeti yazmışdı ki, Nəbi Gorusa gəlib Həcərin həbsdən azad edilməsini qəza rəisindən tələb edir. O, bildirir ki, hərgah Həcər buraxılmasa, həbsxananı dağıdıb onu azad edəcəkdir. Həmçinin qəzet yazmışdır ki, Naxçıvan və Zəngəzur qəza rəisləri həbsxananın dağılmasından qorxub Həcəri buraxmağa məcbur olmuşdur”.

Qəzetdə verilən bu məlumat Nəbi-Həcər haqqında yazılan roman, povest, hekayələrdə və dastanda da öz əksini tapıb.

Bu çar üsuli-idarəsinin təhriki ilə də ola bilərdi. Ancaq bir iş də var ki, nə dastanlarda, digər folklor nümunələrində, nə arxiv sənədlərində, bədii əsərlərdə Nəbi ilə Həcərin dindarlığına dair heç bir epizod yoxdur. Əksinə real prototipi olan molla Əhməd, kərbəlayı Pirverdi və hökumətə arxalanıb ac insanları bir tərəfdən soyan, son loxmasını əlindən alan din xadimləri Nəbinin qaçaq dəstəsindən daim zərbə alır, yuxularını qarışdırır, onlar da qaçaq ailələrinə qənim kəsilir, yeri gəldikcə də hökumət adamlarına çuğulluq edirdilər. C.Bərgüşad 20 il yaşadığı Molluya bitişik Qəzyanda bunları yerli-yataqlı öyrənmişdi və romanında da bədii boyalarla göstərib.

Həcərin sərrast “atıcı olması barədə” söylənilən rəvayətlərin gerçək əsası olub, o dəfələrlə mühasirəyə düşüb, elə öz sərrast atıcılığı ilə döyüşlərdən sağ qurtarıb, Nəbinin ölümündən sonra da mübarizədən əl çəkməyib, dəstəyə başçılıq edib, düşmənlərindən intiqam alıb.

Həqiqətən də Azərbaycan dastanlarında bir tarixi şəxsiyyət kimi təqdim olunan qəhrəman qadınlar sırasında Həcərin yeri ilk sırada gəlir. “Kitabi-Dədə Qorqud”, “Koroğlu” kimi dünya şöhrəti qazanmış türk eposlarında belə Həcər xanımın səviyyəsinə yüksələn ikinci bir cəngavər qadın yoxdur. Neçə illər at belində qorxub çəkinmədən, mücadilədən yorulub usanmadan, kənara çəkilmədən

xalqın düşmənlərinə qarşı mübarizə aparan bu qadını biz həmişə ya qazamatda, ya da əlində silah döyüşlərdə, vuruşmalarda görürük.[70]

Həcərin qardaşı Məhəmməd Molla Xanalı oğlu da Nəbiyə qoşulub qaçaqçılıq etmişdi. O, hökumət adamları tərəfindən tutulub 10 il katorqaya sürgün edilmiş, cəzasını çəkib sağ-salamat kəndlərinə qayıtmışdı.[71]

Dastanda, həm də digər bədii nümunələrdə biz həm də ülvi Nəbi-Həcər məhəbbəti, sədaqəti, sevgisini görürük. Nəbinin dilindən:

*Canım Həcər, başa qara bağlama,*
*Ürəyimi qəmgin edib dağlama,*
*Nəbi deyib gecə-gündüz ağlama,*
*Mərd igiddi, dardan qurtarar Nəbi!*
*Düşmən üstə güllə yağdırar Nəbi!*

Həcərin dilindən:

*Firqətindən alışıb yanır bu canım,*
*Tükənibdir səbrim, tabı-tavanım,*
*Ərşə qalxıb ahım, zarı-fəğanım,*
*Dara düşüb Nəbim, ay aman, aman,*
*Dəyişibdir halım, qalmışam nalan!*[72]

Süleyman Rüstəmin "Qaçaq Nəbi" mənzum pyesində Həcərin qoçaqlığı Nəbinin dilindən belə təsvir olunur:

N ə b i

*Qorxutmaz Həcəri düşmənin sayı.*
*Həcərin saçları dalğa-dalğadır,*
*İpək birçəkləri halqa-halqadır,*
*Davada Nəbiyə polad arxadır,*
*Yazmışam adını ürəyə, Həcər,*
*Hardasan, gəl yetiş köməyə, Həcər!*[73]

---

[70] http://gulxani.net/rustem_rustemzade_tarixi.htm
[71] https://az.wikipedia.org/wiki/Həcər_xalq_qəhrəmanı)
[72] "Qaçaq Nəbi", s.51, 81

Xalqın gözü tərəzidir. Xalq “Qaçaq Nəbi” dastanında Həcərə sevgi, məhəbbətini bir çox hallarda Nəbidən daha üstün tutub, ali məqamda vəsf edib, həm də ona görə ki, O-xanımdır, Qadındır, Ulu Yaradan onu başqa missiya üçün yaradıb. Əldə silah kişilərlə birlikdə at belində gecə-gündüz o dağ sənin, bu qaya mənim, qarlı-sazaqlı günlərdə el-oba, çay, orman, keçidlərdə, qanlı savaşlarda yadellilərlə savaş qadın işi deyil. Həcər bu mənada bütün xarakteri ilə nə qədər möhtəşəm olsa da, o, həm də zərif cinsin təmsilçisi olan Qadındır.

“Qaçaq Nəbi” dastanı illərlə bir yerdə duz-çörək kəsib savaş apardıqları silahdaşlarının xəyanət ilə qətl edilən qəhrəmanımızın Anası və Xanımının bu təsirli sözləri, ürək sızladan, həm də qürurverici sətirlərlə bitir: “Gözəli ayıltdılar. O, saçını yolub Nəbinin qəbrinin üstünə tökürdü:

*Əzizim tikə-tikə,*
*Doğrandım tikə-tikə.*
*Anan saçını yolur*
*Kəfənin tikə-tikə.*

Təzədən şivən qopdu, el-oba töküldü, hamı ağladı. Ananı qəbrin üstündən araladılar. Hava da qan ağlayırdı, qara duman hər yeri qaplamışdı, ildırım şaqqıldayır, şimşək çaxır, şiddətli yağış yağırdı. Bütün aləm Nəbinin yasını tuturdu. Həcər tüfəngin qundağından bərk tutub Nəbinin qəbri üstündə, hamının qarşısında and içdi: – Qəbrinə and içirəm, Nəbi! Ölüncə sənin düşmənlərinlə barışmayacağam! Mənim əzizim Nəbi, ölüncə ürəyimdə yaşayacaqsan! Rahat yat, əziz Nəbi! – deyib, gözlərinin yaşını sel kimi axıtdı.

Camaatla görüşdü. Atına minib Gözəli də tərkinə aldı. Atları qaranəfəs edib gecə-gündüz yol gəlib Molluya çatdılar. Gözəli kənddə qoydu, beş nəfərlə birlikdə yenidən dağlara çəkildi.

Mübarizə dvam edirdi.[74]

Həcərin Nəbidən sonra bir müddət qaçaqlara başçılıq etməsi tarixi həqiqət, gerçəklikdir.

---

[73] http://anl.az/el/r/rs_se3.pdf s.127.
[74] 3əh.436-37

# QAÇAQ NƏBİ ELMİ TƏDQİQATLARDA

Folklorumuzun iki qəhrəmanlıq dastanı – “Koroğlu” və “Qaçaq Nəbi”nin xeyli oxşar cəhətləri var; Koroğlu istismarçı osmanlı paşalarına, xotkarlara, bəylərə, Qaçaq Nəbi işğalçı rus çarizminə, onların əlaltısı olan zalım mülkədar, xan, bəylərə qarşı silahlı mübarizə aparır, Koroğlunun Nigarı, Nəbinin Həcəri, Koroğlunun Qıratı, Nəbinin Bozatı, Koroğlunun Misri qılıncı – Nəbinin Aynalısı, Koroğlunun dəliləri – Nəbinin qaçaqları, Koroğlunun Aşıq Cününu, Nəbinin Aşıq Əhmədi var. Koroğlu da, Qaçaq Nəbi də savaş qabağı şeirlə atına, silahdaşlarına tərif deyir, hər ikisi də xalqa arxalanır, əzilənlərin sevgisi ilə qarşılanır və s.

Nəbinin haqq-ədalət uğrunda vuruşduğu coğrafi məkanlar daha genişdir – Arazın o tay, bu tay Azərbaycanı, Anadolu elləri.

Haqlı olaraq qaçaqları bəzən “xalq intiqamçıları” adlandırırdılar. Azərbaycanda xalq arasında məşhur olan və haqlarında mahnılar, rəvayətlər, hətta dastanlar yaranan qaçaqlardan Gəncədə Dəli Alı, Qəmbər; Goranboyda Qaçaq Camal, Qarabağda Süleyman, Murtuza; Şuşada Məmməd bəy Kavaler; Zaqatalada Yusif; Zəngəzurda Qaçaq Nəbi, Qaçaq Tavat; Nuxada Qutqaşenli Kərim Əfəndi oğlu; Qazax-Borçalıda Qaçaq Kərəm, Səməd Ağa, Qaçaq Mehralı, Qaçaq İsaxan, Tanrıverdi Allahqulu oğlu; Ağbabada Qaçaq Usuf, Quba-Dərbənd tərəflərdə Qazi Muhamməd Xuluxvi, Kiri Buba, Qazı Muhamməd Ştulvi kimi çar Rusiyasına qarşı mübarizə aparmış qaçaqları (ləzgi dilində “ğuğvan-narazı adamlar”[75]), xalq qəhrəmanlarını göstərmək mümkündür.

Nəbinin qaçaq dəstəsinin müstəmləkəçi rus çar üsuli-idarəsinin zülmünə, istismarına, soyğunçuluğuna qarşı etirazı, nifrəti, qəzəbli ardıcıl mübarizəsini tarixşünaslar kimi, yazıçılarımız da çox zaman haqlı olaraq, “Qaçaq Nəbi hərəkatı”, “kəndli hərəkatı”, yaxud “partizan hərəkatı”, “partizanlıq” kimi dəyərləndirir. Qaçaq Nəbi tarixinin mahiyyətini dərindən bilən və həm də real tarixə, hadisələrə uyğun əsərlər yaradan iki sənətkarımızdan biri – “Aynalı” povestinin müəl-

[75] http://samurpress.net/story.php?sid=3093

lifi Xalq yazıçısı Süleyman Rəhimov Cəlal Bərgüşadın “Bozatın belində” romanına yazdığı “Əbədi heykəl” adlı son sözündə də dəfələrlə bu ifadələri işlədib. Tanınmış tədqiqatçı alim Ə.H.Tahirov da xalq qəhrəmanı haqqında yazarkən “partizan mübarizəsi” ifadəsini işlədir: “Zəngəzur və Naxçıvanda qorxmadan partizan müharibəsi aparan Qaçaq Nəbi Zəngəzur qəzasının Aşağı Mollu kəndində doğulub”.

Azərbaycanda qaçaqçılıq tarixi barədə dəyərli monoqrafiyanın müəllifi türkoloq, folklorşünas professor Füzuli Bayat yeri gəldikcə Qaçaq Nəbinin həyatı, mübarizəsinə də yer verir, yazır ki, qaçaqçılıq həm də fərdi haqq davasıdır, intiqam almağın, zülmə qarşı üsyan etməyin bir şəklidir, harada ki, zülm həddini aşmış, harada ki, insanların hüquqları pozulmuş, dövlət də buna laqeyd qalmışsa, orada qaçaq hərəkatı baş vermişdir. Qaçaqlar fəaliyyətləri ilə artıq işləməz hala gələn qanunu öz bölgələrində yenisi ilə əvəz etməklə yeni bir nizam qurmağa çalışan qorxmaz insanlardır. İnsafsız varlıdan alıb yoxsula verən, zülmə qarşı üsyan çıxaran bu qrupları qanundan kənar elan etməklə onların dövlətdən qaçaq düşməsinə səbəb olan hökumət orqanları çarəni qaçaqları ya pulla, mal-mülklə ələ alımaq, ya da terror yolu ilə məhv etmək, sürgünə göndərmək, həbs etmək, zərərsizləşdirmək yolu tutmuşdur.

Füzuli Bayat yazır ki, hazırda “Qaçaq Nəbi” dastanının 7 variantı mövcuddur ki, bunlardan 4-ü Azərbaycanda (E.Tahirov, Ə.Axundov, H.Qasımov, A.Nəbiyev), 3-Türkiyədə (T.Öcal, E.Şimşek, Z.Makas) yazıya alınmışdır. Ancaq müəllif Cənubi Azərbaycanda məşhur olan, Arazın bu tayındakılardan fərqli dastanın da mövcud olduğunu nədənsə unudub. Türkiyədəki variantlar həm qısa, həm epizodik, həm də qəhrəmanın mübarizəsi baxımından zəifdir. “Qaçaq Nəbi” dastanında onun silahdaşlarının çoxunun adı çəkilir, haqqında bəhs edilir. Dastanın özəlliklə Əhliman Axundov variantı daha bitkindir. Müəllif Qubadlıda doğulub böyüdüyü xalq qəhrəmanı haqqında daha geniş bilgiyə malik olub, əsas şahidləri tanıyıb, onlarla görüşüb, məlumatları toplayıb, qaçaqların adlarını xalqın yaddaşından yazıya alıb. Adı çəkilən silahdaşları əsasən bunlardır və maraqlı cəhət budur ki, dəstədə ermənilər də olmuşdur; Nəbinin xanımı Həcər, qardaşı Mehdi, Sotlanlı Məhəmməd, İrəvanlı Hayik, Rumuslu Qarapet, Səfərəli, Tunc Vəli, Lələ, Şəm-

şəd, Telli Qara, Şahhüseyn, Məhəmmədhüseyn, Ağahüseyn, Misirhan, Musa, Allahverdi, Əziz, Məşədi Murad, Balakişi, İsmail, Ceyran xanım, Qənbər, Niftalı, Moses və başqalarıdır. Hətta Qaçaq Nəbi Qarabağda, Ağdamda, Tərtərdə, Bərdədə on beşgünlüyünə Əbdülkərim adlı başqa bir qaçaq dəstəsi ilə birlikdə fəaliyyət göstərib. Döyüş zamanı Nəbinin qaçaqlarının igidliyi adbaad təriflənir.

Xalq arasında geniş yayılmış, el məclislərində hər zaman söylənən, dillərdə əbər olan "Qaçaq Nəbi" dastanı XX əsrin 30-cu illərindən toplanmağa başlamış və 1938-ci ildə ayrıca kitabça halında nəşr olunmuşdur. Sonralar dastan folklorşünas Ə.Axundov tərəfindən toplanmış və 1941-1961-ci illərdə iki dəfə – 1960 və 1977-ci illərdə kitab halında çap edilərək işıq üzü görmüşdür. R.Rüstəmzadə "Qaçaq Nəbi" dastanının şifahi şəkildə hələ XX əsrin əvvəllərindən geniş yayıldığını yazır. Digər qəhrəmanlıq dastanları kimi, bu dastan da ilk əvvəl ayrı-ayrı qoşmalardan ibarət olmuş və sonra bu qoşmalar rəvayətlərlə birləşərək dastan şəklinə düşmüşdür. XIX əsrin ikinci yarısında Azərbaycanın ayrı-ayrı qəzalarında 100-dən artıq qaçaq dəstəsi vardı ki, onların da içərisində ən şöhrətlisi Qaçaq Nəbinin və Qaçaq Kərəmin dəstəsi idi.

Aşağıdakı müqayisə Qaçaq Nəbinin xalqın şifahi yaddaşında nə qədər möhkəm yer tutduğunun ifadəsidir. Folklorumuzda araşdırmaya cəlb olunan 11 qaçaq dastanında (Səməd Ağa, Qara Tanrıverdi, Hacı Tağı, Qara Söyün, Molla Nur, Qaçaq Nəbi, Qaçaq Kərəm, Mehralı bəy, Qaçaq Süleyman, Qandal Nağı, Qaçaq Usuf) cəmi 164 qoşma, gəraylı vardır ki, bunun da 83-ü, yəni yarıdan bir az çoxu Əhliman Axundovun toplayıb nəşr etdirdiyi "Qaçaq Nəbi" dastanında cəmlənib.[76]

Lakin son müstəqillik illərində aparılmış tədqiqatlarda, Qaçaq Nəbi hərəkatının məramı, hədəfi əsasən düzgün əks etdirilir, "Azərbaycan xalqının istiqlaliyyət uğrunda apardığı mübarizə" kimi öyrənilir və təqdim olunur."[77]

---

[76] Füzuli Bayat. Qaçaq folkloru sosial-iqtisadi və siyasi-mədəni kontekstdə. Bakı, Elm və təhsil, 2019.

[77] Təranə Quluzadə, Qəhrəmanlıq dastanlarında Azərbaycan etnoqrafiyasının əksi, avtoreferat, Bakı-2016

Qaçaq Nəbi haqqında qoşulan nəğmələrin çox hissəsinin onunla eyni vaxtda yaşayan Aşıq Əhməd tərəfindən söylənildiyini dastanın əsas toplayıcısı, ilk naşirlərindən biri olan Əhliman Axundov yazmışdır. Əslində XIX əsrin ikinci yarısında yaşamış Aşıq Əhməd yaradıcılığının, şeirlərinin çox hissəsini Qaçaq Nəbinin qəhrəmanlığına həsr etmişdir. Bunun üçün də təqiblərə məruz qalaraq neçə il özü də qaçaqçılıq həyatı keçirmiş, nəhayət, Yerevanda çar polisi tərəfindən həbsə alınmışdır. Axtarış zamanı onun evindən Qaçaq Nəbi haqqında şeirlər tapılmış, buna görə Yerevan məhkəməsi ona səkkiz il həbs cəzası kəsmişdir, Topladığı, özünün qoşduğu şeirlərin bir çoxu da itib batmışdır.

Tarixçi və filoloq alimlərimizin məqalələrində son vaxtlar Qaçaq Nəbi haqqında xeyli məqalə yazılıb.

Professor Mahmud Allahamanlı məqaləsində[78] haqlı olaraq vurğulayır ki, B.Behcətin Qaçaq Nəbi ilə bağlı əsəri son dövrlərdə xalq qəhrəmanı haqqında dolaşan mübahisələrə son qoymaq üçün əvəzsiz mənbədir. Bu faktların yazıya gətirilməsi və günümüzə çatdırılması üçün B.Behcətə minnətdar olmalıyıq. Çünki o, bütün olayları tarixi sənədlər, ayrı-ayrı canlı şahidlərin söylədikləri, inandırıcı faktlar əsasında böyük məsuliyyət və vətəndaşlıq hissi ilə yazıya alıb.[79]

M.Allahamanlı uşaqlıq xatirələrini də yada salaraq yazır ki, uzun qış gecələrində mühüm bir hissəni qəhrəmanlıq dastanlarımızdan “Koroğlu”, “Qaçaq Nəbi” kitablarının oxunması təşkil edərdi. Bir nəfər səlis, rəvan oxuyardı, hamı böyükdən-kiçiyə diqqət kəsilərdi. O günlər, o söhbətlər indi mənim yaddaşımda bir ərmağan kimi qalmaqdadır. Nədənsə, dastanlarla bağlı kitabları əlimə alanda həmin xatirələr yadıma düşür. Elə zaman-zaman gizlin qalmış B.Behcətin “Qaçaq Nəbinin tarixi” əsərini oxuyanda da həmin keçmiş gözlərim qarşısında canlandı. İlk öncə mən bu kitabın üzə çıxmasında əməyi olan hər bir kəsə öz minnətdarlığımı bildirirəm. Çünki Qaçaq Nəbi və bu sıradan olan qəhrəmanlar bizim qəhrəmanlıq tariximizdir. Yüz illər, min illər boyu yaşanan tariximizdir. Bir məsələni də etiraf edək ki, Azərbaycanımızın bu başından o başı-

---

[78] http://www.folklor.az/konfrans_materiallari/folklor-tariximiz.pdf səh.123-133
[79] B.B.səh.231-244

na ev-ev gəzsək, hamı Qaçaq Nəbi ilə bağlı "Qoy sənə deyinlər, ay Qaçaq Nəbi, Həcəri özündən ay Qoçaq Nəbi" kəlmələrini zümzümə edəcək. Bax bu məqamlardı xalqın yaşarlığı. Və xalq sevgisini qazanmaq da budur. Bunlar hamısı xalqın düşüncəsindən qopan və böyük sevgidən yoğrulmuş nümunələrdir ki, mətbuatda da əksini tapırdı. Daha doğrusu, xalq məhəbbətinin artan istiqamətdə yaşamı idi. Ancaq təəssüflər, min təəssüflər ki, həmin qəhrəmanlığa, onlar haqqında dolaşan əhvalat, hekayə, nəğmələrə yad əllər də uzanmada idi. Bunların bir qismi heç şübhəsiz, düşünülmüş, işləri dolaşdırmaq məqsədi daşıyırdı. Qaçaq Nəbi ilə, Həcər xanımla bağlı rəvayətlərdə də bunlar yer almaqdadır. Son dövrlərdə bu daha çox görünməkdədir. Özü də çox təəssüf ki, bu qondarmaların, dolaşıqlıqların bir hissəsi folklorşünaslar tərəfindən edilir. B.Behcətin "Qaçaq Nəbinin tarixi" adlı əsərinin nəşri bunlara bir cavabdır. Bu əsər öz mahiyyəti və işlənmə tərzi etibarilə daha çox tarixiliyə hesablanıb."

Müəllif qeyd edir ki, Qaçaq Nəbi ilə bağlı hadisə və əhvalatların, şeir nümunələrinin toplanması haqqında "Ədəbiyyat qəzeti" 25 mart 1935-ci ildə (220 səhifəlik materialla bağlı məlumat burada verilir), 1 may 1935-ci ildə, 7 noyabr 1939-cu ildə məlumat verir. Fikrimizcə, Qaçaq Nəbi ilə bağlı dastanın çap olunan nəşrləri arasında ən mükəmməli (həcmin azlığına baxmayaraq) Ə.H.Tahirovun (Qaçaq Nəbi. Bakı, Azərbaycan Yazıçılar ittifaqı, 1938, 49 s.) nəşridir. Kitab kimi çap olunana qədər isə "Ədəbiyyat" qəzetində (1938, №1-16) çap olunmuşdu. Təəssüf ki, Ə.Axundovun tərtibi ilə nəşr olunmuş "Qaçaq Nəbi"dastanı isə tamamilə sovet ideologiyasının "işığında" qələmə alınmış, bu ictimai-siyasi ovqatın təbliğat mexanizminə çevrilmiş bir dastan – rəvayətlər toplusu kimi təqdim edilmişdir. Burada bizim qəbul eləyə bilmədiyimiz və eləməyimizin də mümkün olmadığı həmin materialların təbii şəkildə verilməyib işlənmə xüsusiyyətinin görünüşüdür. Amma müsbət cəhət odur ki, Ə.Axundov Qaçaq Nəbini şəxsən görən və onunla yoldaş olan səksənə yaxın adamın xatirələrindən yararlanmış, kitabın sonunda dilindən yazıya alındığı qırx yeddi nəfərin adını, yaşını və yaşadığı yeri qeyd etmişdir.[80]

---

[80]http://www.folklor.az/konfrans_materiallari/folklor-tariximiz.pdf, səh.123-133

Alim tarixiliklə folklor arasında paralel aparaq bu qənaətə gəlir, haqlı olaraq yazır: “Qaçaq Nəbi” dastanı bütün tərəfləri ilə tarixiliklə bağlanır. Burada Azərbaycan xalqının tarixinin mühüm bir tərəfi qaçaqlıqla bağlı olan hissəsi özünün əksini tapır. Ona görə də dastan nümunəsi kimi “Qaçaq Nəbi” tarixi faktların zənginliyi və daşınışı ilə səciyyələnir. Dastanlar, eləcə də qaçaq hərəkatı ilə bağlı yaranan nümunələr özlüyündə bir istiqamətdə tarixi faktları daşıması, qoruyub saxlaması ilə mühüm dəyər qazanır. “Qaçaq Nəbi” dastanı bunun bariz nümunəsidi.”[81]

Professor Rüstəm Rüstəmzadə “Azərbaycan tarixi qəhrəmanlıq dastanları” adlı monoqrafiyasında qaçaqlarla bağlı xalq ədəbiyyatında atalar sözləri və zərb-məsəllər, nəğmələr və bayatılar, əfsanə və rəvayətlər, nağıllar və dastanları tədqiqata cəlb edərək, “qaçaq folkloru”nun mövcudluğunu, onun lazımınca tədqiq edilmədiyini bildirir. “Qara Məlik”, “Molla Nur”, “Qara Tanrıverdi”, “Qaçaq Nəbi”, “Qaçaq Kərəm”, “Muxtar bəy”, “Qandal Nağı”, “Qara Söyün”, “Qaraxanlı Nəbi” kimi tarixi qəhrəmanlıq dastanlarının adlarını çəkib, ancaq “Qaçaq Nəbi” dastanını əsas obyekt kimi götürüb. Müəllif yazır: “Nəbi zamanın iyrənc adətlərinə qarşı çıxır, ağaların, bəylərin, qoluzorluların kasıbların övrətlərinə, qızlarına əl atmağa, onların namusuna təcavüz etməyə imkan vermir, yoxsullardan vergi alınmasını qadağan edir, günahsız yerə həbs olunanları dardan qurtarır, yoxsullara pul verir, əl tutur, bəylərdən, hampalardan, pristavlardan zəhmətkeş adamların intiqamını alır. Bir sözlə, ictimai ədalətsizliyə qarşı siyasi və silahlı mübarizə aparır. Nəbi beynəlmiləlçidir. Onun dəstəsində müxtəlif millətlərin nümayəndələri vardır... xalqın bəslədiyi sonsuz məhəbbətin dastanda bədii inikasını tədqiq edir. Onların üsyançı dəstələrinin çar çinovniklərinə, bəylərə və mülkədarlara qarşı silahlı mübarizəsi yerli istismarçı və hökumət orqanlarını təşvişə salmışdır. Bu üsyançı qaçaq dəstələri içərisində ən çox şöhrət qazanmış Qaçaq Nəbidən sonra Qaçaq Kərəmin dəstəsi olmuşdur”.

Araşdırmaçı Elnur Bədəl “Azərbaycanda qaçaq hərəkatının bilinməyən tərəfləri” adlı məqaləsində yazır ki,[82] “Azərbaycan tərə-

---

[81] Yenə orda, səh.133
[82] “Femida” qəzeti, 03 avqust 2016

fə tez-tez "səfər" edən və hətta Qaçaq Nəbinin özünü tutmaq və hökumətə (İran və Rusiya tərəfinə) təhvil vermək tapşırığı alan Qara Nəbi Qaçaq Nəbi tərəfindən qətlə yetirilmişdi. Göründüyü kimi bunlar tərkib etibarilə bir-birindən fərqləndiyi kimi, qarşıda duran məqsəd və məramı ilə də bir-birinə zidd olmuşlar. Zərdabi "Kaspi" qəzetində, Seyid Əzim isə "Ziya" qəzetində bir sıra məqalələr dərc etdirməklə həmin quldur qaçaqların əleyhinə çıxmışdılar. Azərbaycanda Qaçaq Nəbinin və ümumiyyətlə onlarla qaçağın adı dillər əzbəri olmuşdur. Əgər Qaçaq Nəbi hərəkatına nəzər salsaq yuxarıda bəhs etdiyim sosial, psixoloji vəziyyətlər və cəmiyyətin həll olunmayan problemləri gözümüzün önündə canlanar. Müəllif yazır ki, kürd əsilli bu Azərbaycan qəhrəmanı 16 yaşında ikən bəyin onun atasını döyməsinin şahidi olmuş, Nəbinin qəlbində intiqam atəşı alovlanmış, bəyin üstünə atılmışdı. Buna görə də, həbs edilərək 1890-cı ildə katorqa hökmü ilə cəzalandırılmışdı. Həbsdən qaçaraq doğma yurduna qayıdan Nəbi başına silahlı dəstə yığaraq bəylərə, çar hökumət dairələrinə qarşı mübarizəyə başlamışdı. Xalq ona Qaçaq Nəbi adını vermişdi. Sevimli arvadı Həcər də silaha sarılaraq qaçaqlarla birlikdə qəhrəmancasına vuruşurdu. Qaçaq Nəbinin dəstəsi tez-tez öz yerini dəyişir, Arazın o tayına keçirdi. Həcər hamilə olarkən, uşaq dünyaya gətirərkən Nəbi qaçaqlara təqibdən qurtulmaq üçün, izi itirmək üçün atların nallarını söküb tərsinə nallamağı əmr etmişdi.

Qaçaq Nəbi yalnız yerli bəyləri, çar məmurlarını deyil, Qafqaz inzibati idarəsini də narahat edirdi. Çar hökuməti Nəbini öldü-rənlərə çoxlu pul, qiymətli şeylər vəd etmişdi. Yuxarıda adını çəkdiyim Qara Nəbi də belə bir sevdaya düşmüşdü, o çox zaman Qaçaq Nəbinin adından da istifadə edirdi. Qaçaq Nəbidən fərqli olaraq Qara Nəbinin öz ətrafı yanında bir elə hörməti yox idi, sevilmirdi. Qaçaq Nəbini isə xalq müdafiə edirdi. Azərbaycan tarixçilərinə məlum olmayan bir neçə faktı deməklə, güman edirən ki, öz fikirlərimi əsaslandırmış oluram. Peterburqdan Qafqaza ezam olunmuş xəfiyyə generalı Skalonun raportunda göstərilir ki, "Əhali, hakimiyyət orqanlarına qaçaqların yerini nəinki nişan vermir, hətta qaçaqlara böyük bir qonaqpərvərlik göstərir, inzibati orqanlar cinayət-karları tutmağa cəhd edəndə açıqcasına onlara mane olur". "Kafkaz"

qəzetində göstərilirdi: "...qaçaq dəstəsini təqib və məhv etmək üçün hər ev üç manat verməlidir. Üç kənd əhlinə (Tivi, Nəsirvaz və Anazırlar) qaçaqlara daha artıq kömək edib, onları gizlətdikləri üçün üç manat vergi qoyulsun. Bununla bərabər, onlara elan edilsin ki, hərgah kəndlilərdən biri qaçaqlara pul köməyi edərsə, alınan xərcdən on dəfə artıq cərimələnəcəkdir". Qaçaq Nəbi tərəfindən Ordubad pristavı Əlağa Əliyevin öldürülməsi də kəndlilərdən vergi yığılmasının nəticəsi idi.

Azərbaycanda qaçaq hərəkatını boğmaq üçün çar hökuməti tez-tez bəylərə kömək üçün kazak dəstələri göndərirdilər. Din xadimlərinin də Nəbini görməyə gözü yox idi. "Tiflisskiy listok"da şeyxülislamın müraciəti dərc olunmuşdu. Şeyxül-islam Qaçaq Nəbini kafir, dinsiz adlandırır və onun tezliklə tutulub asılmasını tələb edirdi.[83] Yeri gəlmişkən qeyd edim ki, Şeyxül-islamı Qafqaz caninin təqdimi ilə imperator özü təyin edirdi. Yerevan məhkəmə palatasının mütərcimi Məmməd Mirzəyevin ifadəsi: "Nəbi hərəkatı çar hökuməti və mülkədarlar üçün çox qorxulu idi. Çar hökuməti İran və Türkiyə hökumətləri ilə danışığa girib İran və Türkiyəyə çoxlu casus göndərmişdi. Hökumət Nəbini öldürən və ya onun öldürülməsində fəallıq göstərən casuslara çoxlu pul, qiymətli şeylər verməyi, onları vəzifəyə irəli çəkməyi, medalla təltif etməyi vəd etmişdi. Təsadüfi deyil ki, Qaçaq Nəbinin qətli də Larnı kəndində baş vermişdi. Nəbinin ölümünün təsvirinə gəlincə Qoqolun aşağıdakı sətirlərini yada salmaq kifayət edir: "İnsanın tüklərini ürpəşdirəcək cəhənnəm əzablarını təsvir etməklə oxucuların ürəyini sıxmayaq. Bunları o kobud və amansız əsr etmişdi".[84]

AMEA Folklor İnstitutu "Mühacirət folklorşünaslığının dəyərli örnəkləri" adlı sanballı monoqrafiya buraxdırıb (Elmi redaktor: Muxtar Kazımoğlu). Monoqrafiyada Qaçaq Nəbi tarixinin araşdırılması məsələlərinə də çoxlu faktlarla geniş yer ayrılıb. Qeyd edilib ki, mühacirətdə sovet senzurasından kənarda folklorşünaslar qaçaq-

---

[83] C.Bərgüşad "Bozatın belində", səh.364

[84] Azərbaycanda qaçaq hərəkatının bilinməyən tərəfləri, "Femida"qəzeti, 03 Avqust 2016

larla bağlı qəhrəmanlıq nəğmələrini, xüsusən “Qaçaq Nəbi” dastanını hərtərəfli, daha obyektiv şəkildə təhlilə cəlb etmişlər. Yaxın tarixi keçmişin məhsulu olması, burada milli-azadlıq mübarizəsi ilə bağlı motivlərin, xüsusilə ras zülmünə qarşı etiraz ruhunun qabarıq əksi, həmçinin sovet senzurasının ciddi “redaktə”sinə məniz qalması mühacirətdə marağa səbəb olmuş, mətbuatda “Qaçaq Nəbi”dən vaxtaşın parçalar verilmiş, haqqında məqalələr dərc edilmişdir. Xalq təfəkkürünün məhsulu olan bu bədii materiala təkcə estetik baxımdan deyil, həmçinin siyasi-ideoloji müstəvidən yanaşan mühacirət folklorşünaslığı Azərbaycan milli-istiqlal savaşının tarixinə güzgü tutan bu təkrarsız sənət nümunəsini bütün yönlərilə təhlilə cəlb etmişdir. Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə, Əhməd Cəfəroğlu, Hüseyn Baykara, Nağı Keykurun, Yunus Lənkəranlı, Nəbi Turablı və başqa müəlliflərin yazılarında “Qaçaq Nəbi” dastanı təhlil və tədqiq olunmuşdur.

Məlumdur ki, “Qaçaq Nəbi” ilə bağlı rəvayət və nəğmələri P.V.Vostrikov XIX əsrdə toplamağa çalışmış, ilk dəfə kiçik parçanı SMOMPK. məcmuəsində nəşr etdirmişdir. Dastan Ə.Tahirov tərəfindən 1938-ci ildə ilk dəfə kitab halında nəşr olunmuşdur.

Mühacirətdə isə bu əsər hələ 1928-ci ildə, yəni Azərbaycanda “Qaçaq Nəbi” dastanı ilə bağlı tədqiqatlara başlanılmadığı dövrdə Ə.Cəfəroğlu tərəfindən təhlilə cəlb edilmişdir. İstanbulda M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr edilən “Azəri türk” dərgisində Ə.Cəfəroğlunun “Azəri xalq ədəbiyyatında “Qaçaq Nəbi” dastanı” adlı məqaləsi dərc olunmuşdur. Müəllif Qaçaq Nəbini tarixi şəxsiyyət kimi səciyyələndirərək, onun Azərbaycan xalqının milli-azadlıq hərəkatındakı xidmətlərini açıqlamış rus müstəmləkəçilərinə və onların yerli əlaltılarına qarşı barışmaz mübarizəsindən bəhs etmişdir. Ə.Cəfəroğlu “Qaçaq Nəbi” dastanını Azərbaycan xalqının rus müstəmləkəçilik zülmünə qarşı mübarizəsini əks etdirən ən mükəmməl folklor abidəsi kimi səciyyələndirərək, dastan qəhrəmanı ilə onun prototipi arasında müqayisəli təhlil fonunda Nəbinin xan və bəylərin zülmünə qarşı mübarizə aparan bir kəndlidən rus əsarətinə qarşı vuruşan bir qəhrəman səviyyəsinə yüksəlməsinə diqqəti çəkmişdir. Müəllifin fikrincə, Qaçaq Nəbinin rus müstəmləkəçilik reji-

minə qarşı durması onun mübarizəsini sosial zəmindən siyasi müstəviyə keçirmiş, məhz buna görə də bir çox düşmənləri onu bağışlamış, hətta, yeri gəldikdə, yardımçı olmuşlar.

Dastanda Həcərin qabarıq təsvir olunmasının məqsədli səciyyə daşıdığını qeyd edən tədqiqatçının fikrincə, bu. hər şeydən vvəl, rus işğalçılıq rejimi əleyhinə mübarizənin kütləvi mahiyyət kəsb etdiyinə işarədir. Dastan yaradıcıları həmçinin Həcərin təqib olunması ilə rus jandarma rejiminin Azərbaycanda qadınları belə əfv etmədiyini göstərmək istəmişlər.

Azərbaycanda gedən milli-azadlıq mübarizəsində XIX yüzilin qaçaqçılıq hərəkatına xüsusi əhəmiyyət verən Hüseyn Baykara (Qara Hüseynov (1904-1984) siyasi təqiblər üzündən 1927-ci ildə İrana, sonra Türkiyəyə getməyə məcbur olmuş, İstanbul Universitetinin hüquq fakültəsini bitirərək. Elazığda hakim, İstanbulda prokuror vəzifələrində çalışmışdır) bu mübarizənin nıs çarlıq rejiminin əsaslarını sarsıdan faktor kimi səciyyələndirmişdir. “Azərbaycanda yeniləşmə hərəkətləri” adlı tədqiqatında H.Baykara qaçaqçılıq hərəkatı ilə bağlı qoşulan dastanların real həyatdan doğduğuna, canlı tarixi hadisələrə söykəndiyinə diqqəti yönəltmiş və tarixin heç bir çağında rus çarizm idarəsinin Azərbaycanda “qaçaq” deyə adlandırılan xalq qəhrəmanlarından yaxasını qurtara bilmədiyini qeyd etmişdir. Gəncədə Qaçaq Dəli Alı, Qarabağda Qaçaq Nəbi, Sofı təxəllüslü şair Qaçaq Kəblə Məhəmməd Kavaler və başqalarına aşıqların dastanlar yaratdığı və bu hərəkatların Azərbaycan xalqının rus istilası rejiminə durmadan, aralıqsız apardığı mübarizə olduğunu bildirmişdir. Tədqiqatçı həmçinin Nəbinin qardaşı Mehdinin Gürcüvan kəndində çar casusları tərəfindən öldürülməsini, bu hadisədən üç gün sonra Nəbinin həmin kəndə gələrək qardaşının qisasını almasını, onun rus kazak birlikləri ilə döyüşərək Arazın o tayına keçməsini, Çiçəkli kəndində qalan arvadı Həcərin həbs edilib Gorus həbsxanasına salınmasını və 1895-ci ilin oktyabr ayının 28-də Nəbinin Gorus həbsxanasına hücum edərək arvadı Həcəri xilas etməsini dastan qəhrəmanının azadlıq uğrunda mübarizəsi kimi səciyyələndirmişdir. Qeyd edək ki, H.Baykara “Qaçaq Nəbi” dastanındakı

şeir parçalarına da müəyyən yer vermişdir. Məsələn, müəllif Həcərin dilindən verilən aşağıdakı parçanı diqqət önünə çəkmişdir:

*Qazamat istidi, yata bilmirəm,*
*Ayaqda qandalaq qaça bilmirəm.*
*Açar urusdadır aça bilmirəm,*
*Mənim bu günümdə gələsən, Nəbi,*
*Qazamat dalını dələsən, Nəbi.*

Burada dastanın dilindəki bəzi ifadələrə diqqət yetirməyə ehtiyac vardır. Belə ki, Azərbaycanda nəşr olunmuş "Qaçaq Nəbi" dastanının məlum variantında "Açar urusdadır aça bilmirəm" misrası "Qapısı bağlıdı aça bilmirəm" şəklində dəyişikliyə uğramışdır. Sovet senzurasının bu redaktəsi sadəcə bədii redaktə deyildir, dastanın məzmununu, Nəbinin apardığı mübarizənin mahiyyətini pərdələyən, onu mücərrəd istiqamətə yönəldən "məqsədli" bir dəyişiklikdir. Tədqiqatdakı daha bir parçaya diqqət yetirək:

*Nəbinin atlısı əllidi, beşdi,*
*Qırx gözəl içində Həcəri seçdi.*
*Güllələr urusun böyrünü deşdi,*
*Qoy mənə desinlər, ay Qaçaq Nəbi,*
*Arvadı özündən ay qoçaq Nəbi!*

Bu parçada da "Güllələr urusun böyrünü deşdi" misrası sovet senzurasının redaktəsinə məruz qaldığından şeirin məzmununa əhəmiyyətli dərəcədə xələl toxunmuşdur.

Nəbi Turablının "Qaçaq Nəbi" məqaləsində də adı çəkilən dastan siyasi yöndən təhlilə çəkilir. Qaçaq Nəbinin sevilməsinin əsas səbəbini onun "əsarət zəncirinə yenilməzliyində", "türkə yaraşır məğrur hali"ndə görən N.Turablı dastanla S.Rüstəmin "Qaçaq Nəbi" pyesi arasında müqayisə apararaq, həmin əsərdə qaçaqlıq hərəkatının çarizmə qarşı mübarizə kimi göstərilmsinə kəskin etirazım bildirmişdir. Digər mühacir yoldaşları kimi Nəbi Turablı da qaçaqların əslində müstəmləkəçiliyə qarşı mübarizə apardıqlarını qeyd etməkdədir. Qaçaq Nəbiyə həsr etdiyi bu araşdırmasında Nəbi

Turablı köləliyə etiraz olaraq başlanan bir neçə üsyan və onların artıq unudulmaqda olan qəhrəmanları – Qaçaq Qənbər, Zəyəmli Hacı Əhməd, Qaçaq Məcid haqqında da məlumat vermişdir və beləliklə, onları xatırladaraq gələcəkdə bu dövrün daha dəqiq öyrənilməsi üçün araşdırıcıların istiqamətini müəyyənləşdirmişdir. Şübhəsiz ki, xalq öz qəhrəmanlarının adını yaşatmaq üçün onların şərəfimə nəğmələr qoşmuş, dastanlar bağlamışlar. Lakin, təəssüf ki, bu əsərlərin yayılması və yaşaması sovet sosialist sistemi üzündən imkansız olmuşdur. Yunus Lənkəranlının "Qaçaq Nəbi" məqaləsi də xalqımızın qəhrəmanlıq tarixini əks etdirən "Qaçaq Nəbi" dastanına həsr edilmişdir. Məqalədə müəllif dastanın yaranması səbəblərini araşdırmış, mühacirətin digər nümayəndələri kimi. Qaçaq Nəbinin haqq-ədalət, azadlıq uğrunda mübarizə apardığını, məhz buna görə də xalq arasında ölməzlik qazandığını qeyd etmişdir.[85]

"Qaçaq Nəbi" tarixi nəğmələr və el qəhrəmanının adı ilə bağlı xalq içərisində dolaşan rəvayət-əhvalatlar fonunda formalaşmış süjetli hekayətlər toplusudur. "Qaçaq Nəbi" ilə bağlı araşdırmalarda o həm nəğməli rəvayət-hekayət örnəyi kimi, həm də aşıq rəvayəti – dastan kimi təqdim edilmişdir.[86] "Qaçaq Nəbi" dastanında Nəbi ilə bərabər, Həcər xanımın vəsfinin səbəbi də onun qorxubilməz, mübariz, ərinə vəfalı, sədaqətli olması ilə əlaqədardır.

*Nəbi bir oğlandı top qara birçək,*
*Aynalı yaraşır boyuna qəşəng,*
*Belində kəməri, çiynində tüfəng,*
*Deyirlər, deyirlər ay qaçaq Nəbi,*
*Arvadı özündən ay qoçaq Nəbi!*

Nəbini məşhurlaşdıran bir amil də qardaşı Mehdinin, arvadı Həcər xanımla baldızı Mehri xanımın da uzun illər bu mübarizədə yaxından iştirak etməsidir. Xalq hər zaman Qaçaq Nəbi ilə Həcərin

---

[85] Mühacirətdə folklor araşdırmaları, I kitab, Bakı, Elm və təhsil, 2015, Səh.26-29
[86] Abbaslı İsrafil (2005). "Qaçaq Nəbi" dastanı və Bəhlul Bəhcətin "Qaçaq Nəbinin tarixi" araşdırması", Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVIII kitab. Bakı: Səda, s.15  s.213

adını yanaşı işlədib, birlikdə vəsf edib: “Həcəri özündən ay qoçaq Nəbi” – deyib.

Nəbi Alıoğlunun həyatı, qaçaqçılığa başlaması Azərbaycan tarix və bədii ədəbiyyatdında, folklorumuzda təxminən eyni məzmunda təsvir və qəbul olunub.

1851-ci ildə Yelizavetpol quberniyasının (Gəncə) Zəngəzur qəzasının Aşağı Mollu kəndində (indiki Qubadlı rayonunda) anadan olmuş Nəbi hələ uşaq ikən özbaşınalığın, zülmün bütün dəhşətlərini şəxsi taleyində hiss etmiş, onu qaçaq olmağa zəmanə məcbur etmişdi. Nəbi Aşağı Mollu kənd sakinlərinin torpaqlarını zəbt etmiş mülkədar Məmməd bəyi ağır yaraladığına görə qəza mərkəzi Gorusa gedib orada bir müddət gizli yaşamışdı. Nəbini tez-tez yerini dəyişməyə məcbur qalmış, Gorusdan Naxçıvan qəzasının Əbrəqunus və Ordubad qəzasının kəndlərinə gələrək bu kəndlərin köməyindən yararlanırdı. Naxçıvan qəza rəisi kazak dəstəsi ilə onu tutmağa gələrkən, üzərinə hərbi dəstənin gəlməsini eşidən Nəbi oradan uzaqlaşaraq Ərəfsə kəndinin yaylasına çəkilir. Bir müddət sonra o, nəhayət, Sisian nahiyəsinin Salvartı yaylasında ələ keçirilərək həbs edildi. Tezliklə həbsxanadan qaçan Nəbi dağlarda və meşələrdə yaşamağa məcbur oldu. Lakin o, yenə də həbs edilmiş və yenə də həbsxanadan qaça bilmişdi. Dəfələrlə həbsdən qaçması onu məşhurlaşdırdı. Nəbi həbsxanadan qaçdıqdan sonra düşmənlərinə divan tutmaq məqsədilə öz ətrafına qisasçıları yığaraq dəstə yaratdı. O, hökumətə qarşı, əsasən, partizan müharibəsi üsulundan yararlanırdı.

Qaçaq Nəbinin Qarabağ cinsindən seçilmiş Bozatı, türk beşatılanı məşhur idi. Onun kiçik atlı qüvvə ilə hərəkət etməsi, gözlənilmədən başqa-başqa yerlərdə peyda olmasına və düşmənlərinə lazımi şəkildə zərbələr endirməsinə imkan verirdi. Qaçaqların içərisində bütün zümrələrin nümayəndələri var idi. Qaçaqların gizlədilməsi nəticəsində onların tərkibinin artması, yerli əhalinin onlara havadar çıxması kimi bu və digər amillərin bu hərəkatın genişlənməsinə təkan verəcəyindən qorxuya düşən hökumət, əgər bunun qarşısı vaxtında alınmazsa, “xırda dəstələrin daha böyük dəstələrin özəyinə” çevriləcəyindən və nəticədə “vəziyyətin fövqəladə dərəcədə” gərginləşəcəyindən qorxurdu.

Nəbi qaçaqçılığa 30 yaşında başlamış, 21 il davam etmişdi – 1875-ci ildən 1896-cı ilin 12 martına – qətlə yetirilməsinə kimi qaçaq dəstəsinə başçılıq etmişdi[87]. Həmin mənbədə göstərilir ki, qaçaqçılığa daha cavan yaşda başlasa da, Nəbinin başçılığı ilə kəndli hərəkatı 1881-ci ildən başlamışdır.[88] Onun Naxçıvan və Zəngəzur qəzalarında çar rejiminə və zülmkar bəylərə qarşı mübarizəyə başlayan mübarizəsi Gəncə, Qarabağ, İrəvan, Vedi, Dərələyəz, Qars, Qaradağ, Urmiya, Xoy... yəni Qafqaz, İran, Türkiyənin mühüm bir hissəsini əhatə edib. Qaçaq Nəbi dastanının bir necə variantda olması onun bir yandan belə geniş bir ərazidə ardıcıl mübarizə aparmasının nəticəsi idisə, digər səbəbi qaçaqlar arasında simvola çevrilməsi ilə bağlıdır. Nəbinin qəhrəmanlığı və savaşları haqqındakı dastanları vaxtı ilə Əhməd Cəfəroğlu da geniş şəkildə araşdırmışdır. Dastanın ilk naşiri olan Əliheydər Tahirov nəşri qəhrəmanın mübarizə apardığı dövrə yaxın bir zamanda aşıqlardan toplayaraq yazıya keçirmişdir və ”Koroğlu” motivləri ilə yaxından səsləşməsinin əsas səbəbi də toplama-tərtib işinin ənənəvi dastan quruluşunda təqdim olunmasıdır. “Qaçaq Nəbi” dastanı struktur-semantik baxımdan qəhrəmanın mübarizəsinin, döyüş səhnələrinin çoxluğu ilə seçilir. Məsələn, Ə.Axundov variantında o, Cəfərqulu bəylə, Xocahan kəndinin bəyləri ilə, Həcəri həbsxanadan qurtarmaq üçün çar pristavı ilə, Qubadlıda yerli polislərlə və bəylərlə, Üçtəpədə polis rəisi Knikorla, Şotlanlıda başda Cəfərqulu bəy olmaqla polislərlə və bəylərlə, Əsgəranda polislərlə və bəylərlə, Zəngibasarda Mehdi bəylə, Anzırda Kərbəlayı Heydərlə, Dülüsdə Əlıağa bəylə, Gəncə qubernatoru ilə, Kinkor bəyi öldürdükdən sonra Naxçıvan, Zəngəzur, Cəbrayıl, İrəvan, Gəncə, Qazax, Aleksandr, Novabayazid, Sürməli və Eçmiədzin polis rəisləri ilə mübarizəsi, Zəngəzurda kəndxudalarla, polis rəisləri və bəylərlə vuruşması, Qırxlarda Cəfərqulu bəylə, Vasili qardaşları ilə, Məlik Avalyanla, Nəcəfqulu bəylə, Qara Nəbi ilə və s. savaşları onun xalq tərəfindən daha çox sevilməsi, populyarlığı, həm mübarizəsinin uzunömürlülüyü – 20 il,

---

[87] Qubadlı, səh.109
[88] Qubadlı, səh.232

həm daha çox ərazini əhatə etməsi, həm də şəxsi igidliyi, dəstəsindəkilərin şücaətləri, həm də rus-erməni və onların yerli əlaltılarına vurduğu sağalmaz yaralarla, şəxsi əxlaqi-mənəvi keyfiyyətləri, ədaləti ilə bağlıdır. Nəbi qaçaqçılıq etdiyi dövrdə yüzdən çox savaşa qatılıb, hamısında da düşmənlərinə ağır zərbə vurub.[89]

Dastan və bədii əsərlərin hamısında Qaçaq Nəbinin silahları və atı da simvollaşmışdır. Dastanda Kərbəlayı Məhəmməd Nəbiyə silah və at verib deyir: "Bu elə bir tüfəngdir ki, düşməni özünə çəkər, bundan çıxan güllə hədəfdən yan keçməyib. Bir halda ki, Zəngəzur dağlarına çəkilirsən, bu "Aynalı" tüfəngi də sənə verirəm. Bir də, ay oğul, töylədə bir boz dayça var, hələ yüyənə düşməyib. Unutma ki, bu adi dayça deyil. Boz at nəslindəndir, dəryadan çıxmış madyanla çöl ayğırından törəyib. Boz at heç vaxt səni darda qoymaz."

Dastanların çoxunda olduğu kimi, Nəbinin də Bozatı, Aynalı tüfəngi poetik şəkildə vəsf olunur.

*Bozat, səni sər tövlədə saxlaram,*
*Ayağına qızıl-gümüş nallaram,*
*Məxmərə tutaram, ipək çullaram.*
*Bozat, məni apar uzaq ellərə,*
*Düşəcək tərifin bütün dillərə.*

*Nəbinin yolları bütün dağ-daşdı,*
*Əriklidən Nəbi bir günə aşdı,*
*Nəbinin Bozatı ona yoldaşdı.*
*Bozat, məni apar uzaq ellərə,*
*Düşəcək tərifin bütün dillərə.*

---

[89] Qaçaq Nəbi (1938). Toplayan Ə.H.Tahirov. Bakı: Azərbaycan sovet yazıçıları ittifaqının nəşriyyatı; Qaçaq Nəbi dastanı (1941), Tərtib edən Ə.Axundov. Bakı; Qaçaq Nəbi dastanı (1961). Tərtib edən Ə.Axundov. Bakı; Qaçaq Nəbi dastanı (1960), Tərtib edən H.Qasımov. Bakı: Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı; Qaçaq Nəbi (1983). Tərtib edən A.Nəbiyev. Bakı: Gənclik; Behcət Bəhlul (2011). Qaçaq Nəbinin tarixi, Bakı: Çıraq. 261 Caferoğlu Ahmet (1928). Azeri halk edebiyatında "Kaçak Nebi" destanı, "Azeri Türk", İstanbul: № 13, Ağustos, s.3-5; №14, s.9-10; №17, Ekim, s.7-9

*Gümüşdən döydürrəm sənin nalını,*
*Yüz gözələ hördürərəm yalını,*
*Sən gəl, qoç Nəbinin pozma halını,*
*Bozat, çatdır məni, aman günüdür,*
*Yoldaşlarım darda, yaman günümdür! və sair.*

Görkəmli folklorşünas alim, prof. M.H.Təhmasib "xalqın yüzlərlə hekayət və nəğmələr qoşduğu Qaçaq Nəbi"nin epos-dastan kimi formalaşmamasının tarixi, ictimai-siyasi səbəblərini "Nəbinin ölümündən iyirmi il sonra Azərbaycan kəndlisinin mübarizə apardığı köhnə rejimin tamamilə dağılması" ilə əlaqələndirir.

"Qaçaq Nəbi çarın müstəmləkə siyasətinin gücləndiyi bir dövrdə yaşamış, ictimai ədalətsizliyə, milli zorakılığa, müstəmləkə siyasətinə qarşı çıxmışdır. Onun qəhrəmanlıq dolu mübarizəsi, arvadı Həcərin, döyüş yoldaşlarının qoçaqlığı aşıqlar tərəfindən böyük məhəbbətlə vəsf edilmiş, onun haqqında nəğmələr, rəvayətlər yaranmışdır. Zaman keçdikcə bu nümunələr peşəkar ifaçıların repertuarında daha da püxtələşərək dastanlaşmışdır." Bu sözlərin müəllifi, tanınmış folklorşünas professor Azad Nəbiyev də Qaçaq Nəbi mücadiləsinin yönünü düzgün göstərir.

Qubadlıdan olan müəllim Muradxan Cahangirovun 1920-30-cu illərdə Qaçaq Nəbi və Həcəri görüb tanıyan şəxslərdən topladığı onlarla mahnı, şeir, bayatı, nağıl, reallığa söykənən əhvalatlardan ibarət 220 səhifəlik əlyazma nəşr edilmək üçün Ümumittifaq Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsinə təqdim olunmuşdu. Bu haqda prof. Paşa Əfəndiyev, prof. Azad Nəbiyev və başqalarının əsərlərində, o zamankı qəzetlərdə yığcam informasiyalar, xəbərlər getmişdi. Ancaq nə kitab çap olunub, nə də əlyazması tapılıb. Bu qiymətli mənbənin izi itirilmişdir.

Təəssüf ki, xalq qəhrəmanlarına həsr edilmiş əksər bədii əsərlərdə Qaçaq Nəbinin, Həcərin gerçək həyatı ilə əlaqəsi olmayan, müəllif xülyasının məhsulu olan çox sayda həqiqətlərdən uzaq əhvalatlar, təhrif olunmuş hadisələr yer alıb. Bu da sonradan bir çox hallarda onların real tarixinin də üstünə kölgə salıb, çoxlu yalan, uydurmaların, Nəbi-Həcərin gerçək həyatından uzaq, uyğunsuz iddiaların yaranmasına nədən olub. Məsələn, Süleyman Rüstəmin

“Qaçaq Nəbi” mənzum pyesinin I pərdə I şəkilində Səlim bəyin Şuşa qalasında, Təhmas bəyin nökəri Nəbinin görüşünə gələn Həcəri görməsi təsvir olunur; ona söz atır, Nəbi Səlim bəylə əlbəyaxa olurlar, Nəbi Səlim bəyi yerə yıxır. Cümşüd bəy Nəbini nişan alarkən Nəbi Səlim bəyi buraxır, növbətçi kazakın tüfəngini alıb Cümşüd bəyi vurur. Həcərlə birlikdə aradan çıxır, Nəbi dağlara qaçır, qaçaqçılığı burdan başlayır, Səlim bəy kəndə Həcərə elçi göndərir, Həcər bir dəstə bəyə belə cavab verir: “Gedin, Səlim bəyə deyin ki Həcər – Özünə seçmişdir Nəbi kimi ər. Tüpürərəm onun bəy üzünə, belə! (Tüpürür.)”, Səlim bəyin Həcərin körpəsini öldürtməsi və sair bu yöndə uzun-uzun mətləbsiz, bədii cəhətdən olduqca zəif dialoqlar gəlir.[90]

Tarixi faktlar isə tamam başqa cür anladır. Nəbiyə əli çatmayan rus üsuli-idarəsinin yerli məmurları Həcərin izinə düşüb onu həbs edib Gorus türməsinə salırlar. Bilirlər ki, Nəbiyə xəbər çatan kimi ardınca hökmən bura gələcək. Bu yolla həm də Nəbini ələ keçirmək planı qururlar. Nəbi Həcəri həbsxanadan çıxarmaq üçün hər tərəfinə yaxşı bələd olduğu Üçtəpə dağına gəlir, o burada dəfələrlə üzbəüz döyüşlərdən salamat çıxmışdı. 1895-ci ildə Zəngəzurun qəza rəisi vəzifəsinin icrasına bir neçə gün əvvəl Şuşanın məşhur əsil nəcabətli bəyzadələrindən olan Səlimbəy Rüstəmbəyov başlamışdı. Nəbi ona bir məktub göndərdi.[91] Nəbinin tələbi çox qəti idi. Təbiətən milli düşüncəli, maarifçi insan olan Səlim bəy bilirdi ki, bu tələbə əməl etməsə, harada olursa-olsun, Nəbi ondan qisasını alacaqdır.

Bu məsələyə 1895-ci il 25 oktyabr tarixli “Qafqaz” qəzetində də aydınlıq gətirilir. Qəzetin müxbiri eyni zamanda əlavə edir ki, Zəngəzur qəza rəisi Nəbinin dəstəsinin həbsxananı dağıdacağından, çox sayda cinayətkar, cani məhbusun azadlığa çıxacağından qorxub Həcəri həbsdən azad etmək məcburiyyətində qalmışdı.[92]

Fikrimizcə bu, Həcəri buraxmaq üçün sadəcə bəhanə idi, əslində Səlim bəyin də hardasa Nəbiyə rəğbəti olub. Yəni Səlim bəy Həcərin heç üzünü də görməyib.

---

[90] http://anl.az/el/r/rs_se3.pdf, s.35, 75
[91] https://az.wikipedia.org/wiki/Səlim_bəy_Rüstəmbəyov
[92] Qubadlı, s.118

*Nəbinin atlısı altıdı-beşdi,*
*Həcərin gülləsi qayadan keşdi,*
*Onun zərbəsindən yağılar leşdi,*
*Sənin igidliyin aynadan olsun,*
*Aynalı tüfəngi oynadan olsun!*

*Qazamata çəkib urus hasarı,*
*Dörd yanı çevrəmə qurulub barı.*
*Dəmirdi qapısı devri-divarı*
*Gözümü dikmişəm yollara, Nəbi,*
*Bəs haçan çıxasan dağlara, Nəbi.*

*Nəbinin saçları oyma-oymadı,*
*Günahsızı heç incidib, soymadı,*
*Qırdı saldatları, birin qoymadı.*
*Həcər xanım heç Nəbidən doymadı.*

M.Rahimin "Qaçaq Nəbi" poeması, S.Rəhimovun "Aynalı" povesti və "Qafqaz qartalı" romanı, H.Qasımovun "Dağlara çəkildi" povesti, C.Bərgüşadın "Boz atın belində" romanı, Ə.Vəliyevin "Tunc atlı" əsəri, S.Rüstəmin "Qaçaq Nəbi" pyesi və M.Təhmasibin "Nəbi" ədəbi kinossenarisi, Məmmədsadıq Axundzadənin (Türkiyədə Mehmet Sadık Aran adı ilə tanınır – H.N.) "Qaçq Nəbi" pyesi, Eldar Baxışın "Nəbi nağılı" poeması, Əhliman Axundovun yazıya köçürdüyü "Qaçaq Nəbi" dastanı, Muradxan Cahangirovun 1920-30-cu illərdə Zəngəzurda Qaçaq Nəbi və Həcəri görüb tanıyan şəxslərdən topladığı 220 səhifəlik mahnı, şeir, bayatı, nağıl, real əhvalatlardan ibarət əlyazması, "Atları yəhərləyin" bədii filmi Qaçaq Nəbinin mübarizə dolu həyatına həsr edilib. 44 gün davam edən, Ordumuzun, şəhid və qazilərimizin şücaəti hesabına azad edilən torpaqlarımızın azad edilməsinə həsr olunmuş şeir və digər bədii nümunələrdə dəfələrcə Qaçaq Nəbi, qoçaq Həcərin adları çəkilir, igidliyi örnək sayılır, onların bir zamanlar işğalçı yadellilərlə çarpışdığı torpaqların azad edilməsi ilə bu xalq qəhrəmanlarımızın da ruhunun sevindiyi vəsf olunur. Cəlilabadda doğulub böyümüş istedadlı şair Elşad Baratın **Ş**əhid Cavid Hüseynova həsr etdiyi şeir

kimi. Tovuzun Alakol kəndində doğulub Türkiyədə xüsusi snayper təlimlərini uğurla keçmiş savaşçımız Füzuli, Cəbrayıl, Laçın, Qubadlı, Xocavənd döyüşlərində onlarla düşməni məhv edib, 2020-ci il oktyabrın 27-də 26 yaşında şəhid olub.[93]

*Azad etdin, otuz ildir,*
*Həsrət çəkən torpaqları.*
*Səni görüb nur saçırdı,*
*Qubadlı, Laçın dağları.*

*Sevinirdi Qaçaq Nəbi,*
*Həcərin qəhrəman ruhu.*
*Qubadlının dağlarında,*
*Gözü yolda qalan ruhu.*

Qubadlının azad edildiyi ilk günlərdə rayon icra hakimiyyətinin gördüyü ən layiqli işlərdən biri o oldu ki, Xanlıq körpüsündən keçib Aşağı Molluya gedən yoldakı hündürlükdə dəmir lövhə üzərində xalq qəhrəmanlarımız Qaçaq Nəbinin, Qaçaq Həcərin, Qaçaq Mehdinin və Aşağı Molludan olan Qarabağ müharibəsi şəhidlərinin birgə fotoları əks olunub. Su gələn arxa bir də gələr. Torpaq şəhid qanı ilə suvarılmasa, azadlıq ağacı bar verməz.

## QAÇAQ NƏBİ KİNODA, MUSİQİDƏ, HEYKƏLTARAŞLIQ VƏ RƏSSAMLIQDA

Demək olar ki, incəsənətin bütün növlərində-musiqi, rəsm, kino, eləcə də heykəltaraşlıq və rəssamlıqda Qaçaq Nəbi-Həcər obrazı var. Onu da deyək ki, Həcər xanım özü də mahir xalça toxuyan olub. Onun toxuduğu xalının biri övladlarında miras qalıb, indi də saxlanır.

Qaçaq Nəbi haqqında çəkilmiş “Atları yəhərləyin” filminin ssenarisi Süleyman Rüstəm və Əhmədağa Muğanlı, quruluşçu rejis-

---

[93] https://www.youtube.com/watch?v=g1Hgy1mOOk8

sorlar Əbdül Mahmudov, Həsənağa Turabov, quruluşçu operator Kənan Məmmədov, quruluşçu rəssam Kamil Nəcəfzadə, bəstəkar Emin Sabitoğlu, səs operatoru Əsəd Əsədov, mahnıların mətni Eyvaz Borçalı, mahnı ifa edən Niyaməddin Musayev və "Qarabağ bülbülləri" ansambılının üzvləridir.

Bu filmin başına gələn, gətirilən olaylar məlumdur. Başıbəlalı "Qaçaq Nəbi" filminin rejissoru, Dövlət mükafatı laureatı, əməkdar incəsənət xadimi, tanınmış aktyor, rejissor Əbdül Mahmudov deyir: "Qaçaq Nəbi" filmi uzun istehsal dövründən sonra 1985-ci ildə çəkilməyə başlayıb. Rollarda Həsənağa Turabov, Mömünat Qurbanova, Gümrah Rəhimov, Ənvər Həsənov, Ömür Nağıyev, Eldəniz Quliyev, Rasim Balayev, Ramiz Əzizbəyli, Şahmar Ələkbərov və başqaları çəkilib. Film əsasən Qobustanda "Kiçik daş" deyilən ərazidə, Şamaxının Baba dağı, Zarat, Xeybət, Xınıs, Dəmirçi kəndlərində, Laçının qayalıqlarında və Cəfər Cabbarlı adına kinostudiyanın pavilyonunda çəkilib. Filmin çəkiliş müddəti janrdan asılı olaraq müəyyən olunurdu. "Qaçaq Nəbi" filminə 1 il 2 ay vaxt verilmişdi...Təsadüfən məclislərin birində Süleyman Rüstəmlə rastlaşdıq. Bizi tanış etdilər. Mən Süleyman müəllimə bildirdim ki, onun "Qaçaq Nəbi" əsərini hələ orta məktəbdə olarkən səhnədə oynayırdıq. Buna uyğun olaraq bildirim ki, bu dram əsəri əsasında yaxşı bir film çəkmək olar. O soruşdu: "Necə?". Mən də dedim ki, "siz arxasında dursanız, çox asanlıqla". Hadisənin üstündən bir həftə keçmiş mənə zəng gəldi ki, Süleyman Rüstəm səninlə görüşmək istəyir. Doğrusu yatsam yuxuma girməzdi ki, belə bir şey olar. Qərara gəldik ki, görüşə Əhmədağa Muğanlı ilə birgə gedək. Novruz bayramı ərəfəsi idi. Süfrəyə çay dəstgahı, o sıradan "İran xuruşları" gətirdilər. O vaxt İranla əlaqələr olmadığından bu təamlar bizə maraqlı gəldi. Süleyman Rüstəm bildirdi ki, həmin xuruşları onun üçün Şəhriyar göndərib.

Elə orada planlaşdırıldı ki, ssenarini Süleyman Rüstəmlə Əhmədağa Muğanlı yazsın. Mən baş verənlərə çox sevindim. Həm ulu Şəhriyarın göndərdiyi bayram payından yedik, həm də ümumi razılığa gəldik. Qərara alındı ki, qısa zaman ərzində sifariş ərizəsi hazırlansın və SSRİ Kinematoqraifya Komitəsinə təqdim edilsin.

Süleyman Rüstəmin xoş münasibəti məni ürəkləndirdi. O vaxt Dövlət Kinematoqrafiya Komitəsində sədr olan Azad Şərifovla aktyor Adil İsgəndərov arasında olan narazılıq çəkiliş üçün problem yaradır. Belə ki, A.Şərifov A.İsgəndərov kinostudiyadan getdikdən sonra onun tələbələrinə qarşı pis münasibətdə olur.

"Qaçaq Nəbi"yə qədər mənim işlədiyim ssenarini əlimdən alıb başqasına verdilər. O vaxt kinostudiyanın rəhbəri Cəmil Əlibəyov idi. Milli ruhu, gənclərə dəstəyilə seçilirdi. Filmin mənə verilməsinə Azad Şərifov narazılıq etmişdi ki, "tarixi mövzudur, Əbdülə verə bilmərik" və s. Süleyman Rüstəm məsələyə müdaxilə edərək bildirib ki, "əziyyəti bu kişi çəkib, mənim qapıma gəlib, razılıq əldə olunub, əgər filmi Əbdül Mahmudov çəkməyəcəksə, mən ssenarimi vermirəm". Cəmil müəllim məni çağırıb hadisədən hali etdi. Müzakirə etdik ki, bu işi necə yoluna qoyaq. Qərara gəlindi ki, məsələyə Həsənağa Turabovu da qoşaq. Çünki, Turabov Azad Şərifovla dost idi. Filmin ssenarisini başqa cür qurmuşdum. Film belə başlayırdı: balaca Nəbi qoyun sürüsünə çobanlıq edir, dağda yağışa düşür, qayalıqların arasında canavar onun qoyunlarına hücum edir. Mənim ssenarimə görə, film Nəbinin uşaqlığından – onun canavarlarla vuruşmasından başlayırdı. Canavarlarla əlbəyaxa olaraq camaatın qoyunlarını xilas edir. Bu epizodla onun hələ uşaqlıqdan mübariz olması göstərilirdi. Buna etiraz yarananda qərara gəldik bəzi dəyişiklik edək, Nəbini yalnız qisasçı kimi yox, həm də el qəhrəmanı kimi qələmə verək. Buna görə də Nəbinin yaşını da dəyişdik. Aktyorlar seçiləndə sınaq çəkilişləri oldu. Cəmil Əlibəyovun təklifilə qərara aldıq ki, baş rola Həsənağa Turabovu çəkək. Artıq bizimlə konfliktdə olan Azad Şərifovun cığallıq etməyə yeri qalmadı. Çünki, Azad Şərifovla Turabov möhkəm dost idilər. Həsənağa Turabovun xatirinə bəzi epizodları dəyişdik. Beləcə qarşıdurma, gərginlikdən sonra filmin çəkilişinə start verildi. Filmin ərsəyə gəldiyi müddətdə Həcər obrazını yaradan Mömünət Qurbanova Ənvər Həsənovla (onlar ailəli olub, Mömünət xanım bir neçə il əvvəl avtoqəzada həlak olub) birgə Ə.Mahmudovun kursunda oxuyublar. Ə.Mahmudov film üzərində çalışarkən elə bu cütlüyü filmdə çəkməyi nəzərdə tutduğunu deyir: "Ənvər Həsənov üçün fikirləşdiyim "Sirac" obrazı

kiçik epizod idi. Ənvər Həsənova görə epizodu böyüdüb əməlli rol elədim. Rolunun öhdəsindən çox bacarıqla gəldi. Onun epizoduna hətta Niyaməddin Musayevin ifasında mahnı da həsr etdik. Mömünət xanım çox əxlaqlı, mənəviyyatca zəngin bir insan idi”.





*Qaçaq Nəbi, Qoçaq Həcər rollarının kamil ifaçıları*

*Həsən Turabov* *Mömünat Qurbanova*




ГАНЫ
ЗЭМИ







Əbdül Mahmudov: "Həsənağa Turabovun atla bağlı problemləri var idi. Bu filmə qədər Yuli Qusmanın ilk filmi olan "Mən mahnı qoşuram"da rol almışdı. Bu, "Qaçaq Nəbi" filminə hazılıq ərəfəsində baş verdi. Məhz həmin filmin çəkilişində Həsənağa Turabov çox böyük problem yaşadı. At ona təpik vurdu, beyni silkələndi, gecə ilə onu Bakıya gətirdik. Bir sözlə, çox ağır sarsıntılar keçirdi. Şükürlər olsun ki, sonra hər şey yaxşı oldu. Amma onun at fobiyası hələ də qalırdı. Atla olan epizodlarda – qaçan, vuruşan, çapan yerlərdə biz ona kömək edirdik. Həm də cıdırda Həsənağa Turabova oxşar Sabir adlı bir oğlan vardı. Müəyyən yerlərdə Turabovun yerinə onu çəkirdik. Gözəl idmançı idi, Həsənağa Turabovla yanaşı dayananda onları ayırmaq olmurdu. Bunun üçün Sabirin bizə çox böyük köməyi dəydi. Yalnız iri planlarda Həsənağa Turabovun özünü çəkirdik. Çünki, orda kaskadyor, dublyor oynaya bilməzdi. Bu səbəbdən də kadrları elə qururduq, atı elə saxlayırdıq ki, Turabova kömək olunduğu hiss edilmirdi".

"Xalq hər zaman mənəvi, ideoloji ehtiyacdan qəhrəmanlarını yaradır. "Qaçaq Nəbi"nin çayda əl-üzünü yuduğu, hərənin öz işində olduğu səhnədə onun xalq içindən çıxdığı fikrini göstərmək istəmişik. Hər zaman maraqlı bir şey olub ki, Nəbi Həcəri, Həcər də Nəbini xəbərsiz olaraq qoruyub. Xüsusilə də Nəbinin dostları onu xəyanətkarlardan qoruyurdu. Çünki, qaçaqlar həmişə xəyanət nəticəsində öldürülüblər".

"Qaçaq Nəbi" çəkildiyi müddətdə Həsənağa Turabov, Şahmar Ələkbərov, Rasim Balayev kimi aktyorlar həm də başqa filmlərdə çəkilirdilər. Bu səbəbdən də onların bığ uzatması düz gəlmirdi. Onların bığını filmin rəssamı çəkib hazırlamışdı...Məni yandıran kadrlar var. Bir rejissor üçün hər hansı kadrın çıxarılması övladını şikəst etmək kimidir. Film hər bir rejissorun ömrü və ölümüdür. İnsan hər nəfəs aldıqca ölümünə yaxınlaşır deyirlər. Rejissor həm

nəfəs aldıqca, həm də yaratdığı əsərə toxunulanda ölümünə yaxınlaşır. Bu filmin acınacaqlı bir taleyi oldu.

SSRİ Kinematoqrafiya Komitəsində Medvedev soyadlı bir baş redaktor hər vəchlə filmin ərsəyə gəlməsinə və ekranlara çıxmasına mane olurdu. Sən demə, o, sırf erməni mənşəli bir adam imiş. Film hazır olanda başda Medvedev olmaqla daxili və xarici düşmənlər öz mənfur sifətlərini büruzə verməyə başladılar. Qərbi Azərbaycanın Zəngəzur, Gorus zonalarında Qara Nəbi adlı bir quldur olub. Biz onu filmdəki epizodların birinə salmışdıq. Yəni pis bir adam kimi Nəbi onu öldürür və s. Bir də Stepan Yüzbaşı adlı içki düşkünü erməni olub, hansı ki, camaata qan uddurub. Hətta o ərazinin folklorunda belə bir deyim də yaranıb. Hayın getdi, vayın qaldı Stepan Urumkada payın qaldı Stepan. Həmin epizodlara irad olaraq bildirdilər ki, guya biz erməni xalqını alçaltmışıq, erməni xalqının düşmənini milli qəhrəman etmişik, Qara Nəbi faktorunu da şişirtmişdilər. Məhz onlarla bağlı olan kadrlar filmdən çıxarıldı. Məsələ o qədər uzanır ki, hətta Mərkəzi Komitə səviyyəsinə qədər gedib çıxır. Başda Süleyman Rüstəm olmaqla Süleyman Rəhimov, İmran Qasımov, Rəsul Rza kimi böyük şəxsiyyətlər rəsmi surətdə SSRI-nin rəhbəri Mixail Qorboçova teleqram vurdular. Teleqramda haqlı olaraq bildirilirdi ki, ”heç bir dəlil-sübut olmadan xalq qəhrəmanımızı müdafiə edə bilmirik, hansı ki, o, Çar Rusiyasına qarşı vuruşub, qan töküb, şəhid olub. Əgər onun haqqında olan bir filmi çəkə bilmiriksə, biz hamımız sovet vətəndaşlığından imtina edirik. Biz hüquqularımızın qorunmasını tələb edirik”.

Ə.Mahmudov bildirir ki, məsələylə bağlı onları Moskvaya çağırırlar: “Aləm dəydi bir-birinə. Gecə ilə məni Moskvaya çağırdılar. Əhmədağa müəllimlə Süleyman müəllim getmədi. Orda əslən gürcü olan dostum vardı, vaxtilə mənimlə Moskvada paralel oxumuşdu. O mənə bir sirr açmaq istədiyini bildirdi. Onu da vurğuladı ki, ”sirri açıram, amma mənim adım olmasın, bütün problemimiz həll olunacaq. Onda həmin oğlan bildirdi ki, “Medvedev təmiz ermənidir, sadəcə soyadını dəyişdirib. Qalmaqalın yaranmasına səbəb də odur”.

Ə.Mahmudov gecə ilə Bakıya kinostudiyanın direktoruna zəng vurur: “Zəng vurub bildirdim ki, Azərbaycanın xalq qəhrəmanı Qa-

çaq Nəbi bir erməni dığasının qurbanı olub. Yer-göy bir-birinə qarışdı. Üstündən bir həftə keçəndən sonra Medvedevi işdən qovdular. Deməк, yalançı tarix, yalançı şəxsləri məhz Medvedev təşkil etdiribmiş. Amma daha "cin şüşədən çıxmışdı". Ona görə də məni Mərkəzi Kinostidiyaya çağırıb dedilər ki, erməni epizodunu, Qara Nəbiylə bağlı və 1-2 xırda epizodu çıxart və filmin adını da dəyiş. "Qaçaq Nəbi" olmaz. Mənim üçün önəmli məsələ olsa belə, düzələn səmti tutmaq xatirinə onaların dediklərini etdim. Amma heyf o epizodlardan. Film indi sevilir, amma həmin epizodlar filmdə qalsaydı indi hər kəsin boynunda "medalyon" idi. O vaxt hələ nə Qarabağ məsələsi, nə də işğal olunmuş torpaqlarımız vardı. O epizodlarda çox məqamları açmışdıq. Orda bir epizodda tarixi faktlar vardı ki, erməni qadınları öz ermənilərinin əlindən yığılıb Qaçaq Nəbiyə şikayətə gəlirlər. Nəbi onlara kömək edir. Bu səbəblərdən dolayı həmin kadrlar çıxarıldı, filmin də üç adı oldu: "Qaçaq Nəbi", "Atları yəhərləyin", "Qanlı zəmi".

Filmin müdafiəsi üçün hamı ayağa qalxmışdı. İndinin özündə o vaxt mənə dəstək olan hər kəsə təşəkkür bildirirəm". 1986-cı ildə "Qaçaq Nəbi" filminin yaradıcı heyətinə Azərbaycan Dövlət Mükafatı verilib.[94]

Əbdül müəllimlə görüşlərimizdə açıqladığı bu son nüanslarla bağlı mənim də konkret şahidliyim olub, bu haqda söhbətim onu çox maraqlandırdı. Demək belə.

Mərkəzi Komitədən gələn təlimat üzrə Qubadlı payon rəhbərliyinin tapşırığı üzrə qonşu Qafan, Gorus rayonlarında bir neçə erməninin dilindən Qaçaq Nəbinin ermənilərə düşmən, millətçi olmadığına dair yazılı fikirlər almalı, hansısa yolla "dəlil-sübut" çəkib çıxarmalı idim.

Taxıl təhkimçisi olduğum "Sovet Azərbaycanı" sovxozunun qapan tərəzisi işləmədiyinə görə, Əyin, Çardaxlı, Xələc, Tarovlu, Yuxarı, Aşağı Xocamsaxlı, Mehrilinin taxılını ermənilərin Zeyvə kəndinin ayağındakı tərəzidə çəkib göndərirdim Tarovludakı anbara (çox işimiz belə nataraz idi). Müşkül işə düşmüşdüm; dolayısı ilə

[94] Azadlıq.- 2014.- 14 iyul.- S.13.

hansı ermənini dindirdimsə kin-nifrət nidası eşitdim, Nəbi adı eşidənlər ilan kimi fısıldayıb zəhər saçırdılar. Nəbinin öldürdüyü erməni hampalarının adlarını yerli-yurdlu elə danışırdılar ki…Biz bunlardan xəbərsiz idik. Ancaq bunun da çarəsini erməni xarakterinin köməyi ilə – Zeyvənin kolxoz sədri Mərdomun tapşırığı ilə yanıma gələn iki qoca erməninin hərəsinə iki “meşok” buğda verməklə tapdım, Qaçaq Nəbinin kasıb ermənilərin də haqqını, hüququnu müdafiə etdiyinə, yaxşı münasibət bəslədiyinə dair dillərindən rusca iki məktub alıb imzaladıb raykoma təqdim elədim. Amma film ilk dəfə Çingiz İldırım klubunda göstəriləndən sonra etiraz səsi ucaldanlardan biri olmuşam. Mən bu filmdə əsas aktyor Xalq qəhrəmanları Qaçaq Nəbi-Həcər xanım soyunun təmsilçiləri ilə “Qaçaq Nəbi” filminin rejissoru, Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi Əbdül Mahmudovun görüşü oyunlarını bəyənmişəm. İçərişəhərdə Nəbi-Həcər törəmələrinin filmin rejissoru Əbdül Mahmudovla 3 saata yaxın davam edən görüşümüzdə hətta dövrün tələblərini nəzərə almaqla da faktlarla fikirlərimi bildirmişəm, ən azı filmin heç olmazsa bir neçə kadrının Qubadlı, Zəngəzur ellərində çəkilməməyi də bu sıradadır. Qubadlı toylarında ən hörmətli mahnı Xan Şuşinskinin, Ağabala Abdullayevin oxuduğu “Qaçaq Nəbi” idi. İndi də Bakı, Sumqayıt toylarında bəzən zarafatla – “Qubadlıların himnini çal, oxu” – deyirlər. Rayondakı toylarda bu mahnıya hər kəs oynamazdı, haqq etmək lazım idi. 20 ildən çox Qubadlıda icrakomun sədri, raykomun I katibi işləmiş rəhmətlik Məsudə Rüstəmova getdiyi toy məclislərində yalnız bir dəfə qol götürüb süzərdi, o da “qoy sənə desinlər ay qaçaq Nəbi...” idi. “Qaçaq Nəbi” mahnısı el arasında “Zəngəzurun himni” sayılır.

Qara Qarayevin sevimli tələbələrindən biri bəstəkar Əziz Əzizli 1993-cü ildə “Qaçaq Nəbi” operasını yazmışdır. 130 ildən çoxdur Vətənimizin cənubunda, şimalında, Qafqaz, Kərkük, Anadoluda xalq dillər əzbəri olan, sevilən mahnılarla bu qəhrəmanları vəsf edir: Xan Şuşinski, Ağabala Abdullayev, Kamil Cəlilov, Aşıq Əsəd, Nevid Müsmirədək, Cemal Kaçar, Parisa Arsalani, Aşıq Əsgər Urmiyalı, Qarslı Mühsin Sinan və b. ifasında səslənən el, aşıq

nəğmə, mahnıları öz təravətini saxlayır, çünki bu sözlər xalqın bağrından, içindən qopan sevginin əksidir.

28 il 6 aylıq həsrətdən sonra işğaldan azad edilmiş Şuşamızda "Xarı bülbül" festivalı Azərbaycan Prezidenti, ailəsi, tanınmış sənətçilərimizin iştirakı ilə yenidən keçirildi. "Şöhrət" ordenli sevilən xanəndəmiz Mənsum İbrahimovun həmin gün Cıdır düzündə məxsusi şövqlə oxuduğu "Qoy sənə desinlər, ay qaçaq Nəbi, Həcəri özündən ay qoçaq Nəbi" xalq mahnısının səslənməsi, dalğa-dalğa bütün azad edilmiş Qarabağ, Zəngəzur ellərinə, televiziyalarlarla canlı yayında dünyaya yayılması olduqca fərəhverici, qürurverici idi. Həm də ona görə ki, 150 il əvvəl yadellilərə qarşı apardığı azadlıq mübarizəsinə görə Qaçaq Nəbi həbs olunub buradan Sibirə katorqaya göndərilmək üçün bir az aralıdakı Şuşa həbsxanasına salınmış, ancaq qaçıb (Atalar sözümüz var: "igidlik ondur, doqquzu qaçıb qurtulmaqdı"!) canını qurtarıb yenidən silaha sarılmışdı! Və elə bil Süleyman Rüstəmin "Qaçaq Nəbi" mənzum pyesinin ən sonunda Qaçaq Nəbinin dilindən dediyi bu sözlər yada düşür, həm də bizə xatırladır ki, Şuşanın alınması ermənilərin sinəsinə çalın-çarpaz dağ olub, iblis xislətli düşmən bu biabırçı məqlubiyyətini heç zaman unutmayacaq, qisas üçün qovrulub yanacaq və daim ayıq-sayıq olmalıyıq:

*Qoçaqlar, qəhrəmanlar, düşmən basıldı, ancaq,*
*Dava qurtarmamışdır, unutmasın hər qoçaq.*
*Dostlarım, arxayınlıq əsla yaraşmaz bizə,*
*Düşmən qüvvə toplayıb gələcək üstümüzə.*
*Ən dəhşətli, ən ağır döyüşlər qabaqdadır!*
*Ağ günümüz, baxtımız bu ana torpaqdadır!*[95]

Qardaş Türkiyədə "Qafqazın İncə Məmmədi" (Anadoluda məşhur olan qaçaq, Yaşar Kamalın 40 dildə nəşr edilmiş məşhur "İnce Memed" romanının qəhrəmanı) adlandırılan Qaçaq Nəbi haqqında çox sayda araşdırmalar aparılıb.

---

[95] http://anl.az/el/r/rs_se3.pdf, s.162



Azərbaycan ordusunun, əsgər və zabitlərimizin düşmənə nifrəti, döyüş ruhu, cəsarət və qəhrəmanlığı, eləcə də az, çevik qüvvələrlə apardığı partizan savaşının üstünlüyü 44 gün sürən Vətən müharibəsində özünü bütün dünyaya göstərdi. Bu örnək ənənə həm də keçmişdən gəlir və bu tarixi qəhrəmanlıq dərslərinin olduğu kimi öyrənilməsi, gələcək nəsillərə çatdırılması dövlətimizin humanitar, hərbi, ideoloji siyasətində mühüm yer tutur.

Qubadlı rayon mərkəzində işğala qədər qalmış bu büstlər nadir sənət nümunələri idi.



Hazırda izi də yoxdur. Heç şübhə yoxdur ki, oktyabrın 25-də 28 il sürən işğaldan azad edilmiş Qubadlıda yenidən Qaçaq Nəbi ilə Qaçaq Həcərin abidələri ucaldılacaq, mənfur qonşularımız tərəfindən dağıdılıb izi də itirilmiş yanaşı büstləri daha layiqli şəkildə bərpa ediləcəkdir.







XALQ RƏSSAMI AĞA MEHDİYEV. ''QAÇAQ NƏBİ VƏ HƏCƏR''. 1988


Qaçaq Nəbi
portret
İnv № 634








*Rəssam fantaziyaları*





Сарај булағы.
Родник Сарай.





Рагс ансамблынын чыхышы.

Выступление танцевального ансамбля.

The performance of dancing ensemble.



Милли Гәһрәманымыз, идман устасы Әлијер Әлијев вә онун јетирмәләри (1988).

Национальный Герой Азербайджана, мастер спорта Алияр Алиев и его воспитанники. (1988).

Sportsmen.

# QAÇAQ NƏBİ VƏ QOÇAQ HƏCƏR TÜRKİYƏ MƏNBƏLƏRİNDƏ

"Kafkasya'nın İnce Memedi' (Anadoluda məşhur olan qaçaq, Yaşar Kemalın 40 dildə nəşr edilmiş məşhur "İnce Memed" romanının qəhrəmanı) adlandıran çox sayda Türkiyə mənbələrində, xüsusən qardaş ölkənin Naxçıvan və Qərbi Azərbaycan sərhədlərinə yaxın olan Qars, İğdır, Ərzurum və digər bölgələrində yaşayan əhali arasında, ağız ədəbiyyatında və yazılı mənbələrdə Qaçaq Nəbi ilə Qoçaq Həcərin adları məşhurdur, haqlarında çoxlu el bayatıları, qoşmalar, dastanlar söylənilir.[96] Eləcə də onların qaçaq düşməsi haqqında əhvalat da Azərbaycan mənbələrində olduğundan bəzən fərqli şəkildə yazılır.

Qaçaq Nəbi türk oxucularına xüsusilə istedadlı yazıçımız, Nəbi-Həcər yurdunun yetirməsi Cəlal Bərgüşadın "Bozatın belində" romanı il tanışdır. İstanbulda çıxan nüfuzlu "Tərcüman" qəzetində hissə-hissə nəşr olunub oxuculara çatdırıldıqdan sonra sonra roman "Qaçaq Nəbi" adı ilə bütövlükdə çap edilib oxucularına çatdırılmışdır. Türküyənin əbədi ictimaiyyəti romana yüksək qiymət vermiş və onu "Qəhrəmanlıq və məhəbbət dastanı" adlandırmışlar.

Ənvər paşa, Nuru paşa soyunun davamçısı, hərbçi, araşdırmaçı və Azərbaycan sevdalısı Ahmet Refik Altınay 1919-cu ildə İstanbulda əski əlifba ilə basılan "Kafkas yollarında" kitabında 1918-ci ildə Ərdəhanın bir qəsəbəsində ikən Qaçaq Nəbi haqqında mahnılar eşitdiyini yazır.[97]

*Mən gələndə*
*Göllər dolu ördək ilə quş idi,*
*Bir ərzi-hal yazdım əlim üşüdü,*
*Ağla , Nəbim, ayrı düşdün elindən...*
*Düşmür indi Vətən sözü dilindən.*

---

[96]https://ru.scribd.com/document/51641773/Qacaq-Nebi-Destanı-ndan

[97] https://www.e-kitaphavuzu.com/kitap/ahmet-refik-kafkas-yollarinda-kitabi-indir.html

Şahamettin Kuzucuların Qaçaq Nəbinin mübarizəsinə ayna tutan "Koçak Nebi Hikayesi Türküleri ve Varyantları"ndan bir neçə parçanı nümunə veririk.

"Kaçak Nebi, şahin gibi atın üstüne sıçradı. Ata binip çıkarken tekrar döndü ve babama 'Hacı iyiliğinin karşılığını nasıl ödeyeceğimi bilemiyorum' dedi. Aradan 15 dakika geçmemişti ki Pristav 30 kadar adamı ile birlikte köye girdi. Evimiz köyün girişinde olduğu için yine evimizin önüne gelip bana Nebi'yi sordular. Ben ise Nebi'nin bir saat evvel buradan geçtiğini söyledim. Çaresiz kalan grup rehberi Nebi'nin gittiği tarafa birkaç mermi sıkıp geri döndü. Köy halkı Hacı'nın Nebi'ye yardımını bir sır gibi sakladı. Aradan bir süre geçtikten sonra Nebi adamlarıyla yeniden babamın konağına geldi. Babam onlara iki koç kestirip ziyafet verdi. Nebi, babama; 'Hacı bana verdiğin at çatışmada vuruldu, onun yerine sana iyi bir Karabağ atı getirdim' dedi. Babam ise Nebi'ye 'Nebi ben atı senin gibi yiğide bağışladım. Biz verdiğimiz hediyeyi geri almayız' dedi. Nebi ile babamın konuşmaları sürerken köylüler içeri girip Pristav'ın ne kadar adamı varsa hepsini silahlandırıp köyü çevirdiklerini söylediler. Babam Hacı Mehemed Nebi'ye köyden nasıl çıkabileceğini iyice tarif etti. Biraz sonra silah sesleri duyuldu. Nebi, Kazaklara hayli kayıplar verdirip püskürttü. Bir süre sonra yeniden geldi, köylülere seslenip burada muhbirlik yapan olursa onu kendi ellerimle öldüreceğim, dedi."

***

"Azerbaycan ve Kuzey doğu Anadolu yöresinde sıkça anlatılan bir kahramanlık hikâyesidir. Hikâyenin daha ziyade, Kars, Arpaçay, Çıldır yöresinde olması, bu Halk Hikâyemizin daha çok Kara papaklı veya Terekeme Türkleri denilen kesim tarafından bilindiği ve anlatıldığı dikkati çeker. Terekeme veya Kara papaklardan derlenen Halk Hikâyelerimizin genellikle kahramanlık konusu olmasıyla da bu hikâyenin Terekeme Türklerince teşekkül ettirilirmiş olabileceğini düşünmek gerekir. Hikâyenin anlatıcıları ve dinleyicileri hikâyenin 19 asırda teşekkül etmiş olduğuna dair bilgiler de ısrarlı davranmaktadır. Hatta hikâyenin kahramanı olan Ko-

çak Nebi'nin veya Kaçak Nebi'nin yaşamış birisi olduğuna dair çalışmalar ve iddialar da mevcuttur. Ermeni, Türk ve Rus mücadelelerinin yoğun olduğu bu yüzyılda böyle bir hikâyenin oluşması akla yatkın gelmektedir. Hikâyenin konusu zaten Ermeni Türk ve Rus mücadelesine dayanır. Hikâyenin İran Azerbaycan'ı, Azerbaycan ve Doğu Anadolu ve Kars'ta oldukça yaygın olduğu hikâye konulu çok sayıda türkü ve varyantı olduğu bilinmektedir. Kaçak Nebi'nin yaşamış olduğu, Erivan ve Tiflis arşivlerinde yaşadığına dair arşivler bulunduğu iddialar arasındadır. Kaçak Nebi'yi Azerbaycan'da bir halk kahramanı ilan edilmiş hakkında pek çok türkü ve bu türkülerin varyantları da oluşmuş, Kaçak Nebi hakkında kitaplar yazılmış ve filmi çekilmiştir. 1985'te çevrilen "Kanlı Tarla" Kaçak Nebi Hikâyesi üzerine kuruludur. Bu hikâyenin varyantlarında rastlanılan esasa göre Hikâye kahramanın Kaçak Nebi veya Kocak Nebi olarak anlatıldığı dikkati çeker. Koçak eski dilde yiğit ve kahraman anlamına gelen Türkçe bir kelimedir. Hatta halk şiirimizdeki Koçaklama türü koçak kelimesinin anlamıyla ilişkilidir. Koçak Nebi Hikâyesi, Köroğlu hikâyesi gibi kahramanlık konuludur. Öyküde gecen Saldat veya Saldar Rus askeri anlamındadır. Öykünün ana hatlarında Ermeni Türk ve Türk Rus çekişmesi açıkça gözükmektedir."

***

"Nahçıvan beyleri Mahmudova köyünde Rüstemliler Ailesi'ne ait 30 hektarlık verimli toprağı ele geçirmek istiyorlardı. Lakin uzun yıllar boyu bu alanı ekip biçen Rüstemliler bunu vermek istemiyordu. Bu yüzden Nahçıvan beyleri Rüstemlileri korkutup bu araziyi ele geçirmek için bir dizi oyuna başvuruyordu. Bu beyler son dönemlerde Çar'ın komutanlarına Kaçak Nebi ile bu aile arasındaki dostluktan söz edip şikâyette bulunuyorlardı. Kaçak Nebi'nin isyanı bu beylerin otoritesini zayıflattığı için artık herkese istediklerini yapamıyorlardı. Bu otoritelerini yeniden elde edebilmek için de Rüstemli Ailesi'nin ileri gelenlerini öldürme planı yaptılar. Bunun için bölgede hırsızlık ve cinayetlerle tanınan ve Nahçıvan zindanında bulunan Teymur ve çetesini rüşvet karşılığında çıkardılar. Onlara Rüstemli Ailesi'nden kim varsa hepsini öldürmeleri için para verirler. Bu çete bir-iki ay sonra Rüstemli Ailesi'nin

ileri gelenlerinden Hacı Kerim'in evini kurşunlayarak onu ve üç çocuğunu öldürdü. Hükümet bu olayın üzerinde pek durmazken bazı yetkililer halka cinayeti işleyen çetenin olaydan sonra İran'a kaçtığını, bu yüzden de onları yakalamanın mümkün olmadığını söylerler. Olayları duyan Kaçak Nebi, Mahmudova'ya iner ve eski dostlarının yaslarına katılır. Orda halka seslenip bunu yapanlardan intikam alacağına söz verir.

Kaçak Nebi grubunu toplayarak İran tarafına geçer. Çetenin nerde olduğunu haber alır. Onların Mako'nun üst kesimlerindeki yerlerine bir baskın düzenler ve onları yakalar. Teymur ile Yunus'u öldürüp adamlarını dağıtır. Nebi'nin Teymur'u İran'da cezalandırması kısa sürede her yerde duyulur. Halk bu olayı kulaktan kulağa anlatır ve herkes Kaçak Nebi'nin kahramanlıklarından söz eder. Bunun üzerine Nahçıvan beyleri ve Çar'ın askerleri korkuya kapılarak halka daha mülayim davranmaya başlarlar."

***

Zengin bir Ağanın Hacer isminde güzel bir kızı varmış. Hacer`in evlenme yaşı geliyor. Kırak Köylerden kasabalardan 8-10 delikanlı Hacerle evlenmek istiyor. Babası bu durumu Hacer'e bildirip, hangisi ile evleneceğini soruyor. Hacer de Babasına: –Her birine ayrı ayrı mektup yaz aynı gün için davet et. Ben hangisi ile evleneceğimi size bildiririm.

Babası da 10 davetiye yazıp ayrı ayrı postaya veriyor. Bu delikanlılardan dokuzu geliyor, yalnız Nebi ismindeki delikanlı gelmiyor.

Hacer:

– Babacığım on delikanlı diyordun, birisi hani.

Babası da kızım Nebi isimdeki delikanlı gelmedi.

Baba, ben o delikanlı ile evleneceğim o çok gururlu birisi olmalı ki bizim ayağımıza gelmedi. Hacerin Baba`sı Nebi`ye ayriyeten bir mektup yazar. Nebi mektubu alır almaz, kır atını hazırlar heybesini kavgarır, Hacer`in köyüne doğru yola cıkar. Mevsimde ilkbahar zamanıymış. Köyün Mandasını bir Ermeni otlatıyomuş, bunlardan bir Türk Mandası ile Ermeni Mandası güreşiyormuş. Türk Mandası Ermeni Mandasını alt ediyormuş. Ermeni çoban

bunu kabullenemiyor. Türk Mandasının burnuna elindeki değneği sokup kanatıyormuş. Nebi, Ermeni`ye seslenerek, niye böyle yapıyorsun. Ermeni: – Türk mandası Ermeni mandasını dövüyor ,bende onun için burnuna değnek sokuyorum. Nebi ile Ermeni arasında Manda yüzünden kavga cıkar. Nebi silahını çekip orada Ermeni'yi öldürür, Akşam gelip durumu Hacer`e anlatır. Ve gece Hacer de kalır. Diğer taraftan olaydan Rus`lar haberdar olmuş, gece Hacer'in oturduğu evin etrafını bir manga Askerle kuşatmışlar. Sabahleyin Hacerle Nebi; pencereden dışarı baktıklarında evin etrafı Askerlerle çevrili olduğunu görürler. Hacer, Nebi`ye dönüp derki: – Nebi. Köroğlu birse doksan dokuz da dubarası vardı. Şimdi bizde öğle yapacağız Nebi ne yapacağız? Diye Hacer`e soruyor. Hacer: – Ruslar biliyor ki sabahları Müslimanlara su lazım olur. Sen su getirme bahanesi ile benim elbiselerimi giyeceksin. Kovaları çeşmede bırakıp arka Ormanlığa kaçıp kaybolacaksın.

Nebi`de Hacer`in sözünü dinleyip Hacer`in elbiselerini giyerek çeşmeden su getirmek bahanesiyle evden ayrılıp Rusların içinden geçerek çeşmeye gider ve kovaları bırakıp ormanlıkta kaybolur.

Çeşmeye giderken Hacer Nebi`ye der ki,papağını camın önünde bırak Ruslar senı evde zannetsin.

Bir zaman geçtikten sonra Ruslar Nebin ve Hacer`in teslim olmasını ister, içeride kimse teslim olmadığını anladıkları vakit papağana doğru ateş ederler. Hacer`de ıcerden Aynalı tüfegi alıp Ruslara ateş eder. On iki saldat bir gamender öldürür. Kurşunu bittiğin de Ruslar Hacer’i teslim alıp, Tiflis`de Azamet kalesine götürüp orada hapis edeler. Aradan bir zaman geçer. Nebi; Hacer`in Tiflis`de hapiste olduğunu öğrenir. Hacer`i oradan kurtaracağını ant içer. Kıratına binip silahını kuşanıp Tiflis`e doğru yola çıkar. Hacer`de Nebi`nin geleceği haberini alır. Pencereden hep Nebi`yi beklemektedir. Nebi bir gece Azamet önüne yaklaşmaktadır, hava parcalı bulutlu ay bulutlara bir batıp bir çıkıyor.

Hacer Nebiyi tanıyor. Ve türküyü söylüyor:

*Ay Nebi`im geler Saractı’nın elinden*
*Aynalı elinde şaşğa belinden*
*Ay Nebim kurtar beni sarı saldat elinden*

*Gel Ay Nebim gelesen gele beni bu zindandan alasan*
*Aynadan Nebim Dağları yerinden oynadan Nebim.*

Nebi bu sözleri işitip buna karşılık veriyor ve düşünüyor kırata çok iş düşeçek.







*Kırat seni çeperden çeperlere bağlarım*
*Belini de mahmuz çulla çullarım*
*Eğer beni bu kavgadan kurtarsan*
*Ant içerim ayağını da kızıl nalla nallaram*
*Ay kaçak Nebi`m Hacer`i kendinden ay koçak Nebi`m.*

Hacer Nebi`i kaçarken on iki saltad öldürdüğünü Nebi`ye anlatmak ıster.

*Aynalıyı ben direkten indirdim*
*İndiriben kol üstüne bindirdim*
*On iki saltada bir gamender öldürdüm*
*Gel ay Nebi`m gelesen*
*Gele beni bu zindandan alasan*
*Aynadan Nebi`m dağları yerinden oynatan Nebi`m*
*Nebi`m bıyığı eşme eşmedi*
*Nebi`min papağı gülleden delik desmedı*

*Nebi`m in atını hıc bı at gecmedı*
*Gel ay Nebi`m gelesen*
*Gele benı bu zindandan alasan*

Nebi seslenir:

*Ayda kalktı gun ortanın yerine*
*Hacer Hanım cilve vermiş hem zilfinin teline*
*Hacer Hanım gel bin sende kıratın beline*
*Ay kaçak Nebi`m Hacer`ı kendinden çok koçak Nebi`m*

Rıvayet odur kı Nebi Hacer`ı Azamet kalesinden kurtarır ve atını alıp gider.

*Nebi'm gelir Gazaklı'nın elinde*
*Aynalı tüfeği gama belinde*
*Neler çektim bu saldatın elinde*
*Gelesen gelesen ay kaçak Nebi*
*Haceri özünden çok Koçak Nebi*
*Gelesen gelesen ay nadan Nebi*
*Divanı yerinden oynadan Nebi*

**Türkiyə saytlarından xəbər:**

**20 yıldır sömürgeciliğe karşı savaşan Kaçak Nabi'nin köyü de işgalden kurtarıldı**

“Bugün Cumhurbaşkanı İlham Aliyev, Twitter hesabından bazı topraklarımızın kurtuluşunu paylaştı. Kurtarılan köylerden biri de kaçak Nabi'nin anavatanı Gubadlı ilçesine bağlı Aşağı Mollu köyüdür. 19. yüzyılın ikinci yarısında Azerbaycan'da kaçakçılık hareketinin aktif bir katılımcısı olan Azerbaycan Halk Kahramanı, kaçak Nabi bu köyde doğdu. Zangazur ve Nahçıvan'da korkusuz bir gerilla savaşı açan kaçak Nabi, 1854'te Zangazur ilçesine (şimdiki Gubadlı bölgesi) bağlı Aşağı Mollu köyünde doğdu. Nabi, Mart 1896'da Kerbela'dan dönerken, Türk-İran sınırındaki Larni köyünde Rus casusları tarafından hazırlanan bir pusuya kurban gitti. Nabi'nin hatırası Azerbaycan halkının kalbinde hala yaşıyor.”[98]

---

[98] https://qadin.net/tr/news/page/67/

## "QAÇAQ NƏBİNİN TÜRKİYƏ VARİANTI" – ZEYNELABİDİN MAKAS

Türkiyə və Azərbaycanda yaxşı tanınan tarixçi araşdırmaçı, xalqımızın böyük dostu Zeynelabidin Makasın yazıya alıb ilk dəfə Azərbaycanlı oxuculara təqdim etdiyi Qaçaq Nəbi dastanının qısa məzmunu isə belədir: "Nəbi Zəngəzur mahalının Mollu kəndində doğulub. Yaxşı heyvandar olub. Həcər ilə evli, ondan iki oğul atası olub. Uşaqlarının birinin beş, o birinin altı yaşı var idi. Novruz bayramıdır. Bayramqabağı xalq arasında xoruz, yumurta, qoç, buğa, camış döyüşdürmək adət halını aldığı üçün o il də belə yarışlar keçirilir. Nəbinin camışı ilə bir varlı ermənininin camışı döyüşür. Hər ikisi iddialıdır, camaat da bu camışların döyüşünə iki millətin döyüşü kimi baxır. Camışlar xeyli vuruşur, sonda Nəbinin camışı erməni İsvonçun camışını qatır qabağına qovalayır. Nəbinin tərəfdarları şadlıq edir, sevinib əl çalır. Qəzəblənən erməni tapançasını çəkib Nəbinin camışının başından vurur. Nəbi deyir: – Ay hotaha, iki dalaşanın biri udacaqdı, bu ağzı bağlı heyvanın günahı nəydi ki, sən onu öldürdün. Pərtlikdən partlayan İsvonç: – sus, köpəyoğlu, yoxsa, səni də gəbərdərəm. Nəbi deyir: – Hotaha, bir camışdı, sənə qurban edərdim, ancaq o söyüşünü bağışlaya bilmərəm – deyir, tapançasını çıxarıb ermənini alnından vurub sərir yerə. İsvonçun adamları Nəbini tutmaq istəyirlər. Nəbi dalınca düşənlərdən bir neçəsini cəhənnəmə göndərib, at belində qalxır dağlara. Gorusun pristav, naçalnikinin də ayırdığı kazaklarla birlikdə ermənilər gecə-gündüz dağlarda gizlənir, hər yanda Nəbini axtarır, pusqu qoyur, Nəbi də bunlardan bir-bir azaldır. Nəbi arvad, uşaqlarını yanına götürməyin yolunu axtarır. Dəstəsi də get-gedə böyüyür, Zəngəzur, Naxçıvanda artıq hamı ondan danışır, xəbər Tiflisdən keçib çarın özünə də çatır. İsvonçun qohumları, hökumət adamları gecə-gündüz Nəbidən intiqam almağın yolunu düşünür, əl altdan məkrli planlar qurur. Axır ki, bu əmələ əl atırlar, Nəbinin iki övladını erməni İsvonçun adamları rus kazaklarının böyüyünün razılığı ilə tutub gətirib Gorusda girov saxlayır ki, Nəbi gəlsin təslim olsun, buraxsınlar. Nəbi çox gec xəbər tutur 2 balasının ermənilərin əli ilə


ӘДӘБИЈАТ ВӘ ИНЧӘСӘНӘТ

ФОЛКЛОР

Гачаг Нәбинин түркиjә варианты

öldürülməsindən. Gecəynən gəlib girir İsvonçun evinə, İsvonç bu evin ortasında görəndə donub qalır. Arvadı düşür Nəbinin ayaqlarına qucaqlayıb yalvarır ki, buna nə cəza istəyirsən ver, ancaq günahsız balalarımı mənə bağışla. Nəbi deyir ki, bizim xalqımız aman diləyənə aman verməz, günahsıza əl qaldırmaz. İsvonçu çıxarıb həyətdə 7 gülləni boşaldır canına, ata minib çıxır. Ancaq Həcərdən də gizli saxlaya bilmir. Bundan sonra onların zalım erməni, rus hökumət adamlarına nifrəti, onlara divan tutmağı daha da artır. Nəbini qabaq-qənşər döyüşdə məğlub etməyin, tutmağın mənasız olduğunu görən çar hökumətinin adamları başqa yol seçirlər, pul, qızıl, var-dövlət, mülk verməklə şirnikləndirib dəstəsindəkilərdən ələ alırlar. Xəyanət öz işin görür. Dastan bu cümlələrlə bitir: “Beləliklə, qoç Nəbi ilə onun qoçaq arvadı Həcərin Qafqazda işğalçılara qarşı bir Novruz bayramında başladığı mübarizə təqvimin 1896-cı ili göstərdiyi bir tarixdə yenə də Novruz bayramında əbədi olaraq tarixə qovuşmuş oldu. Ancaq indi də xalq harda bir qoçaq bığıburma igid adam görürsə Qaçaq Nəbini, yaxşı bir at görəndə Bozatı, qoçaq bir vəfalı el anası görəndə Həcəri yada salır.”

“Qaçaq Nəbi” dastanındakı Nəbinin “Qars və Ağrı dağı səfəri” bu partizan hərəkatının Anadolu ellərində (türk dastan variantında “Ana Ağrı” ifadəsi işlənir) vuruşmaları, zülmə qarşı davası, igidliyi şirin dillə, inandırıcı detallarla əks olunub. Bu səfərə həsr edilmiş dastanda Türk ellərində qəhrəmanların şəninə qoşulan nəğmələr də veilib.

*“Çərşənbə gecəsi onlar yatmadı,*  
*Tüfəng dolu qaldı, biri atmadı,*  
*Min atlıynan paşa gəldi, batmadı,*  
*Mahalda deyirlər qaçaqdı Nəbi!*

*Yoldaşı yanında qoçaqdı, Nəbi!*
*Paşalar qıy vurdu ərə, əsgərə,*
*Qaçaqlar Ağrıdan vurdu beş kərə,*
*Qoç Nəbi birdən çəkdi bərk nərə,*
*Mahalda deyirlər: qaçaqdı, Nəbi!*
*Yoldaşı yanında qoçaqdı, Nəbi!*
*Atdılar tüfəngi, tökdülər tası,*
*Anaları gərək saxlasın yası,*
*Açıldı paşanın paxırı-pası,*
*Mahalda deyirlər: qaçaqdı, Nəbi!*
*Yoldaşı yanında qoçaqdı, Nəbi!"*[99]

Qaçaq Nəbi 20 ildən çox təkcə çarizmin naçalnik, pristav, uryadnik, kazak, saldatlarına, yerli bəy, xanlarına qarşı yox, həm də üç ölkənin generallarına qarşı savaşmışdı.

Tarixdə son 150 ildə belə igid, qəhrəman yetirməyib hələ!

## QAÇAQ NƏBİ GÜNEY AZƏRBAYCANDA

**"Atları yəhərləyin" filmində Qaçaq Nəbinin dilindən: "Arazın o tayı da, bu tayı da mənim doğma el-obamdır. Elin o başı, bu başı olmaz! Bunu sırğa elə as qulağından!"**

Qaçaq Nəbi və Həcər xanımın igidliyi barədə Arazın o tayında çoxlu dastan, hekayə, qoşma, gəraylılar qoşulmuş, Arazın bu tayında yaşayanlarla bərabər səviyyədə sevilmiş, şəninə şeirlər, mahnılar yazılmışdır. Dastan nəşr edilmişdir.[100] Arazın yaxın o tay kəndlərində Nəbinin sadiq dostları var idi. Nəbi Zəngəzurda, Naxçıvanda, Sisyanda, Qaradağda çar kazaklarının qısnağına düşən kimi Arazı vurub keçir, Cənubda sığınacaq tapır, Həcəri dostlarının evində qoyub dəstəsini dağlara çəkir. Nəbi-Həcər qaçaq dəstəsi Arazın bu tayında olduğu kimi, o tayında da el-obanın harayına yetən, rəncbə-

[99] "Qaçaq Nəbi", s.399
[100] Aşiq Hüseyn Sai, Qaçaq Nəbi, Təbriz, Zərqələm nəşriyyatı, 1380, 128 səh.

rin, naxırçı, çobanın, ümumən əliqabarlı, diligileyli yoxsulların imdadına çatan haqq-ədalət müjdəçiləri tək böyük şöhrət və məhəbbət qazanmışdı. Bu basılmaz el üsyançıları zülmkar hampaları, məmurları, koxa və kəndxudaları, xocaları, bəy və xanları camaat qarşısında ittiham edir, layiqincə cəzalandırır, zülm hesabına varlanmış harınların əmlakını, varidatını kasıblara paylayır, onları ağır vergilərdən azad edirdilər. Nəbiçilər şəxsi intiqam, şəxsi qanlılıq, şəxsi qisas qayəsilə yaşamırdilar, əgər belə olsaydı onların mübarizəsi 20 ildən çox davam edə bilməzdi. Araz boyu sərhəddə dayanan çar zabit və əsgərləri də igidliyinə, haqlı mübarizəsinə, sadə insanların müdafiəçisi olduqlarına görə Nəbi gilə düşmən gözü ilə baxmırdılar. Onlar buyruq qulu olduqları üçün zahirən Nəbiyə düşmən kimi baxmağa məcbur idilər, lakin yad ölkədə qanlarına qəltan olmaqdan çəkinir, onlara da bəzən görüm-baxım edən Nəbiyə güzəştə gedir, onun dəstəsini o tay-bu taya buraxırdılar. Nəbinin bir sifarişi, yaxud bir parça kağızı gələn kimi sərhəd zabiti vuruşmadan yaxasını qurtarmaq üçün dərhal razılığa gəlirdi. Ancaq xahiş edirdilər ki, heç yerdə deməsinlər ki, komandir bizə yol verdi. Azərbaycanın cənub oylaqları, dağları zaman-zaman el qaçaqlarına sığınacaq olmuş, onları çar və şah gülləsindən qorumuşlar. Dastan, qoşmalarda adı tez-tez keçən əzazil Əhməd xanın oğlu ağa Niyazinin Həcər haqqında yalan hərzə-hədyan söyləməsi Həcərin qulağına çatanda ona belə sifariş göndərir:

*Könlümü vermişəm bir mərd igidə,*
*Ona tay olarmı sən kimi gədə,*
*Nəbini sevərlər hər bir ölkədə,*
*Dav gəlməz aslana qorxaq tülkülər,*
*Vaxt gələr qarşımda dizin bükülər.*

Nəbinin səsi tez-tez Maku, Qaradağ, Urmiyadan gəlirdi. Nəbi bu tayda rus hökumətinə qarşı necə vuruşurdusa, o tayda da fars sərbazlarına elə qan uddururdu.

*Nəbi getdi Əhməd xanın yanına*
*Əhmədxan susadı onun qanına*

*Nəhlət olsun xanın adı, sanına*
*Deyirlər geçibdi İrana Nəbi*
*İranda qonaqdı ay xana Nəbi!*
*Həcəri adlatdı Nəbi İrana*
*Nəbinin sədası düşüb hər yana*
*Naçalnik, pristav, qal yana-yana.* [101]

Dastanda deyildiyi kimi, Həcər xanım kəndlilərə, qaçaqlara qənim kəsilən Əhməd xanın oğlu ağa Niyazini güllələyib qanına qəltan etmiş, bundan sonra Əhməd xanın qaçaq dəstəsinə qarşı kin, qəzəbi daha da artmış, intiqam üçün Arazın bu tayındakı çar nökərlərinə öz xidmətini təklif etmiş, Nəbinin qətlinə öz murdar köməyini göstərmişdir.[102] Behcət də Qaçaq Nəbi ilə Əhməd xanın münasibətlərindən yazıb; əvvəl dost olublar, evində Həcərlə, dostları ilə dəfələrlə gecələyib, ancaq sonra o da xəyanət yolu tutub, bu taydan pristav Əli ağanın vədlərinə inanıb qızıl-pul müqabilində Nəbini ələ verə bilməsə də, Həcəri öz evində tutdurub namərdliklə təhvil verir, Həcər Gorusa aparılıb qazamata salınır və Nəbi onu azad edir. Sonra Nəbi və Həcər xain xandan intiqamını alır.

C.Bərgüşadın “Bozatın belində” romanında təsvir etdiyi hadisələrin yarısına qədəri Güney Azərbaycanda baş verir. Şeyx adlı sadə bir kəndlinin Qaçaq Nəbi və Qaçaq Həcəri şah sərbazlarının və Əhməd xan dəstəsinin əlindən qurtarması epizodu çox təsirlidir.

Qaçaq Nəbi adı böyük şairimiz Məhəmmədhüseyn Şəhriyarın da hafizəsinə əbədi yazılan qəhrəman olmuş, ustad şair Nəbini sevmiş, onun qəhrəmanlığını vəst etmişdir. “Heydərbaba”sı ilə könüllərdə əbədi taxt quran ulu Şəhriyar hələ uşaq vaxtlarından qəlbində közərən hissləri, Qaçaq Nəb sevgisini ahıl vaxtında sətirlərə düzərək “Qaçaq Nəbi” kimi musiqili, rəvan, sadə, sevgi-məhəbbətdən yoğrulmuş, o tay bu tay Azərbaycanın birlik, bərabərlik rəmzlərindən birinə çevrilmiş, dillər əzbəri olan bənzərsiz şeir incisi yaratmışdır.

---

[101] B.B. s.254
[102] Əşir Bəşiroğlu, Qoca qartal, roman, Bakı-“Təknur”-1914

*Güney Azərbaycan, Urmiya. Qaçaq Nəbinin 12 mart 1896-cı ildə qətlə yetirildiyi və dəfn olunduğu, nəşi uyuyan Larni kəndi bu gün. Fotoları Güneyli yazar dostum Araz Əhmədoğlu təqdim edib.*







# BƏHLUL BEHCƏT VƏ ONUN "QAÇAQ NƏBİ" ƏSƏRİ



1869-cu ildə Zəngəzur qəzasının Dondarlı nahiyəsində (Qubadlı rayonu) doğulmuş Bəhlul Behcət (vəfat tarixi-15 mart 1938) Zəngəzur qəzasının (Sisian, Laçın, Gorus, Qafan, Qubadlı, Zəngilan, Mehri rayonlarının ərazisi) çox nüfuzlu ixtiyar sahibi-qazısı olmuşdu. Şəkidə, Təbrizdə, Şamda dini təhsil almışdı, ərəb-fars, rus dillərini mükəmməl bilirdi, "Qurani-Kərim"i, Əmin Abidlə birlikdə Firdovsinin "Şahnamə"sini dilimizə tərcümə etmişdi, hələ gənclik illərindən Qarabağın tarixini də tədqiq edib yazırdı və "Behcət" təxəllüsü ilə yorulmadan apardığı elmi araşdırmaları 1920-40-cı illərdə çox mötəbər sayılırdı, məşhur idi, tarixçi, ədəbiyyatşünas, ilahiyyatçı alimlərin yetişməsində mühüm rol oynamışdı; "Qarabağ tarixi", "Qaçaq Nəbinin tarixi", "Məhəmməd Peyğəmbərin və ailəsinin tarixi", "Nizami və Qafqaz folkloru", "Sarı Aşıq", "Aşıq" təxəllüslü bayatı şairinin tərcümeyi-halı və yaradıcılığı" kitabları və onlarla məqaləsi bu gün də öz əhəmiyyətini, elmi dəyərini saxlayır. Təəssüf ki, 4-cü, son həbsində NKVD-nin erməni müstəntiqlərinin əlinə keçən çox sayda əlyazmaları, tərcümələrini indiyədək tapmaq mümkün olmayıb, çox güman qəsdən izi itirilib. 824 B№-li orderlə Bəhlul Əfəndinin Hüsü Hacıyev küçəsindəki evində aparılan axta-

rış protokolunda göstərilir ki, evdən bir çamadan müsadirə olunmuş kitab və əlyazmalar müvəqqəti saxlanmaq üçün qonşuluqdakı rus qadına təhvil verildi.[103] Üç dəfə onu həbsdən, ölümdən xilas edən, 1-cidə bəlkə də ölümdən qurtarmaq üçün gizli yaşadığı İrandan qaçırdıb gətirdən, 1924-34-cü ildə 10 il həbsdə yatırdan Mircəfər Bağırovun artıq 4-cü dəfəyə gücü yetməmişdi; Azərbaycanın bütün güc strukturlarını ələ keçirmiş qırmızı bolşeviklər və daşnaklar Bəhlul Behcətin 1918-ci ildə yaratdığı fədailər ordusunun başında özünü "Zəngəzur qubernatoru" elan etmiş erməni nizami ordu hissəsinin başçısı general Andranik Ozanyanın dəstəsinə qarşı fədakar mübarizəsini, 1921-ci ildə yazdığı, "Ya qazi, ya şəhid olaq!" çağırışı ilə bitən "Cihad Bəyannaməsi" ilə xalqı üsyana qaldırıb ("Xanlıq üsyanı") Zəngəzur qəzasında daşnak-bolşevik hökumətini devirdiyini həzm edə bilmirdi. Bəhlul Behcət "Azərnəşr"də (korrektor), Elmlər Akademiyasının ədəbiyyat sektorunda işləyərkən Mərkəzi Komitənin tapşırığı ilə bir çox əsərləri də Azərbaycan dilinə tərcümə edən azsaylı peşəkarlardan idi, hətta, bu amil də onu ölümdən xilas edə bilməmişdi. Danosbaz gizli xəfiyyələr son vaxtlar saç-saqqalına baxmağa heç həvəsi olmayan, vaxt ayırmayan B.Behcətin bu cavabını olduğu kimi əvvəlcə Moskvaya çatdırmışdılar: – Bəhlul Əfəndi, üzünə-başına niyə qulluq eləmirsən? Bəhlul Əfəndi deyir: – Mən düşmənə xidmət edən başa qulluq edə bilmərəm". Və həmin gün bu aforizm kimi deyim yerinə çatdırılır. Bu savadlı, yorulmaz tədqiqatçını, gözəl qələm sahibini, nəcib, mömin üləmanı və qorxmaz qazini yenidən həbs edib tez də güllələyirlər. Bəhlul Behcət özü də XIX əsrin sonlarında rus çarizminin ucqarlarda daha amansızlıqla yeritdiyi müstəmləkə siyasətinin, törədilən haqsızlıq, özbaşınalıqların canlı şahidi idi, Nəbinin qaçaq düşməsinin də, mübarizəsinin səbəblərini də çox gözəl anlayır, görürdü, real fakt, hadisələrə istinadla, özünün münasibətini də bildirmədən obyektivliklə bu hadisələrin təsvirini "Qaçaq Nəbinin tarixi" (vəsiqə və sənədlər üzrə)" kitabında

---

[103] Nərimanoğlu H. "Bəhlul Behcət və onun "Qaçaq Nəbinin tarixi" əsəri. https://zengezur.com/index.php/mqallr/93-zngzurun-sonuncu-qazs-bhlul-behct-v-onun-qacaq-nbi-tarixi-kitab5

yerli-yataqlı yazıb. Bu əsərlə Bəhlul Behcət həm də özünü tarixçi kimi təsdiq edib, tarixşünaslığımıza sanballı töhfə verib.

Kitabda, əziz oxucuların da oxuyub gördüyü kimi, ən çox B.Behcətə istinad etmişəm, onu ən etibarlı mənbə saymışam, səbəbi də məlumdur; onun kitabı sənədlər, vəsiqələr əsasında yazılıb, yazan şəxs Nəbi-Həcərin müasiridir, məlumatlı şəxsdir, təbiətcə Allah adamıdır, obyektivdir, istinadları, yanaşması da inandırıcıdır. O, yazır: "Biz Qaçaq Nəbinin tarixini nə əfsanələrlə dolu qeyri-təbii hadisələrin bir-birinə quraşdırılmış macəralar yığını hesab edirik, nə də Qaçaq Nəbini "olmayan sərgüzəştlər" qəhrəmanı Kürd Hüseyn və ya xalqı əyləndirici hekayələr sahibi "Don Kixot" kimi tanıyırıq. Bəlkə biz Nəbinin həyatını ziddiyyətləri ilə mübarizədə şöhrət qazanmış bir amil hesab edirik və onun həyat və mübarizə tarixinə də bu baxımdan yanaşmağı lazım bilirik".[104]

Sovet-KQB rejiminin hələ dimdiri vaxtı rayon komsomol komitəsinin işçisi olarkən bütün risqləri gözaltına alıb Bəhlul Əfəndinin Dondarlıdakı ocağında oğlu Molla Mustafadan geniş bir müsahibə almışdım, 2 səhifəlik həmin məqaləmi də həmişə olduğu kimi "Avanqard" qəzeti nöqtə-vergülünə dəymədən çap eləmişdi. O məqalənin birinci cümləsi belədir: "Dondarlı kəndində Molla Mustafa ilə qabaq qənşər oturmuşuq, orta məktəbi bir sinifdə bitirdiyimiz gəlini Şəfəqin samovar çayından içə-içə yaşı 70-i keçmiş ağsaqqalımızın söhbətini dinləyirəm, qeydlərimi aparıram". Və sonra bu cümlələr gəlir: "Müsavat dövründə Zəngəzurda bütün hökumət işlərinə babam (atası B.Bəhcət – H.N) rəhbərlik edirdi. 1920-23-cü illərdə Zəngəzuru hələ pay-püş eləməmişdilər. Müsavat Hökumətinin sədri Məhəmməd Əmin rəhmətliynən şəxsi münasibətləri var idi. O vaxtlar babamın Türkiyədən, İrandan çoxlu qonağı olurdu..." Müsavatçı din xadiminin molla oğlu ilə atası, 37-ci ildə sovet KQB-sinin amansız repressiyasına dair yazını qəzetdə vermək də bir cəsarət, milli düşüncə nümunəsi idi. Arxivdən o məqalənin tapıb üzün çıxarıb "Qubadlısız 16 il" kitabımda da verdim.[105] Musta-

---

[104] B.B, s.138

[105] Nərimanoğlu H. "Qubadlısız 16 il", "Elm və təhsil"-2009, səh.40-43

fa kişi ailəmizdə çox sevilən, hər zaman gözlədiyimiz kişilərdən idi, ən çox da cümə günləri bizə gəlib Babam Hacı Fətəlinin məscidində (indi yoxdur daha) namaz qılar, məsciddəki dini, ədəbi kitablardan, babamın ərəbcə əlyazmalarından götürüb çardağımızda açıq havada, gün düşən yerdə samovar çayı içə-içə oxuyar, dədəmlə mənə izah edərdi. Bəhlul əfəndinin babam Hacı Fətəli əfəndi ilə məxsusi əqidə dostluğu barədə də çox söhbət edərdi; bəzən saatlarla, namazdan namaza qədər bir yerdə dini, elmi, bədii kitabları qarşılarına qoyub söhbətləşər, bəzən də mübahisə edərmişlər. Ən çox da sünni-şiə məzhəbinin müsəlman aləminə zərəri barədə danışar, bunun qarşısını almaq üçün yollar arayıb açıq-gizli şəkildə bəzi işlər də görərdilər. Və babam Hacı Fətəlini labüd həbsdən Qubadlı raykomunda və NKVD-də Dondarlı kəndindən olan xeyirxah insanların və Ağdaşlı hacı dostlarının birgə yardımı ilə xeyli müddət gizli saxlaması xilas edib.[106]



Bu gün də islam dünyasını parçalayan və Türkiyə ilə İran arasında əsrlərdir davam edən, o tay, bu tay Azərbaycanda mənfi təsirini getdikcə daha qabarıq göstərən məsələyə dair qazı Bəhlul Behcət 100 il əvvəl doğru-düzgün təhlili bilgilər verir, Səfəvi şahı Xə-

[106]Yenə orada, səh.20-24

tai ilə Sultan Səlimin dövründən başlayan sünni-şiə məzhəblərarası savaşının Azərbaycana olduqca mənfi təsiri və çar, ardınca bolşevik hökumətlərinin bundan necə məharətlə istifadə etdiyinə dair kitabının 148-150-ci səhifələrində indi də əhəmiyyətli olan faktlar açıqlayır. Ümumiyyətlə, bu kitab həm də Qarabağ xanlığının tarixinə, XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda torpaq, mülkiyyət hüququ, çarizm-yerli torpaq sahibləri-kəndli münasibətlərinə dair mötəbər tədqiqat əsəridir; "Xanlığın zühuru", "Qarabağ xanlığının mənşəyi və təşkili", "Ümumi yoxsulluq və təbəqələşmə mübarizəsi", "Vergilər və təhkim üsulu" və digər bölmələrdə bu barədə müfəssəl məlumatlar verib. Yeri gəldikcə çar idarəsinin məxfi məktub, sənədlərinə əsaslanan, K.Marks, Zubov, Yermolov, Vorontsov-Daşkov, Mirzə Adıgözəl bəy, Mirmehdi Xəzani, Baharlı, İbaydullin, Rəşid İsmayılov və s.in fikirlərinə istinad edən, onlarla bəzən mübahisə açan, tarixçi, tədqiqatçı, araşdırmaçıdır. Mən həmin kitabin ilk nəşrinə yazdığım 8 səhifəlik "Azərbaycan xalqının ən çox sevdiyi, vəsf, fəxr etdiyi qəhrəmanlar: Qaçaq Nəbi, Qoçaq Həcər" adlı Son sözdə (səh.284-292) bu məsələlərə xüsusi diqqət cəlb etməyə çalışmışam. B.Behcət kitabında yeri gəldikcə Azərbaycan, Zəngəzur, o cümlədən Qubadlı əhalisinin etnik tərkibi, türk və türkləşmiş, "unudulmuş" kürdlərin Qarabağa gəlişi, köçürülməsi, onların mental xarakterik xüsusiyyətləri barədə maraqlı bilgilər də verib: "Kürdlər, ümumiyyətlə, çox da pis səciyyəvi deyildir, onlarda cəsurluq, comərdlik kimi xüsusiyyətlər vardır. Kürdlər tərbiyə üsuluna çox tez alışqandırlar. Əsas mənfi cəhətləri onların həddən artıq millətçi olmalarıdır. Bu onları başqa xalqlardan ayırmaq dərəcədə gözə çarpır, kürd olmayanlara yad münasibət bəsləyirlər. Bu xüsusiyyət onları tərbiyə cəhətcə çox məhdud bir hala gətirmişdir. Az itaətli, ram edilən deyillər. Ancaq bu başqa xalqlara qarşıdır. Özlərindən olan rəislərə çox itaətlidirlər. Kürdlərin bu lüzumsuz "itaətkar" sifətləri onlara daim zərər yetirmiş, o rəislərin əlində bir alət başqa xalqlardan ayırmaq dərəcəsinə gətirmişdir"[107] və s. Bu sitat illərdir kürdlərlə münasibəti nizamlaya bilməyən Türkiyə rəsmiləri üçündür.

[107] B.B.səh.93-94

"Qaçaq Nəbi" dastanını Misir türkoloqu, ədəbiyyatşünas və tərcüməçi, Azərbaycanşünas alim, diplomat, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü, fəlsəfə doktoru Əhməd Sami Elaydi ərəb dilinə tərcümə edib, yaxın vaxtlarda nəşr ediləcəkdir.




Professor Mahmud Allahamanlı məqaləsində[108] haqlı olaraq vurğulayır ki, B.Behcətin Qaçaq Nəbi ilə bağlı mülahizələri son dövrlərdə xalq qəhrəmanı haqqında dolaşan mübahisələrə son qoymaq, düşünülmüş və düşünülməmiş mədəni arenaya gətirilmiş yazıları sonuclamaq üçün də əvəzsiz mənbədir. Bu faktların yazıya gətirilməsi və günümüzə çatdırılması üçün B.Behcətə minnətdar olmalıyıq. O, bütün olayları tarixi sənədlər, ayrı-ayrı canlı şahidlərin söylədikləri, inandırıcı faktlar əsasında böyük məsuliyyət və vətəndaşlıq hissi ilə yazıya alıb. Gələcəyə, sabaha məhz bu tariximizlə gedirik. Təkrar qeyd edək ki, gələcək nəsli məhz bu ruhda, olanlarımız əsasında tərbiyə etmək vətəndaşlıq borcudur. Bizə başqaları kimi qondarma, fantastik hekayətlər düzəltmək lazım deyil. Olanlarımız bəsimizdi. Olanlarımıza sahib dursaq və dura bilsək, bu, böyük işdir. Azərbaycanın ağrılarla dolu olan tarixi, faciələr, ölüm-itimlər, torpaq itkiləri, müharibələr belə nümunələrin yaranmasını və qəhrəmanlığın ümumiləşməsini zəruri edir. Bu kitabın üstünlüyü fakt, mənbələrə, arxiv sənədlərə istinadla yazılmasıdır. Məsələn, B.Behcət yazıb ki, Zaqafqaziya Dövlət Arxivinin 1856-cı ilin hadisələrinin aktları arasında bir sənəd var. Bu sənəd, həmin ildə Şirvan mahalı jandarma naçalnikinin yazdığı bir raportun surətidir. 640-cı nömrədə olan bu aktda naməlum bir qarət dəstəsinin Şəkiyə gedən poçtanı qarət etdiyi xəbər verilir. Yenə də o dövrdə "Kor Camal

---

[108] http://www.folklor.az/konfrans_materiallari/folklor-tariximiz.pdf, səh.123-133

bəy” adında birinin qaçaq olduğu məlumdur. Camal bəy (xalq ona Kor Camal deyirdi) Qarabağın Zəngəzur mahalında Xocik kəndinin (Qubadlı rayonu) əhli olmuşdur. Camal bəyin “Camal qalası” adlanan binası da olub. Nəbi də həmin Camal qalasında bir zaman sığınaq etmiş və orada böyük davalarda olmuşdur. Xocik kəndi Mollu kəndinin qonşuluğundadır. Mollu kəndi Həkəri çayının sağ sahilində, Xocik isə sol sahilindədir. Burada başqa bir fakt da xüsusi əhəmiyyət kəsb edir: “Dövlət arxivində Zubarovun general Paskeviçə təqdim etdiyi müfəssəl bir raport var. 911 nömrədə olan bu raportun 8-ci bəndində deyilir: “Qarabağda oğurluq, quldurluq hökmfərmandır. Buna da səbəb yeni hakimlər və nayiblər, xüsusən də Adıgözəl bəydir. B.Behcət bunları sadalamaqla, eyni zamanda qaşaqların aralarındakı fərqliliklərə də diqqət yetirir. “Onun (Camal bəyin və bu tip hərəkatla) qaçaqlıq hərəkatı ilə Nəbinin qaçaqlıq hərəkatı arasında məqsəd və səbəb etibarilə çox fərq var” qənaətini irəli sürür. Və xüsusi olaraq vurğulayır ki, Nəbi öz hərəkatının bütün mənəvi məfkurəvi mahiyyətini Əbdülkərimdən almışdır. Əbdülkərim Qarabağda çar üsuli-idarəsinə və yerli mülkədarlıq qəhrlərinə qarşı ortaya çıxan yoxsul kəndlilərin üsyançı nümayəndələrindəndir. Əbdülkərim 1822-ci ildə o zaman Qazax-Şəmsəddin adlanan Qazax mahalında anadan olmuşdur. Bütün bunlar və bu kimi faktlar həmin dövrdəki ictimai, siyasi mənzərəni ifadə edir və ümumilikdə Qaçaq Nəbi hərəkatının mahiyyətinə, genetikasına işıq tutur. Bu qəhrəmanları yaşadan həm də xalqın, ədəbiyyatın, musiqinin yaddaşıdır. B.Behcət yazır: “Xalq Qaçaq Nəbini himayə etməkdə səmimi idi... Xalq tərəfindən qoşulmuş çox gözəl “el qoşmaları” vardır. Bu qoşmalar Nəbinin xalq tərəfindən nə qədər sevildiyini göstərdiyi kimi, öz-özlüyündə “el ədəbiyyatı” nöqteyi-nəzərindən də olduqca qiymətlidir.”[109]

Qaçaq Nəbi xalq qəhrəmanıdır, mübarizə forması da qaçaqlıqdır, əsa arxası da haqqını müdafiə etdiyi əzilən, haqqı tapdanan, zillət içində yaşayan xalq idi. Bəhlul Behcət kitabında Qaçaq Nəbi haqqında həm tarixi, həm də bədii düşüncədəki gerçəkləri obyek-

[109] B.B, s.240

tivliklə araşdırıb, qiymətli əsər qoyub gedib. Kitaba əlavə olunan şeirlərin çoxusunu ilk dəfə onda görürürk. Bəhlul Behcətin yaradıcılığı bir neçə istiqamətdə maraq doğurur. O, tarixçi, islamşünas, ədəbiyyatşünas, folklorçu kimi diqqəti cəlb edir. Folklorşünas professor İsrafil Abbaslı da bu əhatəliliyi vurğulayaraq yazır: "Bəhlul Behcət barədə yazılmış əksər məqalələrdə o, əsasən, ədəbiyyatşünas, ədəbiyyat tarixçisi, folklorçu, din xadimi kimi təqdim edilmişdir. Onun irsi ilə tanışlıq göstərir ki, bütün bunlarla yanaşı, B.Behcət həm də islamşünas və tarixçi kimi də fəaliyyət göstərmişdir. B.Behcətin belə bir əsəri yazması zərurətdən yaranmışdır. Çünki özü həmin ərazidə yaşamış, müxtəlif faktlara, tarixi hadisələrə bələd olmuş, Qaçaq Nəbi ilə bağlı söylənən rəvayətlərin şahidləri ilə belə təmas qurmuşdu. O, 1934-1937-ci illərdə öncə Azərbaycan Dövlət Nəşriyyatında (Azərnəşr), sonra isə Az.RAİ-nin Ədəbiyyat bölməsində çalışmışdır. B.Behcətin folklor toplayıcısı və naşiri kimi fəaliyyəti də əsasən bu illərə təsadüf etmişdir". Bir məqamı da qeyd edək ki, keçən əsrin 30-cu illərində B.Behcət ədəbi-mədəni mühitdə fəallığı, prosesə fəal münasibəti ilə seçilir. Onun folklorşünas S.Mümtazın "Aşıq Abdulla" (Bakı, Azərnəşr, 1927, 71 səh.) kitabının ikinci dəfə "Sarı Aşıq" (Bakı, Azərnəşr, 1935, 215 səh.) nəşri ilə bağlı yazdığı məqalələr (Sarı Aşıq. "Ədəbiyyat qəzeti" 26 fevral 1936 və Sarı Aşıq. "Ədəbiyyat qəzeti", 21 mart 1936) geniş müzakirələrə səbəb olmuşdu. Bu müzakirələr Yazıçılar ittifaqında dörd gün davam etmiş, Ə.Nazim, H.Araslı, A.Dəmirçizadə, Ə.Qarabağlı, Salman Mümtaz mülahizələrinə bəraət qazandırmış, digərləri başda H.Zeynallı olmaqla tənqidi mövqedən çıxış etmişlər. Burada bir sıra məsələlər qaldırılırdı, əsas tezislərdən biri Sarı Aşıq adı ilə kitabın yenidən buraxılmasına nə üçün izah yazılmaması ilə bağlı idi. Bunlar hamısı bir istiqamətdə ədəbi mühitin qaynarlığını, ciddi məsuliyyət hissi ilə yanaşmaları düşünməyi zəruri edir. Bütün bunlar, eləcə də B.Behcətin özünün toplamaları (Sarı Aşığın bayatıları ilə bağlı toplamalar nəzərdə tutulur. Həmin toplamalar "Sarı Aşığın bayatıları". Bakı, Səda, 2007, 96 səh. (transliterasiya, ön sözün müəllifi Rza Xəlilov, elmi redaktoru İsrafil Abbaslı) onun bir folklorşünas kimi gərəkli işlərindən və araşdırılma ehtiyacında olmasından xəbər

verir. Bizim marağımızda olan və yazımızın mahiyyətində duran B.Behcətin Qaçaq Nəbi ilə bağlı mülahizələridir. Çünki bu mülahizələr son dövrlərdə xalq qəhrəmanı haqqında dolaşan mübahisələrə son qoymaq, düşünülmüş və düşünülməmiş mədəni arenaya gətirilmiş yazıları sonuclamaq üçün əvəzsiz mənbədir. Müəllif burada daha çox tarixçi, tarixi faktlara bələd bir ziyalı kimi görünür. Onun təhlilləri, gəldiyi qənaətlər özlüyündə son dövr tarixi araşdırmalar üçün də gərəkli ola bilər. Məsələn, "Azərbaycanın iqtisadi coğrafiyası"nı yazmış iqtisadçı Məhəmməd Həsən Baharlı ilə torpaq mülkiyyəti barədə fikir ayrılıqları özü maraqlı problemlərə yol açır.

B.Behcət bu məsələlər fonunda yazır: "Nadir şah istədiyi adamlara torpaq və mülk bağışlamaqda çox səxavətli olmuşdur. Buna bir şahid olaraq onun bir fərmanını qeyd etmək lazımdır. Farsca yazılmış bu fərmanı mən şəxsən oxumuşam, fərman o zaman Nadir şahın sərkərdələrindən biri olan Fətəli xan Çərxçibaşıya verilmişdir. Fərmanın məzmunundan aydın olur ki, Nadir şah Staypanı, Püsyanı, Bərgüşadı və Qapanatı Fətəli xan Çərxçibaşıya "at arpası" olaraq vermişdir.

Fətəli xan Çərxçibaşıya "at arpası" müqabilində verilən bu yerlər Qarabağda sabiq Zəngəzur qəzasının bütün hissələri, Sisyan, Zəngəzurda Qara Kilsə rayonunun bütün torpağı aiddir. Bu Sisyan Şura Azərbaycanında Qubadlı və Laçın rayonlarının əhalisinin yaşadığı hissəsidir. Bərgüşad Qubadlı rayonu içərisindən axmaqda olan böyük Bərgüşad çayı boyunca yaşayan türk kəndlərinin yerləridir".

Professor M.Allahamanlının sözügedən məqaləsindən gətirdiyimiz iqtibaslardan bədnam qonşularımızla bu günümüzün ağrılı, mübahisəli ərazi məsələlərinin mənbəyi, doğuluşu, yaranma tarixi də aydın görünür; bu tarixi torpaqlarımızın bir hissəsi 28 illik erməni işğalından azad edilsə də, tarixi torpağımız Zəngəzurun yuxarı hissəsi hələ də mənfur qonşularımızın girovunda qalıb.

B.Behcət "xalqın arasında bu qədər şöhrət tapmış bu böyük şəxsiyyət haqqında" yazarkən xüsusi olaraq vurğulayır ki, bu cür "böyük və ciddi tarixi hadisəni gəlişi gözəl və qeyri-təbii təsvir etmək düzgün deyildir".




*Qaçaq Nəbinin davamçıları*



*Saray kəndi, evimiz*

# YADDAŞ. HƏCƏR XANIMLA BAĞLI BİR YAZIMIN TARİXÇƏSİ

1988-ci ildə bədnam, məkrli qonşularımızın xalqımıza, ölkəmizə elan edilməmiş açıq davası sərhəd rayonlarımızdan başladı. Babək Hüseynoğlunun o zamanlar çox populyar olan “Aydınlıq” qəzetində “Elin bu günündə gələydin, Nəbi...” başlıqlı yazım çıxmışdı. Aşağı, yuxarı Zəngəzur ellərimizdə erməni terroru, təxribatları ara vermirdi, qanı töküləndə qorxaq dovşana çevrilən erməniyə qarşı cəsur, qorxubilməz Qaçaq Nəbi kimi partizan hərəkatına başlamağın vaxtı gəldiyini, vacibliyini yazmışdım. Milli Qəhrəman Əliyar Əliyevlə bu yöndə çox söhbətimiz, təsirli konkret planlarımız də olmuşdu.

Rayon komsomol komitəsində işləyəndə “Qaçaq Nəbi” kolxozunda taxıl biçininə təhkim idim, o vaxtkı dildə “qapana baxırdım”, yəni İpatov üsulu ilə Aşağı Molludan ta Əliquluuşağı da daxil, Yazı düzündə taxılı biçinində kombaynların bunkerindən çıxıb anbarlara daşınan buğda, arpanı mən çəkirdim, rayon xalq nəzarət komitəsinin möhürlü, qaytanlı dəftərində dəqiq qeydiyyatın aparır, raykoma gündəlik də məlumat verirdim (amma yekunda rəqəmlər azı 2-3 dəfə şişirdilirdi).

Bir dəfə Aşağı Molluda kəndin bir neçə ən qoca sakinlərini gətirdim qəbiristanlığa ki Həcərin qəbrinin yerin mənə göstərin. Hərəsinin 80-90 yaşı olan bu nənələrin çoxu nəinki Həcərin qəbrinin yerini göstərdilər, hətta, onu gördüklərini, oturuş-duruşunu, boy-buxununu da təsvir elədilər, uşaqlıq xatirələrini bölüşdülər, Aşağı Molluda ömrünün sonunadək yaşadığı evin yerin də göstərdilər, klubun yanında kalafası qalmış tikilinin əzəlki görkəmini yerli-yataqlı izah elədilər.

Onu da deyim; o ağbirçək nənələrin söylədikləri, Bəhlul Behcətin yazdıqları, internet resurslarında Arazın o tay, bu tayında, Qars, İğdır, Gədəbəy, Naxçıvan, Zəngəzurda Nəbini, Həcəri görənlərin çox sayda görüntülü söhbətlərinin hamısında Nəbi ilə Həcərin boy-buxunları barədə deyilənlər üst-üstə düşür. [110]

---

[110] https://www.youtube.com/watch?v=gf4ZRp7Vndc...

Azərbaycan mətbuat tarixində ən çox tirajla – 300 min nüsxə ilə çıxan və satılan “Gənclik” – “Молодость” jurnalının (təsisçi rəhbər Məmməd İsmayıl) 1989-cu il may nömrəsində dərc olunmuş “Yaddaş” adlı yazımın son 4 abzasını nöqtə-vergülünə dəymədən bura köçürürəm.


ЈАДДАШ...

АДЛАР НӘ ДЕЈИР?

“Dağlarımız, qayalarımız kimi qürurlu, əzəmətli ulularımız öz yurdlarında özlərindən sonra gələnlərə yadigarlar qoyub gediblər, düşünüblər ki gələcək nəsillər bu tarixi əmanətlərə baxıb hardan gəldiklərini, hansı səmtə yol getdiklərini, kimliklərini anlasınlar, demək istəyiblər ki, biz olmuşuq, yaşamışıq, iz qoyub gedirik, siz də bu haqq yolu tutun, qoruyub saxlayın, qurun, tikin, özünüzdən sonra gələnlərə əmanət verin. Adımızı ucalığıynan yaşadın...

Biz isə... nə qədər eşitmək olar öz nadanlığımız, nankorluğumuz haqqında həvəslə (guya ki yana-yana) danışmağımızı.

Qaçaq Nəbi və Həcərin iyirmi iki illik qoşa mübarizəsi başqa bir xalq üşün örnək olardı. Həcərin dəfn olunduğu (Nəbinin qəbri Arazın o tayındadır) Aşağı Mollu kənd qəbiristanlığında bir neçə başdaşısız, nişansız qəbir var, biri Həcərindi. Nəbinin qərib ruhu da bizə əsər eləmir.

---

https://daytube.az/az/videos/46248/

Nə isə.... Allah cəmi ixtiyar sahiblərinə qeyrət versin, biz də onlara arxa olaq, qonum qonşudan geri qalmayaq.







Əslində rayonda tarixi abidələrə laqeyd münasibətə, ermənilərin də bundan istifadə edib xeyli tarixi yadigarlarımızı oğurlayıb, daşıyıb aparıb bir hissəsini də məhv etməsinə həsr olunmuş bu növbəti yazım Qubadlı Rayon Partiya Komitəsinin bürosunda müzakirə olundu, icrakomda işləyən biri olaraq mən də evin içinin kirli sirrini kənara çıxardığıma görə xeyli məzəmmət edildim, ancaq sözüm də var idi, dilim uzun idi, “Avanqard”, “Bərgüşad” qəzetlərimizdə bu barədə əvvəllər də yazmışdım, amma elə bir təsiri olmamışdı. Ancaq bu dəfə A.Molludan olan Adil adlı tütün qəbulçusuna (o vaxtlar pullu, gəlirli vəzifələrdən biri idi) tapşırıq verildi, qıza zamanda qəbirin üstü götürüldü, Həcər xanımın şəkli, ad, soyadı da üstündə yazıldı “Xalq Qəhrəmanı Həcər 1860-1919). Jurnalda məlumat da getdi. “Ordu”, “Sərhəd” qəzetlərinin zona müxbirləri Nəsiman Yaqublu, Lətif Şüküroğlunu növbəti gəlişdə bura gətirdim, yazı hazırlayıb şəkli ilə dərc elədilər.

44 gün davam edən savaş bitəsi görüb eşitdiyim bu xəbəri doğmalarına ilk çatdıran da deyəsən mən oldum: Həcərin məzarı, başdaşı dağılmamış qalıb və indi yenidən bərpa edilib (II şəkil).

Dünyaya göz açdığım, ayaq açıb ilk yerdiyim, Vətən adına ilk sevdiyim 35 evlik Saray kəndimdə "Bəylik" deyilən azı bir əsrlik mülk var idi; iki mərtəbə, orijinal arxitekturalı çoxotaqlı bina, yan-yörəsində ot, taxıl anbarları, xırman yeri, quyu, bulaq... Bütün ətraf kəndlərin örüş, kövşənlərində onlara məxsusu dədə-baba torpaqları var idi. Uşaqlıqda gizlən-tap oynadığımız, Novruz bayramı saxladığımız yer idi, aşağı mərtəbəsində kəndin dükanı yerləşmişdi, həyətində kino göstərilərdi. 1993-ün 31 avqustuna qədər Bala bəyin bu mülkündə həm də onun sadiq ev baxıcısı Balay kişinin ailəsi yaşayırdı. Evimiz, Hacı Fətəli babamın məscidi Bəylik evi ilə qabaq-qənşər idi. Yaşlı kişilərin burada divar dibindəki tut gərinin üstündə günəqarşı oturub söhbət, danışıqlarını açıq, gizli dinləmək sevimli məşğulatım idi. Uşaqlıqda böyüklərdən eşitdiyim Bala bəylə, hacı babamla Qaçaq Nəbinin dostluğundan, bu evdə gizli qalmağından, Dərəyuxarı, Qala, Çaylıdərə, Yazı düzündə düşmənlərlə savaşından söhbətlər yaddaşıma hopub. Həmişə Qaçaq Nəbi, Həcər adına içimdə bir mərhəm sevgi, ehtiram olub.

Məlum faktdır ki, Qafqazın tək 3 respublikasında deyil, keçmiş SSRİ-də sovet-bolşevik hakimiyyəti ən gec Qubadlı bölgəsində bərqərar olub. Əsas səbəblərdən biri Qaçaq Nəbi hərəkatı-tarixi ənənəsi ilə bağlıdır; bu bölgədə rus-erməni əsarətinə, düşmənçiliyinə qarşı nifrət o qədər güclü olub ki, Nəbi-Həcərdən sonra da qaçaqçılıq-partizançılıq davam edib, 1930-cu illərdə Bəhlul Behcətin "Cihad" Bəyannaməsi ilə camaat elliklə silahlı üsyana, savaşa qalxıb, "Xanlıq üsyanı" adlanan bu döyüşlə Zəngəzurun Xanlıq kəndində yerləşmiş qəzanın bolşevik hakimiyyəti – qəza inqilab şurası devrilib, bolşeviklər qovulub.

Xanlıq üsyanının qəddarlıqla yatırılmasından sonra da bolşeviklərə qarşı mübarizə səngimək bilməyib. Qafanın Kurud kəndində Şahverdi qardaşlarının, Zəngilanda Bəhmən bəyin, Sisiyanın Şəki kəndində Qaçaq Qardaşxanın, Qubadlıda Alyanlı Qaçaq Tavat, Xallavalı Lətif, Xələcli Kərimin başçılıq etdikləri silahlı dəstələri Moskva, Bakı, İrəvanda rus-erməni-bolşeviklərinin yuxusunu

haram eləmişdi. Bu qaçaq dəsətələrini ləğv etmək üçün Bakının kommunist rəhbərliyi tərəfindən Ermənistan hökumətindən hərbi kömək istənməsi tariximizin qara səhifələrindən biridir. Onların tamam “zərərsizləşdirilməsi” işi Zəngəzur Qəza İcraiyyə Komitəsinin sədri Harutyunyan, təhlükəsizlik idarəsinin rəisi Arşakuni və polis rəisi Sailyana tapşırılmışdı. Çünki yerli hökumətin nümayəndələrində, əhalidə Zəngəzurun yarıdan çoxunu ermənilərə pay verən şura hökumətinə, yerli, mərkəzi kommunistlərə qarşı artıq heç bir inam yox idi, qaçaqlara da mümkün olan hər cür yardımı göstərirdilər. Azərbaycanın faktiki olaraq, erməni-rus bolşeviklərinin idarə etdiyi kommunist rəhbərliyinin xüsusilə “Əliyanlı banditləri”ni məhv etmək üçün çağırdığı ermənilərdən əlavə İranla sərhəddi qoruyan rus, NKVD qrupunun da çoxu erməni idi.

SSRİ-də “bolşevizmin tam və qəti qələbəsi”ni elan etməyə sədd çəkən bu iş Stalinin qəti tapşırığı ilə çözülür; Azərbaycan rəhbəri Mircəfər Bağırovun şəxsən rəhbərlik etdiyi NKVD və rus sərhədçi dəstələri, digər tərəfdən 3 yandan mühasirə həlqəsi yaradıb qapadan erməni yaraqlılarının birgə əməliyyatı ilə Qubadlının Alyanlı, Hərtiz, Məzrə meşələrində gizlənmiş qaçaq dəstələri üzbəüz döyüşlərdə son güllələrinə qədər savaşır, Bağırovun bir neçə yaxın silahdaşı da öldürülür. Nəhayət, hökumət qoşunlarının başçıları 200 nəfərlik qaçaq dəstəsinin silahı yerə qoyub üzə çıxacaqları təqdirdə hamısının əfv olunacağını elan edib danışıqlar aparır. Hamını özləri kimi qeyrətli, sözünəbütöv sayan qaçaqlar bu vədlərə inanırlar, həm də artıq itkilərə yol verməmək xatirinə üzə çıxırlar. 70 qaçaq elə Muradxanlı kəndində güllələnir. Alyanlı adlanan Başarat, Hat, Deşdəhat, Armudluq kəndlərində 15-16 yaşdan yuxarı oğlanları da anabacılarının gözü qarşısında sorğu-sualsız güllələyən bolşeviklərin vəhşiliyi Andranik, Dro, Njde, Hamazaspın daşnak dəstələrinin vəhşiliyindən fərqlənmirdi. Nifrətin, kinin dərəcəsi idi ki, bu kəndlərin ayağı yer tutan, salamat qalanlarını da hökumət zorla Bərdəyə köçürdü. İndi Bərdənin Əlyanlı kəndini 20-ci illərdə o kəndlərdən sürgün edilənlər salıblar. Onlarla çox söhbətlərim olub.[111]

---

[111] Hacı Nərimanoğlu, “Zəngəzur: 100 sual, 100 cavab”, Bakı – 2019, səh.148-150

Bu kitabın yazılması ideyası, fikri məni 3 ildən artıq məşğul edib. 02 iyul 2018-ci ildə İsmayıllı rayonunun qədim Lahıc kəndində AMEA Folklor İnstitutu, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və İsmayıllı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Folklor milli kimlik kontekstində" mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilirdi. Konfransın təşkilat komitəsi üzvü olmaqla yanaşı, həm də məruzəçi idim. Eynilə hazırkı bu kitabın adı həm də məruzəmin adı idi və konfrans materillarında nəşr olunub.[112]

Dissertasiya işimlə bağlı arxivlərdə çalışarkən, həm də məruzəyə hazırlıq prosesində apardığım araşdırmalarda əldə etdiyim çoxsaylı zəngin, maraqlı sənədlər də bu istiqamətdə tədqiqatın perspektivləri olduğunu gördüyümdən, həm də tanınmış dost alimlər həmin mövzuda doktorluq işi götürməyi təklif etdilər. Lakin, doğrusu fəlsəfə doktorluğunu müdafiə prosesindəki çoxsaylı texniki çətinliklər artıq məni həvəsdən salmışdı. Yəni bu kitabın doğuluşu fikri həm də Qaçaq Nəbi-Həcər adına uşaqlıqdan yaranmış sevgimin nəticəsi ilə bərabər, həmin konfransdakı məruzənin hazırlanması ilə də bağlıdır.

## QAÇAQ NƏBİ VƏ QAÇAQ HƏCƏRİN KƏNDİ, AİLƏSİ, SOY KÖKÜ, TÖRƏMƏLƏRİ BARƏDƏ

Bu kitabda bizim əsas məqsədimiz Qaçaq Nəbi – Qaçaq Həcər mübarizəsinin həqiqi mahiyyətini, əsas qayəsini, gerçək elmi-tarixi xronikasını və bu mübarizənin xalq yaddaşında, folklorumuzda, ədəbiyyat, incəsənətimizdə inikasını ümumiləşdirib oxuyanlara, bu günkü, gələcək nəsillərə çatdırmaqdır. Müəllif olaraq mənim üçün mühüm, dəyərli olan Qaçaq Nəbinin, qaçaq dəstəsinin, qoçaq, Qaçaq Həcərin 3 ölkədə – çar Rusiyası, Osmanlı Türkiyəsi və Qacarlar İranında apardığı 25 illik möhtəşəm mücadilə, xalqımıza şərəf, şan-şöhrət olan, bəşər tarixinə yazılan qəhrəmanlıq tarixidir.

---

[112] http://www.folklor.az/599.htm

Ancaq bu xalq qəhrəmanlarının həyatı, ailəsi, milli kimliyi, dini inancı, ailəsi, soy-kökü, törəmələri, onların hazırkı taleyi də daim cəmiyyətdə marağa səbəb olub, elmi, bədii, mətbu araşdırmaların obyektinə çevrilib, biri-birinə zidd, mübahisəli fikirlər səslənib, yazılıbdır. İnsanlarımız hər zaman bu sevilən qəhrəmanlarımız haqqında daha çox bilgi öyrənmək istəyiblər. Bu da təbiidir, ona görə də bu yöndə müxtəlif fikirləri də istinadlarla oxuculara təqdim edirəm.

Qaçaq Nəbi – Qaçaq Həcər yaxın tariximizdə yaşamış insanlardır, onların həyatı, mübarizəsi barədə arxivlərimizdə kifayət qədər sənədlər qalır. Ötən əsrin ortalarınadək onları görüb tanıyan xeyli insan sağ idi. Onlar nə Koroğlu kimi xalqın şifahi yaradıcılığının qəhrəmanlarıdır, nə Babək kimi uzaq tariximizin. Ona görə bu tarix yamaq, yalan götürmür. Bəhlul Behcətdən sitat: "Biz Qaçaq Nəbinin tarixini nə əfsanələrlə dolu qeyri-təbii hadisələrin bir-birinə quraşdırılmış macəralar yığını hesab edirik, nə də Qaçaq Nəbini "olmayan sərgüzəştlər" qəhrəmanı Kürd Hüseyn və ya xalqı əyləndirici hekayələr sahibi "Don Kixot" kimi tanıyırıq. Bəlkə biz Nəbinin həyatını ziddiyyətləri ilə mübarizədə şöhrət qazanmış bir amil hesab edirik və onun həyat və mübarizə tarixinə də bu baxımdan yanaşmağı lazım bilirik".[113]

Tariximizin ən faciəli səhifələrindən olan Türkmənçay müqaviləsindən sonra XIX əsrdə Çar Rusiyası dövründə aparılmış əhali siyahıyaalınması sənədləri arxivlərdə var. Burada, hətta, ailə başçıları, üzvlərin sayı, adları da göstərilib. Sənədlərdə Nəbinin atasının adı müxtəlif şəkildə göstərilib: Alı, Allahverdi, Alməmməd, Alov, Alo. Bu sənədlərdə Nəbininn yeddi nəfərlik ailədə doğulduğu yazılır: ata – Alı kişi, uşaqlarının anası – Gözəl, bəzi mənbələrdə isə Mehri, qardaşları – Mehdi, Məcid, Nəbi və digərləridir.[114]

1874-cü ildə tərtib edilmiş kameral təsvirdə Alməmməd Köçəri oğlunun adı, ailə tərkibi belə qeydə alınıb; 50 yaş, oğlanları Məhərrəm 29 yaş, Nəbi 6 yaş...ailə başçısı və xanımından başqa 3 oğlan, 2 qız var, cəmi 7 nəfər (22.17).

---

[113] B.B, s.138

[114] https://az.wikipedia.org/wiki/Qaçaq_Nəbi

Alməmmədin (Alo) qardaşı Məmməd Köçəri oğlunun 56 yaşı var; oğlanları İsmayıl 36 yaş, Xancan 15 yaş, Usub 13 yaş, Xudaverdi 5 yaş – ailədə 5-i oğlan, 3-ü qız olmaqla 10 nəfər var.

Həcərgilin ailəsi: Xanəli Əsəd oğlu 35 yaş, qadını, qardaşları Məmmədalı 30 yaş, Allahverən 8 yaş, 3-ü oğlan, 1-i qız olmaqla, cəmi 6 nəfər. (40.31)

Əlbəttə, istinad edilən sənədlərdə yanlışlıq, natamamlıq da ola bilər, çünki bu siyahıyaalma ən çox vergi tutulması məqsədilə aparılırdı. Müxtəlif qrafalarda milliyəti, dini – təriqət mənsubiyyəti, ailə tərkibi barədə məlumatlar göstərilirdi.

Nəbigilin ailəsi həqiqətən də çox kasıb yaşayıb. "Bozatın belində" romanında təsirli epizodlar var; Gözəl körpə Nəbini də belinə bağlayıb Həkəri çayını o taya keçmək istəyir ki, təzə biçilmiş, küləşə qarışan zəmidən başaq – yerə tökülmüş buğda, sünbüllərdən yığsın, üyüdüb ac uşaqlarına yedizdirsin, başqa yolu yoxdur, evdə çörək yox, döşündə artıq süd quruyub, evdəkilər də aclıqdan çöpə dönüblər, əliboş geri dönmək yoxdur. Çayı keçərkən burulğana düşür, çay onunla birlikdə körpəsini də aparır. Bu zaman at belində Qəzyanlı Ələkbər gəlib dada yetişir.

B.Behcət kitabında Nəbinin və Həcərin ailəsi haqqında bu məlumatı verir: "Nəbinin anası çox tez vəfat etmişdi. Ondan sonra da atası ölmüşdü. Nəbinin ancaq özündən kiçik qardaşı Mehdi və bacısı Zeynəb qalmışdı. Bir də qabaqca ölən qardaşının oğlu Məmiş qalmışdı ki, indi də yaşayır. Nəbi ata və anası öldükdən sonra evlənmişdi. Onun aldığı qız Molla Xanalının qızı idi. Həcər Nəbi İranda öldürüldükdən sonra Nəbinin qohumlarından olan Həmzə adlı bir kişiyə ərə getmişdi və Həmzə ilə öz kəndlərində yaşamışdı"[115]

B.Behcət kitabında bir neçə dəfə təkrar bu məsələyə qayıdaraq yazır: "Həcərin Nəbidən övladı yox idi. O, bir müddət qaldıqdan sonra öz qohumlarından Həmzə adlı bir çobana ərə getdi. Həcər Həmzə ilə Aşağı Mollu kəndində çox yaşadı. Onun Həmzədən bir neçə övladı oldu. Həcər bütün ömrünü Nəbi ilə keçirdiyi günləri xatırlamaqla başa vurdu."[116]

---

[115] B.B. s.141-142
[116] B.B, s.227

Nəbi ilə Həcər əminəvəsi olublar, Həcərin 2-ci dəfə ərə getdiyi Həmzə də həm özünün, həm Nəbinin qohumu olub.

Ancaq son illər nə qədər ürəkbulandırıcı olsa da, Həcər xanım haqqında əsası olmayan şər-böhtan da yayıldı (təkcə bu qəhrəmanlar haqqında yox ki; Babək, Şah İsmayıl Xətai, Koroğlu...). Tarixçilər, tədqiqatçılar bu uydurmaları yayanlara gərəkən cavabı da verdilər. AMEA Tarix İnstitutunun Qarabağ tarixi şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru Qasım Hacıyev yazır: "Böhtan atanların şayiələrinin əksinə olaraq bəzi mənbələrdə Həcər xanımın Nəbidən sonra Həmzə adlı çobana ərə getməsi haqda məlumatlar var. Bildirilir ki, qadının bu nikahdan üç övladı -iki oğlu, bir qızı dünyaya gəlib. Oğlanların adı Xəlil və Əhməd olub. Lakin Həcər xanımın qızının adı tam dəqiqləşdirilməyib...O ki qaldı bu övladların kimdən dünyaya gəlməsinə, Qaçaq Nəbi ömrü boyu, Həcər isə onun qətlə yetirilməsindən sonra da təqib olundu. Nəbi dünyasını dəyişəndə, Həcərin 30-dan bir qədər artıq yaşı vardı. Onu çox incidirdilər. Tək yaşamaq bir zamanlar əlinə silah alıb döyüşmüş dul qadın üçün çox çətin idi. Ona görə də Nəbinin qohumu Həmzəyə ərə gedib. Özü də evlilik təklifini Həcər özü edib".[117]

Həmin yazıda "Atları yəhərləyin" filminin rejissoru Əbdül Mahmudovun fikirləri də yer alıb: "İndi Həcərə qarşı yeni kampaniyaya başlayıblar. Buna ilk öncə erməni tarixçiləri start verdilər. Böhtanları isə içimizdəki milli mənliyi olmayanlar davam etdirirlər. Bu ekran əsəri lentə alınarkən həmin dövr görkəmli tarixçilərlə, araşdırmaçılarla, filoloqlarla bir daha tədqiq edilib: "Həmin vaxt aparılan araşdırmalarda Həcərin erməniyə ərə getməsi haqda hər hansı bilgiyə, sənədə, yazılı qeydə rast gəlmədim. Filmin ssenarisini yazanda, Zəngəzuru, Qafanı, Qubadlını, Batabatı, Gorusu, Naxçıvanı və başqa yerləri gəzdim. Nəbi ilə bağlı faktları, qocaların yaddaşında qalan xatirələri topladım, heç kimin dilindən Həcərin erməniyə ərə getməsi haqda heç nə eşitmədim, söylənilənlər boş cəfəngiyyatlardır, son vaxtlar Həcər barəsində yayılan şayiələr məqsədli kampaniyanın tərkib hissəsidir: Bəsdir, yetər artıq tarixi

---

[117] https://publika.az/projects/heyathekayesi/113532.html

şəxsiyyətləri ləkələdilər! Gah deyirlər Şah İsmayıl şiə-sünni söhbətini ortaya salıb. Ağa Məhəmməd şah Qacar Qarabağı dağıdıb. Nadir şah guya filan şeyi filan edib. Tarixi şəxsiyyətlərimizi hələ də bolşevik ideologiyası ilə aşağıladığınız, onlara şər atmağınız, qara yaxmağınız ayıb deyilmi? Qaçaq Nəbi yüzlərlə pristavın, ağanın, çar Rusiyasına yaltaqlanan bəyin, habelə ermənilərin qatı düşməni idi. Onun qətlə yetirilməsindən sonra düşmən ocaq başında idi. Qadını ləkələmək üçün əllərinə fürsət düşmüşdü. Bəzi mənbələrdə qeyd edilib ki, Həcər xanım böhtanlarla üzləşməməsi üçün elin adət-ənənəsi ilə, kəbinlə yaxın qonşusu olan kasıb kişiyə – Həmzəyə ərə gedib. Bir daha qeyd edim ki, bu, söz-söhbətlərin, şayiələrin yayılmasının qarşısını almaq üçün idi. Belə məlumatlar da var ki, Həcərin övladları ikinci həyat yoldaşından dünyaya gəlib. Çünki Nəbi ilə birlikdə daim at belində, odlu mübarizələrdə olan qadın dağlarda, dərələrdə ana ola bilməzdi. Həcərin Nəbidən övladı vaxtından əvvəl olub. Yəni, o, uşağı salıb. Mən bunu filmdə bir epizodda verə bildim. Bundan başqa kim nə deyirsə, yalan uydurur. El qəhrəmanları haqda uydurmalar heç də təsadüfi deyil: Ermənilər bir zamanlar onlara qan uddurmuş qəhrəmanlarımızdan qisas almağa çalışırlar. Film çəkilən vaxtda da “Atları yəhərləyin”ə mane olmaq istədilər. Bütün bunların başında SSRİ Kinematoqrafiyasının vəzifəli şəxslərindən olan Vladimir Medvedev adlı erməni dayanırdı. Baş redaktor vəzifəsində çalışan bu şəxs filmə çox müdaxilələr edib. Bir rus tələbə yoldaşım bu sirrin üstünü açdı. Nəticədə Medvedev işdən qovuldu. Lakin filmdə ermənilərlə bağlı bəzi epizodlar artıq montaj olunmuşdu. O, bizə ziyan vura bildi.”

B.Behcətin kitabının nəşrindən xeyli əvvəl, hələ üstünü toz basmış halda arxivlərdə qalanda, yuxarıda deyilənlər barədə heç bir söz-söhbət olmayanda 1988-ci ildə yazdığım “Elin bu günündə gələydin, Nəbi” başlıqlı məqalədə Həcərin Nəbidən sonrakı həyatını da yazmışdım, o yazını “Qubadlısız 16 il” kitabıma da daxil etmişdim. Bu abzas o yazıdan köçürmədir, Qaçaq Nəbi ilə qoçaq Həcərin öz həmkəndlilərindən necə eşitmişdimsə eləcə də yazmışdım: “Nəbidən sonra da köhnə düşmənlər Həcəri rahat buraxmırdı, hələ də qıvraq şuxluğunu özündə saxlayan, tənha yaşayan dul qadının

adına köhnə düşmənləri şər-şəbətə uydurub yayırlar. Bu da həm Həcərə, həm qohum-əqrəbasına çox toxunur. Kəndin qeyrətli kişilərindən olan qohumu ortabab kəndli, çoban Həmzənin ömür-gün yoldaşı rəhmətə gedibmiş, övladı ilə tənha qalırmış. Bir axşam Həmzə qabağında qoyun-quzusu ilə yolağanın ağzından keçəndə çağırır: "Ay Həmzə, burdan gəl, bu mitil bükülüsün də at çiyninə, arxamca gəl". Həmzə bu kişi qeyrətli qadın necə deyirsə, elə də eliyir. Düz gəlib girir Həmzənin həyətinə, qonşudan Molla Qasımı, bir neçə nəfər də ağsaqqal-ağbirçək çağırır, Nəbiynən ev sahibəsinin ruhuna Quran oxutdurur, sonra deyir: "Ay ellilərim, siz Allah şahidisiniz ki, mən Nəbini necə istəmişəm, ömrümdə xəyalıma da gəlməzdi ki, Nəbidən sonra kiminsə adın tuta bilərəm, amma neynim, görürsünüz ki, bu namərdlər mərdi də qova-qova namərd eliyəndilər, təzədən dağa-daşa düşmək də çox gecdi, bunu da Nəbinin, özümün ad-sanın qorumaq xatirinə eliyirəm, ay molla, mənim kəbinimi bu şahidlərin iştirakı ilə kəs bu Həmzəyə, day bu gündən Allahın izniynən oluram onun anasız qalmış yetimlərinin anası, Həmzənin halalı."[118]




Yəni Nəbidən sonra Həcərin öz qohumuna ərə getməsi həm də ailə namusunu, qohum-əqrəba, nəsil təəssübünü, ad-sanını qorumaq, düşmənlərin söz-söhbətinə, hədələrə son verib dul qadın adını üstündən götürmək, sakit həyat yaşamaq üçün idi, təbii, həm də Analıq, Qadınlıq duyğusu idi. Biz Həcərin Nəbidən sonrakı həyatını belə bilib yazmışıq.

Nəbinin ölüm tarixi bəlli: 12 mart 1896-cı ildir, qətlə yetiriləndə 45 yaşı var idi. Həcər xanımın təvəllüdü 1854-dür, Həcər 42 yaşında artıq dul idi.

[118] Nərimanoğlu Hacı, "Qubadlısız 16 il", Elm və Təhsil"-2009, s.36-39

Həcər xanımın qızı Zeynəbin Əliabbasla olan evliliyindən doğulan oğlu – yəni xalq qəhrəmanı Həcər xanımın nəvəsi Əliş Məhərrəmov 1941-1945 müharibəsində igidliklər göstərib sinəsi orden-medallı qayıtmışdı. Ötkəm, sözünü üzə deyən, qızğın xarakterli, mərdana, haqsızlığa qarşı davakar Əliş kişi 1993-cü il avqustun 31-də Qubadlının işğalının son günü öz evində səngər qurub qoşalülə tüfənglə son partonu qalana qədər ermənilərlə döyüşüb evinin həyətində də Şəhid olmuşdu. Əliş Məhərrəmovun oğlu İlqar da I Qarabağ müharibəsi qazilərindən idi, könüllü cəbhəyə getmiş, döyüşdə yaralanmışdı, bu mərd, qürurlu, işgüzar insan yaxınlarda xəstəlikdən vəfat edib. Həcər xanımın adını yaşadan kötücəsi Həcər İlqar qızı Əkbərova respublikanın vətəndaş cəmiyyəti, qeyri-hökumət sektorunda yaxşı tanınan ictimai-siyasi fəallardan biridir, tez-tez media, televiziyalarda çıxış edir, Şəhid, Qazi ailələri, əsas da uşaqları ilə bağlı layihələr hazırlayıb həyata keçirir. Qardaşı Nicat İlqar oğlu Azərbaycan Respublikası Prezidentinin təqaüdü ilə Kanadada bakalavr təhsilini bitirib indi magistr təhsil alır. Qazaxıstanda fizika-riyaziyyat üzrə beynəlxalq olimpiadada gümüş medal qazanıb. Karate üzrə Kanada çempionatının gümüş mükafatçısı olub. Xaricdə təhsil aldığı müddətdə Azərbaycanın haqlı səsini bacardığı qədər yaymağa çalışıb. Soyun digər övladları, törəmələri də igid, qaçaq, qoçaq Həcər nəslinin layiqli davamçılarıdır, Bakı və Sumqayıtda yaşayırlar.[119]

Qaçaq Nəbinin qardaşları Məcid və Mehdinin, əmisi oğlu Məhərrəmin çoxsaylı nəvə, nəticələri var. Nəbinin igid qardaşı, ən yaxın silahdaşı, ermənilərin 1895-ci ildə xainliklə qətlə yetirdiyi Qaçaq Mehdinin nəticəsi Məhərrəmov Möhsün Mehdi oğlu el-obada xətir-hörmət sahibi, rayonun ermənilərdən qorunmasında fəallıq göstərmiş cəsarətli kişilərindən biri olub.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra Türkiyə, İranla sərhədlər açıldı, gediş-gəliş yarandı, arxivlərə giriş imkanları yarandı, bir çox qaranlıqlar işığa çıxdı, yaxın-uzaq ölkələrdə məskun olan qohumlar da biri-birini tapdı, qovuşdu, görüşdülər, gəlib getdilər, indi isti münasibətlərini davam etdirirlər.

---

[119] https://kulis.az/news/37382

Möhsün kişinin dediyinə görə, Nəbinin qardaş, bacısının qonşu ölkələrdə törəmələri yaşayır. Pandemiya yayılana qədər Təbrizdə yaşayan Siyaməd, Babək adlı qohumları ilə get-gəlləri də olub.

Qaçaq Nəbinin özünün İranda, Türkiyədə Həcərdən başqa da qadını və övladlarının olması barədə məlumatlar olub.[120] "Həcərin Qaçaq Nəbidən övladı olmayıb, Həmzədən isə onun bir neçə övladı olub".[121] Belə müxtəlif, ziddiyyətli, mübahisəli yanaşmaları özündə əks etdirən yazı nümunələrinin sayını xeyli artırmaq olar.

Həcərin Nəbidən sonra guya ermənіyə ərə getməsi barədə həyasızlıqla, vicdansızlıqla uydurulmuş, namərdcəsinə ortaya atılmış əsassız, dəlil-sübutsuz, tarixi həqiqətə dəxli olmayan şər-böhtan, yalan-palan söhbətlər yayan şərəfsizlərə mətbuatda azı 3 dəfə cavab verməli olmuşam, yapdıqları murdarlığı sifətlərinə çırpmışam. Həm də kimlərə – bu uydurma yalanları ifraz edənlər-deputat, partiya sədri, imzası az-çox tanınan yazarlara. Onların adlarını çəkib nə qələt yazdıqlarını xatırladıb oxucuların ürəyini bulandırmaq istəmirəm, sadəcə o cavab yazıları ədəbiyyat siyahısına salmışam ki, kim üçünsə maraqlıdırsa, internetdə tapıb oxusunlar.[122] Kitaba əlavə edilən iki şeir də (Bəxtiyar Vahabzadə və Əli-Ağa Aslan) elələrinin sifətinə vurulan sağalmaz söz silləsidir. Onu da xatırladım ki, Qubadlı bəlkə də Azərbaycanda yeganə rayon olub ki, burda erməni yaşamayıb.

Qaçaq Nəbinin milli mənsubiyyəti, yəni kürd, yaxud türk olması da zaman-zaman mətbuat və sosial şəbəkələrdə maraq, mübahisə doğuran məsələ olub, müzakirələrə çıxarılıb.[123] Nəbinin və Hə-

---

[120]https://publika.az/news/qirmizi/110971html

[121] https://moderator.az/maraqli/368836/hecerin-qacaq-nebiden-vladi-olmayib-hemzeden-ise-onun-bir-nece-vladi-olub\

[122] Nərimanoğlu Hacı, QHT sədrindən ADP sədrinə cavab, https://zengezur.com/index.php/mzhallr/72-zhht-sdrindn-etiraz-hedz-olmasa-allahdan-fv-dilyin-ki-zhuenahnzdan-kedzsin-srdar-hkim

Nərimanoğlu Hacı, QHT sədrindən millət vəkilinə cavab, yaxud bir daha Qaçaq Nəbi, Qoçaq Həcər haqqında, https://araz.az/index.php/zhuend-m/3780-ght-s-drind-n-mill-t-v-kilin-dzavab-yakhud-bir-daha-gadzag-n-bi-godzag-h-dz-r-hagg-nda

Nərimanoğlu Hacı, Qaçaq Nəbi haqqında sərsəm uydurmaya cavab, http://zengezur.com/index.php/9-xbrlr/298-zha-azh-n-bi-hazhzh-nda-bir-yaz-ya-dzavab

[123] https://www.facebook.com/KafkasyaKurd/posts/1944955268918243/

cərin doğulub yeniyetməlik illərini keçirdiyi Zəngəzur qəzasında, qəzanın Qubadlı nahiyəsinin bir çox kəndində kürdlər də əsas aparıcı millət olan türklərlə (tatarlar-azərbaycanlılar) yanaşı, birlikdə mehriban ailə kimi yaşamış, zülüm çəkmiş, yadlara, işğalçılara qarşı birgə çarpışmış, zamanla təbii assimilyasiyaya uğrayaraq dillərini itirmiş, qaynayıb qarışmışlar. Tarixçinin borcu, vəzifəsi tədqiqat obyekt, subyektini sənədə, fakta istinadla təqdim etmək, həqiqəti yazmaqdır.

1886-cı il əhali siyahıya alınmasında, Nəbi-Həcər dövrünə dair sənədlərdə Mollu ("nijni, verxni Mollu") kəndində qeydə alınmış 125 ailənin hamısı (342 qadın, 296 qadın cinsinə mənsub olmaqla) kürd kimi göstərilib.[124] İran və Türkiyənin bir çox mənbələrində də Nəbi "Kürd Nəbi" kimi təqdim olunur.[125] Eynilə Azərbaycanda da: "Nəbi 1850-ci ildə Zəngəzur mahalının Mollu kəndində yoxsul kəndli ailəsində doğulmuşdu. Kürd əsilli Azərbaycan qəhrəmanı olub.[126]

Mollu camaatının hörmətli nümayəndəsi, uzun illər rayonda rəhbər vəzifələrdə çalışmış Əli Əliyev kitabında (həmkəndlisi, tarixçi müəllim, SSRİ və Azərbaycan SSR-in "Maarif Əlaçısı", "Şərəf nişanı" ordeni əməkdar müəllim mərhum Əlif Qulu oğlu İsmayılovun (1919-2005) da faktların toplanmasında köməyi olub) kəndlərinin tarixinə dair bilgi verib, yazıb ki, Molluda Xıxelər, Bebolar, Şamlılar, Edolar adı ilə tanınan kürd tayfaları, eləcə də kürd Taro, Şao, Alo və başqalarının nəsillərindən törəmələr, İrandan köçüb gələn ailələr də yaşamışdır.[127]

Bütün hallarda Qaçaq Nəbi və Qaçaq Həcər Azərbaycanın, xalqımızın sevilən qəhrəmanlarıdır, bu vətənin, bu torpağın məşhur yetirmələridir. Xalqımız onların igidliyinə Azərbaycan türk dilində mahnılar, şeirlər, dastanlar qoşub, bu dildə roman, povest, hekayələr yazıb, film çəkib. Ona görə də Qaçaq Nəbi ilə yanaşı, digər milli sərvətlərimiz olan şair, yazıçı, alim, sərkərdə, dövlət və ictimai

---

[124] 1886-cı il Yelizavetpol quberniyasının Zəngəzur qəzası üzrə siyahıyaalma, səh. 433, sıra 886

[125] https://www.basnews.com/tr/babat/264298

[126] http://femida.az/az/news/33396/-Azərbaycanda-qaçaq-hərəkatının – bilinməyən-tərəfləri

[127] Əli Əliyev "Yaşanmamış ömür yolu", "Şuşa"-2005, s.152-168

xadimlərin ümumazərbaycan kimliyindən qoparılması cəhdləri yolverilməzdir, zərərlidir, heç də xoş niyyətlərdən xəbər vermir. Çünki onların Vətəni Azərbaycandır, bizə, bu xalqa məxsusdur, onlar bu yurdun, bu torpağın övladlarıdır.

Bədii ədəbiyyatda, folklor nümunələrində son illərədək Nəbi ilə Həcərin evliliyindən, yəni Həcərin Nəbidən olan 2 övladının doğulduğu, hər ikisinin körpə ikən dünyadan köçdüyü söylənilirdi, belə də yazılmışdı ki; körpələrdən biri Goruslu erməni hampası İsvonç tərəfindən Nəbidən intiqam almaq üçün daşa çırpılaraq qətlə yetirilmişdir, ya da digər variant da var – qaçaqlar, Həcər də aralarında, Salvartı dağlarında duman-çənli bir kaha, mağaralı ərazidə mühasirəyə düşürlər, Həcər təzə doğulan, ağlartısı kəsməyən körpəsinin səsi eşidilməsin, yerləri bəlli olub sürəkli atəşlərə məruz qalıb ölüm-itim olmasın deyə körpəsinin ağzını əli ilə yumur, az sonra körpəsinin ağuşunda köksünə sığınmış halda nəfəsi kəsilib canını tapşırdığını görür. İkinci övladları Araz çayından keçərkən sərhədçi rus kazakları ilə atışma zamanı Həcərin qucağında ikən aldığı güllə yarasından sonra hələ qırxı çıxmadan dünyadan köçür, adı da Araz olub-Araz çayında qamışlıq adada doğulduğuna görə. Bədii əsərlərdə bu olaylar hüznlü dillə təsvir olunub. “Atları yəhərləyin” filmində isə Nəbi-Həcərin övladlarının olmadığı fikri səslənib.

Qaçaq Nəbinin, Qaçaq Həcər xanımın, onların qardaş, bacılarının törəmələrinin axtarışı, bu yöndə deyilən, yazılan, yayılan fikirlərə münasibət bildirilməsi maraq dairəmizə daxil deyil, kitabın yazılmasında əsas məqsədimiz bu il 170 yaşı tamam olan qəhrəmanımız Qaçaq Nəbinin və onun vəfalı, igid xanımı Qaçaq Həcərin mübarizəsinin həqiqi, gerçək elmi-tarixi xronikasını Azərbaycan, Rusiya, Türkiyə, İran mənbələrinə istinadlarla bu günkü, gələcək nəsillərə çatdırmaqdır. Ancaq son illərdə çox sayda ciddi saytda “Qaçaq Nəbi ilə Həcərin üç övladı olub”[128] “Qaçaq Nəbi və Həcərin övladları”[129] və bu kimi başlıqlı xeyli yazılar yayılıb, dəlil-sübutlar or-

---

[128] https://apa.az/az/apa-tv/xeber/xeberler/qacaq-nebi-ile-hecerin-uc-ovladi-olub-sok-faktlar-64870
[129] https://www.facebook.com/watch/?v=1431444750357575

taya qoyulub və burada deyilənləri, irəli sürülən fikirləri birmənalı inkar etmək, görməzdən keçmək düzgün olmazdı. Qaçaq Nəbinin və Həcər xanımın evliliklərindən övladlarının olduğu barədə respublikamızın ən populyar saytlarında, sosial şəbəkələrdə, youtube.com və digər internet resurslarında yayılmış müsahibələri, səslənən fikirlərə münasibət bildirmədən, kitabımıza daxil etməyi gərəkli, düzgün hesab etdik.



Dr. Mehmet Elturanla feysbukda qiyabi tanışıq, hər zaman görürdüm ki, dostları onu "Kaçak Nebi torunu", azeri kökənli kimi bilir, yazır, o adla da öyürlər. Saatlarla yazışdığımız, skaypla danışdığımız, mübahisə açdığımız vaxtlar olub. Respublikamız müstəqilliyini əldə etdiyi ilk aylarda Bakıya gəlibmiş. Mehmet Elturan əvvəllər Türkiyədə, hazırda isə Avstraliyanın Melburn şəhərində yaşayır. O, publika.az saytına verdiyi müsahibədə deyib: "Qaçaq Nəbinin oğlu Əhməd babamın atasıdır. Əhməd bəyin 3 övladı olub: – iki oğlan, bir qız. Əhməd bəyin 8 nəvəsi olub. Bəziləri dünyasını dəyişib, bəziləri Türkiyədə və dünyanın başqa-başqa yerlərində yaşayırlar. Nəbinin oğlanları Əhməd və Xəlilin məzarları Türkiyədədir. Xəlil bəyin nəticələri ilə əlaqələrimiz var. Əhməd bəy qardaşı Xəlillə, eləcə də qohumlarıyla birlikdə 1915-ci ildə, qaçaqaç vaxtı, gərgin dönəmdə Türkiyəyə gəlib. Həmin illərdə doğum qeydiyyatı dəqiq deyildi. Buna görə də qohumlarım doğum tarixlərini doğru-dürüst bilmirdilər. Həmin vaxt Nəbinin nəvəsi – babam Mehralı 3-4 yaşlarında olub. Nənəm də təxminən bu yaşda imiş. O dönəmdə Qars ruslar tərəfindən işğal edildiyindən Nəbinin oğlu Əhməd yaxınları ilə Türkiyəyə Ağrıdağdan keçiblər. Qars rus işğalından qurtulduqdan sonra İğdırdan bura köçüblər. Onlar orada yaşadı və biz də orada dünyaya gəldik. Sənədlərdə Nəbi və Həcər babamın atasının valideynləri kimi qeyd edilib. Qeydlər isə 1925-ci ildə aparılıb. Mən sizə danışdıqlarımı babamdan və nənəmdən eşitmişəm. Onlar

bu haqda danışanda 11-12 yaşım olardı. Söyləyirdilər ki, Həcər 1860-cı ildə Qubadlının Yuxarı Mollu kəndində doğulub. Biz həmin kəndi Molla adlandırırıq. Nəbi, əsasən, Naxçıvan və Zəngəzur qəzalarında mübarizə aparıb. Babam danışardı ki, onun qəhrəmanlığı Cənubi Azərbaycana da yayılmışdı. Rus hökuməti və yerli bəylər illlər boyu onun dəstəsini məhv etməyə can atıb. Babamın babası olan Nəbi pusquya düşərək öldürülüb. Babam danışırdı ki, Həcərlə yanaşı, bacısı Mehri xanım da Nəbinin zülmkarlara qarşı mübarizəsində fəal iştirak edib. 66 yaşındayam. Övladlarım, nəvələrim, nəticələrim var...Nəbi qətlə yetiriləndə övladları təxminən 15 yaşında olardı. Belə olan halda Həcər necə ərə gedə bilərdi? Yeri gəlmişkən, nəzərinizə çatdırım ki, onların bir qız övladı da olub. Əhmədlə Xəlil mübarizəni dağlarda davam etdiriblər. Lakin qız kiçik olduğundan Həcər nənəmlə birlikdə qalırmış. Nənəm xəstəlikdən dünyasını dəyişib. O öldükdən sonra iki oğlu Türkiyəyə gəlib. Amma qızın başına nə gəlməsindən, onun sonrakı taleyi haqda dəqiq heç nə bilmirik. Babam onun ermənilər tərəfindən qətlə yetirildiyini deyirdi. Danışırdı ki, onlar Nəbinin qisasını qızından alıblar. Amma bu haqda dəqiq məlumata malik deyilik. İndi Həcərlə Nəbinin nəslinin onlarla davamçısı Türkiyədə yaşayır: Onlarla əlaqə saxlayıram. Hər biri bütün bunlardan narahatlıq keçirdiklərini bildirirlər. Təəssüf ki, son günlər Azərbaycanda da Həcər barəsində böhtanlar yayımlanır. Biri yazır ki, guya erməniyə ərə gedib. Digəri onların övladının olmadığını iddia edir. Bu yalanlar ortaya çıxanda 50-yə yaxın insan mənə zəng etdi, məktub yazdı. Xahiş etdilər ki, bu məsələlərə aydınlıq gətirim. Bütün bunlara heyrətləndim. Bizim xalqın düşmənləri qadına böhtan atırlar, bizimkilər isə buna şərik çıxırlar. Axı bu qadına niyə ləkə yaxırlar? Ondan nə istəyirlər?...”[130]

[130] https://publika.az/news/qirmizi/110971.html 15 oktyabr 2015

# HƏCƏR XANIM KÖTÜCƏSİ HƏCƏR



Kulis.az Həcər Əkbərova ilə müsahibəni təqdim edir.

– Həcər xanım, bu günə qədər hər kəs Qaçaq Nəbi və Həcərin övladının olmadığını bilirdi. Lakin son bir neçə ildə onların övladlarının olması, şəcərənin davam etməsi barədə xəbərlər yayılıb. Siz də Həcərin qızı Zeynəbin nəticəsi olduğunuzu deyirsiniz. Bir az bu barədə danışardınız.

– Hamı, Qubadlı əhalisi, elə biz özümüz də indiyə kimi elə bilirdi ki, Nəbi ilə Həcərin övladı olmayıb. Həcər Nəbidən sonra Həmzə adlı bir kişi ilə qurub və onların Zeynəb adlı qızı olub. Sonradan Türkiyədə Mehmet Elturan adlı bir qan qohumumuz meydana çıxır, araşdırma aparır və öyrənir ki, Qaçaq Nəbi ilə Həcərin övladları olub. Bu təbii ki, bizim üçün qəribə gəlir. Lakin sonradan ortaya arxiv sənədlər çıxdı. O vaxtlar, bildiyiniz kimi, Azərbaycanda sənədləşmə məsələsi bir qədər qeyri-peşəkar olub. Çox adamın nənə və babasının təvəllüd tarixləri bilinmir və ya səhv yazılır. Ancaq Mehmet bəyin aşkara çıxardığı arxiv sənədlərindən məlum olur ki, Qaçaq Nəbinin üç övladı olub: Əhməd, Xəlil və Zeynəb. Sadəcə olaraq, Nəbi öldürüldükdən sonra onun düşmənləri uşaqlarını axtarmağa başlayır. Həcər irs daşıyıcıları olan oğlanlarını qohumlarının vasitəsi ilə Ağrı dağdan Qarsa adladır. Onları ovaxtkı çar hökuməti izləyir, öldürmək, həbs etməyə çalışırlar. Köçəndə hər şeyi özləri ilə apara bilmirlər, bircə Nəbi ilə Həcərdən qalan xalçanı aparırlar.

– Demək, uşaqları o qədər də azyaşlı olmayıb...

– Elədir. Oğlanları böyük olub. Hətta Xəlil əlinə tüfəng alan yaşda imiş. Zeynəb azyaşlı olduğu üçün anasının yanında qalır. Həcər də sonradan Zeynəbi qorumaq üçün qohumu Həmzə ilə ailə qurur. O vaxt qadının, üstəlik, düşməni olan qadının dul qalması qəbul olunmurdu. O, mütləq kiminləsə ailə qurmalı idi. Ona görə

də Həcər kənd camaatını yığır, deyir, mənim Nəbiyə sadiq olduğumu bilirlər, amma mən adıma düşmən tərəfdən ləkə yaxılmasın deyə ailə qurmağa məcburam, ancaq mən mənə bacı deyən adama ərə gedəcəm. İlləri hesablasaq, Həcər Həmzə ilə evlənəndə yaşlı olub və dünyaya uşaq gətirmək imkanı olmayıb. Onu da deyim ki, Həcər Nəbidən sonra cəmi bir dəfə ərdə olub. Mənim atamın atası, yəni babam Əliş kişi Zeynəbin oğludur.



Babamın doğum tarixi ilə Əhməd və Xəlilin uşaqlarının doğum tarixi eynidir. Yəni, Zeynəblə qardaşlarının doğum tarixi arasında elə böyük fərq yoxdur.

– Bəs sizcə Nəbinin Həcərdən uşağı olmayıb fikri hardan yaranıb?

– Deyim sizə. Bu məsələ sənədlər ortalığa çıxmayana kimi bilinmirdi. Sənədlər indiyə kimi Türkiyənin Qars Universitetində professor Sədaqət hoca tərəfindən saxlanılırdı. Mehmet bəy həmin sənədləri ona notarius vasitəsi ilə vermişdi, özü isə Avstraliyada yaşayırdı. O da düşünür ki, nə zamansa, dünyadan köçə bilər, ona görə, bu məsələnin araşdırılmasında bir azərbaycanlı olsun. Mehmet bəy bir dəfə Azərbaycana müraciət edib, Zeynəb nənəmi axtarıb. Burdan ona bildiriblər ki, Zeynəb adlı adam yoxdur. O da fikirləşib, yəqin, o vaxtı Zeynəb ermənilər tərəfindən öldürülüb. Beləcə, bir müddət bu söhbət unudulub. 2018-ci ildə Sədaqət hoca özü Bakıya gəlib mənimlə görüşdü və həmin sənədləri Mehmet bəyin tapşırığına əsasən mənə təqdim etdi. Həmin sənəd ən etibarlı sənəddir. Çünki orada Əhmədin, Xəlilin və Zeynəbin atası Nəbi, anası isə Həcərdir. Mənim atam Qubadlının işğaldan azad olunma xəbərini eşidəndən bir müddət sonra rəhmətə getdi. O, rəhmətə getməzdən əvvəl Mehmet bəy ilə söhbət edəndə deyirdi ki, onun enerjisi məni uzaqdan özünə cəlb edir, çünki o, eynilə atamın atasına oxşayır. Yəni qan çəkmək məsələsi. Beləliklə, biz Nəbinin oğlu Əhmədin Türkiyədə olan ailəsini, oğlanlarını tapdıq. Keçən ilin sonunda bizim kanallardan biri məni efirə qonaq çağırdı, mən orada danışan zaman İrandan verilişə çoxsaylı

zənglər gəldi. Onlar Xəlilin törəmələri idi. Zəng vuranlar ağlayırdılar, deyirdilər, biz illərdir Zeynəbin, Əhmədin nəslindən olan qohumlarımızı axtarmışıq.



– Əhmədlə Xəlil bir yerdə Türkiyəyə gedirlərsə, niyə ayrı düşürlər?

– O vaxtı Xəlil də Türkiyədə ailə qurur, qardaşı ilə bir-birinə qız alıb verirlər. Təzədən qohum olurlar ki, nəsil itməsin. Ancaq sonradan o, Xəlil İranın Maku şəhərinə köçür. Əhməd Türkiyədə qalır. Əhmədin Mehralı adlı oğlu varmış. Mehmet Elturan Mehralının oğludur. Xəlilin oğlu Ziyadın isə Bəhram adlı oğlu olur.

– Zeynəbin törəmələri kimlərdi?

– Zeynəb burada Əlabbas adlı bir oğlanla ailə qurur. Onun oğlu dünyaya gəlir – mənim babam Əliş. Beləliklə, babam Nəbi ilə Həcərin nəvəsi, atam nəticəsi, mən və bacı-qardaşım isə kötücələri sayılırıq. Bir maraqlı fakt da deyim. Xəlil bacısının həsrətini çox çəkdiyi üçün sonradan doğulan qızının adını Zeynəb qoyub.

– Həcər xanım, bir çox mənbələrə görə guya Həcər erməni ilə ailə qurub. Bu haqda nə bilirsiniz?

– Mən balaca olandan bu söz-söhbətləri eşitmişəm. Hətta, yadıma gəlir, rəhmətlik atam o barədə yazan jurnalisti tapmış, məhkəməyə vermişdi. Çox uzun proses getdi. Sonralar bu məsələnin kökünü araşdıranda məlum olmuşdu ki, bu məsələ Gürcüstanda hansısa bir erməni soyadlı jurnalistin çıxartdığı söz-söhbətdir. Ordan da bu məlumat Azərbaycana ötürülüb. Bu barədə heç bir yerdə fakt yoxdur. Bu, həm də ona görə mümkünsüzdür ki, ermənilər Nəbidən çox Həcərdən qorxublar. Qorxduqları qadınla necə evlənə bilərdilər?

– Qaçaq Nəbi haqda çəkilən “Atları yəhərləyin” filmində siz dediyiniz faktlar niyə verilməyib?

– Filmin rejissoru Şeyx Əbdüllə görüşmüşəm. Mən gözləyirdim ki, o, mənim danışdıqlarımı eşidən zaman desin ki, mən bunları bilmirdim. Gözlədiyimin əksinə oldu. Dedi, mən bilirdim ki, bu nəsil gec-tez üzə çıxacaq. Mən bilən, o vaxt filmin digər rejissoru

Həsən Turabov mənim babamın yanına gələrək ondan üzr istəyib. Deyib, filmdəki təhriflər Moskvadan göstərişi əsasında məcburiyyətdən oldu. Fikir verirsinizsə, filmdə Həcərin uşağı tələf olan kimi mövzu qəfil dəyişir. Hamı elə bilməli idi ki, Həcərin uşağı olmayıb. Hətta Şeyx Əbdül mənə dedi ki, o filmdən bir çox kadrlar, misal üçün, Nəbinin erməniyə şillə vurması kadrı çıxarılıb. Bir maraqlı fakt da deyim; film çəkilən zaman Şeyx Əbdülün qızı dünyaya gəlir, o, qızının adını Həcər qoyur.





– Həcər xanım, sizcə Nəbinin ölümü necə olub? Onun dostu Şah Hüseynin arvadının sözü ilə öldürüldüyü haqda rəvayət dolaşır.

– Bu barədə mənim əlimdə kifayət qədər fakt yoxdur. Bildiyimə görə, Nəbi Rusiyanın tapşırığı ilə tutulmuş xəfiyyələr tərəfindən öldürülür. Onu həbs etmək mümkün deyilmiş. Amma onun namus üstündə öldürülməsi faktı yalandır. Belə bir şey olmayıb. Bu xəbərin heç bir əsası yoxdur. Rəvayət olsa belə, bir məntiqi olmalıdır. Şah Hüseynin nəslindən bir adam varmı ki, çıxıb desin, mənim babam Nəbini nənəmin fitvası, yalanı ilə öldürüb? Mənim bildiyimə görə, Nəbi öldürülən zaman Şah Hüseyn subay imiş.

– Bu hadisədə Şah Hüseyn iştirak etməyib? – Onu mən detallı şəkildə deyə bilmərəm, çünki, yenə deyirəm, əlimdə faktlar yoxdur. Amma göstərişin Moskvadan verildiyi və buradakı casuslar tərəfindən icra olunduğu bilinir. Bu Şah Hüseyn də ola bilər, başqası da.

– Nəbinin qəbri hardadır?

– Əhmədin törəmələrindən məlumat əldə edə bilməmişik, amma Xəlilin törəmələrinin dediyinə görə, onun məzarı İranda – Lorni adlanan yerdədir. Həcərin məzarı isə Qubadlının Aşağı Mollu kəndindədir.

– Siz Əliş babanızı görmüsünüz?

– Uşaq olanda görmüşdüm. Mənim babam Qubadlı işğal olunan zaman öz evini tərk etməyib, orda qalıb və şəhid olub. Babam Qubadlıda müxtəlif vəzifələrdə çalışıb, heç vaxt özünə sığışdırmayıb ki, erməni gəlib onun torpağını alsın. O, öz tüfəngi ilə xeyli sayda erməni öldürüb.

– Babanız Həcəri görüb?

– Yox, babam heç anasını düz-əməlli görməyib. Babam körpə olanda anası Zeynəb dünyasını dəyişib.

– Həcərin qəbri hal-hazırda Qubadlıdadır və o qədər də zədələnməyib?

– Həcərin qəbri haqda məlumat işğaldan əvvəl Qubadlı ağsaqqalları tərəfindən yazılı şəkildə yerli orqanlara bildirilib. Bundan sonra onun qəbri bərpa olunub. Ona görə, Həcərin qəbri indiyə qədər yaxşı vəziyyətdə qalıb. Həmin qəbrin yerini də, işğaldan sonra ora gedib çəkiliş edən insanlara mən demişdim. Ümumiyyətlə,

Nəbi ilə Həcərin övladlarının törəmələrindən çox böyük nəsil yaranıb. Onlardan ən böyüyü Xəlilin nəslidir.

– Həcərin qızı Zeynəbin şəkilləri var?

– Təəssüf ki, yoxdur. Amma Həcərin şəkilinin tapılma ehtimalı var. Xəlilin nəslində onun şəkli olmalıdır. Biz bu barədə araşdırmalar aparırıq.

– Həcəri necə təsvir edirlər?





– "Atları yəhərləyin" filmində fikir vermisinizsə, Nəbi arabaya əyləşəndə başına papaq qoyur. Nəbini öz kəndçiləri belə tanımır. Çünki Nəbi də, Həcər də camaat arasında çox az olub. Onlar əsasən Zəngəzur dağlarında, Naxçıvanda, Ordubadda, Təbrizdə yaşayırdılar. Döyüşən insanlar idilər. Dağlara çəkilirdilər. İndi hərdən mənə Qarsdan, Təbrizdən, Naxçıvandan azırlar, deyirlər, bizim babalarımızı, əmilərimizi zamanında Nəbi ölümdən xilas edib, ona görə, bugünkü gündə bizim kəndlərimizdəki adamlar artıb, çoxalıb. Nəbini bu gün də insanlar çox sevir.



– Həcərin nədən rəhmətə getməsi bilinir?

– O vaxtı Qubadlıda vəba xəstəliyi yayılıb. Həcər də vəba xəstəliyinə yoluxub və ondan rəhmətə gedib. O dövrdə nəinki Həcər, Qubadlıda çox adam vəbadan vəfat edib. Həcərin Naxçıvanda bacılarının törəmələrindən hal-hazırda yaşayanlar var. Orada yaşayan tarixçilərdən biri hal-hazırda Həcərlə Nəbi haqqında sənədli film hazırlayır. Həcərin qohum-əqrəbasının çoxu Naxçıvanda yaşayır, amma hələ onları axtarıb tapmamışıq. Söz-söhbətlər indi Həcərlə Nəbinin övladları barədə getdiyindən mən də araşdırmalarımı hələ ki, sırf bu sahədə aparıram. Nəbinin Mehdi adında bir qardaşı olub, rəhmətə gedəndə Həcəri ona ərə vermək istəyiblər. Deyib, mən Həcərə öz bacım kimi baxıram. Amma bütün bunlar dildə-ağızda dolaşanlardır, dəqiq fakt yoxdur. Mehdinin gənc yaşda dünyasını dəyişməsi isə dəqiqdir.



– Nəbi ilə Həcərdən hər hansı bir əşya qalıb?

– Bayaq dediyim kimi, bir xalça qalıb, bir də güzgü. Nəbinin bir mühafizəçisi olub o vaxt. Nəbi ona bir güzgü hədiyyə edib. Güzgünün kimdə olduğunu bilirəm, amma ondan almaq bir az düz çıxmır. Çünki o, illərdir həmin güzgünü qoruyub, saxlayıb. Mən, hətta müəyyən bir məbləğə həmin güzgünü almaq istədim, sonra gördüm, mənəvi bağlılıq məsələsi var, fikrimdən daşındım.

– Nəbinin, Həcərin zahiri görüntüləri haqqında sizə nələr gəlib çatıb?

– Deyilənə görə, Həcər qarayanız, ancaq şirin qız olub. Nəbi də o qədər hündürboy deyilmiş. Onun törəmələri Nəbiyə çox oxşayır. Hər halda, məndəki şəkillərdən bunu görmək olur. Mənim babam da, atam da o qədər hündürboy deyildi. Həcərə həm də Dəli Həcər deyirmişlər. Silahdan çox yaxşı istifadə edirmiş. At belində gedə-gedə silahı çox dəqiq atırmış.

– Bəs sizcə o, əlisilahlı, əhatəsində kişilər, üç uşaqla dağlarda necə yaşayırmış?

## Qaçaq Nəbi, Həcər xanım soyunun nəsil şəcərəsi

1 Xəlil | 2 Əhməd | 3 Zeynəb

Əhməd – Cəvahir

**Övladları:**

Mithat | Sait | Rıza | Mehrali | Gülizar | Süleyman (vəfat edib)

Mehrali – Tevrat

**Övladları:**

Özden | İlhami | Ayten | Gülsüm | Mehmet | İbrahim | Hatice | Nurhayat

**Mehmet Elturan - Serpil**

**Övladları :**

Can | Candan | Cihan

**Övladları:**

Zübeydə | Aydın | Ziyad | Mälan | Sitare

Ziyad | Lale Mansurē (xanımları)

**Övladları :**

İbrahim | Hamid | Abdulmecid | Calil | Mansor | Bəhman | Mohamad | Fatıma | Zahra

Bəhram | Kübra | Fazilə | Rahilə

Bəhram- Kubra

**Övladları:**

Əmir | Arzu | İraj




***Təqdim edən: Həcər İlqar qızı Əkbərova***

– Həcər və Nəbi ilə bağlı faktları yalnız onlarla silahdaş olan adamlar biliblər. Nəbi öldürüləndən sonra onun silahdaşlarının da bəzilərini öldürüblər. Həcərin yanında Gülər adlı qadın varmış. Onun bacısı qızı Həcər haqqında məlumatlı imiş. O, deyirmiş, mənim xalam Həcərlə çiyin-çiyinə döyüşüb. Deyirmiş, Həcər varlı, Nəbi kasıb ailənin övladı idi. Həcərin atası rəhmətə gedəndən sonra onlar ailə qurublar. Nəbi Həcəri qaçırdıb. Bəlkə də varlı qızını qaçırdığı üçün filmdəki kimi onun toyuna gəlməyiblər. O xanımın dediyinə görə Nəbi döyüşlərə Həcəri aparmaq istəmirmiş, Həcər deyirmiş, sən hardasan, mən də orda olacam.[131]

---

[131] https://kulis.az/news/37382

# QAÇAQ NƏBİ, QAÇAQ HƏCƏR OBRAZI NƏSRİMİZDƏ: SÜLEYMAN RƏHİMOV



Azərbaycan nəsrinin ağır artilleriyası (Səməd Vurğun) Süleyman Rəhimovun yaradıcılığında Qaçaq Nəbi və Həcərin həyatı, mübarizəsi xüsusi yer tutur. Yazıçının "Şamo"nin ilk iki variantını çap etdirəndən sonra buraxdığı üçüncü kitab el qəhrəmanı Qaçaq Nəbiyə həsr olunmuş "Aynalı" povesti idi. 1942-ci ildə çıxan bu balaca kitabça cəmi 52 səhifə idi. Amma yazıçı qırxıncı illərdə Nəbi ilə bağlı şifahi və yazılı sənədləri toplayıb ayrıca kitabça şəklində dərc etdirmişdi. Lakin Nəbi haqqında müstəqil epopeya olan üç kitablıq "Qafqaz qartalı" romanının birinci cildi 1971-ci, ikinci 1973-cü, üçüncü cildi isə 1975-ci ildə çapdan çıxdı. Süleyman Rəhimov bu əsərə bütün Zaqafqaziyanın siyasi həyatını əhatə edən geniş bir roman xarakteri verdi, burada yaşayan xalqların həyat, mübarizəsinin uzun, mühüm bir dövrünün bədii mənzərəsini yaratdı.



Qaçaq Nəbi Süleyman Rəhimovun özünün də doğulduğu Zəngəzur dağlarının oğlu idi və yazıçı uşaq, gənclik illərindən bu xalq qəhrəmanları haqqında çox eşitmiş, onu yaxından tanıyanların söhbətlərini dinləmiş, yaddaşına hopmuşdu. Bütün yaradıcılığı boyu da onun əfsanəvi igidliyini əbədiləşdirməyə çalışırdı. Əsərdə bir tərəfdən xalq fonu, o biri tərəfdən qaçaqlıq hərəkatı səhnələri, digər tərəfdən isə Qafqaz canişinliyinin dəftərxana həyatı əhatəli şəkildə qələmə alınır. Yazıçının Nəbinin igidliyinə münasibəti daha çox romantik boyalarla verilir və onun xalqa bağlılığı, mübarizəsinin ictimai-sosial kökləri ön plana çəkilir.

1930-cu illərin ortalarından tanınan partiya və ədəbiyyat funksionerinə çevrilən Süleyman Rəhimov öz diqqətini ən çox partiyanın tələb etdiyi inqilabi keçmişə yönəldirdi. Üç cilddən ibarət olan "Qafqaz qartalı" romanı da xalq qəhrəmanı Qaçaq Nəbiyə, onun hərəkatına həsr edilmişdir. Əsərdə inqilab ideologiyasının təsiri hiss olunur. Lakin bütövlükdə "Qafqaz qartalı" romanı yazıçının Nəbi haqqında bildiyi el süjetlərinin romantik sərbəstliyi ilə seçilir.



Nəbi çar müstəmləkə rejiminə qarşı mübarizə aparmış bir şəxsiyyət idi. Lakin Süleyman Rəhimov öz əmisi Allahverdi kişinin dostu olmuş Qaçaq Nəbi barədə topladığı geniş materialı da sərbəst işləmiş, bu hərəkatda hakim siniflərə və istismara qarşı xalq müba-

rizəsinin bir forması olan qaçaqçılığın xüsusiyyətlərini qabartmağa çalışmışdır. Əsərin bir çox yerlərində Nəbinin mübarizəsi sosialist realizminin tələblərinə uyğul olaraq, əsas gerçək tarixi məcrasından çıxsa da, Qaçaq Nəbi, Həcərin, silahdaşlarının qəhrəmanlıqlarla dolu həyatı bu əsərlərdə yaddaqalan detallarla təsvir olunub.[132]

Xalq yazıçısının "Pəri çınqılı" hekayəsi də Nəbi-Həcər tarixi gerçəkliyinin bədii ifadəsi baxımından səciyyəvidir.

## *"Pəri çınqılı" hekayəsi*

### I

Qaçaq Nəbinin əlindən Nikolay padşahın canı cəzana gəlmişdi. Gündə Peterburqdan Gorusa möhürlü paket gəlirdi ki, ya Qaçaq Nəbini öldürüb, ölüsü barəsində mənə tel vurun, ya da onu diri-diri tutub hüzuruma göndərin!.. Bundan başqa, Nikolay padşah Qaçaq Nəbinin başını gətirən hər hansı bir adama kisə-kisə qızıl da vəd edirdi. El-oba Nəbini öz gözünün didəsi kimi qoruyub saxlasa da, Sarımsaq oğlu kimi şeytan-şuğul bu qızıl vədindən ötrü işə girişirdi. Zəngəzur naçalniki Səlim bəydən tutmuş, onun pristavlarına, koxalarına, yasavullarına qədər böyük bir mahalın divanı yerindən tərpənib Nəbini izləməyə başlamışdı. Hələ üstəlik Naxçıvan, İrəvan naçalnikləri də Qaçaq Nəbinin ardınca adam salmışdılar. Divan adamı əldə çıraq Qaçaq Nəbini axtarır, padşahın qabağında qulluq göstərib ondan kisə-kisı qızıl, bir də medal almaq istəyirdi. Xəlvəti işə girişən şeytan-şuğul kar görməyəndə toplu-tüfəngli padşah qoşunu hərəkətə gəlir, bölük-bölük saldat, dəstə-dəstə kazak yeriyirdi. Həcəri yanına alan Nəbi də şimşək kimi buradan vurub, oradan çıxır, divanı dəli eləyib dalınca oynadırdı… Qaçaq Nəbinin sorağı bir gün Gorusun başı Salvartı yaylağının Üçtəpəsindən, ikinci günü Naxçıvanın qaşı Qanlı göldən, Ərəfsədən, üçüncü günü Qafanın kəlləsi Nənəbaladan, Xustubdan, dördüncü günü Şuşa qalasının

---

[132] https://www.edebi.net/index.php/kardes-edebiyatlar/azerbaycan-edebiyat/azerbaycan-cumhuriyeti/4983-suleyman-r-himov-1900-1983

bəndərgahları – Kirsdən, Sağsağanlıdan, Sarı Babadan, Əsgərandan gəlirdi… Arakəsməyə düşən vaxtında da Nəbi başını itirmir, igidlərini bənd-bərəyə düzür, onların üstlərinə gələn yağı-düşməni qırıb tökürdülər. Təzə qüvvə gələnə kimi Nəbi igidlərini aradan çıxarır, özü də yel qanadlı Bozatın belinə qalxıb Aynalını ata-ata gözdən itirdi. Belə olanda Nəbinin şöhrəti birə-min yayılır, adı-sanı dildən-dilə dolanır, nəinki Zəngəzurda, Naxçıvanda, Qarabağda, Şəkidə, Şirvanda, gəncədə, Şəmsəddində, bütün Qaf elində sinəsi qabaran hər kəs Nəbidən danışırdı. Dağlarda tütək çalan çiyni yapıncılı çobanlardan, çadırlarda dastan açan əli sazlı aşıqlara qədər hamı Nəbinin şəninə söz qoşur, Həcəri tərif eləyir, Aynalıdan söhbət salıb Bozatın oldırım qaçarağını vəsf eləyirdi. Belə olduqda, yenə də xəbər-xəbərə calanır, Peterburqa çatır, Nikolay padşahın cini vurub kəlləsinə çıxırdı:

– Bu Qaçaq Nəbi Qafqazda bizdən ötəri bir Puqaçov olmasınmı? – deyə padşah bığını gəmirirdi: – Bu azar bir də yenidən Rusiyaya yayılmasınmı?

Bu barədə hamıdan artıq döşünə döyüb, padşaha söz verən Zəngəzur naçalniki Səlim bəy bilmirdi nə eyləsin, gündən-günə qəzəblənən padşaha hansı üzlə cavab versin? Gorus naçalnikindən başlayıb, Gəncə qubernatorundan ötüb, Tiflisdəki sərdara qədər padşaha hey xəbər yazılır, yuxarıdan hey fərman gəlirdi. Bütün divan bir də bir-birinə dəyir, padşahın şəkli asılan otaqları qışqırtı-bağırtı doldurur, bir də toplu-tüfəngli qoşun Qaçaq Nəbinin üstünə yeridilir, nağaralar döyülüb şeypurlar çalınır, boz şinelli saldat, bəydən, xandan, hampadan düzələn tüfəng-tapançalı atlı dağ-daşı bürüyürdü. Bütün bərələr, bəndərgahlar kəsilir, qanadlı quşun qaçmağı üçün bir yer buraxılmırdı. Hər yana, hər yerə ətdən çəpər çəkilir: “Bu dəfə daha Qaçaq Nəbinin yüz canı olsa, birisi salamat qurtarmaz”, – deyə hamıdan artlq Səlim bəy sevinir, medal üçün sinəsini arıtlayıb: “Burdan vurun, ordan tutun!” – deyib kəkələnir, dərisinə sığmırdı. Ancaq yenə Qaçaq Nəbi divana aman vermir, düşmənə qan ağladırdı. Belə olanda Səlim bəy qarışıq bütün divanın ümidi daşa dəyib dəryadakı sal buz kimi sınır. Yenə də padşaha qara xəbər gedirdi: bu qədər öldü, bu qədər yaralandı, ancaq Qaçaq

Nəbi qaçıb aradan çıxdı… Belə bir xəbərdən sonra padşah da saqqalını dartışdırıb:

– Nə oldu bir qara tatar bu qədər qoşunun, yaraqlının qabağından qaçıb qurtardı? – deyə bar-bar bağırır, əfsərlərinin üstünə acıqlanırdı: – By vəhşi Qafqazın dağlarını topla düzəltdirmək gərəkdir!..

Ancaq kim nə təhər əlhaya düşsə də, el-oba sevinir, Qaçaq Nəbinin şəninə məclislər quruluq, bu dava barəsində də təzə-təzə söz qoşulub nəğmələr, havalar yaranır, Səlim bəyin isə bağrı çatlayır, ödü ağzına gəlirdi.

Padşaha yazılan, Peterburqa göndərilən son bir məlumatda deyilirdi: daha Qafqazda duruş gətirməyən, başının dəstəsini itirən Nəbi qaçıb İran-Turana adladı!

Bu gözlənilməz xəbərdən şad-xürrəm olan padşah xüsusi namələr yazıb, Tehranda əyləşən şahənşaha, İstanbulda oturan sultana göndərdi ki, bəs ayıq-sayıq durun, mənim məmləkətimdən qaçan Nəbi daha sizin ölkədə şuluqluq törədib, azar-bezar salmasın, “torpaq-torpaq!” deyə mujiklərinizin, rəncbərlərinizin, dehqanlarınızın ağızlarına dil atıb, sizin ellərə qırmızı dilli alov yaymasın. Rəiyyətlərinizi yuxudan qaldırıb məşriqə Puqaçov azarını keçirməsin… Bir də padşah hər iki kağızın ayağında öz dəst-xəttilə yazırdı ki, bəs biləsiniz ki, “Kəsik baş söyləməz!” Necə olsa Nəbini öldürün, başını nizəyə taxıb mənə göndərin ki, mən də iki ağırı xəzinənizə qızıl göndərim!..

## II

Əslinə gələndə Qaçaq Nəbi nə İranda, nə də Turanda idi, yazın bu gümrah çağında Sarı baba dağında, Pəri çınqılının ətəyində idi. Arakəsmədən çıxan Nəbi, divanı dalınca oynadıb ağzını İran sərhəddinə, Araz çayına salıb, bir göz qırpımında başının dəstəsilə Kirs dağı yuxarı qalxıb, Turşsudan keçib burda əyləşmişdi. Nəbi həm burada dincəlmək, həm də düşmənin gözünə dəyməmək üçün öz igidlərini ikibir, üçbir daha uzaqlara, başı qarlı dağların arasındakı alaçıqlara, çadırlara göndərmişdi. Bu dəfə, o, Həcəri yanına alıb burada, Pəri çınqılının ayağında, durnagözlü Ağbulaq çeşməsinin başında, talada qalmışdı. Yaxın obada yaşayan Sarımsaq oğlu,

özünü Nəbiyə ürəyi yanan göstərib, qılığına girmiş, Nəbi ilə Həcər üçün yaxşı bir çadır qurmuşdu.

– Dincini al, ay Nəbi, el üçün ağlayanın gözü kor olar, – deyən Sarımsaq oğlu dönüb Həcəri gözdən keçirmiş, sağ əlini sürməyi papağına aparmışdı. – Mən kişiyəm. Mənə çox ağır gəlir ki, bu boyda naçalnikdən tutmuş Fitilbörk padşahına qədər, bütün divan bir müsürman zənəninə xətir-hörmət qoymur! Elə mən də bu işlərdən sonra fikrə düşmüşəm ki, kəfəni boynuma salıb, sizə qoşulum, namus-qeyrət yolunda özümü qurban verim!..

Ancaq yağlı dillər tökən Sarımsaq oğlunu neçə gün sonra görməyən Qaçaq Nəbi ağ çadırı söküb, ağac-uğacına qədər pöhrəlikdə gizlətmişdi. O, xəncəri ilə ağacların qol-budağını qırıb aralıda, sərt yerdə göy bir dəyə qurmuşdu. Davadan çıxan, divanı İran-Turana azdıran Qaçaq Nəbi burada Həcərlə dincəlir, onu savaşlardan salamat çıxaran Bozata tumar verir, arpa əvəzinə kişmiş yedizdirirdi…

Qaçaq Nəbi heç bir zaman öz sayıqlığını əldən qoymur, Aynalını götürüb qaş qaralınca bəndərgahda durur, Həcərin keşiyini çəkirdi. Yuxusunu alan Həcər də gün çırtar-çırtmaz yerindən qalxıb, ərinin keşiyində dayanırdı.



Gözlərinin acısını alan Nəbi, gün yağlanmamışdan durur, həndəvərə göz gəzdirir, Həcərin: "Ay Nəbi, niyə yatmırsan?" sorğusuna qarşı "Çuğul ölməyib" deyə cavab verirdi. Nəbi birdən dərin fikrə gedir, qənşərindəki başı qarlı Çalbayır dağlarına, bu dağların döşündə tikilən koma-koma alaçıqlara, yal-yamacı bürüyən sürülərə, naxırlara, ilxılara, qıjıltı ilə gedən çaylara, qayalardan çağlayıb tökülən şəlalələrə tamaşa edirdi. Sonra aşağı: öz obasına, gündə bir qısqıya qoyulan Mollu kəndinə, geniş Yazı düzəninə, qıvrıla-qıvrıla axıb Araza tökülən Həkəri çayına baxırdı…Nəbi dönüb üzüyuxarı Pəri çınqılına, bu çınqıllığın ayağında, taladan qaynayan Ağbulaq çeşməsinə nəzər salırdı. Yazın belə gül-gülü dindirib, bülbül-bülbülü səsləyən çağında, Nəbi də, Həcər də bu səfalı aləmə baxır, ancaq darıxa-darıxa nəfəs alırdılar. Sonra Nəbi qəmə-kədərə yol vermək istəməyib, ötən dava-dalaşdan söz açır, Həcəri oxşayıb:

"Qoy sənə desinlər, ay Qaçaq Nəbi, Həcəri özündən, ay qoçaq Nəbi", – deyə Bozatı süzürdü…

Həcərə ürək-dirək verən Nəbi yerindən qəfil sıçrayıb Ayanlını götürdü, nəyisə duymuş kimi, cəld yan-yörəni gözdən keçirdi. Bozatın məxmər çulunu aldı. Üzəngisi gümüş kimi parıldayan yəhəri onun belinə qoydu. Gözləri qızaran Bozat qulaqlarını qoşalayıb Pəri çınqılına baxmağa başladı.

– Nə oldu, bəyəm? – deyə Həcər də səksəkəyə düşdü.

– Ehtiyat igidin yaraşığıdır! – deyə Nəbi şahin gözlərini bir daha ətrafa gəzdirdi.

– Axı, indi birdən nə duydun, ay Nəbi?

– Ürəyimə nəsə damdı… – deyə Nəbi döndü, Həcərin əlini öz əllərinin içinə aldı: Görürsənmi, Bozat necə də gözləri yana-yana Pəri çinqili yuxarı baxır?

– Yəqin, Bozat yəhərləndiyinə görə huyuxubdur!

– Bəs sən seyrəksaqqal Sarımsaq oğlunu unutmusanmı? – deyə Nəbi, Bozatı dırnaqlarına qədər tumarlayan, sonra da yarınıb-yaltaqlanan, gözləri göyərə-göyərə gülümsəyən, neçə gündən bəri gözə dəyməyən donqabelə işarə edirdi: – Bəs sən demirsənmi hanı o qurumsaq oğlu?..

– Mən sənə deyəndə, ay Nəbi, qoy Aynalını götürüb o uçurumun başında bu seyrəksaqqalı rədd eləyim cəhənnəminə, niyə qoymurdun?

– O bizi duz-çörəklə qarşılamışdı, – deyə Nəbi artıq yaşıl yarpaqları qurumağa başlayan dəyənin qapısını göstərdi, – gör hələ nə qədər lavaş, soyutma ət qalıbdır?!

– Elə mən də Sarımsaq oğlunun səxavətindən şübhələnmişdim, – deyə Həcərin sifəti tutulmağa başlayırdı.

– Mənim dalağım çox yamanca sancır! – Nəbi hələ sözünü qurtarmamış, Həcər yaxınlaşan hənirtini alıb o yana boylandı, işin nə yerdə olduğunu duyan Nəbi tez xurcunu götürdü, çulu büküb atın tərkinə bağladı. Sonra dönüb bu dar ayaqda Həcəri bir daha diqqətlə gözdən keçirdi. Həcər də Nəbi kimi qısqıvraq geyinmişdi. Onun başında xurmayı papaq, ayaqlarında qəhvəyi məst, qılçalarında ipək şalvar, əynində gödəkçə vardı. Onlar bir-birlərinə baxır, gözlərilə bir-birlərinə ürək-dirək verirdilər…

## III

Sarıbaba dağını padşah qoşunu tutmuşdu. Baxan deyərdi, yaşıl meşədəki yarpaqların sayı var, qoşunun sayı-hesabı yoxdur. Padşahdan qorxan Səlim bəy var gücünü budəfəki mühasirəyə qoymuşdu. Belə olsun ki, Səlim bəy bu dəfə Nəbini, Həcəri də diri-diri tutub Fitilbörkə aparsın. Padşahın hüzuruna üzüağ çıxsın. Padşah da üzüqara naçalnikin günahından keçsin, sarımtıl bığları titrəyə-titrəyə doyunca gülsün, sonra "yesirləri" tumanı yerlə sürünən, uzunquyruq xanımına göstərib, Səlim bəyin sinəsinə də kök bir medal yapışdırsın, ciblərini də xəzinənin qızılı ilə doldursun. Özünü də böyüdüb birbaş lap Gəncə qubernatı qoysun…

Ağbulaq çeşməsinin başında öz əli ilə qurduğu ağ çadırı görə bilməyən Sarımsaq oğlu lap mat qalmışdı.

– Bəs hanı o ağ çadır, ədə Sarımsaq oğlu? – deyə iştahası küsməyə başlayan Səlim bəy dilləndi: – Yoxsa səni qara-zad basırmış, ədə?!

– Padşahın cıqqasına and olsun ki, mənim dediklərimdə heç bir yalan yoxdur, – deyə Sarımsaq oğlu titrək əlini qaldırıb göstərdi, – bax düz orada, Ağbulaq çeşməsinin başında!.. Özüm də xörək-

lərini-yeməklərini qəsdən artıq eləmişəm ki, daha arxayın düşüb buranın tərkini qılmasınlar!

– Bəs indi?.. Bəs indi? – deyə əvvəlki xəyalının bir göz qırpımında alt-üst olduğunu görən naçalnik, Sarımsaq oğlunun bığ-saqqalını yoluşdurmağa başladı: – Bəs hanı, hanı Nəbi, hanı Həcər, ay qurumsaq oğlu?

– Bəlkə, yenə də onlar öz yerlərini dəyişiblər? – Bığ-saqqalı yolunan, gözləri yaşaran çuğul, naçalnikin tutqun sifətindən rəhm umdu. – Mən hansı ağızla, hansı cürətlə sizin kimi divan bəyini aldada bilərəm?

– Onlar əsla Qafqazda deyillər! – deyə naçalnik öz əli ilə yazıb padşaha göndərdiyi yalan məlumatı doğrultmaq istəyirdi. – İndi Qaçaq Nəbi də, onun canı-ciyəri Həcər də, başının dəstəsi də ya İrandadır, ya da Turanda!

– Belə olsa, naçalnik, bəs mən necə olcağam? – deyə Sarımsaq oğlu titrəməyə başladı. – Onlar burada olmasalar, bəs necə… olacaq, ağa?

– Onda mən sənin bu heyvərə kərtənkələ dərini diri-diri boğazından çıxardacağam! – Naçalnik xəbərçinin boğazından yapışınca, onun bərələn gözləri kəlləsinə çıxdı: – Bax, əgər belə olsa, qoşunu səfbəsəf düzdürüb, Bu Sarıbaba dağının başında səni öz əlimlə güllələyib, it meyitini də bu Pəri çınqılın təpəsindən üzüaşağı tullatdıracağam!..

Belə də, elə də tülkünün toyu idi… Sarımsaq oğlu canını dişinə tutub daha da irəli yeridi, vaxtı ilə qurduğu çadırın yerinə gəldi, bu aranı yoxladı, öz əli ilə gətirdiyi soyutmanın sür-sümüyünü iylədi, top meşəyə göz gəzdirdi, yarpaqları quruyan yaşıl dəyə, yəhərlənən Bozat gözlərinə dəyincə cəld çevrilib qaçmaq istədi, ancaq Nəbinin Aynalısı açıldı. Donqabel kişi papaq kimi göyə qalxıb yerə düşdü. Bir göz qırpımında naçalnikin bədəninə buz doldu. Az qala Səlim bəyin nitqi tutulmuşdu. Bu güllə səsinə hər yandan qoşun yeriyincə Nəbi Bozatın belinə qalxdı, Həcəri də tərkinə aldı, atı ağ çınqılılıq yuxarı buraxdı. Hər yandan açılan min-min güllə, ardı-arası kəsilmədən döyülən nağara, Bozata qartal kimi qanad verdi, ağ duman Pəri çınqılını deyil, Sarı baba dağını bürüdü…

Qızışan qoşun Pəri çınqılına yürüş elədi. Qədəmləri titrəyən Səlim bəy də irəllədi. Ancaq onlar Nəbinin qurduğu yaşıl dəyənin içini boş, Pəri çınqılını isə ağ duman içində gördülər.

Çınqıllıq yuxarı qanadlanan Bozat çoxdan Sarı baba dağının gədiyini aşmışdı. Güllə səslərini eşidən dəstə dayanmayıb, Nəbinin müəyyən etdiyi yerə toplandı. Bu dəfə, doğrudan da, öz başının dəstəsilə "Təbriz!" deyə yol aldı. Sınıq düşən Səlim bəy suyu süzülə-süzülə Gorusa qayıdıb, istər-istəməz Peterburqa bir də xəbər yazdı. O yazdı ki, bizim böyük şahımız, sizin hüzurunuzda çox böyük qələt eləmişik, başımızı daşın böyrünə döymüşük. Qaçaq Nəbi nə İranda, nə də Turanda imiş. Burada, Zəngəzur dağlarında imiş. Bu "qara xəbər" padşaha çatar-çatmaz o, Tiflisə sərdarın üstünə tel çəkdi ki, bəs durmayın, cəld tərpənin, güclü qoşun yeridin, bütün dağları tutun, Pəri çınqılını üzük qaşı kimi mühasirəyə alın, elə edin ki, quş da səkə bilməsin. O Qaçaq Nəbi girinizə keçən kimi onun o güllə batmayan tilsimli Bozatının şəklini də aldırıb mənə göndərin! Göndərin ki, mən də Peterburqda olan əcnəbilərə göstərim ki, bəs Qafqaz nədi, Pəri çınqılı deyilən nə… Bax, Pəri çınqılını dırmaşan Bozat budur!.. Baxın, görün, Nəbi, Həcər necə vəhşidirlər ki, onlar belə quşqonmaz sıldırımdan da çəkinmirlər…

Ancaq padşah necə filirləşsə də, nə cür tədbir töksə də, Arazı bir göz qırpımında uçub keçən Bozat dəstənin qabağını çəkib çoxdan Təbrizə yetişmişdi.

Bir tayda elat arasında, alaçıqlarda, sıldırım dağlarda, şiş daşlarda danışıq Nəbidən, Həcərdən, Bozatdan gedir; hər yandan el axın-axın gəlib Sarı baba dağına qalxır, dağın haçasından ağ muncuq kimi üzü aşağı axan Pəri çınqılına baxır, sanki onların qarşısında Bozat bir də qartal kimi qanadlanıb Pəri çınqılı yuxarı çıxırdı…[133]

---

[133] Rəhimov Süleyman. Seçilmiş əsərləri. II cild, Bakı: Şərq-qərb, 2005

## ƏLİ VƏLİYEV, "ATLI QADIN" HEKAYƏSİ



Düz otuz il bundan qabağın söhbətidir. Yazın ortası idi. Günəş günorta yerinə yenicə qalxırdı. Beş yoldaşdıq. "Yazı" deyilən kövşəndə Səlim bəyin qoyununu otarırdıq. Hamımız cavan, bığ yeri təzəcə tərləyən oğlandıq. Aşıq Humay da bizimlə idi.

Qoyunlar güneylərdə görəniyir, keçilər həmərsin kollarının başını dişləyir, boynu qumrovlu erkəclər arabir səs eləyir, qoyun itləri gah həvirləşir, gah hürüşürdü.

El yolu ilə, altdan yuxan, dağlara tərəf güclü tərəkəmə köçü gedirdi.

Biz, əvvəlcə "dirədöymə" oynadıq. İlan kimi şiv toqqalarla bir-birimizin qıçına o qədər vurduq ki, qara zolaqlar əmələ gəldi. Sonra "ziv ağac" başladıq. Hər kəs öz əl ağacını yerlə üzü aşağı şütüdürdü. Kimin ağacı dalda qalsaydı – vay halına. Papağını yerə qoymalı, qalan yoldaşlan ağacla onun papağına gücü gəldikcə vurmalı idi. Bu dəfə belə bir "bədbəxtlik" aşıq Humaya üz verdi. Onun papağına dörd tolamaz birdən dəydiyi üçün papağın sağanağı şiltə-şiltə oldu. Aşıq Humay bir qədər mısmmğmı salladı. Deyəsən o fikir edirdi. Biz onun üstünə bərk düşdük, hərə bir tərəfdən onu danladıq:

– Aşıq, qəm yemə, onsuz da işə yarayan deyildi...
– Papağı qoyun dərisindən, xəbəri yoxdur gerisindən...
– Aşıq, papağın sağlığına de gəlsin...
– Aşıq, papağına yas saxlayırsan?..
– Aşıq, mən ölüm, sazı dınqıldat...

Aşıq Humay sazı döşünə basdı və pəsdən oxudu:

*"Gün qalxıbdır günortanın yerinə,*
*Həcər xanım qalxdı atın belinə,*
*Əşrəfi düzdürüm onun telinə,*

*Qoy sənə desinlər, ay Qaçaq Nəbi,*
*Həcəri özündən ay qoçaq, Nəbi...”*

Aşığm sözləri sazm simlərilə həmahəng olur, yazının düzlərinə yayılır, güneylərdə əks-səda tapırdı.

Gün getdikcə yağlanır, qoyun küməc bağlayır, köç dəhmərlənib gedirdi. İri köç yolu ilə gedənlər də ayaq saxlayıb aşığın sözlərinə qulaq asırdılar.

Köç yolu ilə gedən ağlı-bozlu sürülərin, say-hesabı yox idi. Haça buğurlar, dizi qara nərlər, gözəl arvanalar, gözmuncuğuna oxşayan mayalar, caydaq daylaqlar qoyun sürülərinin dalınca gəlirdi.

Ağ mayalann üstündə oturub yayxana-yayxana gedən qoca qanların qucağında camış balağı, çəpiş, yaxud it küçüyü gözə dəyirdi. Yəhəri qəcərili, sağnsı enli madyan atlan səyirdən tərəkəmə gözəllərinin sifəti günün gözünü yandınr, paltarlar yazın çiçəklərini soldururdu.

Yorğa atlan süzdürərək irəli və geri çapan buxarapapaq, enli gümüş toqqalı bəy balalan özlərini gəlinlərə göstərirmiş kimi min cür büsat açır, köçü tələsdirir, nökərləri qamçılayırdılar.

Köçün dalınca yüyürərək gedən və dilini çıxanb ləhləyən köç itləri də arabir başlanm qaratikan kollanmn kölgəsinə soxur və azca dincəldikdən sonra yenə də qaçmağa üz qoyurdular.

Aşıq Humay indi bu saat özündən çıxıb yor-yoxsulun başı üstündə qamçı oynadan mülkədar balalanna qan içdirmiş Qaçaq Nəbidən deyir, Həcəri tərifləyirdi.

Gün qızır, qoyunun kümərci qalınlaşır, isti bizə əsər eyləyirdi.

Üç gün sonra biz de köçəcəkdik. Ağa xəbər göndərmişdi ki, hazırlaşaq. Sevincimizin həddi-hüdudu yox idi. Yenə də azad, qarlı dağlara qonaq gedəcəyik. Ayaqyalın çiçəklər arasında gəzəcəyik. Ayazdan yorğanlı, çiçəklərdən döşəkli, güllərdən yastıqlı, ulduzdan çıraqlı gecələr keçirib, heç olmasa, bir neçə ay sakit bir həyat sürəcəyik.

Ona görə də bu gün bu qədər şən idik. Aşıq Humay sazı döşünə basıb yanıqlı-yanıqlı çalıb oxuyurdu.

Get-gedə hava sərinləşirdi. Bayaqdan suyun yanında istidən dincələn qoyunlar indi yenə də şirin-şirin otlamağa başlamışdılar.

Yoldaşlardan birində bir rus beşatılanı, vur-tut on iki də patron vardı. El yolundan bir az aralıda nişana qoyub atırdıq. Mərc gəldik kim kibritin qarasını vursa onun adını “Qaçaq Nəbi” qoyacağıq.

Adama iki güllə atdıq, heç birimiz vura bilmədik.

Hər kəs özlüyündə pərt idi. Ancaq heç birimiz vura bilmədiyimizə görə arsızlığa salıb gülürdük.

Bizim şirin gülüşdüyümüz vaxt aşağı gədikdən bir atlı çıxdı. Dalınca da bir bölük qoyun-keçi göründü. Aşıq Humay sazı döşünə basıb dedi:

*“Əlimdə həvə,*
*Gedirdim evə,*
*Bir bölük dəvə,*
*Çıxdı gədikdən.*
*Əlimdə qayçı,*
*Gedirdim elçi.*
*Bir bölük keçi,*
*Çıxdı gədikdən.*

Atlı bizə yaxınlaşdı. Arvad idi. Altında bir boz at vardı.

Arvadın yaşı əllini keçmişdi. Buğdayı sifətində təmkinlik, gözlərində qürur, alnında əzəmət, duruşunda igidlik sezilirdi. Sağ yanağında mərciмək boyda bir xal görünürdü. Başında nimdaş bir qara kalağay, əynində mamos büzmə, uzunqol bənöyüş çit köynək vardı. Ayağındakı çəkmə dizindəndi.

Tuşumuza çatanda salam verdi. Nişan vurduğumuzu görüb atm başını yığdı. Boz at baş aparır, dırnağı ilə yeri eşir, fınxırırdı. Arvad isə ata fikir vermir, bizi dərindən süzürdü.

Biz isə bu atlı qadının nə üçün bu qədər vəravürd etdiyinə mat-mat baxırdıq. Arvad birdən qaşlarını çataraq dilləndi:

– Adınızı da cavan qoymuşunuz...

Biz susduq. Susmaqdan məqsədimiz bu idi ki, bu “atlı xanım” ötüb getsin.

– Siz yaşda olanda Salvartıdan ata minirdim, işıqlaşanda Xudafərin körpüsündə olurdum...

Cavab verən olmadı.

Qadın bizim bu sükutumuza fikir vermədən atdan düşdü; beşatılanı istədi. Biz vermək istəmirdik. Ancaq həm üzə düşdük, həm də qadın olduğu üçün sözünü rədd edə bilmədik.

Arvad beşatılanı əlinə alıb ora-burasına baxdıqdan sonra dərindən kədərli bir ah çəkdi və öz-özünə: – Aynalı, aynalı, – deyə ağlamsındı. Qara kalağaymm ucu ilə gözlərini sildi. Ani olaraq adi vəziyyət aldı.

Tüfəngin çaxmağını geri çəkdi. Tüfəngin boş olduğunu görüb soruşdu:

– Patron kimdədir?

Yoldaşımız bir patron verdi.

– Şərtiniz nədir? Nədən mərc gəlmisiniz?

Şərtimizi dedik.

Arvad duruxdu, alnını qırışdırdı. Sifətini kədər buludlan çulğaladı. Yenə də dərindən bir ah çəkdi. Ancaq bu dəfə ağlamsınmadı. Patronu lüləyə verdi. Çaxmağı çevirdi. Tüfəngi üzünə götürdü. Barmağı ilə tətiyi çəkdi. Güllə açıldı, kibritin qarasını üzüb apardı. Hamımız pərt olduq. Qıpqırmızı pörtdük. Bir qoca arvad bir patronla hamımızın ürəyindən vurmuşdu. Aşıq Humay özünü saxlaya bilməyib dedi:

– Bu kov deyil!

Arvad yenə patron istədi.

Yoldaşımız axmncı gülləni verdi.

Arvad tüfəngi üzünə götürən kimi yenə də kibritin qarası üzülüb düşdü.

Arvad tüfəngi yoldaşımıza verib ata san gəldi. Qızılquş kimi sıçrayıb ata mindi. Biz onu aralığa aldıq və əlini mehribanlıqla sıxdıq. O, atı mahmızlayıb aradan çıxmaq istəyirdi ki, aşıq Humay soruşdu:

– Bəs biz bilməyək ki, bu beş cavanı sındıran arvad kim idi?

Qadın boz atı tərpətdi və gülümsünərək dedi:

– Mən Həcərəm.

O, yola düşdü, atını ağır-ağır sürməyə başladı.

Hamımız onun dalınca baxa-baxa qaldıq.

Aşıq Humay sazı götürdü və yenə oxumağa başladı:

“Gün qalxıbdır günortanın yerinə,
Həcər xanım qalxdı atm belinə,

Əşrəfi düzdürrəm onun telinə,
Qoy sənə desinlər, ay Qaçaq Nəbi,
Həcəri özündən çox qoçaq, Nəbi!”

Həcər keçmişləri, Nəbi ilə bir yerdə keçirdiyi günləri xatırlayırmış kimi dönüb kədərli gəzləriIə aşığı süzdü və gözdən itdi.

## NƏBİ, HƏCƏR OBRAZI CƏLAL BƏRGÜŞADIN ROMANINDA



Qubadlı, Zəngəzur elimizin Azərbaycana bəxş etdiyi istedadlı yazıçı Cəlal Bərgüşad “Bozatın belində” romanını yazmaq üçün Tifls, Bakı və Naxçıvan dövlət arxivlərini araşdırmış, tarixi həqiqətləri öyrənmiş, “Kavkaz” qazetinin səhifələrindən öz qəhrəmanının həyatına aid dəyərli sənədlər toplamışdır. Qaçaq Nəbinin, Qoçaq Hə cərin ölüm-dirim mübarizəsini yaradıcı zəhmətlə qələmə almışdır. C.Bərgüşad özü oynatmağın, dilimizin incəliklərini, xüsusilə Qarabağ dialektinin zənginliyini ədəbiyyatımıza gətirməyin, təsvir etdiyi hadisələri kulminasiya nöqtəsinə qaldırıb oxucunun ürək-göbəyini üzməyin, intizarda qoymağın elə peşəkarı idi ki, çətin ki nəsrimizdə bu tryukları, ədəbi fəndləri təkrar edə bilən kimsə olsun.

Təzə əlifbamızda hələ çıxmayan, PDF-i olmayan romandan VII bölmə – “Dünyaya insan gəlir” başlıqlı hissədən bir neçə sətir: “İnsan doğulur!..At üstündə doğulur!..Su üstündə doğulur!..Odlar-alovlar içərisində doğulur!...

Həcər at belində qarşısıalınmaz ağrı çəkir. Səlim bəyin dəstəsi sübhdən onları qovub haldan salıb. Bir əli arxada tətikdə Nəbi Bozatı Həcərin atına yetirir: – Möhkəm ol, Həcər, Araza az qalır...




– Məndən arxayın ol. Arazın qolları arasındakı bu kiçik adacığa hələ insan ayağı dəyməmişdi, hər yan qamışlıqdı...iran və rus sərhədçilərinin səsi gəlir, Həcər ağrıdan qaralır, qıvrılır..bu qamışlığın hər tərəfindən əcaib-qəraib səslər gəlir, göy üzünü qara bulud alıb, yuxarılarda şimşək çaxır, su getdikcə adanı ağzına alır, ...artıq su atların qarnının altına çatır...dünyaya balaca qaçaq gəlir, onu heç cür saxlamaq olmur”[134] Axtarın, tapıb oxuyun, bu Nəbi-Həcər igidliyi haqqında ən gözəl əsərdir, faktlara söykəli, dili su kimi şirin, axıcı, rəvan...

Türkiyə mediası bu əsər türkcə kütləvi tirajla nəşr olunduqdan sonra romana yüksək dəyər vermiş, onun böyük istedadla yazılmış “Qəhrəmanlıq və məhəbbət dastanı” adlandırmışdır.

### *Faciələrimizin kökü*

Cəlal Bərgüşadın “Bozatın belində” romanını təkrar oxuduğum günlər Zəngəzurda Azərbaycan-Ermənistan sərhəddinin demarkasiyası ətrafında baş verən qarşıdurmalarla eyni vaxta düşdü.

Romandan bir parçanı buraya köçürərək baş verənlərin 200 ildən bəri Cənubi Qafqazda rus imperiyasının apardığı siyasətin nəticəsi olduğunu bir daha açıq-aşkar göstərən dialoq, səhnələri xatırladıram.

“Məhəmməd bəy, qaldı o rus gədəsi Vasqadır, nədir, istəmirəm o kafir mürdar ayağını bir də mənim torpağıma bassın!

– Kərbəlayı birin bilirsən, birin yox. Eşitmədin Səlim bəy bizi yanına çağıranda nə dedi? Dedi ki, Kərbəlayı Cəfər yerölçən Vasili

---

[134] 296-316

Bortsovdan böyük bir şikayət yazıb. Bilirsən ki, Vasilidən başqa Zəngəzurda yerölçən yoxdur... Topalın gözü zəmilərdə qalmışdı. "Bunlar mənim ata-baba yerimdir. Bunu mən başqasına necə verim?! Ölərəm, ancaq bir qarış torpağımdan keçmərəm!

– Ə, sarı Vasqa, səni Fitilbörkdən bura kim çağırtdırıb? Ə, qoduq, sən nə haqla mənim ata-baba torpağımı kəsib bu gorbagor olmuşa verirsən. O Qoçdaş mənim ulu babamındır. Sərhəd – Qoçdaşdır. Burda mən zəmi əkəndə, heç sən anadan olmamışdın... Mənim yerimə mərz qoydurana bax!

Vasili belə hədə-qorxuya alışmışdı. Kərbəlayının söyüşünə məhəl qoymayıb xəritədə işarələr etməklə məşğul idi.

– Deyəsən, bu köpəkoğlu urusun qanı artıqdır!

Xəncərini siyirib Vasilinin üstünə cummaq istəyəndə Məmməd bəy onu arxadan qucaqladı, qollarını güclə tutdu.

– Məmməd bəy, burax məni, bu Vasqanın qabağından qaçdıqca adamın başına çıxır. Onun bağırsaqlarını ayaqlarına dolayacağam!

Vasili isə öz işində idi. Atın tərkinə bağladığı xurcundan bir neçə nal boyda möhür çıxarıb onları saqqız ağacına mıxlayır, təzə mərz qoyurdu." [135]

Bəli, bütün bəlaların başı o mərz qoyan, torpaq ölçən vasililərdə, onların əlinə ixtiyar verib bura gətirdəndə və göndərəndədir. Bəla, həmin bəladır!

Həmin romandan söz düşmüşkən "Uğursuz səfər" adlanan VIII fəsilin başlığına C.Bərgüşad arxivdən götürdüyü İrəvan məhkəmə palatasının mütərcimi Məmməd Musayevin ifadəsindən alınmış sitatı verib: "Nəbi hərəkatı çar hökuməti və mülkədarlar üçün çox qorxulu idi. Çar hökuməti İran və Türkiyə hökumətləri ilə danışığa girib çoxlu casus göndərmişdi.

Hökumət Nəbini öldürən və ya onun öldürülməsində fəallıq göstərən casuslara çoxlu pul, qiymətli şeylər verməyi, onları vəzifəyə irəli çəkməyi, medalla təltif etməyi vəd etmişdi."[136]

---

[135] Cəlal Bərgüşad, Bozatın belində, Gənclik-1989, s.140-141
[136] Yenə orada, s. 211

# ƏŞİR BƏŞİROĞLUNUN "QOŞA QARTAL" ROMANINDAN BİR PARÇA



Əşir Bəşiroğlu "Qoşa qartal" romanını (Bakı – "Təknur" –1914) Qaçaq Nəbi ilə Həcər xanıma həsr edib. Az tanındığına görə haqqında məlumat verək; Fətəliyev Əşir Bəşir oğlu 3 noyabr 1935-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub. 1953-cü ildə Qubadlı rayon Xanlıq kənd orta məktəbini bitirib. Sumqayıtda zavodda fəhlə, növbə rəisi və sex partiya komitəsinin katibi işləyib, Sumqayıt şəhər sovetinin deputatı olub. İşdən ayrılmadan Pedaqoji İnstitutu bitirib. İnstitutu qurtaran ildən Qubadlı rayonunun Aşağı Mollu kənd orta məktəbində müəllim işləyib. 1970-ci ildə Aşağı Mollu kəndindəki Qaçaq Nəbi adına kolxozunun sədri seçilib. Sonra yenə də Aşağı Mollu kənd orta məktəbində müəllimlik edib. 15 kitabı çıxıb. Biri də "Nəbi yurdu" adlanır.

Həcər xanımın həmkəndlisi, uzun illər bu torpaqda yaşayıb işlədiyi üçün qoşa qəhrəmanlar haqqında çox şey eşidib, haqqında yazılan roman, povest, hekayələrdən, həm də dastandan gen-bol bəhrələnib, şəxsi sevgisini də sətirlərə hopduraraq roman yazıb. Bir sıra maraqlı, ilk dəfə burada oxuduğumuz yeni hadisələri qələmə alıb. Bunu əsas tutaraq, mərhum qələm sahibinin 214 səhifəlik "Qoşa qartal" romanından bir parçanı ixtisarla təqdim edirik (səh.198-202).

## *Palantökən vuruşu*

Nəbinin şöhrəti Zəngəzurdan, Naxçıvandan, İrəvandan başlayıb Təbrizə, Gorusa, Rəştə,

Ərdəbilə qədər gedib çıxmışdı. Hər yerdə özünə çox tərəfdar toplayan Qaçaq Nəbi xalqın pənahı idi. Kəndlini hampalar döyəndə əgər desəydi ki, eybi yox, bu zülmü Nəbiyə yetirərəm, bu dərdə bir

əncam çəkər, o dəqiqə onu buraxardılar. Nəbi naçalniklərə, pristavlara, koxalara, bəylərə bir divan tuturdu ki, gəl görəsən.

Deyirlər bir dəfə İsmayıl bəy bütün hampaları divana yığıb vergi verməyən kəndliləri atın quyruğuna bağlamağı əmr edib. Özü də deyib ki, hansı hampa atın quyruğundakı kəndlini yaxşı sürüsə ona bəxşiş verəcəyəm. Pristav Qaşo bəyi də tamaşaya çağırıb. Bəli, məclisin şirin yerində bir atlı girib ortalığa ki əllər yuxarı! İsmayıl bəy, Qaşo pristav da əllərini qaldırıblar yuxarı. Onları tərkisilah edəndən sonra üzünü hampalara tutub deyib:

– İndi, düşün atdan. Siz isə kəndlilər, minin atlara! Sonra atlı ağaları məcbur elədi ki, kəndlilərə vergilərin verilməsi barədə qəbzlər yazsınlar!

Elə ki hampalar vergi qəbzlərini kəndlilərə verdilər əli silahlı qaçaq dedi ki, bağlayın hampaları atın quyruğuna. Pristav Qaşo bəyi də bir ağaca sarıdı. Sonra da ona dedi:

– Qaşo bəy, sən də dayan burada tamaşa elə!

Həcər xanım İsmayıl bəyi öz əli ilə atın quyruğuna bağladı. Üzünü bütün kəndlilərə tutub dedi:

– Bilin və agah olun ki, mən Həcərəm. Bu İsmayıl bəy, mənim bağrıma çalın-çarpaz dağ çəkib. Bətnimdən yerə qoyduğum körpəmi şaşqanın ucuna keçirib, əzabla öldürüb. İndi mən onu Qəmər dayım quyruğunda bütün Salvartının, Zəngəzurun şiş qayalıqlarını gəzdirəcəyəm. Məni qınamayın, bəlkə bununla ana qəlbimin közü qaysaqlana! Siz isə özünüz bilin, hampalar nə qədər istəsəniz o qədər sürüyün. Amma, hərə pristava bir qamçı çəkməyi unutmasın. Deyirlər o gün nə pristavdan, nə də hampalardan salamat qalanı olmadı. Coşmuş kəndlilər bütün divan idarəsini dağıtdı, atları da aşırıb erməni kəndlərində satıb evlərinə dağılışmışdılar. Nəbinin qorxusundan pristavlar bu işin üstünü vurmadılar. Kəndlilərə də gözün üstə qaşın var deyən olmadı. Hamı İsmayıl bəyi qınadı. Dedilər, Nəbi qanı qanla yuyub. Daha kimi tutub dama qoya bilərik. Ancaq Nəbinin əlindən çara şikayət etməyi də unutmadılar.

İllər keçdikcə Nəbinin dəstəsi böyüdü, davası da daha zəhmli oldu. Nəbinin dəliləri pristavlara, naçalniklərə çox divan tutdu. Günahsız döyülən torpağı əlindən alınan, muzdu verilməyən çox kəndlinin haqqını alıb özünə qaytardılar.

Deyirlər bir gün Qaçaq Nəbi, Həcər, başının dəliləri ilə yenə kəndləri gəzirmişlər. Bir də görürlər ki, qoburnatın qazalağı gözətçi dəstəsi ilə gəlir. Ta bayaq ha, dəlilər aynalını tuşlayırlar qazalağa! Görünür, içəridəki ağıllı adam idi. Strajniklərə deyir ki, güllə atmayın, əllərinizi qaldırıb təslim olun. Strajniklər də bir söz deməyib silahı tökürlər yerə. Həcər özünü qabağa verib Nəbiyə deyir: – Qoburnatı özüm qarşılayacağam.

Qaçaqlar əldə silah Həcəri dövrəyə alırlar. Bir də görülər ki, qazalaqdan bir urus xanımı, bir də yaraşıqlı saçı olan bir məmur düşdü. Həcər məmuru o dəqiqə tanıdı. İsmayıl bəy onu dustaq edəndə qollarının zəncirini açdıran məmur idi. Bir az sinniləşmişdi. Deyəsən çini də böyümüşdü. Ancaq necə vardı, eləcə də qalmışdı, deyəsən o da Həcəri tanımışdı. Odur ki, şirin azərbaycan ləhcəsində dedi: – Həcər xanım, məni tanımadınmı? On il qabaq həbs olunanda görmüşdüm...

– Siz kapitan Qrivanovskisinizmi?

– Bəli, bəli, xanım, görürsünüzmü, mən indi generalam. Bu xanım da mənim arvadımdır.

– Çox yaxşı, cənab general.

Generalın arvadı soruşdu: – Siz belə gözəl qadın, nə üçün evdə outrub uşaqlarınıza mürəbbilik etmirsiz? Quldurluq qadına yaraşarmı?

General bunları Həcərə tərcümə etdi. Həcər dedi:

– Xanım! Oğlum bətnimdən düşən kimi, nəçənnik şaşqaya keçirib öldürdü! Məni zindana, soyuq qarsa saldı, dizə qədər soyuq suda saxladı, ondan sonra uşağım olmadı. Sizin bu general əriniz həmin vəhşiliyi yaxşı xatırlamalıdır.

General pərt oldu. Həcərin dediklərini xanımına tərcümə elədi. Urus xanımı Həcərin faciəsini eşidəndə əlləri ilə üzünü tutdu, göz yaşları onu boğdu, qazalağa qayıdıb boğuq səslə ərinə dedi: – Əlbəttə, onlar indi bizi öldürməlidirlər. General başını aşağı salıb xanımının sözlərini yenə azərbaycancaya çevirdi. Sonra da məyusluqla dedi: – Həcər xanım, ricam budur ki, izn verin, xanımım getsin, bizim üç qızımız var, hər ikimiz öldürülsək onlar başsız qalar. Mənə nə divan istəsəniz tutarsınız.

Həcər Nəbiyə, qaçaqlara baxdı. Nəbi tüfəngi qaldırdı. Həcər dedi:

– Əl saxla, Nəbi! Bunlar hər şeyi öz arşınları ilə ölçürlər. – Sonra üzünü generala tutub sözünə davam etdi: – General, – deyə Həcər əsəbləşdii. Onun səsinə bütün qaçaqlar səngərdən çıxdı, Nəbi "Aynalı" nı dikəltdi, Həcər sözünə davam elədi:

– General, mən yaxşı bilirəm ki, siz padşahın əmrilə bizi qırmaq üçün böyük qoşunla bura gəlmisiniz. Biz vuruşarıq, kim kimi döyüşdə məğlub eləsə o da məğlub olar. Ancaq siz xanımınıza deyin ki, biz quldur deyilik. Biz zülm əlindən komamızdan qaçanlarıq. O ki, qaldı sizə, azadsınız. Siz mənim qollarımın zəncirini on il bundan qabaq İsmayıl bəyə açdırdınız. Məni buraxmaq istədiniz. İsmayıl bəy qoymadı, onun üzünə tüpürüb getdiniz. İndi mən də sizi azad edrirəm. O vaxt məni buraxmağa sizin səlahiyyətiniz çatmadı. Bu gün isə sizi buraxmağa mənim səlahiyyətim çatır. Həcər çevrilib Nəbiyə baxdı. Gördü Nəbi gülümsəyir, demək hər şey qaydasındadı.

Həcər yoldan çəkildi. "Aynalı"lar görünməz oldu. General ağır addımlarla qazalağa qayıdıb tərpənmək əmri verdi. General xanımına nə isə deyir, o da uzaqlaşıb getdikcə Həcərə hey əl eləyirdi.

Deyilənə görə ki, doğurdan da general Qrivanovski xüsusi göstərişlə Zəngəzura gəlibmiş. Həcərin igidliyindən sonra fikrini dəyişib. Nəbinin üstünə göndərilən min atlını da özüylə götürüb geri qayıtmışdı.

…Bir gün Zəngəzura hay düşdü ki, bəs padşah Nəbinin başına qiymət qoyub. Doğrudanda bir həftə sonra qoburnatın məktubu naçalniklərə, pristavlara gəlib çıxdı. Yazırdılar ki, hər kəs Nəbinin başını batırsa ona xəzinətdən yüz qızıl, yaxşı da bir qulluq veriləcək, lap elə naçalniklik. Bunu eşidən bəylər, hampalar bir-birinə dəydi. Yığışıb tədbir tökdülər, nə qədər baş sındırdılarsa bir mətləb hasil olmadı. Namərdlər Nəbini öldürmək üçün başladılar girəvə gözləməyə. İndi bunlar burada qalsın, görək Nəbi neynədi…

# MÜƏLLİFİN ROMANA YAZDIĞI "SON SÖZ"DƏN BİR PARÇA

Qaçaq Nəbi və Qaçaq Həcər mövzusu mənə çox yaxındır, çünki mən də Qaçaq Nəbinin və Qaçaq Həcərin doğulduğu Aşağı Mollu kəndində anadan olmuşam. Onlar iyirmi ildən artıq bu yerlərdə yaşamış, bu yerlərdə böyümüş, uşaqlıq və gəcnlik illərini yazı düzündə, Bərgüşad və Həkəri çaylarının sahilində, Kəpəz, Çəmənyurd, Salvartı, Sarımsaqlı, Qannıca, Üçtəpə və Pəriçınqılı dağlarında keçirmişlər.

Qaçaq Həcərin qələmə alınan qəhrəmanlığı "aşıqanə" iniltilərdən fərqlənən bir qəhrəmanlıqdır. Bu iki qəhrəmanı birləşdirən "bir yastığa baş qoymaq" ehtiyacı deyil, məhəbbətdir. Müharibələrdə, qazamatlarda ləkəsiz qalan məhəbbətdir! Çünki onun keşiyində Aynalı dayanıbdır. Burada ərin igidliyi, ömür yoldaşı Həcər xanımın igidliyi, onların sadə eşq-məhəbbətləri kimi mütəqabil igidlikdir. "Aslanın erkəyi-dişisi olmaz" igidliyidir. Həcər xanımın igidliyi Qaçaq Nəbinin papağını ucaldan, onu döyüşlərə ruhlandıran, bəlkə də bəzən döyüş səhnələrində ruhlandıran igidlikdir! Bu eşq-məhəbbətlə dolu olan igidlik ruhu köhnəlməzdir! Bu eşq-məhəbbətlə dolu olan igidlik ruhu bizim indiki gənclərə aşılanmalı, onların mənəvi həyatını comərdlik, qəhrəmanlıq, namuslu, qeyrətli, sədaqətli olmaq ruhu ilə daha da zənginləşdirməlidir. İgid ruh ölmür, nəsildən-nəsilə aşılana-aşılana gəlir, yaşaya-yaşaya da gedir, daim tərənnüm olunur…."

# ÇİNGİZ SALMANOV. "XƏLƏC İNAM YERİ, MÖCÜZƏLƏR OCAĞIDIR" KİTABINDAN



Hələ kiçik yaşlarında anamın şirin laylasını eşitməklə bərabər şirin, həzin ilahi nəğmə olan "Quran"ın qiraətlə oxunan surələrini seyid Əsli nənədən eşitmişəm. Həmişə namaz qılan, oruc tutan, Ramazan ayında, Qurban bayramında, Orucluq bayramlarında camaatın istəyini nəzərə alıb "Qurani Kərim"dən surələr, ayələr oxuyan mömin bir insan idi. Hamıya şəfa diləyərdi. Ona verilmiş nə olardısa, onun cüzi hissəsini götürərdi ki, xətrinə dəyməsin, qalanını elə həmin vaxt qaytarib verərdi qonuma qonşuya və gətirənin özünə.

Əsli nənə söhbət edirdi ki, bir gün gördüm Qaçaq Nəbi girdi evə.

– Salam, ay bacı.

– Ay Nəbi, buralarda neyləyirsən, hər yerdə səni axtarırlar?

– Gəldim sizin evə ki, məni heç kəs tapmasın. Bilirəm ki, seyid Əsli bacımın evinə heç kim cəsarət edib girməz.

Bir az keçmişdi ki, pristavın evin arxasından səsi eşidildi: – ehtiyatlı olun, Nəbini kəndə girəndə görüblər, hər yeri axtarın.

Qonum-qonşunun həyət-baca, xırman, dəyirman, kaha, pəyə hər yeri axtarsalar da, heç kim seyid ocağına girməyə ürək eləmədi. At ayaqlarının səsi uzaqlaşdı.

– Gördün, ay bacı, mən bilirəm də dara düşəndə kimə üz tutmaq olar.

Qaçaq Nəbi Xələcdən çox adamlarla dostluq edib. Seyidlərin, ən çox da Mərdanın, Manafın evinə düşərmiş. Nənəm nağıl edirdi ki, "Tağ yurdda" idik, Nəbi gecəynən gəldi. Dədəm durub onu mehribanlıqla qarşıladı.

– Ay Manaf, uşaqlar "Soyuq bulaq" tərəfdədirlər, acdırlar. Gör neynirsən?

Dədəm kəndin ağsaqqallarına tez xəbər elədi. Kimin nəyi var idi yığdılar bir yerə, Bir at yükü ərzaq toplayıb göndərdilər Nəbinin qaçaqlarına.

## *Əhliman Axundov: "Qaçaq Nəbi" dastanının və Azərbaycan folklorunun ən məhsuldar, fədakar toplayanı*



Əhliman Molla Əli oğlu 1903-cü ildə Zəngəzur qəzasının Qubadlı rayonunun Əliquluuşağı kəndində anadan olub. İbtidai təhsilini 1909-cu ildən 1919-cu illədək atasının məktəbində alıb, sonra Şuşa Pedaqoji Texnikumunu, 1932-ci ildə Ali Pedaqoji İnstitutunu, aspiranturanı bitirib. Məşhur filoloq Bəkir Çobanzadənin elmi rəhbərliyi ilə dissertasiya müdafiə edib. Ömrünü folklorumuzun toplanmasına, tədqiqinə həsr edib. 1977-ci ildə vəfat edib.

"Qaçaq Nəbi" dastanını ik dəfə toplayıb yazıya köçürüb, 1941-ci ildə nəşr etdirib. Süleyman Rəhimovun redaktorluğu ilə nəşr edilən Qaçaq Nəbi dastanının ən qiymətli cəhətlərindən biri budur ki, Ə.Axundov Nəbini şəxsən görən, yaxşı tanıyan, hətta onun hərəkatında şəxsən iştirak edən adamlardan və ya əhvalatları öz atasından, anasından, yaxın qohum-əqrəbəsindən eşitmiş olan adamlardan çoxlu döyüş nəğmələrini, tarixi hadisələrin rəvayətləşən bədii variantlarını, dastanlaşan qaçaq sərgüzəştlərini yerli-yataqlı öyrənmiş, yazıya almış, dönə-dönə yoxlamış, həqiqətə ən çox uyğun, real olan hadisələri, söyləmələri dastana salmışdır. Yorulmaz folklorşünas Əhliman Axundov bu dastanın müqəddiməsinə Ön sözündə yazır: "Nəbi XIX əsrdə kəndli üsyançılarının ən görkəmlilərindən idi. Təqribən 1870-ci illərdən başlayaraq ölümünün sonuna qədər çar çinovnikləri, yerli bəy, mülkədar və xanlara qarşı qəhrəmançasına mübarizə aparmışdır."

Ə.Axundovun digər əsərləri: Azərbaycan dastanları, 5 cild (Məhəmmədhüseyin Təhmasiblə birlikdə) Azərbaycan folkloru antologiyası 2 kitab, Azərbaycan nağılları 5 cild, Azərbaycan aşıqları və el şairləri, 2 cild, Aşıq Ələsgər 2 cild, Qaçaq Nəbi, Dəli Padşah pyesi, Azərbaycan aşıq şeirindən seçmələr və digər toplular bu yorulmaz alimin gərgin, ağır, şərəfli və məsuliyyətli alim ömrünün

məhsuludur. Xalqımız, elmi-ədəbi ictimaiyyətimiz təəssüf ki, bu görkəmli alimin layiq olduğu əməyin dəyərini hələ də verməyib. Ona mənəvi borcumuz adını layiqincə yaşatmaqdır.Ruhun şad olsun, böyük insan, vətəndaş, alim – Əhliman Axundov!

### *Qaçaq Nəbi – Həcər obrazı şeirimizdə.*
### *Məhəmmədhüseyn Şəhriyar*



## QAÇAQ NƏBİ

Dur qəfəs qapısın bir açaq, Nəbi,
Bu sınıq qanadla bir uçaq, Nəbi,
Ay qoçaq Nəbi!

Qazamat istidi, yata bilmisən,
Analar beşiyin sata bilmisən,
Öz ata yurdunu ata bilmisən,
Qeyrətin qurbanı, ay qaçaq Nəbi,
Ay qoçaq Nəbi!

On beş il gavurun zülmünə dözdün,
O nəqşə çəkdikcə, nəqşəsin pozdun,
Şimdi ki, obadan-eldən of üzdün,
Qəm yükün çatmışam, dur köçək, Nəbi,
Ay qoçaq Nəbi!

Dördbir dövrəmizi saldatlar aldı,
Qələlər ucaldı, qaranlıq saldı,
Zindanın işıqsız, günəşsiz qaldı,
Hümmətin ucadır, dam alçaq, Nəbi,
Ay qoçaq Nəbi!

Bir kəsin qalmayıb yarü yoldaşdan,
Qalsa da, fayşadır, doymaz oynaşdan,

Gecən qoy aşaq bu dağdan, daşdan,
Zindanı qazmışam, dur qaçaq, Nəbi,
Ay qoçaq Nəbi!

Dedin bəs vətən də sabiq vətəndir?
Gördün ki, dostum yox, hamı düşməndir,
Vətəndən qafan bir quru kövşəndir,
Ondan da əl çəkib vaz keçək, Nəbi?
Ay qoçaq Nəbi!

Çöllərdə çəkmişdim vətən zillətin,
Görəymiş özüm də çəkim qürbətin,
Qırıram vətənin ipin, ülfətin,
Cigərdən ayrılmır bir pıçaq, Nəbi,
Ay qoçaq Nəbi!

Vətəndən doymuşam, məni qınama,
Dur gedək, bu xəlqi artıq sınama,
Dur görüm! Bu ağac bənzir anama,
Telindən qoy qırım bir saçaq, Nəbi,
Ay qoçaq Nəbi!

Haralı olmalı? Bilə bilmədik,
Ləkəsin bu qanın silə bilmədik,
Bir də biz bu yana gələ bilmədik,
Arazın suyundan bir içək, Nəbi,
Qeyrətün qurbanı, ay qoçaq Nəbi![137]

---

[137] Məhəmmədhüseyn Şəhriyar, Seçilmiş əsərləri, "Avrasiya press", Bakı-2005, s.90

## *Qasım Qasımzadə şeirlərində Qaçaq Nəbi-Həcər obrazı*



Zəngəzur elinizin Azərbaycan xalqına bəxş etdiyi çox sevilən, şeirləri, sözlərinə yazılmış musiqiləri dillər əzbəri olan Qasım Qasımzadənin yaradıcılığında da Qaçaq Nəbi adı tez-tez keçib. Onun bu populyar şeirinin qəhrəmanı Qubadlı rayonunun Qəziyan kəndində doğuıub yaşamış Sosialist Əməyi Qəhrəmanı çoban Möhsün Əsgərovdur.[138]

### *Dağlar oğlu*

**Söz.: Qasım Qasımzadə**
**Mus.: Şəfiqə Axundova**
İldırımdan çəkib qurşaq,
Qarlı Kəpəz, Çiçəkli dağ.
Bir zamanlar Qaçaq Nəbi
Gəzib burda oymaq-oymaq.

İndi bizim igid çoban,
O yerləri edib məkan.
Salvartıya səs salıbdır
O qəhrəman, o qəhrəman.

Mehribanım, canım-gözüm
Çoban Möhsün, çoban Möhsün!
Sinəndə bir ulduz yanar,

---

[138]https://www.youtube.com/watch?v=qN-ROmu23_8&ab_channel=Rey Kerimoglu

Dağ yolları işıqlanar.
Qaya üstə dayananda,
Hamı səni qartal sanar.

Taleyinə xoş təbəssüm
Nur çiləsin, çoban Möhsün.
Qoy bəzəsin Çəmənyurdu,
Sürülərin düzüm-düzüm.

Özü də əsilli-köklü nəslin davamçısı, təmsilçisi olan Qasım müəllimin yaradıcılığında Qaçaq Nəbi-Həcər adı dəfələrlə xatırlanıb. Bu sətirlər də onun qələmindən, ruhundan süzülüb gəlib. "Əgər biz inansaq ki, Şuşa biryolluq əlimizdən çıxıb, Xocalı həqarəti, Laçın bədnamlığı ilə barışası olacağıq, elə bilirəm, Azərbaycan qeyrətli hər bir vətəndaşın fikrini ifadə edib deyərdim ki, onda daha yaşamağın mənası qalmamışdır. Bir adı Qala, bir adı da Pənahabad olan Şuşa təkcə bu günümüz yox, tariximizdir, sərkərdələr, sənətkarlar yetirən əcdadımızın yadigarıdır, Pənah xanı, İbrahim xanı, Vaqifi, Nəvvabı, Natəvanı, Adıgözəl bəyi, Mehmandarovu, Xosrov bəyi, Üzeyir bəyi, Seyidi, Xanı, Bülbülü yetirən diyardır. Şuşa bizim qartal qıyyalı, bülbül cəhcəhli yuvadır. Buna görə də indi Şuşasız günlərimdə mən özümü yuvasız quş sayıram...

Ərşə qalxıb naləm mənim,
Alınıbdı Qalam mənim.
Əsir düşüb ciyərparam,
Şuşam mənim, balam mənim.

...Bura Nəbi oylağıdı,
Laçın, tərlan yığnağıdı.
Bir həmləsi, bir uçuşu
Quzğun cəmini dağıdı.

## *"Qapını bağlayan fələk... 28 may 1992"*

Şairin Azərbaycan haqqında şeirlərindən belə bir ifadə var: "düşməninə yumruğudur Qubadlı". Şübhə yox ki, bu "yumruq" elə Qaçaq Nəbidir, Həcərdir, Əliyar, Məğrur, Həsən, Balakişi, Nadir, Əlövsət, Əbülfəz, İrşad...dır.

Vətənimizin panoramasını, söz portretini yaratdığı məşhur "Bələdikmi özümüzə?" adlı şeirində şair yenə Nəbini xatırladır:

*...Görmüşəmmi Xaçın üstü Kəngərlidə*
*Koroğlunun yuvasını-kahasını,*
*Udmuşammı Nəbi kimi bir igidə*
*Arxa duran Çalbayırın havasını?*
*...Üryan qılınc parçalayıb iki yana,*
*Nə etmişəm qoymaq üçün onu qına?*
*Bir söz ilə, necə sevib öz ölkəmi*
*Tanıyıram mən ovcumun içi kimi?"*
*Düşündürsün bu suallar qoy hər kəsi,*
*Ovuc içi olsun vətən xəritəsi.*
*Görək onun hər kəndini, şəhərini,*
*Dünənini, bu gününü, səhərini.*
*Hər açanda ovcumuzu*
*Qoy buradan*
*Təbəssümlə baxsın bizə Azərbaycan!"*

"Atları yəhərləyin" filmində Nəbinin dilindən səslənən bu sözlər dillər əzbəridir, həm də Nəbinin həyat, mübarizə amalı, coğrafiyasıdır: "Arazın o tayı da, bu tayı da Vətəndir!"

Şuşaya həsr edilən şeirlərin başında gələn "Zümrüd tac" şeirində onu həm də ağıllı, hünərli Vətən qızına bənzədib belə deyir: "Nüşabə idraklı, Həcər təpərli".

Ruhu şad olsun Şəhidlərimizin, Şuşaya qovuşmaq həsrətillə dünyadan köçən hər kəsin, çünki:



## *Süleyman Rustəmin "Qaçaq Nəbi" mənzum dramından parçalar*



N ə b i
Zindansız dustağam öz vətənimdə,
Ağ gün həsrətilə yaram qan verir.
Yanır xanimanlar, çapılır ellər,
Əyri kefə baxır, doğru can verir.

Qazaq, razısanmı bu əməlindən?
Ayrılıb yuvandan, doğma elindən
Nə üçün gəlmisən bizim dağlara?
Sizin yerlər hara, bu yerlər hara?!

V a s i l i
Məni özünüzə bilməyin düşmən,
Qafqaza gəlmədim öz xoşumla mən.
Əsgərəm, əmrə xidmətin quluyam ancaq.
...Qoy deyim birbəbir öyrəndiyimi,

Təbriz hakiminə Tiflis hakimi
Haqqında yazıbdır belə bir fərman:
"Gərək təslim etsin Nəbini İran".
Burda Səlim bəyin bir dostu vardır,

Adı Paşa bəydir, qart canavardır.
Ona da yazıbdır sizin Səlim bəy,
"Nəbini tutmaqçın mənə et kömək".
Odur ki, bu saat Paşa bəy, divan
Səni axtarırlar, səni, Nəbi can...

N a ç a l n i k
Bir az açıq danış, nə istəyirsən?

N ə b i
Azadlıq, azadlıq, ancaq azadlıq!

# QAÇAQ NƏBİ

*Beş pərdəli, doqquz şəkilli tarixi dramatik poema*

İŞTİRAK EDƏNLƏR

| | |
|---|---|
| N ə b i | - xalq qəhrəmanı, 30 yaşında. |
| H ə c ə r | -onun arvadı, 24 yaşında. |
| A l ı k i ş i | - Nəbinin atası, 50 yaşında. |
| G ü l b a c ı | - Həcərin anası, 45 yaşında. |
| M e h d i | -Nəbinin qardaşı, 25 yaşında. |
| Ş a h M ə m m ə d | - Həcərin atası, 45-50 yaşında. |
| Ç i m n a z | - Hecərin yoldaşı, 20 yaşında. |
| Q u r d K ə r i m | - Nəbinin dəstəsinə soxulmuş satqın; 30 yaşında. |
| Q ə h r ə m a n | |
| T a p d ı q | |
| M ü r s ə l | -Nəbiyə qoşulmuş kəndlilər. |
| S ə f ə r k i ş i | |
| Vəli | |
| M u s a | - Təbriz kəndlisi, 40 yaşında. |
| Q a s ı m | - Təbriz kəndlisi, 35 yaşında. |
| G ü l l ü x a l a | - Musanın arvadı, 30 yaşında. |
| Q a z a q V a s i l i | - Nəbiyə qoşulmuş yoxsul gazaq, 35 yaşında. |
| T ə h m a s b ə y | - Qarabağ bəyi, 45 yaşında. |
| S ə l i m b ə y | - Təhmas bəyin oğlu, 25 yaşında. |
| C ü m ş ü d b ə y | - Qarabağ bəyi, 40 yaşında. |
| M a h m u d b ə y | - Qarabağ bəyi, 35 yaşında. |
| M ə m m ə d | - koxa, 40 yaşında. |
| X ə l i l | - tacir, 50 yaşında. |
| L e y l a | - Xəlilin arvadı, 35 yaşında. |
| S l a v ç i n s k i | - polkovnik, 50 yaşında. |
| C ə l i l | - strajnik, 35 yaşında. |
| F a t m a | - Mürsəlin arvadı, 40 yaşında. |

B ə y l ə r, s t r a j n i k l ə r, q a z a q l a r, k ə n d l i l ə r.

Hadisə 1890-95-ci illərdən bəhs edir.

N a ç a l n i k
Səninlə danışmaq artıqdır, artıq.
Qəbirdə görərsən azadlığı sən!

N ə b i
Ellərim görəcək, görməsəm də mən.

N a ç a l n i k
Ellərim, ellərim, ağlın hardadır?

Ellərim deyənlər zindanlardadır!
Nahaq salmayıblar səni zindana.
Padşahı saymayan bu qudurğana
Su, çörək verməyin, ölsün acından,
Sabah asılacaq dar ağacından!

N ə b i
Ölsəm də, oluram buna ümidvar:
Analar minlərcə nəbilər doğar.[139]




### *Məmməd Rahimin "Qaçaq Nəbi" poemasından "Epiloq"*



Dolandı həftələr, dolandı illər,
Nəbini görmədi bir də kəndlilər.
Deyirlər sevdiyim bu qəhrəmanı,
O ellər oğlunu, sadə insanı
Yatarkən Urmuda, yeriyib gecə,
Xəncərlə öldürüb qaçmış gizlicə.
Nəbinin qəlbinə xəlvət yol tapan
Bir alçaq yaramaz, bir xain insan.
Ölümündən tutub Nəbinin xəbər
Qatilin dalınca çapmış igidlər.
Tutub bir dərədə ağacdan asmış
(Qocalar deyirlər ki, qatil farsmış.)
Urmudan qayıdıb dönməmiş Həcər,
Qocalmış orada vəfalı dilbər.
Bir həqiqəti də sizə deyi mən
Qoç Nəbi dünyadan köçdüyü gündən

[139] http://anl.az/el/r/rs_se3.pdf, s.113, 135

Fikirdən əriyib ölmüş Bozat da
Belə hadisələr olur həyatda.
Onlar indi yatır qara torpaqda
Qoca da, cavan da, körpə uşaq da
Anır igidləri hissi-hörmətlə
Yurduma xas olan məhəbbətlə.
Nəbinin, Həcərin şöhrəti-şanı,
Çevrilib dastana gəzir dünyanı![140]

*Bəxtiyar Vahabzadə*
*Sən kimsən?!*



Babək söy köküylə bizdən deyilmiş,
Xətai islamı ikiyə bölmüş,
Fətəli Allahsız, Vaqif baz idi,
filankəs azacıq qumarbaz idi,
gecəli gündüzlü Hadi dəm idi,
O əyyaş, bu fərsiz, o bigam idi,
biri qərəzkardır, biri xəsisdir,
bu ondan yaxşıdır, o bundan
pisdir,
Natavan beləydi, Həcər eləydi,
böyüklər önündə o bir köləydi,
rəhmət demirik amma bir kərə,
milləti ucaldan rəhmətlilərə
bir deyən yoxmudur,
pəki SƏN KİMSƏN?!
Danış, bu Millətə nə gətirmisən?!
Sən böhtan atdığın bu böyüklərin,
yüzdə biri qədər nə iş görmüsən?!

[140] http://anl.az/el/m/mr_se2.pdf, s.13

## *Eldar Baxış*



“O qəhrəmanlar haqqında ən gözəl sözü, ən gözəl Şeiri Xalq yazıb, özü də elə sevgi, məhəbbətlə ki, kim nə qədər yaxşı yazsa da, Xalqın yazdığının kölgəsində qalacaq...”

Eldar Baxış “Nəbinin nağılı” poemasında Qaçaq Nəbi ilə balaca Nəbini həmsöhbət edir, qarşılaşdırır, uşaq və gənclərə şirin, rəvan şeir dilində

Nəbi dərsi danışır.




### *“Nəbinin nağılı” poemasından parça:*

Qaçaq Nəbi deyirdi,
Qulaq asırdı O da
Eşitmədiyi sözlər
eşidirdi dünyada.
Gecələr ulduzlanır,
gecələr aylanırdı...

İrana gedirdilər
Turana gedirdilər.
Qaçaqlar, qoçaqlar
ölüm bilmirdilər ki,
qorxu bilmirdilər ki,
yuxu bilmirdilər ki...

Varlıdan pay alıınıb
yoxsula paylanırdı.
Qaçaqlar gedirdilər
düz Gorusun qaşına.
Gen dünya dar olurdu
hampaların başına.
Biri dağdan düşürdü,
biri dikdən düşürdü.
Bəyin, xanın yerinə
gəlirdilər qaçaqlar,
Yeri qardaş malıtək
bölürdülər qaçaqlar.
Yaylağa gedirdilər
arana gedirdilər.

Qaçaq Nəbi çapırdı
öz köhlən Bozatında,
bizim
Nəbi çapırdı
xəyalın qanadında.
Çapır, qoy çapsın hələ,
iş ordan enəndədi:
yarısı bu gündədi
yarısı dünəndədi.
Dünəni çox anırdı
bu günü az anırdı
Nəbi hey böyüyürdü,
Nağıllar uzanırdı...

* * *

Bu da istedadlı şair, vətənsevər jurnalist, həm də facebook.com-da açılan “Nəbi Qağa” profil səhifəsi ilə xalq qəhrəmanımızın adını daim gündəmdə saxlayan **Asif Talıboğlu**nun populyar şeirlərindən bəndlərdir:



O hansı igiddir ləğəbi Qaçaq,
Yağılar gözünə iti bir bıçaq,
Adını demirəm, özün tap, ancaq,
O doğulan kənddə doğulmuşam mən!

Getdim kəndə yağa-yağa,
Molludaydı Nəbi qağa,
Həm Yuxarı, həm Aşağa –
Bu kənd bizim kəndimizdi ...

## *Əli-Ağa Aslan*
## *Götürməz*

Xalqımın qəhrəman qızı Həcər xanımın
ünvanına yalan, böhtan deyən,
yazan bəzi nadanlara



Çox gördük sizintək düzdə səkəni,
Üzəngi basanı, yüyən çəkəni.
Hər nadan söyləyən şəri, ləkəni,
Nigarım, Həcərim, Saram götürməz.

İman əldən gedir, pir əldən cıxır,
Xəbislik ürəkdən, kir əldən çıxır.
Xata da, əlac da bir əldən çıxır,
Ölsəm bu dərmanı yaram götürməz.

Razıyam, bir qəmər üz bölə məni,
İki şaqqa vura, düz bölə məni.
Bir qılınc doğraya, yüz bölə məni
Bu dərdi bir tikəm, param götürməz.

Bir sözdü deyirəm, saxla yadında,
Naqislik axtarmaz kişi qadında.
Bir su saflığı var Həcər adında,
Axdıqca durular, haram götürməz.

## *Şirin Məmmədli*
## *Qaçaq Nəbi (poemadan parça)*



Aynalı tüfəngi almış əlinə,
Düşməni salmışdı kəmənd fəndinə,
Özün bağlamışdı doğma elinə,
Xalqın igid oğlu – o Qaçaq Nəbi!

Doğulduğu kəndin adı da Mollu,
Boz at üzəngili həm də cilovlu,
Cavan yaşlarından odlu alovlu,
Haqq yolun tutmuşdu – o Qaçaq Nəbi!

Özündən hünərli vardı Həcəri,
Üstündə var idi Tanrı nəzəri,
Naxələf olandan gəldi əcəli,
Ölməyir yaşayır – o Qaçaq Nəbi!

Ona doğma idi qohum qardaşı,
Həcəri olmuşdu yaxın sirdaşı,
Boz at yaraşığı həm silahdaşı,
Yatmazdı gecələr qoç Qaçaq Nəbi!

Boz at bağlanmışdı sər tövləsində,
Sözü düz olmuşdu hər kəlməsində,
Düşmən yox olmuşdu gələn səsində,
Hamı çağırırdı, gəl Qaçaq Nəbi!

Gəzmişdi dağları o qarış-qarış,
Olmuşdu elinə gözəl yaraşıq,
Dastan söyləmişdi çox sayda aşıq,
Dillər əzbər idi – o Qaçaq Nəbi!

Yetimə-yesirə tutmuşdu əlin,
Sevirdi həmişə obasın, elin,
Qoçaq qaçağıydı Həcər bu elin,
Haqqın carçısıydı, qoç Qaçaq Nəbi!

Günəş tək parlayıb şölə saçırdı,
Sorağı gələndə namərd qaçırdı,
Aynalısı qazamatlar açırdı,
İmdada çatırdı, qoç Qaçaq Nəbi!

Şirin şeir yazır doğru olandan,
Uzaq olub xəbislikdən, yalandan,
Öyrənir tarixi düz olanlardan –
Vətənə şöhrətdir – o Qaçaq Nəbi!

***Hacı Nərimanoğlu***
***Qubadlıda qalıbdı***

Əlim çatmır, səsim yetmir dağlara
Canım, gözum Qubadlıda qalıbdı.
Səbr, dözüm daha çatmır dadıma
Ruhum, sözüm Qubadlıda qalıbdı.

Ağaçay, Həkəri, Bərşad ordadı
Səngər, Qala, Haçaqaya dardadı,
Həcər xanım! Qaçaq Nəbin hardadı?!
Ulu dağlar gözü yolda qalıbdı.

Siyasilər oyununda qaldıq mat
Bu məkrli gedişlərdə olduq mat
Alan namərd, satan bədzat
Ər oğullar əli yanda qalıbdı.

Yurddan ayrı düşən qərib, yesirdi
Dönə bilmir el yerinə, nə sirdi?!
On beş ildi Vətən orda əsirdi,
Qurtuluşu tək savaşa qalıbdı.



*Zəngəzurun nadir təbiət möcüzəsi – Kəpəz dağı*



*Qubadlı tarix-diyarşünaslıq muzeyi*




*Qaçaq Nəbi, Qaçaq Həcər yurdu Qubadlı, sən azadsan!*
*Qarabağ-Azərbaycandır!*






*Şəhidlər ölməz, Vətən bölünməz!*

# QAÇAQ NƏBİ VƏ QOÇAQ HƏCƏRƏ HƏSR EDİLMİŞ XALQ MAHNILARI, QOŞMA, GƏRAYLILARDAN SEÇMƏLƏR[141]

**Səməd Vurğun:** "Azərbaycan xalqı hələ ən qədim zamanlardan bəri öz azadlığı və istiqlaliyyəti uğrunda yalnız qılınc, ox, tüfənglə deyil, həm də nəğmələrlə silahlanmışdır. Xalqımızın düşüncəsində nəğmə həmişə müqəddəs silahı olmuşdur".

Qazamat istidi yata bilmirəm,
Düşmənim güclüdü, bata bilmirəm,
Ayaqda qandalaq qaça bilmirəm,
Mənim bu günümdə gələsən Nəbi,
Qazamat dalını dələsən Nəbi!




Qazamat istidi, ağrıyır başım,
Axır gecə-gündüz qanlı göz yaşım,
Olubdu daş, divar mənim sirdaşım,
Mənim bu günümdə gələsən Nəbi,
Qazamat dalını dələsən Nəbi!

Mən gələndə şamamalar gül idi,
Dörd yanımı atlı düşmən bürüdü,
Yazıq canım qazamatda çürüdü,
Mənim bu günümdə gələsən Nəbi,
Zalımlar əlindən alasan Nəbi!

Yorğanım ədyaldı, döşəyim həsir,
Nəçənnik gələndə ürəyim əsir,
Silistçi dindirir, prokror kəsir,
Mənim bu günümdə gələsən Nəbi,
Qazamat dalını dələsən Nəbi!

---

[141] Mənbə: https://az.wikisource.org/wiki/Qaçaq_Nəbi_dastanı

***

Nəbinin yolunu düşmən bağladı,
Həcər xanım yarım deyib ağladı,
Düşmən qazamatda məni saxladı,
Mənim bu günümdə gələsən Nəbi,
Qazamat dalını dələsən Nəbi!

Həcər xanım, sözün gəldi avaza,
Bir kimsə tapılmır dərdimi yaza,
Bir cüt iyidim qərq olubdu Araza,
Mənim bu günümdə gələsən Nəbi,
Qazamat dalını dələsən Nəbi!

Tellərim tökülüb, üzüm laladı,
Qaşlarım qaradı, gözüm aladı,
Yan-yörəm düşməndi, yerim qaladı,
Mənim bu günümdə gələsən Nəbi,
Düşmənin əlindən alasan Nəbi!

Döşəyim kərpicdi, yasdığım saman,
Yorğamm həsirdi, üşüdüm aman,
Hər tərəf hasardı, hər tərəf duman,
Mənim bu günümdə gələsən Nəbi,
Zalımlar əlindən alasan Nəbi!

Gorusun qaşında qopubdu sazaq,
Düzülüb qarovul, saldatlar, qazaq,
Nəçənnik qoymayır bir kağız yazaq,
Mənim bu günümdə gələsən Nəbi,
Yağılar əlindən alasan Nəbi!

Nəbinin birçəyi oyma-oymadı,
O Həcərdən, Həcər ondan doymadı,
Qırdı bəyi, xanı, birin qoymadı,
Deyirlər iyiddi hamıdan Nəbi,
Tüfəngi havada oynadan Nəbi!

Qaçaq Nəbi ilə Mehdi qardaşdı,
Onların məkanı qayadı, daşdı,
İyidlər içində hər zaman başdı,
Deyirlər iyiddi hamıdan Nəbi,
Tüfəngi havada oynadan Nəbi!

Nəbi mərd iyiddi, qoçaq oğlandı,
Dosta, yoldaşlara çox mehribandı,
Mənim bu canım da ona quıbandı,
Deyirlər iyiddi hamıdan Nəbi,
Tüfəngi havada oynadan Nəbi!

***

Nə düşübsüz fağır xalqm canına,
Rəhminiz gəlməyir axan qanına,
Mərd-mərdanə durub gəldim yanına,
Bacanrsan, indi özün tut məni!
Bəylər üçün anam doğub qurd məni!

Mərd oğluyam, bəydən, xandan qaçağam,
Düşmənin gözünə iti bıçağam,
Yoxsul üçün ipək kimi yumşağam,
Sizin üçün anam doğub sərt məni,
Bacarırsan, indi özün tut məni!

Gəl Nəbinin yaxşı bax sən boyuna,
Evini döndərər matəm toyuna,
Sizin kimi sürü-sürü qoyuna
Anam doğub iti dişli qurd məni!
Bacarırsan, indi özün tut məni!

Nəbinin gözləri aladı, ala,
Qoç Nəbi olubdu düşmənə bəla,
Nəbinin məskəni uca bir qala,

Qoy sənə desinlər ay Qaçaq Nəbi!
Həcəri özündən ay qoçaq Nəbi!

Dağların başları dumandı, duman,
Nəbidən çəkirlər zalımlar aman,
Qoç Koroğlu kimi Nəbi qəhrəman,
Qoy sənə desinlər ay Qaçaq Nəbi!
Həcəri özündən ay qoçaq Nəbi!

Nəbinin bığları eşmə-eşmədi,
Papağı güllədən deşmə-deşmədi,
Nəbinin atını heç at keçmədi,
Qoy sənə desinlər ay Qaçaq Nəbi!
Həcəri özündən ay qoçaq Nəbi!

Nəbinin qaşları qaradır, qara,
Düşmən ürəyinə vurubdu yara,
Bəyləri, xanları gətirib zara,
Qoy sənə desinlər ay Qaçaq Nəbi!
Həcəri özündən ay qoçaq Nəbi!

Gün çıxıbdı günortanın yerinə,
Həcər xanım qalxıb atın belinə,
Əşrəfi, mirvari düzüb telinə,
Qoy sənə desinlər ay Qaçaq Nəbi!
Həcəri özündən ay qoçaq Nəbi!

Gorusun qaşındə yıxılıb yatdım,
Ehtiyatı əldən kənara atdım,
Özüm xəcalətdən qan-tərə batdım,
Bozat, qurtar məni, aman günüdü!
Yoldaşların darda yaman günüdü!

Bozat, səni sər tövlədə bağlaram,
And içirəm, sənə məxmər çullaram,
Əgər məni bu davadan qurtarsan,
Qızıldan, gümüşdən səni nallaram,

Boz at, qurtar məni, aman günüdü!
Yoldaşların darda yaman günüdü!

Gümüşdən döydürrəm sənin nalını,
Gözəllərə hördürərəm yalını,
Sən gəl qoç Nəbinin pozma halını,
Bozat, qurtar məni, aman günüdü!
Yoldaşların darda qalan günüdü!

***

Dağıtdı Urmuda düşmənlər oba,
Qara yurdu görüm qalsın xaraba,
Qoç Nəbi gedibdi, qayıtmaz daha,
Darasın saçını tellər ağlasın!
Yerisin üstünə, ellər ağlasın!

Gözüm dəydi taxçadakı yehərə,
Dəydi ağır yara igid Həcərə,
Qanlı köynəyini verin Gözələ,
Darasın saçını tellər ağlasın!
Yerisin üstünə ellər ağlasın!

Qanlı yaş tökməyən gözlər olmasın,
Məclislər qurulub badə dolmasın,
Üstünə gəlməyən ellər qalmasın,
Darasın saçını tellər ağlasın!
Yerisin üstünə ellər ağlasın!

Qoç Nəbinin ellər alsın qanını,
Öldürsün bəyini, qırsın xanını,
Viran qoysun şahın xanimanını,
Darasın saçını tellər ağlasın!
Yerisin üstünə ellər ağlaşın!

Qan ağla, sən əziz ellərim mənim,
Gör necə solubdu güllərim mənim,

Tutulub, görməyir gözlərim mənim,
– Darasın saçmı tellər ağlasın!
Yerisin üstünə ellər ağlasın!

***

Çəkilib sinəmə balamın dağı,
Əridi, qalmadı ürəyim yağı,
Səni zəlil qal, ay namərd yağı,
Səsimi eşidib heç gəlmir Nəbim!
Anasını yada salmır heç Nəbim!

Ah çəkməkdən halım olubdu yaman,
Zalımlar əlindən dad-aman, aman,
Əldən getdi Nəbim, dəyişdi zaman,
Səsimi eşidib heç gəlmir Nəbim!
Anasını yada salmır heç Nəbim!

Bilməm kimə gedim mən şikayətə,
Yağı düşmən salıb məni zillətə,
Baş götürüb çıxım, gedim qürbətə,
Səsimi eşidib heç gəlmir Nəbim!
Anasını yada salmır heç Nəbim!

İyid canı qismət oldu torpağa,
Ürəyim dönübdü solmuş yarpağa,
Meydan oxuyarmış şirə qurbağa,
Səsimi eşidib heç gəlmir Nəbim!
Anasını yada salmır heç Nəbim!

Gecə-gündüz Nəbi deyə mələrəm,
Haqdan mən özümə ölüm dilərəm,
Dayanmaram sənsiz, mən də gedərəm,
Səsimi eşidib dedi: gəl, ana!
Sən həmişə məni yada sal, ana!

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Qaçaq Nəbi (1938). Toplayan Ə.H.Tahirov. Bakı: Azərbaycan sovet yazıçıları ittifaqının nəşriyyatı Qaçaq Nəbi (1960). Tərtib edən H.Qasımov. Bakı: Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı Qaçaq Nəbi (1983). Tərtib edən A.Nəbiyev. Bakı: Gənclik Qaçaq Nəbi (2001). Toplayan A.Nəbiyev. Bakı: Turan Qaçaq Nəbi (2009). Tərtib edən Ə.Axundov, yenidən işləyəni Ə.Cəfərov. Bakı: Çıraq Qaçaq Nəbi dastanı (1941). Tərtib edən Ə.Axundov. Bakı Qaçaq Nəbi dastanı (1961). Tərtib edən Ə.Axundov. Bakı: Azərbaycan Dövlət nəşriyyatı
2. Bəhlul Behcət, "Qaçaq Nəbinin tarixi" (vəsiqə və sənədlər üzrə)", Çıraq nəşriyyatı-2011, 296 səh.
3. AMEA Tarix İnstitutunun nəşri, "Qubadlı qədim Azərbaycan torpağı Zəngəzurun qapısı, Bakı-2013
4. \."Azerbaycan istiklal mücadelesi tarihi". İstanbul, 1975. https://www.edebi.net/index.php/kardes-edebiyatlar/azerbaycan-edebiyat/azerbaycan-cumhuriyeti/4892-huseyn-baykara-az-rbaycan-milli-istiqlal-mucadil-si)
5. Axundov Əhliman. Xatirələrim.Azərbaycan milli ensiklopediyası nəşriyyat-poliqrafiya birliyi, 2003, s.34-38 http://www.folklor.az/arasdirmalar/F.Bayat-Qachaq-Folkloru.pdf
6. Qaçaq Nəbinin kötücəsi: "Həcər ikinci dəfə ona görə ərə getdi ... https://kulis.az/news/37382
7. Şimşek, Esma. Kaçak Nebi Hikâyesi Üzerinde Bir Çalışma. Erzurum: Atatürk Üniversitesi Fen Edebiyat Fakültesi, 1986 (Lisans Bitirme Tezi).
8. Tahırov, E.H. Gaçag Nebi. Bakü: Azerbaycan Sovet Yazıçılar İttifakı, 1938.
9. Ahundov, Ehliman. Gaçag Nebi. Bakü: Azerbaycan Devlet Neşriyatı, 1961.
10. Gasımov, Hesen. Gaçag Nebi. Bakü: Azerbaycan Uşak ve Gencler Edebiyatı, 1960.
11. Makas, Zeynelabdin. "Gaçag Nebi'nin Türkiye Varyantı". Azerbaycan Türkçesine
12. Nebiyev, Azad. Gaçag Nebi. Bakü: Turan, 2001. və s.
13. Azərbaycan tarixi, II cild, səh. 9; Qasımov. Qafqazda qaçaqlara qarşı mübarizə.

htttp:folklor-az.arzublog/post/82346, dr.məhəmməd rza kərimi
14. Nərimanoğlu Hacı, QHT sədrindən ADP sədrinə cavab, https://zengezur.com/index.php/mzhallr/72-zhht-sdrindn-etiraz-hedz-olmasa-allahdan-fv-dilyin-ki-zhuenahnzdan-kedzsin-srdar-hkim
15. Nərimanoğlu Hacı , QHT sədrindən millət vəkilinə cavab, yaxud bir daha Qaçaq Nəbi, Qoçaq Həcər haqqında
16. Nərimanoğlu Hacı, Qaçaq Nəbi haqqında sərsəm uydurmaya cavab, https://sumqayitxeber.com/qht-sedrinden-millet-vekiline-cavab-yaxud-bir-daha-qacaq-nebi-qocaq-hecer-haqqinda/ http://zengezur.com/index.php/9-xbrlr/298-zha-azh-n-bi-hazhzh-nda-bir-yaz-ya-dzavab
17. Nərimanoğlu Hacı, “Elin bu günündə gələydin, Nəbi”, “Aydınlıq” qəzeti, 12 aprel 1988-ci il
18. Nərimanoğlu Hacı, “Yaddaş”, “Gənclik” jurnalı, may 1989-cu il
19. Nərimanoğlu Hacı, “Qubadlısız 16 il”, Elm və Təhsil, 2009 https://publika.az/projects/heyathekayesi/113532.html
20. file:///C:/Users/112/Downloads/QMMI_LIBRARY_603079_23-05-2017.pdf_1611512323.pdf
21. http://vetensesi.qmkdk.gov.az/news_content.php?id=1373
22. https://www.youtube.com/watch?v=r_rgba74aS0
23. https://www.youtube.com/watch?v=u1seWKwfw3o
24. https://www.youtube.com/watch?v=weOzrs81vU
25. Rüstəm Süleyman. Seçilmiş əsərləri. III cild. Bakı: Şərq-qərb, 2005,
26. Rahim Məmməd. Seçilmiş əsərləri. II cild, Bakı: Azərnəşr, 1988
27. Rəhimov Süleyman. Seçilmiş əsərləri. II cild, Bakı: Şərq-qərb, 2005
28. Savadov Cəlal. Boz Atın belində. Qaçaq Nəbi. Bakı: Gənclik, 1958
29. Kafkaz qəzeti, 11 iyun, 1885, No.181
30. Kafkaz qəzeti, 28 oktyabr, 1885, No.209
31. Кalaşev A., İoakimov A. “Taтarskiye teкstı. Pesni, zaqadki, poslovitsı”
32. SMOMPK. XVIII vıp., II otdel, Tiflis, 1894, s.29-31
33. Abbaslı İsrafil (2005). “Qaçaq Nəbi” dastanı və Bəhlul Bəhcətin “Qaçaq Nəbinin tarixi” araşdırması”, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVIII kitab. Bakı: Səda
34. Makas Zeynelabdin (1990). “Qaçaq Nəbinin Türkiyə varyantı”, Azərbaycan türkcəsinə çevirən: H.Sadıqov, Ədəbiyyat və İncəsənət, № 30 (2425)

35. Füzuli Bayat. Qaçaq folkloru sosial-iqtisadi və siyasi-mədəni kontekstdə. Elm və təhsil, 2019.
36. Yazar, S. (2018). Azerbaycan Kaçak Hikâyeleri. Türk Dünyası İncelemeleri Dergisi, 18 (2), 431-452. Retrieved from https://dergipark.org.tr/tr/pub/egetdid/issue/41811/478222
37. https://turuz.com/storage/Folklore/2014/278-_Folklor_Qachaq_ Nebi_Qasimzade_Turk_Ebced_Urmu_Turuz_2014.pdf
38. Süleyman Rüstəm Seçilmiş əsərləri, III cild, "Şərq-qərb", Bakı-2005, səh.19-162
39. http://www.araznews.ir
40. https://www.isna.ir/amp/tabriz-30574/
41. https://turuz.com/search?q=Qaçaq+Nəbi
42. Nərimanoğlu H. Xalq qəhrəmanı Qaçaq Nəbinin mübarizəsi tarixdə, elmi ədəbiyyatda və folklorda. AMEA Folklor İnstitutu, Beynəlxalq elmi konfransda məruzə, Materialları, s.418-423
43. Nərimanoğlu H. "Bəhlul Behcət və onun "Qaçaq Nəbinin tarixi" əsəri.
44. https://zengezur.com/index.php/mqallr/93-zngzurun-sonuncu-qazs-bhlul-behct-v-onun-qacaq-nbi-tarixi-kitab
45. http://www.folklor.az/konfrans_materiallari/folklor-tariximiz.pdf
46. Eldar Baxış, "Nəbi nağılı" poema, 1986
47. Hacı Nərimanoğlu, "Zəngəzur: 100 sual, 100 cavab", Bakı – 2019, 232 səh.
48. Nazir Əhmədli, "Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsviri", Elm və təhsil"-2021. 710 səh.
49. https://portal.azertag.az/az/node/376#.VDvLy2drIgg

**Azərbaycan Demokratik Respublikasının (1918-1920) və Azərbaycan Respublikasının uyğun inzibati-ərazi vahidləri**







GEORGIA
TIFLIS
CASPIAN
ARMENIA
ERIVAN
GANJA
BAKU
KARABAKH
SHUSHA
MUGHAN
SEA
TURKEY
ZANGEZUR
IRAN
Azerbaijan Democratic Republic
1918-1920
44°
46°
48°
50°


GEORGIA
ARMENIA
TURKEY
IRAN
CASPIAN
SEA
Derbend
Gori
Telavi
Borzhomi
Mskheta
Balaken
Yalama
Gasimkend
TIFLIS
Zagatala
Gakh
Khachmaz
Garayaz
Akhti
Gusar
Akhalkalaki
Shulaveri
Guba
Devechi
Agstafa
Nukha
Erdahan
Gazakh
Tovuz
Alexandropol
Dilijan
Shamkhor
Agdash
Goychay
Shamakhi
GANJA
Yevlakh
Ujar
Kurdemir
Sabunchu
Surakhani
Bilejeri
Puta
BAKU
Gars
Yeni-Beyazid
Terter
YEREVAN
Hajigabul
Elet
Kagizman
Echmiedzin
Basarkecher
Javad
Agdam
Alashkert
Igdir
Boyuk Vedi
Shusha
MUGAN
Salyan
Garabulag
Bash Norashen
Gorus
KARABAKH
ZANGEZUR
Jabrayil
Goytepe
Nakhchivan
Mehrin
Julfa
Eylis
Ordubad
Lankaran
Astara
MAP OF AZERBAIJAN REPUBLIC
COMPILED IN 1920
AT INFORMATION DEPARTMENT
OF FOREIGN AFFAIRS MINISTRY
FOR 'ADDRESS-CALENDAR
OF AZERBAIJAN REPUBLIC'.
Compiler: L.Gurnich.
Frontiers
Azerbaijan Republic
Georgian Republic
Turkey and Iran
Provinces and regions
Uyezds
Disputable territories with Armenia
Disputable territories with Georgia
Railways
Railways under construction
Railway stations
Cities and villages of provinces and uyezds

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 01.10.2021
Format: 60x90 1/16. Qarnitur: Times.
Həcmi: 13 ç.v. Tiraj: 300. Sifariş № 166.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

---

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44;
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az